# İNCİLDƏN GÖZƏL SÖZLƏR

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT

ÖN SÖZ:

MÜSƏLMANLARIN TÖVRAT VƏ İNCİLƏ BAXIŞ ASPEKTİ İLƏ ƏLAQƏDAR ƏHƏMİYYƏTLİ AÇIQLAMA

1-Cİ HİSSƏ: İNCİLDƏ ALLAH SEVGİSİ VƏ ALLAH RİZASINA UYĞUN SEVGİ ANLAYIŞI

2-Cİ HİSSƏ: İNCİLDƏ ALLAH QORXUSU

3-CÜ HİSSƏ: İNCİLDƏ ALLAHA TƏMİZ İMAN

- Şirk qoşmadan yalnız Allaha qulluq etmək
- Sadəcə Allahın rizasına görə yaşamaq
- Ataların batil adətinə-dininə uymamaq

4-CÜ HİSSƏ: İNCİLDƏ ALLAHIN BİRLİYİ

5-Cİ HİSSƏ: İNCİLDƏ ALLAHIN SİFƏTLƏRİ

- Allahın hər şeyin yaradıcısı olması
- Allahın əzəli və əbədi olması
- Allahın hər şeyi görən, eşidən və bilən olması
- Allahın hər şeyin daxilindən, gizli tərəflərindən xəbərdar olması
- Allahın sonsuz güc və qüdrət sahibi olması
- Allahın tək güc və iradə sahibi olması
- Allah təriflənməyə tək layiq olandır, Həmiddir
- Öldürən və dirildən Allahdır
- Allahın ruzi verən olması
- Allahın sevən, lütfkarlığı bol olan, mərhəmət edən olması
- Allahın qullarına nəzarət edən və qoruyan olması
- Allahın doğru yola yönəldən, mənəvi çirklərdən təmizləyən olması
- Allahın tövbələri qəbul edən, günahları bağışlayan olması
- Allahın hökm verənlərin ən xeyirlisi, sonsuz ədalət sahibi olması

**6-CI HİSSƏ: İNCİLDƏ AXİRƏTƏ İMAN**

- Yenidən dirilişə iman
- Hesab gününə iman
- Qiyamət gününə iman
- Cənnətə iman
- Cəhənnəmə iman

**7-Cİ HİSSƏ: İNCİLDƏ ZAMANSIZLIQ VƏ QƏDƏRƏ İMAN**

**8-Cİ HİSSƏ: İNCİLDƏ MƏLƏKLƏRƏ İMAN**

**9-CU HİSSƏ: İNCİLDƏ İMANIN ŞƏRTLƏRİ**

- Allaha şükür etmək
- Allaha təvvəkkül etmək
- Dua etmək
- Vicdana uymaq
- Allahın elçilərinə iman və itaət etmək
- Allahın əmrlərini bildirən müqəddəs kitablara iman və itaət

**10-CU HİSSƏ: İNCİLDƏ ALLAHA YAXINLIQ VƏ İMAN DƏRİNLİYİ**

- Allaha yaxınlıq, bağlılıq və səmimi iman
- İman coşğusu, şövqü və sevinci
- İmanın möhkəmliyi və dərinliyi
- Dərin düşünmək
- Allahın batin (gizli, görünməyən) elmi ilə bağlı izahlar
- Dünya həyatının keçiciliyi ilə bağlı izahlar

**11-Cİ HİSSƏ: İNCİLDƏ QURANA UYĞUN ƏMR VƏ QADAĞALAR**

- Cinayət işləməmək
- Oğurluq etməmək
- Zina və fahişəlik etməmək
- Homoseksuallığın və azğın əlaqələrin qadağan olması
- Yalan danışmamaq
- Hiylə etməmək
- Cadu kimi işlərlə məşğul olmamaq

- Qanın haram olması
- Boğularaq öldürülən heyvan ətinin qadağan olması
- Allahdan başqası adına kəsilən ətin yeyilməməsi
- Şərab içməmək

## 12-Cİ HİSSƏ: İNCİLDƏ QURANA UYĞUN DİGƏR ƏMİRLƏR

- Yaxşılığı əmr edib pislikdən çəkindirmək
- Fitnə çıxarmamaq
- Tövbə etmək
- İsraf etməmək
- Evlərə girildiyində öncə salam vermək
- Allah dilərsə (inşaAllah) demək
- İman edənlərin birlikdə olması
- Əmanəti əhlinə vermək
- Ədalətlə hökm etmək
- Pislikdən çəkinmək
- Yaxşılıq etmək
- Riya və göstərişdən çəkinmək
- Nəfsi təmizləmək, istəklərdən (nəfsin eqoist ehtiraslarından) çəkinmək
- Saleh əməllər görmək, xeyirlərdə yarışmaq
- Allahın əmrlərini tövsiyə edərkən eyni zamanda tətbiq etmək
- İman sahibi ana və ataya qarşı hörmətkar olmaq

## 13-CÜ HİSSƏ: İNCİLDƏ TÖVSİYƏ EDİLƏN GÖZƏL ƏXLAQ XÜSUSİYYƏTLƏRİ

- Təvazökar olmaq və qürurdan çəkinmək
- Səxavətli olmaq, xəsislikdən çəkinmək
- Allah rizası üçün diqqət və ayıqlıq halı
- Doğru və dürüst olmaq
- Şəfqətli və mərhəmətli olmaq
- Bağışlayıcı olmaq
- Mülayim olmaq
- Qəzəbi məğlub etmək
- Etibarlı olmaq
- Səbirli olmaq
- Qısqanclıqdan çəkinmək

- Sülhsevər olmaq
- Sədaqət sahibi olmaq
- Xeyirxah olmaq
- İncildə ağıl və hikmətə verilən əhəmiyyət

**14-CÜ HİSSƏ: İNCİLDƏ ALLAHI XATIRLAMAQ VƏ GÖZƏL SÖZ SÖYLƏMƏYİN ƏHƏMİYYƏTİ**

- Allahı xatırlamaq
- Pis sözdən çəkinmək, gözəl sözlü olmaq
- Mübahisə üslubundan çəkinmək
- Boş söz söyləməkdən çəkinmək
- Doğru söz söyləmək
- Allahın əmrlərini və haqq dini təbliğ etmək
- Dedi-qodudan çəkinmək

**15-Cİ HİSSƏ: İNCİLDƏ QURANA UYĞUN İBADƏTLƏR**

- Oruc tutmaq
- Zəkat-sədəqə ibadəti
- İncildə namaz
- İncildə ibadət vaxtları

**16-CI HİSSƏ: HZ. İSA (Ə.S)-IN BƏŞƏRİ XÜSUSİYYƏTLƏRİ VƏ ALLAHIN QULU OLMASI**

- Hz. İsa (ə.s) bir insandır
- Hz. İsa (ə.s)-ın doğumu, soyu, yaxınları
- Hz. İsa (ə.s)-ın uşaqlığı, elmi və fiziki cəhətdən inkişafı
- Hz. İsa (ə.s)-ın acması və yemək yeməsi
- Hz. İsa (ə.s)-ın yorulub istirahət etməsi, yatması
- Hz. İsa (ə.s)-ın digər insani xüsusiyyətlərindən nümunələr
- Hz. İsa (ə.s) Allahın quludur
- Hz. İsa (ə.s) Allahın göndərdiyi bir peyğəmbərdir
- Hz. İsa (ə.s)-ın Allahın verdiyi buyruqları yerinə yetirməsi
- Hz. İsa (ə.s)-ı danışdıran allahdır
- Hz. İsa (ə.s)-a hər şeyi verən Allahdır
- Hz. İsa (ə.s)-ın Allaha ibadət və dua etməsi

- Hz. İsa (ə.s)-ın imtahan olması

## 17-Cİ HİSSƏ: İNCİLDƏ İMTAHANIN SİRRİ VƏ İMAN EDƏNLƏRİN QARŞILAŞDIQLARI İMTAHANLAR

- İman edənlərin Allah yolunda canlarıyla və mallarıyla mübarizə aparmaları
- İnkarçıların, iman edənləri haqsız səbəblərlə həbsə atıb işgəncə vermələri
- İnkarçıların, iman edənləri sürgün etmək ya da öldürmək istəmələri
- İman edənlərə atılan böhtanlar və onlara edilən təzyiqlər
- İman edənlərlə lağ etmələri
- Xalqın iman edənlərdən uzaq durması
- İman edənlərin Allah yolunda sınaqlarla qarşılaşması
- İman edənlərin imtahanın sirrini bilmələri və Allah yolunda göstərdikləri cəsarət

## 18-Cİ HİSSƏ: İNCİLDƏ MÜNAFİQ XARAKTERİ

- Dini sadəcə zahirən yaşamaları, səmimi iman etməmələri
- Dini çətin göstərməyə çalışmaları
- Dinə bidətlər əlavə etmələri, təqvalı görünmək üçün halal-haram uydurmaları
- Gizli dinsiz olmaları
- Bilgi sahibi olduqları halda imanı qavramayan kəslər olmaları
- Qəlblərində olmayanı söyləmələri
- Nümayiş üçün ibadət etmələri
- Allah rizasını deyil, insanların razılığını güdmələri
- Başqalarına söylədiklərini özləri etməmələri
- Xarici görünüşlərinin aldadıcı olması
- Möminlər əleyhinə tələ qurmaları
- İnkarçılara xəbər daşımaq üçün möminlərin arasına qatılmaları
- Möminləri saxta dəlillərlə həbsə atdırmaq istəmələri
- Möminləri yurdlarından çıxarmaq, öldürmək istəmələri
- Möminlər əleyhinə əməkdaşlıq etmələri və onlara xəyanət etmələri
- Möminlərə qarşı kin və nifrət bəsləmələri
- Möminləri səhv axtarmaq qəsdiylə müşahidə etmələri və sınamaları
- Allah yolunda mübarizə aparmaqda bəhanələr gətirərək uzaqlaşmaları
- İnfaq etmək istəməmələri
- Möminlərə mənfəətlərini təmin etmək üçün yanaşmaları
- Mənfəət əldə edə bilmədiklərində mömin birliyindən ayrılmaları

- Ağılsız olmaları
- Təkəbbürlü və çirkin cəsarət sahibi olmaları
- Başqalarının imanına mane olmağa çalışmaları
- İmanı zəif olanları doğru yoldan azdırmağa çalışmaları
- Fitnə çıxarmaq üçün möminlərin arasına qatılmaları
- Cahillik həyatından tam olaraq qopmamaları
- Dünyada və axirətdə məhv olmaq və əzabla qarşılıq görmələri

**19-CU HİSSƏ: İNCİLDƏ YARADILIŞLA ƏLAQƏDAR İZAHLAR**

**20-Cİ HİSSƏ: QURAN VƏ İNCİLDƏKİ BƏNZƏR İFADƏLƏRDƏN BİR QİSMİ**

**ƏLAVƏ HİSSƏ: TƏKAMÜL YALANI**

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# İncildən gözəl sözlər

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin çökməsinə xüsusi bir yer ayrılmasının səbəbi bu nəzəriyyənin bütün dinə qarşı çıxan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 150 ildir bir çox insanın imanını itirməsinə ya da şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə bu nəzəriyyənin bir tələ olduğunu göstərmək çox əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlarımıza çatdırılması isə zəruridir. Bəzi oxucularımız, bəlkə də, bir kitabımızı oxuma imkanı tapa bilər. Buna görə hər kitabımızda bu mövzuya qısa da olsa bir hissə ayrılması uyğun hesab edilmişdir.

- İfadə edilməli olan bir başqa xüsus, bu kitabların məzmunu ilə əlaqədardır. Yazarın bütün kitablarında imani mövzular, Quran ayələri əsasında izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular, oxuyanın ağlında heç bir şübhə və ya sual işarəsi buraxmayacaq şəkildə açıqlanır.

- Bu izahat əsnasında istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların yeddidən yetmişə hər kəs tərəfindən rahat şəkildə başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat sayəsində, kitablar "bir nəfəsdə oxunan kitablar" deyiminə tam olaraq uyğun gəlir. Dini rədd etmə mövzusunda qəti bir rəftar sərgiləyən insanlar da, bu kitablarda izah edilən gerçəklərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar edə bilmirlər.

- Bu kitab və yazarın digər əsərləri, oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı bir söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzuyla əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmələri baxımından faydalı olacaq.

- Bununla yanaşı, sadəcə Allahın rizası üçün yazılmış olan bu kitabların tanınmasına və oxunmasına şərait yaratmaq da böyük bir xidmət olacaq. Çünki yazarın bütün kitablarında isbat və razı salıcı cəhət son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul, bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

- Kitabların arxasına yazarın digər əsərlərinin təqdimatlarının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Bunun sayəsində kitabı əlinə alan şəxs, yuxarıda danışdığımız xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsər olduğunu görəcək. İmani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

- Bu əsərlərdə, digər bəzi əsərlərdə görülən, yazarın şəxsi qənaətlərinə, şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəbə və hörmətə diqqət yetirilməyən üslublara, burxuntu verən ümidsiz, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# ÖN SÖZ

# MÜSƏLMANLARIN TÖVRAT VƏ İNCİLƏ BAXIŞ ASPEKTİ İLƏ ƏLAQƏDAR ƏHƏMİYYƏTLİ AÇIQLAMA

Allah Quranda müsəlmanların peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə və ondan əvvəl göndərilmiş bütün peyğəmbərlərə və bu peyğəmbərlərə endirilənlərə iman etdiklərini bildirir. Bəqərə surəsinin 4-cü ayəsində Rəbbimiz müsəlmanlar üçün; **"və onlar sənə endirilənə, səndən əvvəl endirilənlərə iman edərlər..."—**deyə buyurur.

Quranda bildirildiyi kimi İncil, Tövrat, Zəbur və hz. İbrahim (ə.s)-ın səhifələri keçmişdə yaşamış peyğəmbərlərə göndərilmiş kitablardır. Bu kitabların bir qismi yox olmuş, bir qismi də təhrif olmuş və ya dəyişdirilmişdir. Lakin içlərində haqq dinə aid bir çox doğru izaha da rast gəlinir. Müsəlmanlar bu kitabları Qurana və sünnəyə görə qiymətləndirib, ayələrə və hədislərə uyğun olan izahların doğru olduğuna hüsnü zənn edərlər. Buna görə Qurana uyğun, sünnəyə uyğun Tövrat və İncil izahları müsəlmanların istifadə edə biləcəkləri izahlardır. Ancaq əsas şərt bu izahların Quran ayələrinə və hədislərə uyğun olmalarıdır.

Allah bu kitabların göndərildikləri dövrdə insanlar üçün yol göstərici olduqlarını bildirmişdir. Ayələrdə belə buyurulur:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün... (Ali İmran surəsi, 3-4)**

Digər ayələrdə İncillə əlaqədar Rəbbimiz bu şəkildə bildirir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir. (Maidə surəsi, 46-47)**

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. Rahibliyi isə onlar özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir. (Hədid surəsi, 27)**

Oxuduğumuz bu kitabda da İncildə yer alan izahlardan pozulmuş qisimlər yazıya alınmamış, yalnız Qurana və Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə uyğun izahlardan istifadə edilmişdir.

# 1-Cİ HİSSƏ

# İNCİLDƏ ALLAH SEVGİSİ VƏ ALLAH RİZASINA UYĞUN SEVGİ ANLAYIŞI

Bir din alimi yaxınlaşıb ona, “Bütün buyruqların ən əhəmiyyətlisi hansıdır?” deyə soruşdu. İsa belə cavab verdi: “Ən əhəmiyyətlisi budur: **“Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbdir. Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sev. İnsanın Allahı bütün qəlbiylə, bütün zehniylə və bütün gücüylə sevməsi, qonşusunu da özü kimi sevməsi, bütün yandırılan nəzirlərdən və təqdim edilən qurbanlardan daha əhəmiyyətlidir”.** (Mark, 12:28-33)

Adam belə cavab verdi: **“Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla, bütün gücünlə və bütün ağlınla sev. Qonşunu da özün kimi sev”. (**Luka, 10:27)

İsa belə cavab verdi: “Ən əhəmiyyətlisi budur: “Dinlə, ey İsrail! Allahımız Rəbb tək Rəbdir. **Allahın Rəbbi bütün qəlbinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sevəcəksən”. İkincisi də budur: “Qonşunu özün kimi sevəcəksən”...** “ (Mark, 12:29-31)

**Sevgi Allahın buyruqlarına uyğun yaşamağımız deməkdir.** Başlanğıcdan bəri eşitdiyiniz kimi, Onun buyruğu sevgi yolunda yürümənizdir. (2 Yəhya, 1:6)

... **Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün anlayışınla sevəcəksən.** Məhz ilk və ən əhəmiyyətli buyruq budur. İlkinə bənzəyən ikinci buyruq da budur: **“Qonşunu özün kimi sevəcəksən”.** (Matta, 22:37-39)

**Hər şeydən əvvəl bir-birinizi səmimi qəlbdən sevin. Çünki sevgi bir çox pisliyi örtər.** (1 Peter, 4:8)

**Bir-birinizə qardaşlıq sevgisiylə bağlı olun.** Bir-birinizə hörmət göstərməkdə yarışın. (Romalılara, 12:10)

**Sevimli bacı-qardaşlarım, bir-birimizi sevək. Çünki sevgi Allahdandır. Sevən hər kəs... Allahı tanıyar.** Sevməyən insan Allahı tanımaz. Çünki Allah sevgidir... Sevimli bacı-qardaşlarım, Allah bizi bu qədər çox sevdiyinə görə biz də bir-birimizi sevməyə borcluyuq. (1 Yəhya, 4:7-11)

Duam budur ki, **sevginiz, bilgi və hər növ duyğuyla artdıqca artsın.** (Filipililərə, 1:9)

[Hz. İsa (ə.s):] Sizə [Allah rizası üçün] yeni bir buyruq verirəm: **“Bir-birinizi sevin. Sizi sevdiyim kimi siz də bir-birinizi sevin.** Bir-birinizə sevginiz olsa, hər kəs bununla mənim şagirdlərim olduğunuzu anlayacaq”. (Yəhya, 13:34-35)

**Sevgi səbirlidir, sevgi şəfqətlidir. Sevgi qısqanmaz, öyünməz, lovğalanmaz. Sevgi kobud davranmaz, öz mənfəətini axtarmaz, asanlıqla qəzəblənməz, pisliyin hesabını tutmaz. Sevgi haqsızlığa sevinməz, həqiqi olanla sevinər. Sevgi hər şeyə qatlanar, hər şeyə inanar, hər şeyə ümid edər, hər şeyə dözər. Sevgi [Allahın sevgisi] əsla sona çatmaz...** (1 Korinflilərə, 13:4-8)

**Amma Allahı sevəni Allah bilər.** (1 Korinflilərə, 8:3)

**Əgər sadəcə sizi sevənləri sevsəniz, nə mükafatınız olar?** Vergiyığanlar da belə etmirmi? Sadəcə qardaşlarınıza salam versəniz, artıq nə etmiş olarsınız?... (Matta, 5:46-47)

"Qonşunu sevəcəksən, düşməninə nifrət edəcəksən" deyildiyini eşitdiniz. **Amma mən sizə deyirəm ki, "düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin".** (Matta, 5:43-44)

**Məsih bizi necə sevdisə... Siz də eləcə sevgi yolu ilə gedin.** (Efeslilərə, 5:2)

Məni sevirsinizsə, [Allah rizası üçün] buyruqlarımı yerinə yetirərsiniz... Kim [Allah rizası üçün] buyruqlarımı bilir və yerinə yetirsə, məni sevən odur. **Məni sevəni Allah sevəcək. Mən də onu sevəcəyəm...** (Yəhya, 14:15, 21)

İsa ona bu qarşılığı verdi: **"Məni sevən sözümə əməl edər, Allah da onu sevər...** Məni sevməyən, sözlərimə qulaq asmaz. Eşitdiyiniz söz mənim deyil; məni göndərən Allahındır". (Yəhya, 14:23-24)

Sizə bu buyruğu verirəm: **"Bir-birinizi sevin!" (Yəhya, 15:17)**

Yazıldığı kimi, "Allahın Onu sevənlər üçün [axirət həyatında] hazırladıqlarını heç bir göz görmədi, heç bir qulaq eşitmədi, heç bir insan ürəyi qavramadı". (1 Korinflilərə, 2:9)

... **"Qonşunu özün kimi sevəcəksən".** (Qalatiyalılara, 5:14)

**[Hz. İsa (ə.s):] "Allahın məni sevdiyi kimi, mən də sizi sevdim. Mənim sevgimdə qalın.** Əgər [Allah rizası üçün] buyruqlarımı yerinə yetirsəniz, sevgimdə qalarsınız, eynilə mənim də Allahın buyruqlarını yerinə yetirdiyim və sevgisində qaldığım kimi... Bunları sizə, sevincim sizdə olsun və sevinciniz tamamlansın deyə söylədim. Mənim buyruğum budur: **Sizi sevdiyim kimi bir-birinizi sevin. Heç kimdə, insanın [Allah rizası üçün] dostları uğrunda canını verməsindən daha böyük bir sevgi yoxdur.** Sizə [Allah üçün] buyurduqlarımı etsəniz, mənim dostlarım olarsınız". (Yəhya, 15:9-14)

... **Bir-birimizi sevsək... [Allah] sevgisi içimizdə mükəmməlləşmiş olar.** (1 Yəhya, 4:12)

Ümid xəyal qırıqlığına uğratmaz. Çünki... **Allahın sevgisi ürəklərimizə dolmuşdur.** (Romalılara, 5:5)

**Allahın bizə olan sevgisini bildik və buna inandıq. Allah sevgidir. Sevgidə yaşayan Allahda [Allahın rizasına uyğun] yaşayar...** (1 Yəhya, 4:16)

**Elə isə, Allahın müqəddəs və sevimli seçilmişləri olaraq ürəkdən mehribanlığa, yaxşılığa, təvazökarlığa, səbirə, mülayimliyə bürünün.** Bir-birinizə anlayışlı davranın. Birinizin o birindən bir şikayəti varsa, Rəbbin sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. **Hər şeydən əvvəl... sevgiyə bürünün.** (Kolosselilərə, 3:12-14)

Bizsə sevirik, çünki əvvəl O [Allah] bizi sevdi. "Allahı sevirəm" deyib, qardaşından nifrət edən yalançıdır. Çünki gördüyü qardaşını sevməyən, görmədiyi Allahı sevə bilməz. **"Allahı sevən qardaşını da sevsin" deyən buyruğu Məsihdən aldıq.** (1 Yəhya, 4:19-21)

Daimi olan üç şey vardır: İman, ümid, sevgi... (1 Korinflilərə, 13:13)

İnsanların və mələklərin diliylə danışsam, amma sevgim olmasa, səs çıxaran misdən ya da çalınan zəngdən fərqim qalmaz... Bütün sirləri bilsəm, hər bilgiyə sahib olsam, amma sevgim olmasa, bir heçəm. Varımı, yoxumu sədəqə olaraq paylasam, bədənimi yandırılmağa təslim etsəm, amma sevgim olmasa, bunun mənə heç bir faydası olmaz. (1 Korinflilərə, 13:1-3)

İsa... "Həyata qovuşmaq istəyirsənsə, Onun [Allahın] buyruqlarını yerinə yetir". "Hansı buyruqları?" deyə soruşdu adam. İsa bu qarşılığı verdi: ""Adam öldürməyəcəksən, zina etməyəcəksən, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, ata-anana hörmət edəcəksən" və **"qonşunu özün kimi sevəcəksən."** (Matta, 19:17-19)

Gəncsən deyə kimsə səni kiçik hesab etməsin. Danışıqda, davranışda, **sevgidə**, imanda, paklıqda **imanlılara nümunə ol.** (1 Timoteyə, 4:12)

Qardaşlar, aranızda çalışanların, Rəbbi yolunda sizə rəhbərlik edib öyüd verənlərin dəyərini bilməyinizi xahiş edirik. Etdikləri işə görə onlara sərhədsiz hörmət, **sevgi göstərin**. Bir-birinizlə sülh içində yaşayın. (1 Saloniklilərə, 5:12-13)

Qardaşlar, sizin üçün hər zaman Allaha təşəkkür borcluyuq. Belə etməyimiz də lazımdır. **Çünki imanınız böyüdükcə böyüyür, hər birinizin o birisinə olan sevgisi artır**. Buna görə bizlər, qatlandığınız bütün zülm və çətinliklər qarşısındakı səbir və imanınızdan ötrü sizinlə öyünürük. (2 Saloniklilərə, 1:3-4)

Əgər sadəcə sizi sevənləri sevsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə özlərini sevənləri sevər. (Luka, 6:32)

Amma vay halınıza... Siz nanənin, sədokimilərin və hər növ tərəvəzin onluğunu verərsiniz də, ədalətə və Allah sevgisinə laqeydlik edərsiniz. Onluq verməyə laqeyd yanaşmadan əsas bunları yerinə yetirməniz lazım idi. (Luka, 11:42)

[Allah rizası üçün] Məsihin sevgisindən bizi kim ayıra bilər? Çətinlikmi, əzabmı, zülmmü, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? (Romalılara, 8:35)

Əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə hakimiyyət, nə indiki, nə gələcək zaman, nə güclər, nə yüksəklik, nə dərinlik, nə də yaradılmış başqa bir şey bizi... **Allah sevgisindən ayırmağa yetməyəcək.** (Romalılara, 8:38-39)

... "Hamımızın biliyi var" deyirsiniz, bunu bilirik. Bilik insanı lovğalandırar, sevgi isə **inkişaf etdirər**. (1 Korinflilərə, 8:1)

**Bir-birinizi sevməkdən başqa heç kimə borclu olmayın.** Çünki başqalarını sevən, Müqəddəs Qanunu [Allahın əmrlərini] yerinə yetirmiş olar. (Romalılara, 13:8)

Həqiqətə uymaqla özünüzü təmizlədiniz, **bacı-qardaşlar üçün səmimi bir sevgiyə sahib oldunuz. Onun üçün bir-birinizi səmimi olaraq ürəkdən sevin.** (1 Peter, 1:22)

Hər kəsə hörmət bəsləyin. **İmanlı qardaşlarınızı sevin, Allahdan qorxun...** (1 Peter, 2:17)

Nəticə olaraq hamınız eyni düşüncədə birləşin. Başqalarının duyğularını paylaşın. **Bir-birinizi qardaşca sevin.** Şəfqətli, təvazökar olun. (1 Peter, 3:8)

Başlanğıcdan bəri eşitdiyiniz buyruq budur: **Bir-birimizi sevək.** (1 Yəhya, 3:11)

Balalarım, sözlə və dillə deyil, hərəkətlə və səmimi olaraq sevək. (1 Yəhya, 3:18)

Onun [Allahın] buyruğu... **[Allahın elçisi] İsanın buyurduğu kimi bir-birimizi sevməyimizdir.** (1 Yəhya, 3:23)

Ona sevgiylə baxan İsa: "Bir əksiyin var"— dedi. "Get nəyin varsa sat, pulunu yoxsullara ver, beləcə cənnətdə xəzinən olar. Sonra gəl, məni izlə". (Mark, 10:21)

**Allahı sevmək Onun buyruqlarını yerinə yetirmək deməkdir.** Onun buyruqları da ağır deyil. (1 Yəhya, 5:3)

Amma dünyanın, Allahı sevdiyimi və Allahın mənə buyurduğu hər şeyi yerinə yetirdiyimi anlamasını istəyirəm. (Yəhya, 14:31)

[Hz. İsa (ə.s):] "... **məni sevdiyiniz... üçün Allahın Özü sizi sevir.**" (Yəhya, 16:27)

"Zina etməyəcəksən, adam öldürməyəcəksən, oğurlamayacaqsan, başqasının malına göz dikməyəcəksən" buyruqları və bundan başqa nə buyruq varsa, bu bir sözlə yekunlaşdırılmışdır: **"Qonşunu özün kimi sevəcəksən".** Sevən adam qonşusuna pislik etməz. Buna görə sevmək Müqəddəs Qanunu [Allahın əmrlərini] yerinə yetirməkdir. (Romalılara, 13:9-10)

... **Bütün müqəddəsləri [özünü Allaha həsr etmiş olanları] sevdiyinizi eşitdiyimdən bəri mən də sizin üçün həmişə şükür edir, sizi dualarımda həmişə xatırlayıram.** (Efeslilərə, 1:15-16)

**Allahın lütfü İsa Məsihi tükənməyən bir sevgiylə sevənlərin hamısıyla birlikdə olsun.** (Efeslilərə, 6:24)

Sizlər üçün dua edərkən Allaha... hər zaman şükür edirik. **Çünki Məsih İsaya iman etdiyinizi və bütün müqəddəsləri [özünü Allaha həsr etmişləri] sevdiyinizi eşitdik.** (Kolosselilərə, 1:3-4)

Qardaşlıq sevgisi mövzusunda kimsənin sizə bir şey yazmasına ehtiyac yoxdur. **Çünki Allah sizə bir-birinizi sevməyi öyrətdi.** Gerçəkdə bütün Makedoniyadakı bacı-qardaşların hamısını sevirsiniz. Qardaşlar, sizdən xahiş edirik, bu mövzuda daha da irəliləyin. (1 Saloniklilərə, 4:9-10)

**"Qonşunu özün kimi sevəcəksən" deyən Müqəddəs Yazıya uyaraq...** Allahın Qanununu həqiqətən yerinə yetirirsinizsə, yaxşı edirsiniz. (Yaqub, 2:8)

**Məsihi görməmiş olsanız da onu sevirsiniz.** İndi onu görmədiyiniz halda... sözlə izah edilməz uca bir sevinclə coşursunuz. (1 Peter, 1:8)

İndi səndən xahiş edirəm... **bir-birimizi sevək.** Bu sənə yazdığım yeni bir buyruq deyil, başlanğıcdan bəri qəbul etdiyimiz buyruqdur. (2 Yəhya, 1:5)

**Qardaş sevgisi daimi olsun.** Qonaqpərvər olmaqdan geri qalmayın... Çünki bunun sayəsində bəziləri bilmədən mələkləri qonaq etdilər. Həbsdə olanları, onlarla birlikdə həbs edilmiş kimi xatırlayın. Sizin də bir bədəniniz olduğunu düşünərək pis rəftar görənləri xatırlayın. (İbranilərə, 13:1-3)

**Rəbb bir-birinizə və bütün insanlara olan sevginizi, bizim sizə olan sevgimiz ölçüsündə çoxaldıb artırsın!** (1 Saloniklilərə, 3:12)

**Doğru olanı etməyən və qardaşını sevməyən insan Allahdan [Allahın razı olduğu qullardan] deyil.** Məhz Allahın qulları... belə ayırd edilər. (1 Yəhya, 3:10)

**Qardaşını sevən, işıqda [Allahın nuruyla] yaşayar və başqasının büdrəməsinə səbəb olmaz.** Amma qardaşından nifrət edən qaranlıqdadır; qaranlıqda gedər və hara getdiyini bilməz. Çünki qaranlıq, onun gözlərini kor etmişdir. (1 Yəhya, 2:10-11)

Çünki Allah bizə qorxaqlıq ruhu deyil, güc, **sevgi... ruhu vermişdir.** (2 Timoteyə, 1:7)

... Rəbbə tabe biri olaraq sənin üçün daha çox seviləcək bir qardaşdır. (Filimona, 1:16)

[Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: **Düşmənlərinizi sevin**, sizə nifrət edənlərə yaxşılıq edin, sizə lənət edənlər üçün yaxşılıq diləyin, sizi təhqir edənlər üçün dua edin". (Luka, 6:27-28)

Sevginiz ikiüzlü olmasın. Pislikdən iyrənin, yaxşılığa bağlanın. (Romalılara, 12:9)

# 2-Cİ HİSSƏ
# İNCİLDƏ ALLAH QORXUSU

Siz dostlarıma söyləyirəm, bədəni öldürən, amma ondan sonra başqa bir şey edə bilməyənlərdən qorxmayın. **Kimdən qorxmanız lazım olduğunu sizə açıqlayım: Birini öldürdükdən sonra cəhənnəmə atmağa qadir olan Allahdan qorxun. Bəli, sizə söyləyirəm, Ondan qorxun.** (Luka, 12:4-5)

... **Qürbəti xatırladan bu dünyadakı zamanınızı Allah qorxusunda keçirin.** (1 Peter, 1:17)

... Hər xalqa, hər soya, hər dilə, hər millətə yüksək səslə, "Allahdan qorxun, Onu ucaldın" deyirdi... (Vəhy, 14:6-7)

[Hz. İsa (ə.s):] "Bədəni öldürən, amma canı öldürə bilməyənlərdən qorxmayın. Canı da, bədəni də cəhənnəmdə məhvə uğrada bilən Allahdan qorxun." (Matta, 10:28)

Hər kəsə hörmət göstərin. İmanlı qardaşlarınızı sevin, Allahdan qorxun... (1 Peter, 2:17)

Çünki güclü olan [Allah], mənim üçün böyük işlər etdi. Onun adı müqəddəsdir. **Nəsillər boyunca Ondan qorxanlara mərhəmət edər.** (Luka, 1:49-50)

Dindar bir adam idi. Həm özü, həm də bütün ev xalqı Allahdan qorxardı. Xalqa çox kömək edər, Allaha həmişə dua edərdi. (Həvarilərin İşləri, 10:2)

**Rəbdən qorxmağın nə demək olduğunu bildiyimizdən insanları razı salmağa çalışırıq.** Nə olduğumuzu Allah bilir; ümid edirəm siz də vicdanınızda bilirsiniz. (2 Korinflilərə, 5:11)

Yüksək səslə belə deyirdi: "**Allahdan qorxun!** Onu ucaldın! Çünki Onun mühakimə etmə saatı gəldi. Göyü, yeri, dənizi, su çeşmələrini Yaradana qulluq edin!" (Vəhy, 14:7)

O zaman Peter söz alıb belə dedi: "Allahın insanlar arasında ayrı-seçkilik etmədiyini, amma Özündən qorxan və doğru olanı edən insanı, xalqına baxmadan qəbul etdiyini, həqiqətən anlayıram. (Həvarilərin İşləri, 10:34-35)

"Doğru və Allahdan qorxan, bütün yəhudi xalqı tərəfindən yaxşılığıyla tanınan... bir kapitan var" dedilər. (Həvarilərin İşləri, 10:22)

**Qardaşlar, İbrahimin soyundan gələnlər və Allahdan qorxan əcnəbilər, bu qurtuluş məlumatı bizə göndərildi.** (Həvarilərin İşləri, 13:26)

... Sənin qəzəbin üzərlərinə gəldi. Ölüləri mühakimə etmək, qulların olan peyğəmbərləri, müqəddəsləri, kiçik və ya böyük olsun Sənin adından qorxanları mükafatlandırmaq və yer üzünü məhv edənləri məhv etmək zamanı da gəldi. (Vəhy, 11:18)

Allah qulu Musanın və Quzunun [hz. İsa (ə.s)-ın] nəğməsini söyləyirdilər: "Hər şeyə gücü yetən, Rəbb Allah, Sənin işlərin böyük işlərdir. Ey xalqların hökmdarı, Sənin yolların doğru və ədalətlidir. **Ya Rəbb, Səndən kim qorxmaz,** Adını kim ucaltmaz? Çünki müqəddəs olan tək Sənsən. Bütün xalqlar gəlib Sənə qulluq edəcəklər. Çünki ədalətli işlərin açıqca göründü". (Vəhy, 15:3-4)

Sonra taxtdan bir səs yüksəldi: "Ey Allahın bütün qulları! **Kiçik böyük, Ondan qorxan hamınız, Onu öyün!**" (Vəhy, 19:5)

... Onu danladı. **“Səndə Allah qorxusu da yoxdur?” deyə cavab verdi...** (Luka, 23:40)

**Belə ki, Allahı məmnun edəcək şəkildə hörmət və qorxuyla ibadət edək.** (İbranilərə, 12:28)

# 3-CÜ HİSSƏ
# İNCİLDƏ ALLAHA TƏMİZ İMAN

## Şirk qoşmadan sadəcə Allaha qulluq etmək

İsa ona bu qarşılığı verdi: "**Allahın olan Rəbbə tapın, sadəcə Ona qulluq et**" deyə yazılmışdır". (Luka, 4:8)

İsa onlara bu qarşılığı verdi:... "**Allahın olan Rəbbə tapın, sadəcə Ona qulluq et**" deyə yazılmışdır. (Matta, 4:10)

... Sevimli qardaşlarım, bütpərəstlikdən çəkinin. (1 Korinflilərə, 10:14)

Hər kəs bizi nə qədər yaxşı qarşıladığınızı izah edib durur. **Yaşayan gerçək Allaha qulluq etməklə** bütlərdən Allaha necə döndüyünüzü izah edirlər. (1 Saloniklilərə, 1:9-10)

Ölümsüz Allahın ucalığı yerinə ölümlü insana, quşlara, dörd ayaqlılara, sürünənlərə bənzəyən bütləri istədilər [Allahı tənzih edirik]... Onlar Allahla bağlı gerçəyin yerinə yalanı qoydular. Yaradanın yerinə yaradılmışa tapınıb qulluq etdilər [Allahı tənzih edirik]. Halbuki Allah sonsuza qədər təriflənməyə layiqdir... (Romalılara, 1:23-25)

[Hz. İsa (ə.s):] "Heç bir uşaq iki ağaya qulluq edə bilməz... **Siz həm Allaha, həm pula qulluq edə bilməzsiniz** [Allahı tənzih edirik]." (Luka, 16:13)

... İçinizdəki "işıq" qaranlıqdırsa, nə qorxuncdur o qaranlıq! **Heç kim iki ağaya qulluq edə bilməz.** Ya birindən nifrət edib o birisini sevər, ya da birinə bağlanıb o birisini xor görər. **Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz.** (Matta, 6:23-24)

... **Hələ bütpərəst vərdişlərinin təsirində qalan bəziləri, yedikləri ətin bütə təqdim edildiyini düşünürlər.** Vicdanları zəif olduğu üçün ləkələnir. Yemək bizi Allaha yaxınlaşdırmaz. Yeməsək bir itkimiz olmaz, yesək də bir qazancımız olmaz. (1 Korinflilərə, 8:7-8)

**Bütpərəstlər qurbanlarını Allaha deyil, cinlərə təqdim edirlər.** Cinlərlə ortaq olmanızı istəmərəm. Həm Rəbbin, həm cinlərin kasasından içə bilməzsiniz; **həm Rəbbin, həm cinlərin süfrəsinə ortaq ola bilməzsiniz.** (1 Korinflilərə, 10:20-21)

Bütlərə təqdim edilən qurban ətinin yeyilməsinə gəlincə, bilirik ki, "Dünyada büt bir heçdir" və "**Birdən çox Allah yoxdur**". (1 Korinflilərə, 8:4)

Balalarım, özünüzü bütlərdən qoruyun. (1 Yəhya, 5:21)

Geriyə qalan insanlar, yəni bu bəlalardan ölməyənlər **öz əlləriylə hazırladıqları bütlərdən dönüb tövbə etmədilər**. Cinlərə və görə bilməyən, eşidə bilməyən, gəzə bilməyən qızıl, gümüş, tunc, daş, taxta bütlərə tapınmaqdan imtina etmədilər. (Vəhy, 9:20)

## Sadəcə Allahın rizasına görə yaşamaq

Nəticə olaraq, nə yeyib içsəniz, **hər şeyi Allahın ucalığı üçün edin**. (1 Korinflilərə, 10:31)

**Rəbdən miras mükafatını götürəcəyinizi bilərək, hər nə etsəniz, insanlar üçün deyil, Rəbb üçün səmimi olaraq edin...** (Kolosselilərə, 3:23-24)

**Günü qeyd edən, Rəbb üçün qeyd edər. Hər şeyi yeyən, Allaha şükür edərək bunu Rəbb üçün yeyər. Bəzi şeyləri yeməyən də Rəbb üçün yeməz və Allaha şükür edər.** Heç birimiz özümüz üçün yaşamırıq, heç birimiz də özümüz üçün ölmürük. **Yaşasaq, Rəbb üçün yaşayarıq; ölsək, Rəbb üçün ölərik.** (Romalılara, 14:6-8)

... **Allahı sevmək Onun buyruqlarını yerinə yetirmək deməkdir.** Onun buyruqları da ağır deyil... Bizə dünyaya qarşı zəfər qazandıran imanımızdır. (1 Yəhya, 5:2-4)

...**Allahın buyruqlarını yerinə yetirən**, İsaya imanlarını davam etdirən müqəddəslərin səbirini tələb edir. (Vəhy, 14:12)

**Rəbbə yaraşar şəkildə yaşamanız, Onu hər cəhətdən məmnun etməyiniz, hər yaxşı işdə meyvə verərək Allahı tanımaqda irəliləməniz üçün dua edirik.** (Kolosselilərə, 1:10)

**İman olmadan Allahı məmnun etmək qeyri-mümkündür.** Allaha yaxınlaşan, Onun var olduğuna və Onu axtaranları mükafatlandıracağına iman etməlidir. (İbranilərə, 11:6)

Beləcə, sarsılmaz bir suverenliyə qovuşduğumuz üçün minnətdar olaq. **Belə ki, Allahı məmnun edəcək şəkildə hörmət və qorxuyla qulluq edək.** (İbranilərə, 12:28)

**Haqsız yerə acı çəkən adam, Allahı dərk edərək acıya qatlansa, Allahı məmnun edər.** Çünki günah işləyib döyüldüyünüzdə buna qatlansanız, bunda tərifləncək nə var? **Amma yaxşılıq edib acı çəkdiyinizdə qatlansanız, Allahı məmnun edərsiniz.** (1 Peter, 2:19-20)

... **Hər kəs Rəbbin özü üçün təyin etdiyi vəziyyətə uyğun şəkildə, Allahdan aldığı çağırışa görə yaşasın.** Bunu bütün kilsələrə buyururam. (1 Korinflilərə, 7:17)

... **Ancaq Allahın istəyini yerinə yetirən [cənnətə] girəcək.** (Matta, 7:21)

**O hər şeyin qaynağıdır, bizlər Onun [Allah] üçün yaşayırıq. Tək Rəbb var...** Hər şey Onun vasitəsilə yaradıldı, biz də Onun vasitəsilə yaşayırıq. (1 Korinflilərə, 8:5-6)

... **Mənliyin [nəfsin] nəzarətində olanlar Allahı məmnun edə bilməzlər.** Necə ki, Allahın Ruhu içinizdə yaşayırsa, siz mənliyin [nəfsin] deyil, Allahın Ruhunun nəzarətindəsiniz. (Romalılara, 8:8-9)

Azad insanlar olaraq yaşayın, amma azadlığınızı pislik etmək üçün bəhanə etməyin. **Allahın qulları olaraq yaşayın.** (1 Peter, 2:16)

... Acı çəkən, günaha arxa çevirmişdir. Nəticə olaraq, dünyadakı həyatının geriyə qalan hissəsini artıq insan ehtiraslarına görə deyil, Allahın istəyinə görə davam etdirər. (1 Peter, 4:1-2)

... **Allahın istəyinə uyğun olaraq acı çəkənlər**, yaxşılıq edərək canlarını etibarlı Yaradana əmanət etsinlər... (1 Peter, 4:19)

[Hz. İsa (ə.s):] "Məni göndərən [Allah] mənimlədir, O məni tək buraxmadı. **Çünki mən hər zaman Onu [Allahı] məmnun edəni edərəm". (Yəhya, 8:29)**

**Bunu, sadəcə insanları məmnun etmək istəyənlər kimi gözə xoş görünmək üçün etməyin... Allahın istəyini səmimi olaraq yerinə yetirin.** (Efeslilərə, 6:6)

Dünya da, dünyəvi ehtiraslar da keçər, amma Allahın istəyini yerinə yetirən sonsuza qədər yaşayar. (1 Yəhya, 2:17)

... Allah tərəfindən Müjdəni [Allahın vəhyini] əmanət almağa layiq görüldüyümüz üçün, insanları deyil, ürəklərimizi sınayan Allahı məmnun edəcək şəkildə danışırıq. (1 Saloniklilərə, 2:4)

**Qardaşlar, necə yaşamanızı, Allahı necə məmnun etmək lazım olduğunu bizdən öyrəndiniz.** Necə ki, elə yaşayırsınız. Son olaraq bu mövzuda daha da irəliləməniz üçün... sizdən xahiş edirik... (1 Saloniklilərə, 4:1)

Məsihə bu yolda xidmət edən [hz. İsa (ə.s)-a Allah yolunda kömək edən], **Allahı məmnun edər,** insanların da rəğbətini qazanar. Elə isə özümüzü rifah gətirən və qarşılıqlı inkişafımızı təmin edən işlərə həsr edək. (Romalılara, 14:18-19)

Bunu sizin yaxşılığınız üçün söyləyirəm, azadlığınızı məhdudlaşdırmaq üçün deyil. **Diqqətinizi dağıtmadan, Rəbbə özünüzü həsr edərək, Ona yaraşan şəkildə yaşamağınızı istəyirəm.** (1 Korinflilərə, 7:35)

İsa, "Mənə niyə yaxşılıq haqqında sual verirsən?" dedi. "Yaxşı olan tək Biri [Allah] var. **Həyata qovuşmaq istəyirsənsə, Onun [Allahın] buyruqlarını yerinə yetir".** (Matta, 19:17)

Allahın, günahkarları dinləmədiyini bilirik. **Amma Allah, özünə qulluq edən və istəyini yerinə yetirən insanı dinləyər.** (Yəhya, 9:31)

**Çünki Allah Qatında təmizlənənlər Qanunu [Allahın əmrlərini] eşidənlər deyil, yerinə yetirənlərdir.** (Romalılara, 2:13)

... **Əhəmiyyətli olan, Allahın buyruqlarını yerinə yetirməkdir.** (1 Korinflilərə, 7:19)

Bunun üçün, istər bədəndə yaşayaq, istər bədəndən uzaq olaq, məqsədimiz Rəbbi məmnun etməkdir. (2 Korinflilərə, 5:9)

İndi mən insanların razılığınımı, Allahın razılığınımı axtarıram? Yoxsa insanlarımı məmnun etməyə çalışıram?... [Allahı tənzih edərik.] (Qalatiyalılara, 1:10)

Siz də beləcə, **sizə verilən buyruqların hamısını yerinə yetirdikdən sonra,** "Biz dəyərsiz qullarıq; yalnız etməli olduqlarımızı etdik" deyin. (Luka, 17:10)

Ey uşaqlar, hər mövzuda [iman sahibi] ana-atalarınızın sözünü dinləyin. **Çünki bu Rəbbi məmnun edər.** (Kolosselilərə, 3:20)

**Allahın istəyini kim yerinə yetirsə, qardaşım, bacım və anam odur.** (Mark, 3:35)

Hər şeydən əvvəl bunu nəsihət edərəm: Allah yoluna tam bir bağlılıq və ciddilik içində sakit və hüzurlu bir həyat sürək deyə, krallarla bütün yüksək rəhbərlər daxil, bütün insanlar üçün [Allaha] diləklər, dualar, yalvarışlar və şükürlər təqdim edilsin. **Belə etmək yaxşıdır və Allahı məmnun edər.** (1 Timoteyə, 2:1-3)

Amma dul qadının uşaqları ya da nəvələri varsa, bunlar əvvəlcə öz ev xalqına kömək edərək Allah yolunda yürüməyi və böyüklərinə yaxşılıq borcunu ödəməyi öyrənsinlər. **Çünki bu Allahı məmnun edər.** (1 Timoteyə, 5:4)

İsa onlara, "Mənim təhsilim mənim deyil, məni Göndərənindir [Allahındır]" deyə cavab verdi. "Əgər kimsə Allahın istəyini yerinə yetirmək istəyirsə, bu təlimin Allahdanmı olduğunu, yoxsa özümdənmi danışdığımı biləcək. Özbaşına danışan özünü ucaltmaq istəyər, **amma onu Göndərəni [Allahı] ucaltmaq istəyən doğrudur..."** (Yəhya, 7:16-18)

Sevimli qardaşlarım, ürəyimiz bizi günahlandırmazsa, Allahın qarşısında etibarımız olar, Ondan [Allahdan] nə diləsək alarıq. **Çünki Onun buyruqlarını yerinə yetirir, Onu məmnun edən şeyləri edirik.** (1 Yəhya, 3:21-22)

**Çünki Onu məmnun edəni həm istəməniz, həm də etməniz üçün sizdə təsir sahibi olan Allahdır.** (Filipililərə, 2:13)

**Allahın buyruqlarını yerinə yetirən Allahda yaşayar [Allaha yaxın yaşayar], Allah da o insanda yaşayar [Allahın rəhmətini üzərində hiss edərək yaşayar].** (1 Yəhya, 3:24)

İsa, "Mənim yeməyim**, məni göndərənin [Allahın] istəyini yerinə yetirmək və Onun işini tamamlamaqdır [Allahın əmrlərinin tətbiq olunmasını təmin etməkdir.]"** dedi. (Yəhya, 4 :34)

[Hz. İsa (ə.s)] ... **öz istəyimi deyil, məni Göndərənin [Allahın] istəyini yerinə yetirmək üçün gəldim.** (Yəhya, 6:38)

## Ataların batil adətinə-dininə uymamaq

Bununla belə... **İsaya gəlib, "Şagirdlərin niyə atalarının adətini tapdalayır?" dedilər... İsa onlara bu qarşılığı verdi: "Bəs siz, niyə adətlərinizə görə Allahın buyruğunu tapdalayırsınız?"** (Matta, 15:1-3)

... İsadan soruşdular: **"Şagirdlərin niyə atalarının adətinə zidd davranır?..." İsa onları belə cavabladı: "... Siz Allahın əmrini buraxıb insanların adətini tutursunuz".** İsa onlara ayrıca bunu söylədi: **"İnsanların adətinə uymaq üçün Allahın əmrini rədd edirsiniz".** (Mark, 7:5-9)

# 4-CÜ HİSSƏ
# İNCİLDƏ ALLAHIN BİRLİYİ

Onların müzakirələrini dinləyən və İsanın onlara gözəl cavab verdiyini görən bir din alimi yaxınlaşıb ona: "Buyruqların ən əhəmiyyətlisi hansıdır?"—deyə soruşdu. İsa belə cavab verdi: "[Allahın buyruqlarının] ən əhəmiyyətlisi budur: "Dinlə, ey İsrail! **Allahımız Rəbb tək Rəbdir...** Din alimi İsaya, "Yaxşı söylədin, müəllimim" dedi. "Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğrunu söylədin." (Mark, 12:28-32)

... **Allah birdir.** (Qalatiyalılara, 3:20)

... **Rəbb birdir.** Müxtəlif fəaliyyətlər vardır, amma hər kəsdə hamısını təsirli edən eyni Allahdır. (1 Korinflilərə, 12:5-6)

**Tək bir Allah vardır...** (1 Timoteyə, 2:5)

İsa ona belə cavab verdi: "... **Allahın Rəbbə tapınacaq, yalnız Ona qulluq edəcəksən"** deyə yazılmışdır. (Matta, 4:10)

**Xilaskarımız Tək Allaha ucalıq olsun...** (Yəhuda, 1:24)

**Sən Allahın bir olduğuna inanırsan, yaxşı edirsən.** Cinlər belə buna inanır və [Allah qorxusuyla] titrəyirlər! (Yaqub, 2:19)

Sonsuz çağların Hökmranı, ölümsüz, gözə görünməz tək Allaha çağlar çağı qürur və ucalıq olsun. (1 Timoteyə, 1:17)

Bir-birinizi ucaldan və tək olan Allahdan gələn ucalığı axtarmayan sizlər, mənə necə iman edə bilərsiniz? (Yəhya, 5:44)

İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ona: "Yaxşı müəllimim, sonsuz həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa ona, "... **yaxşı olan tək biri var, O da Allahdır." (**Mark, 10:17-18)

... Bilirik ki, büt dünyada həqiqətdə mövcud olmayan bir şeydir və birdən çox ilah yoxdur... **Bizim üçün tək Allah vardır: Hər şeyin Ondan meydana gəldiyi Allah.** Bizlər də Onun üçün yaşayırıq... (1 Korinflilərə, 8:4-6)

... **Bir tək Allahınız var...** (Matta, 23:9)

İsa, "Mənə niyə yaxşılıq haqqında sual verirsən?" dedi. **"Yaxşı olan tək biri var.** Həyata qovuşmaq istəyirsənsə, **Onun [Allahın] buyruqlarını yerinə yetir".** (Matta, 19:17)

Yerdə ya da göydə ilah deyə adlandırılanlar varsa da... [Allahı tənzih edərik] **bizim üçün tək bir Allah vardır.** O hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq. (1 Korinflilərə, 8:5)

... **Rəbb bir, iman bir...** Hər şeydən üstün, hər şeylə və hər şeydə olan hər kəsin Allahı... **birdir.** (Efeslilərə, 4:4-6)

Hər evin bir yaradıcısı vardır, hər şeyin yaradıcısı isə Allahdır. (İbranilərə, 3:4)

# 5-Cİ HİSSƏ
# İNCİLDƏ ALLAHIN SİFƏTLƏRİ

## Allahın hər şeyin yaradıcısı olması

... Birlikdə Allaha belə səsləndilər: “Ey Əfəndimiz! **Yeri göyü, dənizi və onların içindəkilərin hamısını yaradan Sənsən”. (Həvarilərin İşləri, 4:24)**

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah...** (Həvarilərin İşləri, 17:24)

Hər evin bir yaradıcısı vardır, halbuki **hər şeyin yaradanı Allahdır**. (İbranilərə, 3:4)

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah... Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özü olduğuna görə... Allah, bütün xalqları tək insandan yaratdı və onları yer üzünün hər tərəfinə yerləşdirdi**. (Həvarilərin İşləri, 17:24-25)

... Sizi bu boş şeylərdən imtina etməyə, **göyü, yeri, dənizi və bunların içindəkilərin hamısını yaradan... Allaha dönməyə çağırırıq...** [Allah] sizə lütf edir. Göydən yağış yağdırır, müxtəlif məhsullarıyla mövsümləri təşkil edir, sizi yeməklə doyurub ürəklərinizi sevinclə doldurur. (Həvarilərin İşləri, 14:15-17)

Allahdan qorxun! Onu ucaldın! Çünki Onun mühakimə etmə saatı gəldi. **Göyü, yeri, dənizi və su mənbələrini Yaradana qulluq edin!** (Vəhy, 14:7)

Yenə deyir ki, **“Ya Rəbb, başlanğıcda yerin təməllərini Sən atdın.** Göylər də Sənin əllərinin əsəridir.” [Allahın hər şeyi yoxdan var etdiyi, hər şeyi yaradanın Allah olduğu təşbeh edilərək izah edilmişdir.] (İbranilərə, 1:10)

**Hər şeyin qaynağı Odur; hər şey Onunla və Onun üçün var oldu.** Sonsuza qədər Ona ucalıq olsun. Amin. (Romalılara 11:36)

... Biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üzrə... yaradıldıq. (Efeslilərə, 2:10)

O... **bizi, Öz istəyinə uyğun olaraq... həyata qovuşdurdu.** (Yaqub, 1:18)

... Belə deyirlər: “Rəbbimiz və Allahımız! Ucalığı, hörməti, gücü almağa layiqsən. **Çünki hər şeyi Sən yaratdın; hamısı Sənin istəyinlə yaradılıb var oldu” (Vəhy, 4:9-11)**

... **Yerdə və göydə, görünən və görünməyən hər şey -taxtlar, hakimiyyətlər, rəhbərliklər, hökmranlıqlar- Onda yaradıldı. Hər şey Onun tərəfindən və Onun üçün yaradıldı.** Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam etdirir. (Kolosselilərə, 1:16-17)

**O [Allah] hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq. Tək bir Rəbb var... Hər şey Onun tərəfindən yaradıldı, biz də Onun diləməsiylə yaşayırıq.** (1 Korinflilərə, 8:6)

## Allahın əzəli və əbədi olması

**Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam edir.** (Kolosselilərə, 1:17)

**Ölümsüzlük yalnız Ona [Allaha] aiddir...** Onu nə görən olmuşdur, nə də kimsə görə bilər... (1 Timoteyə, 6:16)

**Qürur və ucalıq sonsuzlara qədər ölümsüz, görünməz tək Allahın olsun...** (1 Timoteyə, 1:17)

... **Başlanğıcdan bəri mövcud olanı [Allahı] tanıyırsınız.** (1 Yəhya, 2:14)

Gerçək... **[Haqq olan Allah] sonsuza qədər bizimlə olacaq.** (2 Yəhya, 1:2)

... İyirmi dörd qoca üzü üstə yerə əyildi. Allaha tapınaraq belə dedilər: **"Hər şeyə gücü çatan, [hər zaman] mövcud olan, var olan Rəbb Allah!** Sənə şükür edirik..." (Vəhy, 11:16-17)

... Gecə gündüz dincəlmədən belə deyirlər: "Müqəddəs, müqəddəs, müqəddəsdir, **Hər şeyə gücü çatan Rəbb Allah, [hər zaman] var olmuş, var olan və gələcəkdə də var olacaq olan." (Vəhy, 4:8)**

Hər şeyin qaynağı Odur [Allahdır]; hər şey Onun tərəfindən və Onun üçün yarandı. **Sonsuza qədər Ona ucalıq olsun.** (Romalılara, 11:36)

**Ölümsüz Allahın ucalığı...** (Romalılara, 1:23)

## Allahın hər şeyi görən, eşidən və bilən olması

Siz onlara bənzəməyin! **Çünki Allahınız nələrə ehtiyac duyduğunuzu siz daha Ondan diləmədən əvvəl bilər. (Matta, 6:8)**

**Allahın görmədiyi heç bir varlıq yoxdur. Özünə hesab verəcəyimiz Allahın gözləri qarşısında hər şey çılpaq və açıqdır.** (İbranilərə, 4:13)

**Harada iki ya da üç nəfər Mənim adımla toplansa, Mən də orada onların arasındayam.** (Matta, 18:20)

Beş sərçə iki qara pula satılmırmı? **Amma bunların biri belə Allah Qatında unudulmur. Necə ki, başınızdakı saçlar belə tək-tək sailıdır...** (Luka, 12:6-7)

İnsanların şahidliyini qəbul edirik, halbuki Allahın şahidliyi ən üstündür. (1 Yəhya, 5:9)

**O günü və saatı [qiyamət günü və saatını], nə göydəki mələklər nə də elçi bilər; Allahdan başqa kimsə bilməz.** (Matta, 24:36)

Allahın zənginliyi, müdrikliyi və məlumatı nə dərindir!... (Romalılara, 11:33)

## Allahın hər şeyin daxilindən, gizli tərəflərindən xəbərdar olması

... **O [Allah], qaranlığın gizlədiklərini aydınlığa çıxaracaq, ürəklərdəki niyyətləri aşkar edəcək.** O zaman hər kəs Allahdan payına düşən tərifi alacaq. (1 Korinflilərə, 4:5)

**[Allah Qatında] Müəyyən olmayacaq gizli heç bir şey yoxdur, bilinməyəcək və aydınlığa çıxmayacaq gizli bir şey yoxdur. (Luka, 8:17)**

Allahın sözü diri və təsirlidir... Canla ruhu, iliklə oynaqları bir-birindən ayıracaq qədər dərinlərə işləyər; **ürəyin düşüncələrini və məqsədlərini mühakimə edər.** (İbranilərə, 4:12)

O da onlara belə dedi: "Siz insanlar qarşısında özünüzü təmizə çıxarırsınız, amma Allah ürəyinizi bilir. İnsanların qürurlandıqları nə varsa, Allah bəyənməz." (Luka, 16:15)

Amma siz dua edəcəyiniz zaman otağınıza çəkilib qapını örtün və gizlidə olan Allaha dua edin. **Gizlilik içində ediləni görən Allah sizi mükafatlandıracaq.** (Matta, 6:6)

## Allahın sonsuz güc və qüdrət sahibi olması

İsa onlara baxaraq, "İnsanlar üçün bu qeyri-mümkündür, amma Allah üçün hər şey mümkün" dedi. (Matta, 19:26)

... **O, hər şeyin üzərində hökm sürən, sonsuza qədər təriflənəcək Allahdır.** (Romalılara, 9:5)

İki sərçə bir qara pula satılmırmı? **Amma Allahın icazəsi olmadan bunlardan biri belə yerə düşməz.** (Matta, 10:29)

... Hökmranlıq, güc və ucalıq sonsuzlara qədər Sənindir!... (Matta, 6:13)

... **Gücü hər şeyə çatan Rəbb Allah, sənin işlərin böyük və heyrətlənəcək işlərdir... (Vəhy, 15:3)**

...**Qurtuluş, ucalıq və güc Allahımıza aiddir.** Çünki Onun mühakimələri doğru və ədalətlidir... Çünki gücü hər şeyə çatan Rəbb Allahımız hökmranlıq edir. (Vəhy, 19:1-6)

**Hər şeyi Öz istəyi istiqamətində təşkil edən Allahın məqsədinə uyğun olaraq əvvəldən təyin olunub...** seçildik. (Efeslilərə, 1:11)

**Allahın edə bilməyəcəyi heç bir şey yoxdur. (Luka, 1:37)**

... **Allahdan [Allaha aid] olmayan rəhbərlik yoxdur. Var olanları Allah qurmuşdur.** (Romalılara, 13:1)

... Rəbb belə deyir: **"Varlığım haqqı üçün hər diz önümdə çökəcək və hər dil Allah olduğumu açıqca söyləyəcək." (Romalılara, 14:11)**

**Mübarək və tək Hökmdar...** ölümsüzlüyün tək sahibi... heç bir insanın görmədiyi və görə bilməyəcəyi Allah, Məsihi təyin olunan zamanda ortaya çıxaracaq. **Qürur və qüdrət sonsuza qədər Onun [Allahın] olsun.** (1 Timoteyə, 6:15-16)

Allahın qulu Musanın nəğməsini və Quzunun nəğməsini oxuyaraq söyləyirdilər: "Hər şeyə **gücü çatan Rəbb Allah Sənin işlərin böyük və möcüzəvi işlərdir.** Ey xalqların Hökmdarı, Sənin yolların doğru və ədalətlidir. Ya Rəbb, Səndən kim qorxmaz, adını kim ucaltmaz? Çünki müqəddəs olan tək Sənsən. Bütün xalqlar gəlib Sənə qulluq edəcəklər..." (Vəhy, 15:3-4)

**Hər şeyin qaynağı Odur; hər şey Onun tərəfindən və Onun üçün var oldu. Sonsuza qədər Ona ucalıq olsun.** (Romalılara, 11:36)

Allah bizdə təsirli olan qüdrətiylə, **dilədiyimiz ya da düşündüyümüz hər şeydən daha çoxunu edə biləcək gücdədir.** (Efeslilərə, 3:20)

... **Hər şey Allahdandır.** (1 Korinflilərə, 11:12)

## Allahın tək güc və iradə sahibi olması

**Əgər özünə... [Allahdan] verilməzsə, heç kim özbaşına bir şey ala bilməz.** (Yəhya, 3:27)

... **İsa, Rəbbin gücü sayəsində xəstələri yaxşılaşdırırdı.** (Luka, 5:17)

İsa onlara, "Hər kəs bu sözü qəbul edə bilməz, **ancaq Allahın güc verdiyi kəslər** qəbul edə bilər" dedi. (Matta, 19:11)

İki sərçə bir qara pula satılmırmı? **Amma Allahın icazəsi olmadan bunlardan biri belə yerə düşməz.** (Matta, 10:29)

İman yoluyla, lütflə xilas oldunuz. **Bu sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir.** Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. **Çünki biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üçün... yaradıldıq.** (Efeslilərə, 2:8-10)

Dinləyin indi, "Bu gün, ya da sabah filan şəhərə gedəcəyik, orada bir il qalıb ticarət edəcəyik və pul qazanacağıq" deyən sizlər, sabah nə olacağını bilmirsiniz. Həyatınız nədir ki? Qısa bir müddət görünən və sonra itən buxar kimisiniz. **Bunun yerinə, "Rəbb dilərsə yaşayacağıq, bunu onu edəcəyik" deməlisiniz.** (Yaqub, 4:13-15)

**Çünki Güclü Olan [Allah], mənim üçün böyük işlər etdi.** Onun adı müqəddəsdir. (Luka, 1:49)

... Göydən çörəyi Musa vermədi. **Sizə göydən gerçək çörəyi verən Rəbbimdir.** (Yəhya, 6:32)

**Çünki "Yer üzü və içindəki hər şey Rəbbindir." (**1 Korinflilərə, 10:26)

**"Bu səbəblə məhsulun sahibi Rəbbə yalvarın,** məhsulunu qaldıracaq işçilər göndərsin." (Matta, 9:38)

Sizləri məhkəməyə verdikləri zaman, nəyi necə söyləyəcəyinizi düşünərək narahat olmayın. Nə söyləyəcəyiniz o anda sizə bildiriləcək. **Çünki danışan siz olmayacaqsınız, Rəbbinizin Ruhu sizin vasitəçiliyinizlə danışacaq.** (Matta, 10:19-20)

**Tək xilaskarımız Allah, sizi düşməkdən saxlayacaq, Öz uca hüzuruna böyük sevinc içində ləkəsiz olaraq çıxaracaq gücdədir...** (Yəhuda, 24-25)

Halbuki tək Qanun qoyan, tək Hakim vardır; **xilas etməyə də, məhv etməyə də gücü çatan Odur [Allahdır].** (Yaqub, 4:12)

Əhəmiyyətli olan, əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır... (1 Korinflilərə, 3:7)

Hər hansı bir şeyi öz müvəffəqiyyətimiz olaraq saymağa yetərliyik demək istəmirəm; **bizi yetərli edən Allahdır.** (2 Korinflilərə, 3:5)

## Allah tərifiənməyə tək layiq olandır, Həmiddir

... **Allahı tərifləyərək, "Ən ucalarda Allaha ucalıq olsun**, yer üzündə Onun məmnun qaldığı insanlara sağlamlıq olsun!" dedilər. (Luka, 2:13-14)

... O hər şeyin üzərində hökm verən, **sonsuza qədər təriflənəcək Allahdır! Amin.** (Romalılara, 9:5)

**Halbuki Allah sonsuza qədər təriflənməyə layiqdir! Amin.** (Romalılara, 1:25)

Çobanlar, eşidib gördüklərinin hamısı üçün Allahı ucaldıb tərifləyərək geri döndülər. Hər şeyi, özlərinə izah edildiyi kimi tapmışdılar. (Luka, 2:20)

Tərif, ucalıq və müdriklik, təşəkkür və hörmət, güc və qüdrət sonsuzlara qədər Allahımızın olsun. (Vəhy, 7:12)

**Dilimizlə Rəbbi tərifləyərik...** (Yaqub, 3:9)

... O biri xalqlar mərhəməti üçün Allahı ucaltsın. Yazıldığı kimi: "Bunun üçün xalqlar arasında Sənə şükür edəcəyəm, Adını ilahilərlə tərifləyəcəyəm." Yenə deyilir ki, "Ey xalqlar, Onun xalqıyla birlikdə sevinin!" və **"Ey bütün xalqlar, Rəbbə tériflər söyləyin! Ey bütün xalqlar, Onu ucaldın!" (Romalılara, 15:9-11)**

... **Allaha tériflər olsun.** (Efeslilərə, 1:3)

... **Mərhəmətli Allaha... tériflər olsun!** (2 Korinflilərə, 1:3)

## Öldürən və diriltdən Allahdır

... **Amma bu, özümüzə deyil, ölüləri diriltdən Allaha güvənməyimiz üçün oldu.** (2 Korinflilərə, 1:9)

**Sizlər, Allahın ölüləri diriltməsini niyə "inanılmaz" görürsünüz?** (Həvarilərin İşləri, 26:8)

Bədəni öldürə bilən, amma canı öldürə bilməyənlərdən qorxmayın. **Canı da, bədəni də cəhənnəmdə məhvə uğradan Allahdan qorxun.** (Matta, 10:28)

**Hər varlığa həyat verən Allahın...** hüzurunda sənə buyururam. (1 Timoteyə, 6:13)

... Allah içinizdə yaşayan Ruhuyla ölümlü bədənlərinizə də həyat verəcək. (Romalılara, 8:11)

"Səni bir çox xalqın atası etdim" deyə yazıldığı kimi İbrahim, iman etdiyi Allahın -ölülərə həyat verən, var olmayanı əmriylə var edən Allahın- Qatında hamımızın atasıdır. (Romalılara, 4:17)

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah... Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özü olduğuna görə...** (Həvarilərin İşləri, 17:24-25)

**Allah necə ölüləri dirildib onlara həyat verirsə...** (Yəhya 5:21)

## Allahın ruzi verən olması

... Göydən çörəyi Musa vermədi. **Sizə göydən gerçək çörəyi verən Rəbbimdir.** (Yəhya, 6:32)

“Bu səbəblə sizə bunu söyləyirəm: **“Nə yeyib nə içirik?” deyə canınız üçün, “Nə geyəcəyik?” deyə bədəniniz üçün narahat olmayın.** Can yeməkdən, bədən də geyimdən daha əhəmiyyətli deyilmi? Göydə uçan quşlara baxın! Nə əkər, nə biçər, nə də anbarlarda yemək yığarlar. **Allah yenə də onları doyurar.** Siz onlardan daha qiymətli deyilsinizmi? (Matta, 6:25-26)

[Allah] sizə lütf edir. Göydən yağış yağdırır, müxtəlif məhsullarıyla mövsümləri təşkil edir, sizi yeməklə doyurub ürəklərinizi sevinclə doldurur. (Həvarilərin İşləri, 14:17)

[Allah] nəsillər boyunca Özündən qorxanlara mərhəmət edər... **Ac olanları yaxşılıqlarla doyurdu, zənginləri isə əlləri boş çevirdi.** (Luka, 1:50-53)

İsa şagirdlərinə belə dedi: “Bu səbəblə sizə bunu söyləyirəm: “Nə yeyəcəyik?” deyə canınız üçün, “Nə geyəcəyik?” deyə bədəniniz üçün narahat olmayın... **Qarğalara baxın! Nə əkər, nə biçərlər; nə anbarları vardır. Allah yenə də onları doyurar.** (Luka, 12:22-24)

## Allahın sevən, lütfkarlığı bol olan, mərhəmət edən olması

**Nəsildən nəslə [Allah] Ondan qorxanlara mərhəmət edər.** (Luka, 1:50)

... **Rəbbin çox acıyan və mehribanlıqla davranan olduğunu bildiniz.** (Yaqub, 5:11)

**Çünki Allahımız mərhəmət doludur. Onun mərhəməti sayəsində,** ucalardan doğan Günəş, qaranlıqda və ölümün kölgəsində yaşayanlara işıq saçmaq və ayaqlarımızı sağlamlıq yoluna yönəltmək üzrə köməyimizə gələcəkdir. (Luka, 1:78-79)

**Amma mərhəməti bol olan Allah bizi çox sevdiyi üçün...** həyata qovuşdurdu. **Onun lütfüylə xilas oldunuz.** (Efeslilərə, 2:4-5)

Çətinliyə qatlana bilənləri xoşbəxt sayarıq. Əyyubun necə dözdüyünü eşitdiniz. **Rəbbin ən sonunda onun üçün nələr etdiyini bilirsiniz. Rəbb çox şəfqətli və mərhəmətlidir.** (Yaqub, 5:11)

**Tam bir müdriklik və anlayışla üzərimizə yağdırdığı lütfünün zənginliyi sayəsində...** qurtuluşa, günahlarımızın bağışlanmasına qovuşduq. (Efeslilərə, 1:7-8)

Biz bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir. (Romalılara, 8:28)

**Amma xilaskarımız Allah yaxşılığını və insana olan sevgisini açıqca göstərərək bizi xilas etdi.** Bunu düzgün etdiyimiz işlərdən ötrü deyil, Öz mərhəmətiylə... **etdi.** (Titə, 3:4-6)

**Allahın sizə bağışladığı fövqəladə lütfdən ötrü sizlər üçün dua edir, sizin üçün darıxırlar. Sözlə izah edilə bilməyən hədiyyəsi üçün Allaha şükürlər olsun!** (2 Korinflilərə, 9:14-15)

**İman yoluyla, lütflə xilas oldunuz. Bu sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir.** Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. Çünki biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üzrə... yaradıldıq. (Efeslilərə, 2:8-10)

**Allahın sərhədsiz yaxşılığını, tolerantlığını, səbirini xormu görürsən? [Allahı tənzih edirik.] Onun yaxşılığının səni tövbəyə yönəltdiyini bilmirsənmi?** (Romalılara, 2:4)

Hər kəsin qarşılaşdığı sınaqlardan başqa sınaqlarla qarşılaşmadınız. **Allah etibarlıdır, gücünüzü aşan şəkildə sınanmanıza icazə verməz. Qatlana bilməniz üçün sınaqla birlikdə çıxış yolunu da təmin edəcək.** (1 Korinflilərə, 10:13)

**Sevimli qardaşlarım, Allah bizi bu qədər çox sevdiyinə görə biz də bir-birimizi sevməyə borcluyuq.** (1 Yəhya, 4:11)

Sevimli qardaşlarım, aldanmayın! **Hər nemət, hər mükəmməl hədiyyə... Allahdan gəlir.** (Yaqub, 1:16-17)

Ey gənclər, siz də qocalara qarşı mərhəmətli olun. Hamınız bir-birinizə qarşı təvazökarlıqla davranın. Çünki "Allah qürurlulara qarşıdır, amma təvazökarlara lütf edər." (1 Peter, 5:5)

... Bütün lütfün qaynağı olan Allahın Özü qısa bir müddət acı çəkmənizdən sonra sizi yetkinləşdirib gücləndirəcək, gücləndirib təməlləndirəcək. Qüdrət sonsuzlara qədər Onun olsun! Amin. (1 Peter, 5:10-11)

**Sağlamlıq qaynağı olan Allahın Özü sizi tamamilə mübarək etsin.** Ruhunuz, canınız və bədəniniz... İsa Məsihin gəlişində əksiksiz və qüsursuz olmaq üzrə qorunsun. (1 Saloniklilərə, 5:23)

**Sağlamlıq qaynağı olan Rəbbin Özü sizə hər zaman, hər vəziyyətdə sağlamlıq versin.** Rəbb hamınızla birlikdə olsun. (2 Saloniklilərə, 3:16)

## Allahın qullarına nəzarət edən və qoruyan olması

Amma Rəbb etibarlıdır. **O sizi gücləndirəcək, pis olandan qoruyacaq.** (2 Saloniklilərə, 3:3)

Siz onlara bənzəməyin! **Çünki Allahımız nələrə ehtiyac duyduğunu siz daha Ondan diləmədən əvvəl bilir.** (Matta, 6:8)

Bunun üçün, Allahın istəyinə uyğun olaraq acı çəkənlər, yaxşılıq edərək **canlarını etibarlı Yaradana əmanət etsinlər.** (1 Peter, 4:19)

Zaman sona çatarkən ortaya çıxarılmağa hazır olan qurtuluşa qovuşasınız deyə iman sayəsində **Allahın gücüylə qorunursunuz.** (1 Peter, 1:5)

Bu gün var olub, sabah ocağa atılacaq olan çöl otunu belə geydirən Allahın sizi də geydirəcəyi daha qəti deyilmi, ey qıt imanlılar? (Matta, 6:30)

Göydə uçan quşlara baxın! Nə əkər, nə biçər, nə də anbarlarda yemək yığarlar. **Allah yenə də onları doyurar.** Siz onlardan daha qiymətli deyilsinizmi? (Matta, 6:26)

"Elə isə, "Nə yeyəcəyik?" "Nə içəcəyik?" ya da "Nə geyəcəyik?" deyərək narahat olmayın. Xalqlar həmişə bu şeylərin arxasınca qaçar. **Halbuki Allah bütün bunlara ehtiyac duyduğunuzu bilər.** (Matta, 6:31-32)

O günah işləmədi, ağzından hiyləli söz çıxmadı. Ona söyüldüyündə söyüşlə cavab vermədi, acı çəkdiyində kimsəni təhdid etmədi; **davasını, ədalətlə mühakimə edən Allaha buraxdı.** (1 Peter, 2:22-23)

## Allahın doğru yola yönəldən, mənəvi çirklərdən təmizləyən olması

**İnsanlar... Allahın lütfüylə, qarşılıqsız olaraq təmizlənərlər.** (Romalılara, 3:24)

... [Allah] iman etmələri üzərinə ürəklərini təmizlədi. (Həvarilərin İşləri, 15:9)

**Allahın insanı təmizlədiyi, Müjdədə açıqlanar.** Təmizlənmə yalnız imanla olur. Yazıldığı kimi, "İmanla təmizlənən yaşayacaq. (Romalılara, 1:17)

Allahın seçdiklərini kim günahlandıracaq? **Onları təmizləyən Allahdır.** (Romalılara, 8:33)

**Belə ki, Onun [Allahın] lütfüylə təmizlənmiş olaraq** ümid içində sonsuz həyatın varisləri olaq. (Titə, 3:7)

... Tək Allah, sizi düşməkdən saxlayacaq, Öz uca hüzuruna böyük sevinc içində **ləkəsiz olaraq çıxaracaq gücdədir**... (Yəhuda, 1:24-25)

... Qurtuluş, ucalıq və güc Allahımıza aiddir. Çünki Onun mühakimələri doğru və ədalətlidir... Çünki gücü hər şeyə çatan Rəbb Allahımız hökmranlıq edir. (Vəhy, 19:1-6)

O [Allah]... bizi, Öz istəyinə uyğun olaraq... **həyata qovuşdurdu.** (Yaqub, 1:18)

... **Sizi qaranlıqdan heyrətləndirici işığına çağıran Allahın fəzilətlərini eşitdirmək üçün seçildiniz...** Bir zamanlar mərhəmətə çatmamışdınız, indiysə mərhəmətə çatdınız. (1 Peter, 2:9)

Demək ki, seçilmək, insanın istəyinə ya da səyinə deyil, Allahın mərhəmətinə bağlıdır... **Demək ki, Allah istədiyinə mərhəmət edər, istədiyinin ürəyini qatılaşdırar.** (Romalılara, 9:16-18)

## Allahın tövbələri qəbul edən, günahları bağışlayan olması

... [Allahın] lütfünün zənginliyi sayəsində... **qurtuluşa, günahlarımızın bağışlanmasına qovuşduq.** (Efeslilərə, 1:7-8)

Bunları dinlədikdən sonra sakitləşdilər. Allahı ucaldaraq belə dedilər: **"Demək ki, Allah tövbə etmə və həyata qovuşma fürsətini o biri xalqlara da vermişdir." (**Həvarilərin İşləri, 11:18)

O [Allah] bizi qaranlığın hökmranlığından qurtar[masıyla]... **qurtuluşa, günahlarımızın bağışlanmasına sahibik.** (Kolosselilərə, 1:13-14)

Amma günahlarımızı etiraf etsək, etibarlı və ədalətli olan Allah günahlarımızı bağışlayıb bizi hər pislikdən təmizləyəcək. (1 Yəhya, 1:9)

İmanla edilən dua xəstəni yaxşılaşdıracaq və Rəbb onu ayağa qaldıracaq. Əgər xəstə günah işləmişsə, günahları bağışlanacaq. (Yaqub, 5:15)

**"Bizə qarşı cinayət törədənləri bağışladığımız kimi, Sən də bizim günahlarımızı bağışla.** Aldanmağımıza icazə vermə. Bizi pis olandan qurtar. Çünki hökmranlıq, güc və ucalıq sonsuzlara qədər Sənindir! **Amin." Başqalarının günahlarını bağışlasanız, Allah da sizin günahlarınızı bağışlayar.** Amma siz başqalarının günahlarını bağışlamasanız, Allah da sizin günahlarınızı bağışlamaz. (Matta, 6:12-15)

İsa onlara, "Dua edərkən belə söyləyin" dedi: "Allah, Adın müqəddəs qılınsın... **Günahlarımızı bağışla.** Çünki biz də bizə qarşı günah işləyən hər kəsi bağışlayırıq. Yanılmağımıza icazə vermə." (Luka, 11:2-4)

Başqasını mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Günahkar çıxarmayın, siz də günahkar çıxarılmazsınız. **Başqasını bağışlayın, siz də bağışlanarsınız.** Verin, sizə veriləcək. Yaxşı şəkildə basdırılmış, silkələnmiş və daşmış, dolu bir ölçü ilə qucağınıza boşaldılacaq. Hansı ölçüdə versəniz, eyni ölçüdə götürəcəksiniz. (Luka, 6:37-38)

**Elə isə günahlarınızın silinməsi üçün tövbə edin və Allaha dönün. Belə ki, Rəbb sizə yenilənmə fürsətləri versin...** (Həvarilərin İşləri, 3:19-20)

**Bu pisliyindən ötrü tövbə et və Rəbbə yalvar, ürəyindəki bu düşüncə, bəlkə, bağışlanar.** (Həvarilərin İşləri, 8:22)

## Allahın hökm verənlərin ən xeyirlisi, sonsuz ədalət sahibi olması

**Haqsızlıq edən etdiyi haqsızlığın qarşılığını alacaq, heç bir ayrı-seçkilik edilməyəcək.** (Kolosselilərə, 3:25)

**Çünki istər kölə, istər azad olsun, hər kəsin etdiyi hər yaxşılığın qarşılığını Rəbdən alacağını bilirsiniz.** Ey ağalar, siz də kölələrinizə eyni şəkildə davranın. Artıq onları təhdid etməyin. Onların da, sizin də ağanızın... olduğunu və insanlar arasında ayrı-seçkilik etmədiyini bilirsiniz. (Efeslilərə, 6:8-9)

**[Allah] pislik edən hər kəsə... çətinlik və əzab verəcək; yaxşılıq edən hər kəsə... ucalıq, hörmət, sağlamlıq verəcək. Çünki Allah insanlar arasında ayrı-seçkilik etməz.** (Romalılara, 2:9-11)

**Haqsızlıq edən etdiyi haqsızlığın qarşılığını alacaq, heç bir ayrı-seçkilik edilməyəcək.** (Kolosselilərə, 3:25)

**Allah "hər kəsə, etdiklərinin qarşılığını verəcək."** Daima yaxşılıq edərək ucalıq, hörmət, ölümsüzlük axtaranlara sonsuz həyat verəcək. Eqoistlərin, həqiqətə uymayıb haqsızlıq arxasınca gedənlərin üzərinə isə qəzəb və kin yağdıracaq. (Romalılara, 2:6-8)

**Hər kəsin etdiyi iş müəyyən olacaq, mühakimə günü ortaya çıxacaq...** (1 Korinflilərə, 3:13)

**Onlar, ölüləri də, diriləri də mühakimə etməyə hazır olan Allaha hesab verəcəklər.** (1 Peter, 4:5)

**Kimsəni fərqləndirmədən, insanın etdiklərinə baxaraq mühakimə edən Allah...** Qürbəti xatırladan bu dünyadakı zamanınızı Allah qorxusuyla keçirin. (1 Peter, 1:17)

Allah ədalətsiz deyil. [Allahı tənzih edirik.] Əməyinizi və müqəddəslərə xidmət etmiş olaraq və etməyə davam edərək Onun adına göstərdiyiniz sevgini unutmaz. (İbranilərə, 6:10)

Əlbəttə ki, Rəbb möminləri sınaqdan necə qurtarmağı, haqsızları isə qiyamət gününə kimi cəza altında necə saxlamağı bilir. O, xüsusilə, cismani murdar ehtirasına uyaraq ağalığa xor baxanları belə saxlayır.... (2 Peter, 2:9-10)

Allahın zənginliyi nə böyük, müdrikliyi və məlumatı nə dərindir! Onun mühakimələri nə cür ağlasığmaz, yolları nə cür aydın deyil! (Romalılara, 11:33)

# 6-CI HİSSƏ
# İNCİLDƏ AXİRƏTƏ İMAN

## Yenidən dirilişə iman

... Bütün məzarda yatanların Onun səsini eşidəcəyi vaxt gəlir... **Yaxşılıq edənlər yaşamaq üçün, pislik edənlərsə mühakimə olunmaq üçün diriləcəklər.** (Yəhya, 5:28-29)

İsa onu yeməyə çağırmış olana da belə dedi: "... Ziyafət verdiyin zaman yoxsulları, iflicləri, şikəstləri, korları çağır. Beləcə, xoşbəxt olarsan. Çünki bunlar sənə cavab verəcək vəziyyətdə deyildirlər. **Qarşılığı sənə... [cənnətdə] veriləcək."** (Luka, 14:12-14)

Ağıllanıb özünüzə gəlin, artıq günah işləməyin. Bəziləriniz Allahı heç tanımır. Utanasınız deyə söyləyirəm bunları. Amma biri çıxıb, "Ölülər necə diriləcək? Necə bir bədənlə gələcəklər?" deyə soruşa bilər. Nə ağılsızca bir sual!... **Ölülərin dirilişi də belədir.** Bədən çürüməyə məhkum olaraq basdırılar, çürüməz olaraq dirildilər. Düşkün olaraq basdırılar, görkəmli olaraq dirildilər. Zəif olaraq basdırılar, güclü olaraq dirildilər. (1 Korinflilərə, 15:34-36, 42-43)

**Ölülərin dirilməsi mövzusuna gəlincə, Allahın sizə bildirdiyi bu sözü oxumadınızmı?...** (Matta, 22:31)

Eynilə bu adamların qəbul etdiyi kimi, həm doğru kəslərin, həm doğru olmayanların ölümdən diriləcəyinə dair Allaha ümid bağladım. Bu səbəblə mən... Allahın... hüzurunda vicdanımı təmiz tutmağa hər zaman diqqət göstərirəm. (Həvarilərin İşləri, 24: 15-16)

Qardaşlar, bunu demək istəyirəm... Çürüyən də çürüməzliyi miras götürə bilməz. Sizə bir sirr açıqlayıram... Son şeypur çalınınca hamımız bir anda, göz açıb bağlayana qədər dəyişdiriləcəyik. **Bəli, şeypur çalınınca, ölülər çürüməz olaraq diriləcək və biz də dəyişdiriləcəyik [yeni bir yaradılışla yaradılacağıq].** (1 Korinflilərə, 15:50-52)

## Hesab gününə iman

Allahın görmədiyi heç bir varlıq yoxdur. **Özünə hesab verəcəyimiz Allahın nəzərində hər şey çılpaq və açıqdır.** (İbranilərə, 4:13)

**Allah, hər kəsə, etdiklərinin qarşılığını verəcək.** Dayanmadan yaxşılıq edərək ucalıq, hörmət və ölümsüzlüyü axtaranlara sonsuz həyatı [cənnəti] verəcək. Amma eqoist olanların, həqiqətə uymayıb haqsızlığın arxasınca gedənlərin üzərinə qəzəb və kin yağdıracaq. (Romalılara, 2:6-8)

Sizə bunu söyləyim, insanlar söylədikləri hər boş söz üçün hesab günü mühakimə olunacaqlar. Öz sözlərinizlə təmizlənəcək, yenə öz sözlərinizlə günahkar çıxarılacaqsınız. (Matta, 12:36-37)

Yüksək səslə belə deyirdi: "Allahdan qorxun! Onu ucaldın! Çünki Onun hesab saatı gəldi. Göyü, yeri, dənizi, su mənbələrini Yaradana qulluq edin!" (Vəhy, 14:7)

**Hər kəsin etdiyi iş müəyyən olacaq, hesab günü ortaya çıxacaq.** Hər kəsin işi odla aşkar ediləcək. Atəş hər işin xüsusiyyətini sınayacaq. (1 Korinflilərə, 3:13)

**Allahın mühakimə kürsüsü önünə hamımız çıxacağıq.** Yazıldığı kimi: "Rəbb belə deyir: Varlığım haqqı üçün hər diz önümdə çökəcək və hər dil Allah olduğumu açıqca söyləyəcək." Beləcə, hər birimiz öz adımıza Allaha hesab verəcək. (Romalılara, 14:10-12)

Görülür ki, Rəbb Öz yolunda gedənləri qarşılaşdıqları sınaqlardan necə qurtaracağını bilir. Doğru olmayanları, xüsusilə, mənliyin korlanmış ehtirasları ardınca gedən və hakimiyyətini xor görənləri [Allahı tənzih edərik] cəzalandıraraq mühakimə gününə qədər necə saxlayacağını da bilir. (2 Peter, 2:9-10)

Aldanmayın... **İnsan nə əkərsə, onu biçər. Öz təbii mənliyi üçün əkən [nəfsinə uyan], mənlikdən ölüm biçəcək... [Allah üçün] əkən... sonsuz həyat biçəcək.** (Qalatiyalılara, 6:7-8)

Müqəddəs Qanunda deyilənlərin [Allahın hökmlərinin]... bütün dünya Allaha hesab versin deyə, Qanunun rəhbərliyi altındakılara [Allahın əmrlərinə uymaqla məsul olanlara] deyildiyini bilirik. (Romalılara, 3:19)

Hər kəs öz işini sınasın. **O zaman başqasının etdikləriylə deyil, tək öz etdikləriylə öyünə bilər.** Hər kəs özünə düşən yükü daşımalıdır. (Qalatiyalılara 6:4-5)

Bu səbəblə, bu buyruqların ən kiçiyindən birini kim tapdalayar və başqalarına elə öyrətsə, Allahın hökmündə [axirətdə] ən kiçik sailacaq. Amma bu buyruqları kim yerinə yetirər və başqalarına öyrətsə, Allahın hökmündə [axirətdə] böyük sailacaq. (Matta, 5:19)

Atalarımıza,"Adam öldürməyəcəksən. **Öldürən mühakimə olunacaq" deyildiyini eşitdiniz. Amma mən sizə deyirəm ki, qardaşına qəzəblənən hər kəs mühakimə olunacaq. Kim qardaşına alçaldıcı bir söz söyləsə... mühakimə olunacaq.** (Matta, 5:21-22)

Sizə doğrusunu söyləyim, hesab günü o şəhərin halı Sodomla Homorra bölgəsinin halından betər olacaq. (Matta, 10:15)

Ya sən, ey Kefarnahum, göyəmi çıxarılacaqsan? Xeyr, ölülər diyarına [cəhənnəmə] endiriləcəksən!... Sənə bunu söyləyim, hesab günü sənin halın Sodom bölgəsinin halından betər olacaq! (Matta, 11:23-24)

Sizə bunu söyləyim, mühakimə günü o şəhərin halı Sodom şəhərinin halından betər olacaq. "Vay halına, ey Horazin! Vay halına, ey Beytsayda! Sizlərdə edilən möcüzələr Sur və Saydada edilsəydi, çoxdan çula bürünüb kül içində oturaraq tövbə etmiş olardılar. Amma mühakimə günü sizin halınız Sur və Saydanın halından betər olacaq." (Luka, 10:12-14)

Məni rədd edən və sözlərimi qəbul etməyən adamı mühakimə edəcək [Allah] var. **O adamı son gündə mühakimə edəcək olan...** (Yəhya, 12:48)

Bu səbəblə sən, ey başqasını mühakimə edən insan, kim olsan ol, üzrün yoxdur. Başqasını mühakimə etdiyin mövzuda özünü məhkum edirsən. Çünki ey mühakimə edən sən, eyni şeyləri edirsən. **Belə davrananları Allahın haqlı olaraq mühakimə etdiyini bilirik.** Bu kimi şeyləri edənləri mühakimə edən, amma eynisini edən ey insan, Allahın mühakiməsindən qaça biləcəyinimi sanırsan? (Romalılara, 2:1-3)

**İnadkarlığın və tövbəsiz ürəyin üzündən Allahın ədalətli mühakiməsinin açıqlanacağı qəzəb günü üçün özünə qarşı qəzəb yığırsan. Allah hər kəsə, etdiklərinin qarşılığını verəcək.** (Romalılara, 2:5-6)

Yeşaya, İsrail üçün belə səslənir: “İsrailoğullarının sayı dənizin qumu qədər çox olsa da, ancaq çox azı xilas olacaq. **Çünki Rəbb yer üzündəki mühakimə etmə işini tez bitirəcək.” [Allah hesabı tez görəndir.]** (Romalılara, 9:27-28)

Sizin tərəfinizdən ya da adi bir məhkəmə tərəfindən mühakimə olunsam heç fikir vermərəm. Öz-özümü də mühakimə etmirəm. Özümdə bir qüsur görmürəm. Amma bu məni yanıltmaz. **Məni mühakimə edən Rəbdir.** (1 Korinflilərə, 4:3-4)

Onlar, ölüləri də, diriləri də mühakimə etməyə hazır olan Allaha hesab verəcəklər. (1 Peter, 4:5)

Çünki mühakimənin... **başlayacağı an gəlmişdir...** (1 Peter, 4:17)

Mühakimə günündə cəsarətimiz olsun deyə, [iman edənlər üçün] sevgi, beləliklə, içimizdə məskunlaşmışdır... (1 Yəhya, 4:17)

Xilaskarımız tək Allah, sizi düşməkdən saxlayacaq, böyük sevinc içində ləkəsiz olaraq Uca hüzuruna çıxaracaq gücdədir. Ucalıq, ululuq, güc və səlahiyyət... bütün çağlardan əvvəl, indi və bütün çağlar boyunca Allahın olsun! Amin. (Yəhuda, 1:24-25)

## Qiyamət gününə iman

Özünüzə diqqət yetirin! Ürəkləriniz pozğunluq, sərxoşluq və bu həyatın qayğılarıyla ağırlaşmasın. **O gün, üzərinizə bir tələ kimi birdən enməsin. Çünki o gün bütün yer üzündə yaşayan hər kəsin üzərinə gələcəkdir.** Hər an ayıq olun, reallaşmaq üzrə olan bütün bu hadisələrdən xilas ola bilmək... üçün dua edin. (Luka, 21:34-36)

**Amma o günlərdə, o çətinlikdən sonra, “Günəş qaralacaq, Ay işığını verməyəcək, ulduzlar göydən düşəcək”...** (Mark, 13:24-25)

**Amma Rəbbin günü, oğru kimi [birdən] gələcək. O gün göylər böyük bir gurultu ilə ortadan qalxacaq**, maddi elementlər yanaraq yox olacaq, yer və yer üzündə hazırlanmış olan hər şey yanıb bitəcək... O gün göylər yanaraq yox olacaq, maddi elementlər şiddətli atəşdə əriyəcək. (2 Peter, 3:10-12)

**O günü və o saatı nə göydəki mələklər, nə də İsa bilər; Allahdan başqa kimsə bilməz...** Diqqət yetirin, ayıq olun, dua edin. **Çünki o anın nə vaxt gələcəyini belə bilməzsiniz.** (Mark, 13:32-33)

**O günü və saatı, nə göydəki mələklər, nə də İsa bilər; Allahdan başqa kimsə bilməz.** (Mark, 24:36)

**O günlərdə hamilə olan, uşaq əmizdirən qadınların vay halına!...** O günlərdə elə bir çətinlik olacaq ki, Allahın var etdiyi yaradılışın başlanğıcından bəri beləsi olmamış, bundan sonra da olmayacaq. (Mark, 13:17-19)

... **Onun gözləmədiyi bir gündə, ümid etmədiyi bir saatda gələcək, onu şiddətlə cəzalandıracaq və** ikiüzlülərlə bir tutacaq. Orada ağlama və diş qıcırtısı olacaq. (Matta, 24:50-51)

Haqsızlıqla həqiqətə mane olan insanların bütün Allahsızlıq və haqsızlığına qarşı Allahın qəzəbi göydən açıqca göstərilər... Allah hamısını gözlərinin önünə sərdi. (Romalılara, 1:18-19)

Dinləyin indi, ey zənginlər, başınıza gələcək fəlakətlərə görə fəryad edərək ağlayın. Sərvətiniz çürümüş, geyiminizi güvə yemişdir. Qızıllarınız, gümüşləriniz paslanmışdır. Bunların pası sizə qarşı şahidlik edəcək, ətinizi atəş kimi yeyəcəkdir. Son günlərdə sərvətinizə sərvət qatdınız. Baxın, əkinlərinizi biçmiş olan işçilərin haqsızca saxladığınız ödənişləri sizə qarşı üsyan edir... Yer üzündə zövq və bolluq içində yaşadınız. **Savaş günü [əzab günü] üçün özünüzü kökəldirsiniz.** (Yaqub, 5:1-5)

## Cənnətə iman

Elçiliyim, yalan danışmayan Allahın zamanın başlanğıcından əvvəl vəd etdiyi sonsuz həyat [cənnət] ümidinə əsaslanır. (Titə, 1:2)

İsa yəhudilərə belə cavab verdi:.. **"Sizə doğrusunu söyləyim, sözümü eşidib məni Göndərənə [Allaha] iman edənin [cənnətdə] sonsuz həyatı vardır..."** (Yəhya, 5:19-24)

**Rəbb məni hər pislikdən xilas edib təhlükəsizlik içində Allahın hökmranlğına [cənnətə] çatdıracaq.** Sonsuzlara qədər Ona ucalıq olsun! Amin. (2 Timoteyə, 4:18)

**Keçici yemək üçün deyil, [cənnətdəki] sonsuz həyat boyunca qalıcı yemək üçün çalışın...** (Yəhya, 6:27)

**Sizə doğrusunu söyləyim, iman edənin [cənnətdə] sonsuz həyatı vardır.** (Yəhya, 6:47)

Yer üzündə özünüzə xəzinələr yığmayın. Burada güvə və pas onları yeyib bitirər, oğrular da girib oğurlayarlar. Bunun yerinə özünüzə göydə [cənnətdə] xəzinələr yığın. **Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar.** Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq. (Matta, 6:19-21)

**Allahın Özünü sevənlər üçün hazırladıqlarını heç bir göz görmədi, heç bir qulaq eşitmədi, heç bir insan ürəyi qavramadı.** (1 Korinflilərə, 2:9)

**Doğru kəslər, o zaman Allahın hökmranlığında [cənnətdə] Günəş kimi parlayacaqlar.** Qulağı olan eşitsin!... Çağın sonunda da belə olacaq. Mələklər gələcək, pis kəsləri doğruların arasından ayırıb qızğın sobaya atacaqlar. Orada ağlama və diş qıcırtısı olacaq. İsa "Bütün bunları anladınızmı?" deyə soruşdu. "Bəli" cavabını verdilər. (Matta, 13:43-51)

O gündən sonra İsa bu çağırışı etdi: "Tövbə edin! **Çünki Allahın hökmranlığı [axirət həyatı] yaxınlaşdı."** (Matta, 4:17)

İsa danışmağa başlayıb onlara bunları öyrətdi: "... **Allahın hakimiyyəti [cənnət] onlarındır... Onlar təsəlli ediləcəklər.** Mülayim olanlar nə xoşbəxtdir! Çünki onlar yer üzünü miras alacaqlar. Doğruluğa acıb susayanlara eşq olsun! Çünki onlar doyurulacaqlar. Mərhəmətli olanlar necə də xoşbəxtdir! **Çünki onlar mərhəmət tapacaqlar.** Ürəyi təmiz olanlar necə də xoşbəxtdir. Çünki onlar Allahı görəcəklər. [Saleh möminlərin cənnət neməti olaraq Allahın Uca Zatının təcəllisini görmələri nəzərdə tutulur.] Sülhü təmin edənlər necə xoşbəxtdir!... Nə xoşbəxtdir düzgünlük uğrunda zülm görənlər! **Çünki Allahın hakimiyyəti [cənnət] onlarındır.** Mənə görə insanlar sizi söyüb zülm etdikləri, yalan yerə sizə qarşı hər cür pis sözü söylədikləri zaman nə xoşbəxt sizə! Sevinin, sevinclə coşun! **Çünki göylərdəki [cənnətdəki] mükafatınız böyükdür.** Sizdən əvvəl yaşayan peyğəmbərlərə də belə zülm etdilər." (Matta, 5:2-12)

**Bu əsnada şagirdləri İsaya yaxınlaşıb, "Allahın hökmranlığında [axirətdə] ən böyük kimdir?" deyə soruşdular.** İsa, yanına kiçik bir uşaq çağırdı, onu orta yerə qoyub belə dedi: "Sizə doğrusunu söyləyim, [pis olan] yolunuzdan dönüb kiçik uşaqlar kimi olmasanız, Allahın Hökmranlığına [cənnətə] əsla girə bilməzsiniz. Kim bu uşaq kimi təvazökar olsa, Allahın hökmranlığında [axirətdə] ən böyük odur." (Matta, 18:1-4)

**Onun [Allahın] buyruğunun sonsuz həyat [cənnət] qazandırdığını bilirəm.** Bunun üçün nə söyləyirəmsə, Allahın mənə söylədiyi kimi söyləyirəm. (Yəhya, 12:50)

İman uğrunda uca mübarizəni davam etdir. **[cənnətdə] sonsuz həyata möhkəm sarıl.** Bunun üçün çağırıldın və bir çox şahid qarşısında uca inancı açıq şəkildə mənimsədin. (1 Timoteyə, 6:12)

**Allahın hüzur diyarına [cənnətə] girmə vədi hələ keçərli ikən, hər hansı birinizin buna çatmamış sailmasından qorxaq.** Çünki biz də onlar kimi yaxşı xəbəri aldıq. Amma onlar eşitdikləri sözü imanla birləşdirmədiklərindən ötrü, bunun özlərinə bir faydası olmadı. Biz inanmış olanlar hüzur diyarına [cənnətə] girərik. Necə ki, Allah belə demişdir: "Qəzəbə gəldiyimdə and içdiyim kimi, onlar hüzur diyarıma [cənnətə] əsla girməyəcəklər." (İbranilərə, 4:1-3)

**Demək ki, bəzilərinin hüzur diyarına [cənnətə] girəcəyi qətidir.** Daha əvvəl yaxşı xəbəri alanlar söz dinləmədikləri üçün o diyara girə bilmədilər. (İbranilərə, 4:6)

Bu səbəblə, hər hansı birimizin eyni xətanı—söz dinləməzliyinə görə cənnəti itirməməsi üçün o hüzur diyarına [cənnətə] girməyə cəhd göstərək. (İbranilərə, 4:11)

Bu mövzuda yenə deyir ki, "Onlar hüzur diyarıma [cənnətə] əsla girməyəcəklər. (İbranilərə, 4:5)

... **Hüzur diyarına [cənnətə] kimlərin girməyəcəyinə dair and içdi.** Görürük ki, imansızlıqlarından ötrü oraya [cənnətə] girə bilmədilər. (İbranilərə, 3:18-19)

... Ey pislik edənlər! **"İbrahimi, İshaqı, Yaqubu və bütün peyğəmbərləri Allahın hökmranlığında [cənnətdə], özünüzü isə çölə atılmış gördüyünüz zaman, aranızda ağlama və diş qıcırtısı olacaq." (**Luka, 13:27-28)

Allah hər kəsə etdiklərinin qarşılığını verəcək. **Dayanmadan yaxşılıq edərək ucalıq, hörmət... axtaranlara sonsuz həyatı [cənnəti] verəcək...** (Romalılara, 2:6-7)

... Bunlar [pislər] sonsuz əzaba [cəhənnəmə], doğrular isə sonsuz həyata [cənnətə] gedəcəklər. (Matta, 25:46)

**Biz Allahın vədinə görə, doğruluğun sığınacağı yeni göyləri və yeni yer üzünü gözləyirik.** Bunun üçün sevimli qardaşlarım, madam ki, bunları gözləyirsiniz, Allahın qarşısında ləkəsiz, qüsursuz və sülh içində olmağa cəhd göstərin. (2 Peter, 3:13-14)

Allahın insanı təmizlədiyi, Müjdədə açıqlanır. Təmizlənmə yalnız imanla olar. **Yazılmış olduğu kimi, "İmanla təmizlənən insan [cənnətdə] yaşayacaq."** (Romalılara, 1:17)

... **Ona [Allaha] iman edənlərin heç biri məhv olmasın, amma hamısı sonsuz həyata [cənnətə] qovuşsun. (**Yəhya, 3:16)

"Sizə doğrusunu söyləyim" dedi İsa, "[Allah rizası üçün] mənim və Müjdənin uğruna evini, bacı-qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb indi, bu çağda çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, bacı-qardaşa, anaya, uşağa, torpağa və

gələcək çağda sonsuz həyata [cənnətə] qovuşmayacaq heç kim yoxdur. Necə ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq.” (Mark, 10:29-31)

## Cəhənnəmə iman

Kimdən qorxmanız lazım olduğunu sizə açıqlayım: **Adamı öldürdükdən sonra cəhənnəmə atma səlahiyyətinə sahib olan Allahdan qorxun.** Bəli, sizə söyləyirəm, Ondan qorxun. (Luka, 12:5)

**Orada [cəhənnəmdə] ağlama və diş qıcırtısı olacaq... (**Matta, 22:13)

Dəlicələr (yabanı ağaclar) necə toplanıb atəşdə yandırılırsa, çağın sonunda da belə olacaq... [Allah] mələklərini göndərəcək, onlar da insanları günaha salan hər şeyi, pislik edən hər kəsi... yığıb qızğın sobaya atacaqlar. **Orada ağlama və diş qıcırtısı olacaq... Çağın sonunda da belə olacaq. Mələklər gələcək, pis kəsləri doğruların arasından ayırıb qızğın sobaya atacaqlar. Orada ağlama və diş qıcırtısı olacaq...** [Axirət sorğusu] dənizə atılan və hər cür ovu bir yerə yığan balıqçı şəbəkəsinə bənzəyər. Yaxşıca dolduğunda onu sahilə çəkərlər, oturub işə yarayanları qablara toplayarlar, yaramayanları isə kənara atarlar. **Çağın sonunda vəziyyət bu olacaq. Mələklər çıxıb pisləri doğrular arasından ayıracaq və yanan ocağa atacaqlar. Orada [cəhənnəmdə] ağlama və diş qıcırtısı olacaq.** (Matta, 13:40-50)

... [Allahın əzabı] onun gözləmədiyi bir gündə, ümid etmədiyi bir saatda gələcək, onu şiddətlə cəzalandıracaq və ikiüzlülərlə bir tutacaq. **Orada [cəhənnəmdə] ağlama və diş qıcırtısı olacaq.** (Matta, 24:50-51)

Ya sən, ey Kefarnahum, göyəmi çıxarılacaqsan? **Xeyr, ölülər diyarına [cəhənnəmə] endiriləcəksən!** Çünki səndə edilən möcüzələr Sodomda edilmiş olsaydı, bu günə qədər ayaqda qalardı. Sənə bunu söyləyim, hesab günü sənin halın Sodom bölgəsinin halından betər olacaq! (Matta, 11:23-24)

... **Bunlar [pislər] sonsuz əzaba [cəhənnəmə], doğrular isə sonsuz həyata [cənnətə] gedəcəklər.** (Matta, 25:46)

... Ey pislik edənlər! **“İbrahimi, İshaqı, Yaqubu və bütün peyğəmbərləri Allahın hökmranlığında [cənnətdə], özünüzü isə çölə atılmış gördüyünüz zaman, aranızda ağlama və diş qıcırtısı olacaq.”** (Luka, 13:27-28)

Ya sən, ey Kefarnahum, göyəmi çıxarılacaqsan? **Xeyr, ölülər diyarına [cəhənnəmə] endiriləcəksən!...** Sənə bunu söyləyim, hesab günü sənin halın Sodom bölgəsinin halından betər olacaq! (Matta, 11:23-24)

Bir gün yoxsul adam öldü... Sonra zəngin adam da öldü və basdırıldı. Ölülər diyarında [cəhənnəmdə] iztirab çəkən zəngin adam başını qaldırıb uzaqda İbrahimi və onun yanında Lazarı gördü. “Ey atamız İbrahim, acı mənə!” deyə səsləndi. “Lazarı göndər ki, barmağının ucunu suya batırıb dilimi sərinlətsin. Bu alovların içində əzab çəkirəm.” İbrahim, “Oğlum” dedi, “Həyatın boyunca sənin yaxşılıq payını, Lazarın da pislik payını aldığını unutma. İndi isə o burada təsəlli edilir, sən də əzab çəkirsən. **Üstəlik, aramıza elə bir uçurum qoyuldu ki, nə buradan sizə gəlmək istəyənlər gələ bilər, nə də oradan [cəhənnəmdən] kimsə bizə [cənnətə] gələ bilər.” (**Luka, 16:22-26)

Sizi ilanlar, gürzələr soyu! **Cəhənnəm cəzasından necə qaçacaqsınız?** Məhz bunun üçün sizə peyğəmbərlər, müdrik kəslər və din alimləri göndərirəm. Bunlardan kimini öldürəcək... kimini qamçılayacaq, şəhərdən şəhərə qovacaqsınız. (Matta, 23:33-34)

# 7-Cİ HİSSƏ
# İNCİLDƏ ZAMANSIZLIQ VƏ QƏDƏRƏ İMAN

İman yoluyla, lütflə [Allahın lütfüylə] xilas oldunuz. Bu sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir. Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. Çünki biz Allahın əsəriyik, **Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üzrə... yaradıldıq.** (Efeslilərə, 2:8-10)

Belə ki, geriyə qalan insanlar... bütün xalqlar Rəbbi axtarsınlar. **Bunları da başlanğıcdan bildirən Rəbb belə deyir.** (Həvarilərin İşləri, 15:18)

... **Allah nələrə ehtiyac duyduğumuzu siz daha Ondan diləmədən əvvəl bilir.** (Matta, 6:8)

... Ona İsa adı verildi. **Bu, onun ana rəhminə düşməsindən əvvəl [Allahın icazəsiylə] mələyin ona verdiyi ad idi.** (Luka, 2:21)

Allahım, mənə verdiklərinin də olduğum yerdə mənimlə birlikdə olmalarını... istəyirəm. Çünki **dünyanın quruluşundan əvvəl Sən məni sevdin.** Ədalətli Allah, dünya Səni tanımır, amma mən Səni tanıyıram. Bunlar da məni Sənin göndərdiyini bilirlər. (Yəhya, 17:24-25)

**Dünyanın quruluşundan əvvəl bilinən Məsih, dövrlərin sonunda sizin faydanız üçün ortaya çıxdı...** [Allaha] iman edirsiniz. Beləcə, imanınız və ümidiniz Allahdadır. (1 Peter, 1:20-21)

Ona... iman etməyən isə **onsuz da mühakimə olunmuşdur...** (Yəhya, 3:18)

Sevimli qardaşlarım, bunu unutmayın ki, **Rəbbin Qatında bir gün min il və min il bir gün kimidir.** (2 Peter, 3:8)

O [Allah] Öz hüzurunda sevgidə müqəddəs və qüsursuz olmağımız üçün **dünyanın quruluşundan əvvəl bizi... seçdi.** Öz istəyi və yaxşı məqsədinə uyğun olaraq... **Özünə... [qul] olaq deyə bizi əvvəldən təyin etdi.** (Efeslilərə, 1:4-5)

Allah bizi etdiklərimizə görə deyil, Öz məqsədinə və lütfünə görə qurtarıb müqəddəs bir həyata çağırdı. **Bu lütf bizə zamanın başlanğıcından əvvəl Məsih İsada [hz. İsa (ə.s)-a Allah rizası üçün uymağımızla] bağışlanmış, indi də onun gəlişiylə ortaya çıxarılmışdır...** (Timoteyə, 1:9-10)

**Bəzi kəslərin günahları müəyyəndir, mühakimə kürsüsünə özlərindən əvvəl çatar... yaxşı işlər də müəyyəndir...** (1 Timoteyə, 5:24-25)

**Allahın sevdiyi qardaşlarım, sizləri Onun [iman edən qullar olaraq] seçdiyini bilirik.** (1 Saloniklilərə, 1:4)

**Zamanın başlanğıcından əvvəl Allahın bizim ucalığımız üçün təyin etdiyi** bu müdrikliyi, bu çağın öndərlərindən heç biri anlamadı... Yazıldığı kimi, "Allahın Özünü sevənlər üçün hazırladıqlarını, heç bir göz görmədi, heç bir qulaq eşitmədi, heç bir insan ürəyi qavramadı." (1 Korinflilərə, 2:7-9)

Bunun üzərinə onu [hz. İsa (ə.s)-ı] tutmaq istədilər, amma kimsə ona əl vura bilmədi. Çünki **onun saatı hələ gəlməmişdi.** (Yəhya, 7:30)

İsa bu sözləri məsciddə öyrədərkən, hədiyyə toplanan yerdə söylədi. Kimsə onu tutmadı. Çünki **saatı hələ gəlməmişdi**. (Yəhya, 8:20)

... **Allahın köhnə çağlardan bəri müqəddəs peyğəmbərlərinin ağzından bildirdiyi kimi, hər şeyin yenidən təşkil ediləcəyi zamana qədər İsanın göydə [Allah Qatında] qalması lazımdır.** (Həvarilərin İşləri, 3:18-21)

... Mübarək qulun İsaya qarşı bir yerə gəldilər. **Sənin Öz gücün və istəyinlə əvvəldən qərarlaşdırdığın hər şeyi reallaşdırdılar.** (Həvarilərin İşləri, 4:27-28)

İman edən qadın necə xoşbəxtdir! Çünki **Rəbbin ona söylədiyi sözlər reallaşacaq.** (Luka, 1:45)

Allah... İsa Məsihlə əlaqədar bu Müjdəni peyğəmbərləri vasitəsilə **Müqəddəs Yazılarda əvvəldən vəd etdi**. (Romalılara, 1:2)

"Hamınız üçün söyləmirəm, mən [Allahın icazəsiylə] seçdiklərimi bilirəm. Amma "Çörəyimi yeyən mənə xəyanət etdi" deyən **Müqəddəs Yazının yerinə gəlməsi üçün belə olacaq. Sizə indidən, bunlar olmadan əvvəl [Allahın icazəsiylə] söyləyirəm ki, bunlar olunca, mənim o olduğuma inanasınız.**" (Yəhya, 13:18-19)

Allahın, Özünü sevənlər, **məqsədinə uyğun [imana] çağrılanlar** üçün hər vəziyyətdə yaxşılıq təmin etdiyini bilirik... **Allah əvvəldən təyin etdiyi kəsləri çağırdı,** çağırdıqlarını təmizə çıxardı və onları ucaltdı. (Romalılara, 8:28-30)

**Ucaltmaq üçün əvvəldən hazırlayıb mərhəmət etdiklərinə**, ucalığının zənginliyini göstərmək üçün bunu etdisə, nə deyək? Təkcə yəhudilər arasından deyil, o biri xalqlar arasından da çağırdığı bu insanlar bizik. (Romalılara, 9:23-24)

Allahın seçdiyi kəslərin iman etmələri, Allah yoluna uyğun həqiqəti anlamaları üçün Allahın qulu və İsa Məsihin elçisi təyin edilən mən Pauldan salam! Elçiliyim... **Allahın zamanın başlanğıcından əvvəl vəd etdiyi [cənnətdəki] sonsuz həyat** ümidinə əsaslanır. Xilaskarımız Allahın buyruğuyla mənə əmanət edilən məlumatda Allah Öz sözünü uyğun zamanda açıqlamışdır. (Titə, 1:1-3)

Göyü və göydəkiləri, yeri və yerdəkiləri, dənizi və dənizdəkiləri yaradanın, sonsuzluqlar boyunca yaşayanın haqqı üçün and içib dedi ki, "... **Allahın vədi tamamlanacaq. Necə ki, Allah bunu, qulları peyğəmbərlərə müjdələmişdi.**" (Vəhy, 10:6-7)

Amma biz, ey Rəbbin sevdiyi qardaşlar, sizlər üçün hər zaman Allaha təşəkkür borcluyuq. Çünki **Allah... gerçəyə inanaraq xilas olmanız üçün sizi də başlanğıcdan seçdi [qədərdə mömin olaraq yaratdı].** (2 Saloniklilərə, 2:13)

İsa onlara, "Allahın Öz səlahiyyətiylə **təyin etdiyi zamanları və tarixləri** sizin bilmənizə icazə yoxdur" qarşılığını verdi. (Həvarilərin İşləri, 1:7)

O biri xalqlardan olanlar bunu eşidincə sevindilər və Rəbbin sözünü ucaltdılar. **Sonsuz həyat [cənnət] üçün təyin olanların hamısı iman etdi.** (Həvarilərin İşləri, 13:48)

Bu çətinliklərdən ötrü kimsə sarsılmasın deyə sizi imanda gücləndirib ürəkləndirməsini istədik. **Çətinliklərdən keçmək üçün təyin olunduğumuzu** siz də bilirsiniz. (1 Saloniklilərə, 3:3)

... İmansızlar Allahın sözünü dinləmədikləri üçün büdrəyərlər. **Onsuz da büdrəmək üçün təyin olunmuşlar [qədərdə müvəffəqiyyətsiz olacaqları şəkildə yaradılmışlar].** (1 Peter, 2:8)

... **Allah Məsihi təyin olunan zamanda ortaya çıxaracaq.** Qürur və qüdrət sonsuza qədər Onun [Allahın] olsun! Amin. (1 Timoteyə, 6:15-16)

İnsanoğlu [hz. İsa (ə.s)], **təyin olunmuş yoldan gedir...** (Luka, 22:22)

# 8-Cİ HİSSƏ
# İNCİLDƏ MƏLƏKLƏRƏ İMAN

**Mələk ona belə cavab verdi: "Mən Allahın hüzurunda dayanan Cəbrailam. Səninlə danışmaq və bu müjdəni sənə bildirmək üçün göndərildim."** (Luka, 1:19)

**Çünki belə yazılmışdır: "Allah səni qorumaları üçün mələklərinə buyruq verəcək." Ayağın bir daşa dəyməsin deyə səni əlləri üzərində daşıyacaqlar." [Hz. İsa (ə.s)-a zərər gəlməsin deyə qoruyacaqlar.]** (Luka, 4:10-11)

**... Allah mələk Cəbraili... bir qıza göndərdi. Qızın adı Məryəm idi. Onun yanına girən mələk, "Ey Allahın lütfünə çatan qız, salam! Rəbb səninlədir" dedi.** Deyilənlərə çox təəccüblənən Məryəm, bu salamın nə anlama gələ biləcəyini düşünməyə başladı. **Amma mələk ona, "Qorxma Məryəm" dedi, "sən Allahın lütfünə çatdın. Bax, hamilə qalıb bir oğul doğacaqsan, adını İsa qoyacaqsan. O böyük olacaq..." Məryəm mələyə, "Bu necə olar? Mənə kişi toxunmadı ki" dedi. Mələk ona belə cavab verdi: "...** Allahın edə bilməyəcəyi heç bir şey yoxdur." "Mən Rəbbin quluyam" dedi Məryəm, "mənə dediyin kimi olsun." **Bundan sonra mələk onun yanından ayrıldı.** (Luka, 1:26-38)

**Rəbbin bir mələyi onlara göründü...** Böyük bir qorxuya qapıldılar. **Mələk isə onlara, "Qorxmayın!" dedi.** "Sizə, bütün xalq üçün böyük sevinc qaynağı olacaq bir müjdə gətirirəm..." (Luka, 2:9-11)

İsa ona belə cavab verdi: "Çəkil get, Şeytan! "Allahın olan Rəbbə tapın, yalnız Ona qulluq et" deyə yazılmışdır." Bunun üzərinə iblis İsanı buraxıb getdi. **Mələklər də gəlib İsaya xidmət etdilər.** (Matta, 4:10-11)

"Dəlicələr [yabanı ağaclar] necə toplanıb atəşdə yandırılırsa, çağın sonunda da belə olacaq... **[Allah] mələklərini göndərəcək**, onlar da insanları günaha salan hər şeyi, pislik edən hər kəsi... yığıb qızğın sobaya [cəhənnəmə] atacaqlar. (Matta, 13:40-42)

Çağın sonunda da belə olacaq. **Mələklər gəlib pis kəsləri doğruların arasından ayıracaqlar** və onları qızğın sobaya [cəhənnəmə] atacaqlar. Orada ağlama və diş qıcırtısı olacaq. "Bütün bunları anladınızmı?" deyə soruşdu İsa. (Matta, 13:49-50)

**... [Allah] mələklərini göndərəcək** və onlar, Onun seçdiklərini, göylərin bir ucundan o biri ucuna qədər dörd yeldən götürüb bir yerə yığacaqlar. (Matta, 24:30-31; Mark, 13:26-27)

**O günü və saatı, nə göydəki mələklər, nə də İsa bilər;** Allahdan başqa kimsə bilməz. (Matta, 24:36)

O zaman İsa ona, "... Allahımdan... istəsəm, dərhal indi mənə on iki legiondan çox mələk göndərər." (Matta, 26:52-53; Mark, 13:32)

... **Rəbbin bir mələyi göydən endi...** Görünüşü şimşək kimi, geyimləri isə qar kimi dümağ idi. Növbətçilər qorxudan titrəməyə başladılar, sonra ölü kimi yerə yıxıldılar. **Mələk qadınlara belə səsləndi:** "Qorxmayın!..." (Matta, 28:2-5)

Amma belə düşünməsi üzərinə **Rəbbin bir mələyi** ona yuxuda görünərək belə dedi: "... Qorxma... Məryəm bir oğul doğacaq. Adını İsa qoyacaqsan..." (Matta, 1:20-21)

**Yusif oyanınca Rəbbin mələyinin özünə buyurduğu kimi etdi...** (Matta, 1:24)

... **Rəbbin bir mələyi Yusifə yuxuda göründü.** Ona, "Qalx!" dedi. "Uşağı və anasını götür və Misirə get. Mən sənə xəbər verənə qədər orada qal. Çünki Hirod uşağı öldürmək məqsədiylə onu axtaracaq." (Matta, 2:13)

Hirod öldükdən sonra, **Rəbbin bir mələyi Misirdə Yusifə yuxuda görünərək**, "Qalx!" dedi. "Uşağı və anasını götür, İsrail diyarına dön. Çünki uşağı öldürmək istəyənlər öldü." (Matta, 2:19-20)

... Bütün xalq birliyi çöldə dua edirdi. Bu sırada, **Rəbbin bir mələyi... Zəkəriyyaya göründü.** Zəkəriyya onu görüncə təəccübləndi, qorxuya qapıldı. **Mələk ona, "Qorxma, Zəkəriyya" dedi, "duan qəbul edildi.** Arvadın Elizabet sənə bir oğul doğacaq, onun adını Yəhya qoyacaqsan. Sevinib coşacaqsan. Bir çoxları da onun doğumuna sevinəcək. O, Rəbbin gözündə böyük olacaq. Heç şərab və içki içməyəcək; hətta anasının rəhmindəykən Allahın Ruhuyla dolacaq [Allahın razılığını qazanan bir əxlaqa sahib olacaq]. İsrailoğullarından bir çoxunu, Allahları olan Rəbbə döndürəcək..." **Zəkəriyya mələyə**, "Bundan necə əmin ola bilərəm?" dedi. "Çünki mən yaşlandım, arvadımın da yaşı artdı." **Mələk ona belə cavab verdi: "Mən Allahın hüzurunda dayanan Cəbrailam. Səninlə danışmaq və bu müjdəni sənə bildirmək üçün göndərildim...** Bunların reallaşacağı günə qədər danışa bilməyəcəksən." (Luka, 1:10-20)

**Birdən-birə Rəbbin bir mələyi göründü və hücrədə bir işıq parladı. Mələk Peterun sinəsinə toxunub onu oyandırdı. "Tez, qalx!" dedi.** O anda zəncirlər Peterun biləklərindən düşdü. **Mələk ona, "Qurşağını bağla, çarıqlarını gey" dedi. Peter da deyiləni etdi. "Əbanı gey, məni izlə" dedi mələk. Peter onu izləyərək çölə çıxdı. Amma mələyin etdiyinin gerçək olduğunu anlamır, bir xəyal gördüyünü sanırdı. O zaman özünə gələn Peter, "Rəbbin mənə mələyini göndərdiyini indi həqiqətən anlayıram" dedi.** "O məni Hirodin əlindən və yəhudi xalqının uğrayacağamı ümid etdiyi bütün bəlalardan qurtardı." (Həvarilərin İşləri, 12:7-11)

Bundan sonra göyün ortasında uçan başqa **bir mələk gördüm. Bu mələk, yer üzündə yaşayanlara hər millətə və hər qəbiləyə, hər dilə və hər xalqa çatdırmaq üçün sonsuza qədər qalacaq müjdəni gətirirdi [Allahın vəhyini çatdırırdı].** Yüksək səslə belə deyirdi: "Allahdan qorxun! Onu ucaldın! Çünki Onun mühakimə etmə saatı gəldi. Göyü, yeri, dənizi və su mənbələrini yaradana tapının!" (Vəhy, 14:6-7)

... **Mələklər**, iqtidar sahibləri və güclər **Ona [Allaha] tabedir.** (1 Peter, 3:22)

**Bütün mələklər, qurtuluşu miras götürənlərə xidmət etmək üçün göndərilən vəzifəli ruhlar deyilmi?** (İbranilərə, 1:14)

**Amma gecə Rəbbin bir mələyi zindanın qapılarını açıb onları çölə çıxartdı.** "Gedin! Məscidə girib bu yeni həyatla əlaqədar sözlərin hamısını xalqa elan edin" dedi. (Həvarilərin İşləri, 5:19-20)

... **Mələklər vasitəsilə buyurulan Qanunu [Allahın vəhyi olan əmr və qadağalarını]** alıb buna uymayan sizlər, indi də ədalətli olana xəyanət etdiniz... (Həvarilərin İşləri, 7:52)

Bu vaxt **Rəbbin bir mələyi Filipə belə səsləndi:** "Qalx, cənuba doğru, Yerusəlimdən Qəzzəyə enən yola, səhra yoluna get." Filip də qalxıb getdi... (Həvarilərin İşləri, 8:26-27)

Bir gün saat üç radələrində, bir görüntüdə **Allahın bir mələyinin özünə gəldiyini açıqca gördü. Mələk ona, "Korneli" deyə səsləndi.** (Həvarilərin İşləri, 10:3)

... Sonra gəldilər... **İsanın yaşadığını bildirən mələklər gördüklərini söylədilər.** (Luka, 24:23)

... **Müqəddəs bir mələk ona**, səni evinə çağırıb sənin söyləyəcəklərini dinləməsini buyurdu. (Həvarilərin İşləri, 10:22)

**Adam bizə, evində meydana çıxan mələyi necə gördüyünü izah etdi. Mələk ona belə demiş:** "Yafoya adam göndər, Peter deyə tanınan Şimonu çağırtdır. O sənə, səninlə bütün ev xalqının qurtuluş tapacağı sözlər söyləyəcək." (Həvarilərin İşləri, 11:13-14)

Təyin olunan gündə krallıq geyimlərini geymiş Hirod taxtına oturaraq xalqla danışdı. Xalq... qışqırırdı. **O anda Rəbbin bir mələyi Hiroui vurdu [canını aldı].** Çünki Allaha aid olan ucalığı özünə aid etmişdi. İçi qurdlar tərəfindən yeyilərək can verdi. (Həvarilərin İşləri, 12:21-23)

Fikrimcə Allah biz elçiləri, ölüm hökmlüləri kimi ən geridən gələnlər olaraq nümayiş etdirdi. **Həm mələklər, həm insanlar üçün, bütün kainat üçün seyrlik olduq.** (1 Korinflilərə, 4:9)

Əgər insanların və **mələklərin dilləriylə danışsam**, amma sevgim olmasa, səs çıxaran mis ya da zingildəyən zəngdən fərqim olmaz. (1 Korinflilərə, 13:1)

**... İsa... güclü mələkləriylə göydən gəlib [Allah Qatından nüzul edib] göründüyü zaman olacaq.** (2 Saloniklilərə, 1:7-8)

... O [hz. **İsa (ə.s)],** bədəndə göründü... mələklər tərəfindən göründü, xalqlara tanıdıldı, dünyada ona iman edildi, ucalıq içində yuxarı [Allah Qatına] alındı. (1 Timoteyə, 3:16)

Bu söylədiklərimi tərəf tutmadan və heç kimi qorumadan yerinə yetirməyin üçün səni Allahın, Məsih İsanın və seçilmiş **mələklərin qarşısında xəbərdar edirəm.** Birinin üzərinə əllərini qoymaqda tələskən davranma, başqalarının günahlarına ortaq olma. Özünü təmiz tut. (1 Timoteyə, 5:21-22)

Çünki **mələklər vasitəsilə bildirilmiş söz** keçərli oldusa, hər günah və hər söz dinləməzlik layiq olduğu qarşılığı aldısa, bu qədər böyük qurtuluşu görməzlikdən gələrsək necə xilas ola bilərik? (İbranilərə, 2:2-3)

... **Mələklər belə güc və qüdrətdə daha üstün olduqları halda** bu varlıqları Rəbbin qarşısında söyərək mühakimə etməzlər. (2 Peter, 2:11)

... Mikail belə... onu mühakimə etməyə cəhd etmədi. (Yəhya, 9)

... **[Allah] göndərdiyi mələyi vasitəsilə** bunu qulu Yəhyaya çatdırdı. (Vəhy, 1:1)

Yüksək səslə, "Tumarın möhürlərini qırmağa və onu açmağa kim layiqdir?" deyə səslənən **güclü bir mələk də gördüm**. Amma nə göydə, nə yer üzündə, nə də yer altında tumarı açıb içinə baxa biləcək kimsə yox idi. (Vəhy, 5:2-3)

Sonra, **göydən enən başqa bir güclü mələk gördüm... (**Vəhy, 10:1)

Səkkizinci gün... ona İsa adı verildi. Bu, onun ana rəhminə düşməsindən əvvəl **mələyin ona verdiyi ad idi**. (Luka, 2:21)

# 9-CU HİSSƏ
# İNCİLDƏ İMANIN ŞƏRTLƏRİ

## Allaha şükür etmək

**Hər vəziyyətdə şükür edin. Çünki Allahın sizin üçün istədiyi budur.** (1 Saloniklilərə, 5:18)

Allahın sizə bağışladığı fövqəladə lütfdən ötrü sizlər üçün dua edir, sizin üçün darıxırlar. **Sözlə izah edilə bilməyən hədiyyəsi üçün Allaha şükürlər olsun!** (2 Korinflilərə, 9:14-15)

Bununla İsa xalqa yerə oturmalarını buyurdu. Sonra **yeddi çörəyi götürdü, şükür edib bunları böldü,** paylamaları üçün şagirdlərinə verdi. Onlar da xalqa payladılar. Bir neçə kiçik balıqları da vardı. **İsa şükür edib bunları da paylamalarını söylədi.** (Mark, 8:6-7)

Halbuki, Allahın yaratdığı hər şey yaxşıdır, heç bir şey rədd edilməməli; **yetər ki, təşəkkürlə qəbul edilsin.** (1 Timoteyə, 4:4)

Nəzərinizi duaya yönəldin. Duada ayıq qalın, **şükür edin**. (Kolosselilərə, 4:2)

Müəyyən bir günü qeyd edən, Rəbb üçün qeyd edər. **Hər şeyi yeyən, Allaha şükür edərək Rəbb üçün yeyər. Bəzi şeyləri yeməyən də Rəbb üçün yeməz və Allaha şükür edər.** (Romalılara, 14:6)

... **Bizi zəfərə çatdıran Allaha şükürlər olsun!** Bu səbəblə, sevimli qardaşlarım, Rəbb yolunda verdiyiniz əməyin boşa getməyəcəyini bilərək dayanın, sarsılmayın, Rəbbin işində hər zaman çalışqan olun. (1 Korinflilərə, 15:57-58)

Aranızda açıq-saçıqlıq, axmaq söhbətlər, bayağı zarafatlar da olmasın. Bunlar sizə yaraşmaz. **Bunun yerinə şükür edin.** (Efeslilərə, 5:4)

Bir-birinizə məzmurlar, ilahilər, ruhani nəğmələr söyləyin; ürəkdən Rəbbə nəğmələr, məzmurlar oxuyun; **dayanmadan, hər şey üçün... Allaha şükür edin;** [Allah rizası üçün] Məsihə duyduğunuz hörmətə görə bir-birinizə bağlı olun. (Efeslilərə, 5:19-21)

**Sizi xatırladıqca Allahıma şükür edirəm.** (Filipililərə, 1:3)

... **Şükür edici olun!** Məsihin sözü bütün zənginliyi ilə içinizdə yaşasın. Tam bir müdrikliklə bir-birinizə öyrədin, öyüd verin, məzmurlar, ilahilər, ruhani nəğmələr söyləyərək **ürəklərinizdə təşəkkürlə Allaha nəğmələr yüksəldin.** Söylədiyiniz, etdiyiniz hər şeyi.. **Allaha şükür edərək edin.** (Kolosselilərə, 3:15-17)

Dualarımızda sizləri xatırlayır, **hər zaman hamınız üçün Allaha şükür edirik**. İmanın məhsulu olan fəaliyyətinizi, sevgiyə əsaslanan əməyinizi və... İsa Məsihə bağladığınız ümiddən qaynaqlanan möhkəmliyinizi Allahın hüzurunda dayanmadan anırıq. (1 Saloniklilərə, 1:2-3)

**Təşəkkürlə dolub daşaraq** Onda [Allaha bağlılıqda] köklənin və inkişaf edin, sizə öyrədildiyi kimi imanda güclənin. (Kolosselilərə, 2:7)

O anda İsa... belə dedi: “Allah, yerin və göyün Rəbbi! Bu gerçəkləri müdrik və ağıllı kəslərdən gizlədib kiçik uşaqlara açdığın üçün Sənə şükür edirəm. Bəli Allah, Sənin istəyin bu idi.” (Luka, 10:21; Matta, 11:25)

[Hz. İsa (ə.s):] “Onları ac olaraq evlərinə göndərsəm, yolda huşlarını itirərlər. Həm bəziləri uzaq yoldan gəlir.” Şagirdləri buna qarşılıq, “Belə kimsəsiz bir yerdə bu qədər adamı doyuracaq çörəyi insan haradan tapa bilər?” dedilər. İsa, “neçə çörəyiniz var?” deyə soruşdu. “Yeddi” dedilər. Bunun üzərinə İsa, xalqa yerə oturmalarını buyurdu. Sonra **yeddi çörəyi götürdü, şükür edib bunları böldü,** paylamaları üçün şagirdlərinə verdi. Onlar da xalqa payladılar. Bir neçə kiçik balıqları da vardı. **İsa şükür edib bunları da paylamalarını söylədi. Hər kəs yeyib doydu.** Artıq qalan parçalardan yeddi kisə dolusu yığdılar. Orada təxminən dörd min adam vardı. (Mark, 8:3-10)

**Allaha həmişə şükür etməyimiz üçün bir səbəb daha var:** Allahın sözünü bizdən eşidib qəbul etdiyiniz zaman, bunu insan sözü olaraq deyil, gerçəkdə olduğu kimi, Allah sözü olaraq mənimsədiniz. Siz imanlılarda təsirli olan da bu sözdür. (1 Saloniklilərə, 2:13)

... İyirmi dörd qoca üzü üstə yerə əyildi. Allaha tapınaraq belə dedilər: **“Hər şeyə gücü çatan, var olan, var olmuş olan Rəbb Allah! Sənə şükür edirik...”** (Vəhy, 11:16-17)

İsa, “neçə çörəyiniz var?” deyə soruşdu. “Yeddi çörəklə bir neçə kiçik balığımız var” dedilər. Bunun üzərinə İsa, xalqa yerə oturmalarını buyurdu. **Yeddi çörəklə balıqları götürdü, şükür edib bunları böldü, şagirdlərinə verdi.** Onlar da xalqa payladılar. Hər kəs yeyib doydu. Artıq qalan parçalardan yeddi kisə dolusu yığdılar. Yemək yeyənlərin sayı, qadın və uşaqlar istisna olmaqla, dörd min kişi idi. (Matta, 15:34-38)

Məhz o əsnada ortaya çıxan Anna, Allaha şükür edərək Yerusəlimin qurtuluşunu gözləyən hər kəsə [Allahın elçisi] İsadan danışmağa başladı. (Luka, 2:38)

Bunun üçün... İsaya [Allahın Peyğəmbəri olaraq] iman etdiyinizi və bütün müqəddəsləri [özünü Allaha həsr etmişləri] sevdiyinizi eşitdiyimdən bəri, mən də sizin üçün daima [Allaha] şükür edir, sizi dualarımda həmişə xatırlayıram. (Efeslilərə, 1:15-16)

Heç narahat olmayın; hər mövzudakı diləklərinizi, **Allaha dua edib yalvararaq təşəkkürlə bildirin.** (Filipililərə, 4:6)

... Üzü üstə yerə çöküb Allaha tapınaraq belə deyirdilər: “Amin! Tərif, ucalıq, müdriklik, **təşəkkür**, hörmət, güc, qüdrət, **sonsuzlara qədər Allahımızın olsun!** Amin!” (Vəhy, 7:11-12)

Amma **şükürlər olsun Allaha**! Əvvəl günahın kölələri olan sizlər... [sizə izah edilən] təlimin əsasına ürəkdən bağlandınız. Günahdan azad olunaraq doğruluğun kölələri oldunuz. (Romalılara, 6:17-18)

Daxili varlığımda Allahın Qanunundan [Allahın əmr və qadağalarına uymaqdan] zövq alıram... **Allaha şükürlər olsun!** Nəticə olaraq mən ağlımla Allahın Qanununa... qulluq edirəm. (Romalılara, 7:22, 25)

Farisey ayaq üstə durub öz-özünə belə dua etdi: “Allahım, o biri insanlara -soyğunçulara, haqqı yeyənlərə, zina edənlərə-... bənzəmədiyim üçün **Sənə şükür edirəm**.” (Luka, 18:11)

İlkin **hamınız üçün... Allahıma şükür edirəm.** Çünki imanınız bütün dünyada eşitdirilir. (Romalılara, 1:8)

... Belə ki, atalarımıza verilən sözlər təsdiqlənsin və o biri xalqlar mərhəməti üçün Allahı ucaltsın. Yazıldığı kimi: “Bunun üçün **xalqlar arasında Sənə şükür edəcəyəm**, Adını ilahilərlə tərifləyəcəyəm.” (Romalılara, 15:8-9)

[Allah rizası üçün] İsa Məsihin adını hər yerdə anan hər kəsə, Allahdan... lütf və sağlamlıq olsun. Allahın, Məsih İsada [Hz. İsa (ə.s) vəsiləsiylə] sizə bağışladığı lütfdən ötrü, sizin üçün **hər zaman Allahıma şükür edirəm.** (1 Korinflilərə, 1:4)

... **Allaha şükür edirəm.** (1 Korinflilərə, 1:15)

**Şükür edərək yeməyə qatılsam,** şükür etdiyim yeməkdən ötrü niyə qınanım? Nəticə olaraq, nə yeyər, nə içərsəniz, nə edərsəniz, hər şeyi Allahın ucalığı üçün edin. (1 Korinflilərə, 10:30-31)

Sizə çatdırdığımı mən Rəbdən öyrəndim... **İsa əlinə çörək götürdü, şükür edib çörəyi böldü...** (1 Korinflilərə, 11:23-24)

Əkinçiyə toxum və yemək üçün çörək ehtiyatı verən Allah sizin də əkin ehtiyatınızı çoxaldacaq və salehliyinizin bəhrəsini artıracaq. Hər tərəfli səxavətli olmanız üçün hər baxımdan varlandırılacaqsınız. **Səxavətiniz... Allaha şükür etməyə səbəb olacaq**. Çünki etdiyiniz bu xidmət yalnız müqəddəslərin ehtiyaclarını ödəməklə kifayətlənmir, həm də **Allaha edilən çox şükürlərlə aşıb-daşır**. (2 Korinflilərə, 9:10-12)

Allah bizi beləcə böyük bir ölüm təhlükəsindən qurtardı; daha da qurtaracaq. Ümidimizi Ona bağladıq. Siz də dualarınızla bizə kömək etdikcə, bizi yenə qurtaracaq. **Belə ki, bir çox adamın dualarıyla bizə edilən lütfdən ötrü bir çoxlarının dilindən bizim üçün [Allaha] təşəkkürlər edilsin.** (2 Korinflilərə, 1:10-11)

Bütün bunlar sizin faydanızadır. Beləliklə, **Allahın lütfü çoxalıb daha çox insana çatdıqca, Allahın ucalığı üçün təşəkkür də artsın.** (2 Korinflilərə, 4:15)

Bizi həmişə Məsihin zəfər alayında aparan, Onu tanımağın gözəl qoxusunu vasitəçiliyimizlə hər yerdə yayan **Allaha şükürlər olsun**! Çünki biz həm xilas olanlar, həm də məhv olanlar arasında Allah üçün Məsihin gözəl qoxusuyuq. Məhv olanlar üçün ölümə aparan [cəhənnəminə vəsilə olan] ölüm qoxusu, xilas olanlar üçünsə həyata aparan [cənnətinə vəsilə olan] həyat qoxusuyuq... (2 Korinflilərə, 2:14-16)

Titin ürəyində sizin üçün eyni maraq yaradan Allaha şükürlər olsun! Çünki Tit təkcə xahişimizi qəbul etməklə deyil, eyni zamanda sizə diqqət göstərdiyi üçün öz istəyilə yanınıza gəlir. (2 Korinflilərə, 8:16-17)

Hər şeydən əvvəl bunu nəsihət edirəm: Allah yoluna bir bağlılıq və ciddiyyətlə sakit və hüzurlu bir həyat yaşayaq deyə, krallarla bütün yuxarı rəhbərlər daxil, bütün insanlar üçün [Allaha] diləklər, dualar, yalvarışlar və **şükürlər edilsin**. (1 Timoteyə, 2:1-2)

Dayanmadan, gecə gündüz dualarımda səni xatırlayaraq atalarım kimi **təmiz vicdanla qulluq etdiyim Allaha şükür edirəm**. (2 Timoteyə, 1:3)

İsa: "Getmələrinə ehtiyac yoxdur, onlara siz yemək verin"—dedi. Şagirdlər: "Burada beş çörəklə iki balıqdan başqa bir şeyimiz yox ki"—dedilər. İsa: "Onları bura, mənə gətirin" dedi. Xalqa otluqda əyləşmələrini buyurduqdan sonra, beş çörəklə iki balığı götürdü, **gözlərini göyə qaldıraraq şükür etdi; sonra çörəkləri bölüb şagirdlərinə verdi, onlar da xalqa payladılar.** Hər kəs yeyib doydu. Artıq qalan parçalardan on iki dolu səbət yığdılar. Yemək yeyənlərin sayı, qadın və uşaqlar istisna olmaqla, təxminən beş min kişi idi. (Matta, 14:16-21)

**Yemək əsnasında İsa əlinə çörək götürdü, şükür edib çörəyi böldü** və şagirdlərinə verdi. "Alın, yeyin" dedi... **Sonra bir kasa götürüb şükür etdi** və bunu şagirdlərinə verərək, "Hamınız bundan için" dedi. (Matta, 26:26-27; Mark, 14:22-23)

İsa onlara: "Neçə çörəyiniz var, gedin baxın"—dedi. Öyrənib gəldilər: "Beş çörəklə iki balığımız var"—dedilər. İsa hər kəsə qrup şəklində yaşıl ot üzərində oturmalarını buyurdu. Xalq yüz, əlli nəfərlik qruplar halında oturdu. İsa beş çörəklə iki balığı götürdü, gözlərini göyə qaldıraraq **şükür etdi; sonra çörəkləri böldü** və xalqa paylamaları üçün şagirdlərinə verdi.

İki balığı da hamısının arasında paylaşdırdı. Hər kəs yeyib doydu. Artıq qalan çörək və balıqdan on iki dolu səbət yığdılar. Yemək yeyən kişilərin sayı beş minə qədər idi. (Mark, 6:38-44)

İsa: "Onlara siz yemək verin"—dedi. "Beş çöreklə iki balıqdan başqa bir şeyimiz yox"—dedilər. "Yoxsa bu qədər xalq üçün yemək götürməyə bizmi gedək?" Orada təxminən beş min kişi vardı. İsa şagirdlərinə: "Xalqı yüz, əlli nəfərlik qrup halında oturdun"—dedi. Şagirdlər elə edib hər kəsi yerə oturtdular. İsa, beş çörəklə iki balığı götürdü, gözlərini göyə qaldıraraq şükür etdi; sonra bunları böldü və xalqa paylamaları üçün şagirdlərinə verdi. Hər kəs yeyib doydu. Artıq qalan parçalardan on iki dolu səbət toplandı. (Luka, 9:13-17)

Yemək saatı gəlincə İsa, elçiləriylə birlikdə süfrəyə oturdu və onlara belə dedi: "... Pasxa yeməyini sizinlə birlikdə yeməyi çox arzulamışdım..." **Sonra kasanı götürərək şükür etdi** və: "Bunu alın, aranızda paylaşın"— dedi... Sonra **əlinə çörək götürdü, şükür edib çörəyi böldü və onlara verdi...** (Luka, 22:14-19)

Getdikləri kəndə yaxınlaşdıqları sırada İsa, yoluna davam edəcəkmiş kimi davrandı. Amma onlar, "Bizimlə qal. Haradasa axşam olacaq, gün batmaq üzrə" deyərək onu məcbur etdilər. Beləcə, İsa onlarla birlikdə qalmaq üçün içəri girdi. **Onlarla süfrədə oturarkən İsa çörək götürdü, şükür etdi və çörəyi bölüb onlara verdi.** (Luka, 24:28-30)

Paul bunları söylədikdən sonra **çörək götürdü, hamısının qarşısında Allaha şükür etdi,** çörəyi bölüb yeməyə başladı. (Həvarilərin İşləri, 27:35)

Sonunda Romaya çatdıq. Xəbərimizi alan Romadakı qardaşlar, bizi qarşılamaq üçün Appi Bazarına və Üç Mehmanxanaya qədər gəldilər. **Paul onları görüncə Allaha şükür etdi, ürəkləndi.** (Həvarilərin İşləri, 28:15)

Şagirdlərindən biri Şimon Peterin qardaşı Andrey, İsaya dedi ki: "Burada beş arpa çörəyi ilə iki balığı olan bir uşaq var. Amma bu qədər adam üçün bunlar nədir ki?". İsa: "Xalqı yerə oturdun"—dedi. Ora otluq idi. Beləcə, xalq yerə oturdu. Təxminən beş min kişi vardı. **İsa çörəkləri götürdü, şükür etdikdən sonra oturanlara payladı.** Balıqlardan da istədikləri qədər verdi. Hər kəs doyunca İsa şagirdlərinə, "Artıq qalan parçaları yığın, heç bir şey ziyan olmasın" dedi. Onlar da yığdılar. Yedikləri beş arpa çörəyindən artıq qalan parçalarla on iki səbət doldurdular. Xalq, İsanın etdiyi möcüzəni görüncə, "Həqiqətən, dünyaya gələcək Peyğəmbər budur"— dedi. (Yəhya, 6:8-14)

Bunun üzərinə daşı çəkdilər. İsa gözlərini səmaya qaldıraraq belə dedi: "Allahım, məni eşitdiyin [dualarımı qəbul etdiyin] üçün **Sənə şükür edirəm**. Məni hər zaman eşitdiyini bilirdim. Amma bunu, ətrafda dayanan xalq üçün, məni Sənin göndərdiyinə iman etsinlər deyə söylədim." (Yəhya, 11:41-42)

Hər şeyə sevinclə qatlanıb səbir edə bilməniz üçün Onun uca gücünə sığınıb bütün qüdrətlə güclənmənizi diləyirik. Bizi müqəddəslərin [özünü Allaha həsr etmişlərin]... mirasına ortaq olmağa yetərli edən **Allaha şükür etməniz üçün dua edirik**. O bizi qaranlığın hökmranlığından qurtarıb... dərgahına köçürdü... (Kolosselilərə, 1:11-14)

Allahımızın hüzurunda sizə görə böyük sevinc duyuruq. Buna qarşılıq **Allahımıza sizin üçün necə şükür edə bilərik?** Sizinlə üz-üzə görüşmək, iman mövzusundakı əskiklərinizi tamamlamaq üçün gecə-gündüz var gücümüzlə dua edirik. (1 Saloniklilərə, 3:9-10)

Qardaşlar, **sizin üçün hər zaman Allaha təşəkkür borcluyuq.** Belə etməyimiz də yerindədir. Çünki imanınız böyüdükcə böyüyür, hər birinizin o birisinə olan sevgisi artır. (2 Saloniklilərə, 1:3)

Amma biz, ey Rəbbin sevdiyi qardaşlar, **sizlər üçün hər zaman Allaha təşəkkür borcluyuq**. Çünki Allah... [sizləri] gerçəyə inanaraq xilas olmanız üçün sizi də başlanğıcdan seçdi. (1 Saloniklilərə, 2:13)

Sizlər üçün dua edərkən **Allaha... hər zaman şükür edirik.** Çünki Məsih İsaya [Allahın Peyğəmbəri olaraq] iman etdiyinizi və bütün müqəddəsləri [özünü Allaha həsr etmişləri] sevdiyinizi duyduq. (Kolosselilərə, 1:3-4)

... [Allahın Peyğəmbəri olaraq] İsaya olan imanını və bütün müqəddəslərə [özünü Allaha həsr etmişlərə] bəslədiyin sevgini duyduqca dualarımda səni xatırlayır, Allahıma davamlı şükür edirəm. (Filimona 1:4-5)

Allahı bildikləri halda Onu Allah olaraq ucaltmadılar, Ona şükür etmədilər. Əksinə, düşüncələrində ağılsızlığa düşdülər; anlayışsız ürəklərini qaranlıq bürüdü. (Romalılara, 1:21)

## Allaha təvəkkül etmək*

* Hər cür çətinlik və sıxıntının Allahdan gəldiyini bilib, yalnız Allaha güvənmək, Allahdan kömək diləmək.

Onun üçün, ayaq üstə möhkəm dayandığını sanan diqqət yetirsin, yıxılmasın! **Hər kəsin qarşılaşdığı sınaqlardan başqa sınaqlarla qarşılaşmadınız. Allah etibarlıdır, gücünüzü aşan şəkildə sınanmanıza icazə verməz. Dözə bilməniz üçün sınaqla birlikdə çıxış yolunu da təmin edəcəkdir.** (1 Korinflilərə, 10:12-13)

Bu səbəblə, sevimli qardaşlarım, **Rəbb yolunda verdiyiniz əməyin boşa getməyəcəyini bilərək dayanın, sarsılmayın,** Rəbbin işində hər zaman çalışqan olun. (1 Korinflilərə, 15:58)

Amma biz [axirətdə] təmizlənmənin verdiyi ümidin reallaşmasını **Allahın Ruhuna sığınaraq, imanla gözləyirik.** (Qalatiyalılara, 5:5)

Əksinə, Allahın xidmətçiləri olaraq fövqəladə dözümlülükdə, sıxıntı, çətinlik və əzablarda, döyülmə, həbs, qarışıqlıq, əmək, yuxusuzluq və aclıqda; pak yaşayışda, bilik, səbir, yaxşılıq... və qəlbən sevgidə; həqiqətin bilinməsində və Allahın gücündə; sağ və sol əllərimizdə doğruluğun silahlarıyla... yaxşı gündə və pis gündə, özümüzü hər vəziyyətdə nümunə göstəririk. Aldadanlar sailırıqsa da, dürüst kəslərik. (2 Korinflilərə, 6:4-8)

**Adi insanlar kimi yaşayırıqsa da, insani gücə əsaslanıb savaşmırıq [mübarizə aparmırıq].** Çünki savaşımızın [fikri mübarizəmizin] silahları insani silahlar deyil, **qalaları yıxan Allahın gücünə sahib [imana əsaslanan], [mənəvi] silahlardır.** (2 Korinflilərə, 10:3-4)

Amma biz, ey Rəbbin sevdiyi qardaşlar, sizlər üçün hər zaman Allaha təşəkkür borcluyuq. Çünki Allah... gerçəyə inanaraq xilas olmanız üçün sizi başlanğıcdan seçdi... **Elə isə möhkəm dayanın, qardaşlarım! İstər sözlə, istər məktubla, sizə çatdırdığımız təlimlərə möhkəm bağlanın... Bizi sevib lütfüylə bizə sonsuz cəsarət və böyük ümid verən Allahımız sizi ürəkləndirsin, hər yaxşı hərəkət və sözdə gücləndirsin.** (2 Saloniklilərə, 2:13-17)

**Düzgünlük uğruna acı çəksəniz belə, siz necə də xoşbəxtsiniz! İnsanların qorxduqlarından qorxmayın və təlaşlanmayın.** (1 Peter, 3:14)

Buna görə onlardan qorxmayın. **Çünki [Allah üçün] örtülü olub da ortaya çıxarılmayacaq, gizli olub da bilinməyəcək heç bir şey yoxdur...** Bədəni öldürən, amma canı öldürə bilməyənlərdən qorxmayın. Canı da, bədəni də cəhənnəmdə məhvə uğrada bilən Allahdan qorxun. (Matta, 10:26-28)

Son olaraq Rəbdə, **Onun üstün gücüylə güclənin**. İblisin hiylələrinə qarşı möhkəm dayana bilmək üçün Allahın təmin etdiyi bütün [**mənəvi**] silahlardan istifadə edin. Çünki savaşımız [fikri mübarizəmiz]... bu qaranlıq dünyanın güclərinə, pisliyin... ordularına qarşıdır. Bu səbəblə, **pis gündə dayana bilmək, lazımlı hər şeyi etdikdən sonra yerinizdə dayana bilmək üçün Allahın bütün [mənəvi] silahlarından istifadə edin**. Beləcə, belinizi həqiqətlə sarmış, sinənizə düzgünlük zirehini taxmış və ayaqlarınıza sağlamlıq müjdəsini yayma hazırlığını geymiş olaraq yerinizdə durun. Bunların hamısına əlavə olaraq, şeytanın bütün atəşli oxlarını söndürə biləcəyiniz **iman qalxanını alın**. (Efeslilərə, 6:10-16)

Bunu eşitdiyimiz gündən bəri biz də sizlər üçün dua edir, tam bir müdriklik və mənəvi anlayışla Allahın istəyini tamamilə bilmənizi təmin etməsini diləyirik. Rəbbə yaraşar şəkildə yaşamanız, Onu hər cəhətdən məmnun etməyiniz, hər yaxşı işdə bəhrə verərək Allahı tanımaqda irəliləməniz üçün dua edirik. **Hər şeyi sevinclə qarşılayıb səbir edə bilməyiniz üçün Onun uca gücünə sığınıb bütün qüdrətlə güclənmənizi diləyirik...** (Kolosselilərə, 1:9-11)

Amma yanınızdan hələ dönən Timote, imanınıza, sevginizə bağlı bizə gözəl xəbərlər gətirdi. Bizi hər zaman yaxşı xatirələrlə xatırladığınızı, sizi görmək üçün darıxdığımız qədər sizin də bizim üçün darıxdığınızı söylədi. Bu səbəblə qardaşlar, **bütün əziyyət və çətinliklərimiz arasında, imanınızdan ötrü sizinlə hüzur duyduq. Çünki siz Rəbbə bağlı qalsanız, biz əsl o zaman yaşayarıq.** (1 Saloniklilərə, 3:6-8)

**Geyim mövzusunda niyə narahat olursunuz? Qır zanbaqlarının necə böyüdüyünə baxın! Nə işləyərlər, nə də iplik əyirərlər...** (Matta, 6:28-29)

**Haqsız yerə acı çəkən adam, Allah rizası üçün acıya qatlansa, Allahı məmnun edər.** Çünki günah işləyib döyüldüyünüzdə dözsəniz, bunda təriflənəcək nə var? **Amma yaxşılıq edib acı çəkdiyinizdə dözüm göstərsəniz, Allahı məmnun edərsiniz.** Necə ki, bunun üçün çağırıldınız. [Allah rizası üçün] Məsih, izindən gedəsiniz deyə... sizə nümunə oldu. O günah işləmədi, ağzından hiyləli söz çıxmadı. Üzünə söyüldüyündə söyüşlə cavab vermədi, acı çəkdiyində kimsəni təhdid etmədi; **davasını, ədalətlə mühakimə edən Allaha buraxdı. (**1 Peter, 2:19-23)

Ana-atanız, qardaşlarınız, qohum və dostlarınız belə sizi ələ verəcək və bəzilərinizi öldürdəcəklər. Mənim adıma görə [Allah rizasına uyaraq məni izlədiyiniz üçün] hər kəs sizə nifrət edəcək. Nə var ki, başınızdakı saçlardan bir tel belə yox olmayacaq. **Dözümlü olmaqla canlarınızı [cənnətdəki sonsuz həyatı] qazanacaqsınız.** (Luka, 21:16-19)

Mühakimə də budur: Dünyaya işıq gəldi, amma insanlar işıq yerinə qaranlığı sevdilər. Çünki etdikləri işlər pis idi. Pislik edən hər kəs işığa nifrət edər və etdikləri ortaya çıxmasın deyə işığa yaxınlaşmaz. Amma **gerçəyi tətbiq edən adam etdiklərini, Allaha sığınaraq etdiyini göstərmək üçün işığa gəlir.** (Yəhya, 3:19-21)

Bizə verilən bu lütfə... imanla qovuşduq və Allahın ucalığına [rəhmətinə və rizasına] çatmaq ümidiylə öyünürük. Yalnız bununla deyil, **çətinliklərlə də öyünürük. Çünki bilirik ki, çətinlik dözüm gücünü, dözüm gücü Allahın bəyənməsini, Allahın bəyənməsi də ümidi təmin edər.** Ümid xəyal qırıqlığına uğratmaz. (Romalılara, 5:2-5)

Beləcə, **İbrahim səbirlə [Allaha] sığınaraq** vədə çatdı. (İbranilərə, 6:15)

Qardaşlarım, **müxtəlif sınaqlarla üz-üzə gəldiyinizdə bunu böyük sevinclə qarşılayın. Çünki bilərsiniz ki, imanınızın sınanması dözüm gücünü meydana gətirər.** Dözüm gücü də, heç bir əskiyi olmayan, yetkin, mükəmməlliyə çatmış kəslər olmanız üçün təsirli olsun. İçinizdən birinin müdriklikdə əskiyi varsa, hər kəsə əliaçıqlıqla... verən Allahdan istəsin; özünə veriləcək. Yalnız heç şübhə etmədən, imanla istəsin. Çünki şübhə edən adam küləyin sürüyüb sovurduğu dəniz dalğasına bənzəyər. (Yaqub, 1:2-6)

Siz də **böyük çətinliklərə qarşı,** Allahın... verdiyi **sevinclə Allah sözünü qəbul edərək bizi...** nümunə götürdünüz. (1 Saloniklilərə, 1:6)

Bu səbəblə bizlər, **dözdüyünüz bütün zülm və çətinliklər qarşısındakı səbir və imanınızdan ötrü** Allahın kilsələri arasında sizinlə öyünürük. Bütün bunlar Allahın ədalətli mühakiməsinin əlamətidir. Nəticə olaraq, **uğrunda acı çəkdiyiniz Allah dərgahına [cənnətə] layiq sailacaqsınız.** Allah ədalətli olanı edəcək: **Sizə çətinlik çəkdirənlərə çətinlik ilə cavab verəcək, çətinlik çəkən sizləri isə bizimlə birlikdə rahatlığa qovuşduracaq...** (2 Saloniklilərə, 1:4-6)

Çünki elə bir zaman gələcək ki, möhkəm təlimə dözə bilməyəcəklər. Qulaqlarını oxşayan sözlər eşitmək üçün ətraflarına öz arzularına uyğun müəllimlər yığacaqlar. Qulaqlarını həqiqət üçün tıxayıb nağıllara uyacaqlar. Amma sən hər vəziyyətdə ayıq ol, **çətinliyə sinə gər,** müjdəçi olaraq işini et, vəzifəni tamamla. (2 Timoteyə, 4:3-5)

**Çəkəcəyin çətinliklərdən qorxma!...** On gün çətinlik çəkəcəksiniz. **Ölüm bahasına da olsa sadiq qal,** sənə həyat tacını [cənnətdəki sonsuz həyatı] verəcəyəm. (Vəhy, 2:10)

Amma Rəbb etibarlıdır. **O sizi gücləndirəcək, pis olandan qoruyacaq.** (2 Saloniklilərə, 3:3)

**İsa şagirdlərinə belə dedi: "Bu səbəblə sizə bunu söyləyirəm: "Nə yeyəcəyik?" deyə canınız üçün, ya da "nə geyinəcəyik?" deyə bədəniniz üçün narahat olmayın...** Qarğalara baxın! Nə əkər, nə biçərlər; nə zirzəmiləri, nə anbarları vardır. Allah yenə də onları doyurar... Hansı biriniz narahat olmaqla ömrünü bir anlıq uzada bilər? Bu kiçik işə belə gücünüz çatmadığına görə, o biri mövzularda niyə narahat olursunuz? Zanbaqların necə böyüdüyünə baxın! Nə işləyərlər, nə də iplik əyirərlər... Bu gün var olub sabah ocağa atılacaq otu belə geydirən Allahın sizi də geydirəcəyi nə qədər daha qətidir, ey imanı qıt olanlar! **"Nə yeyəcəyik, nə içəcəyik?' deyə düşünüb dərdlənməyin.** Dünya xalqları həmişə bu şeylərin arxasınca qaçar. Halbuki Allahımız, bunlara ehtiyac duyduğunuzu bilər. Siz Onun kəramətinin ardınca gedin, o zaman sizə bunlar da veriləcək." (Luka, 12:22-31; Matta, 6:25-33)

Bu səbəblə indi **qısa bir müddət müxtəlif sınaqlar nəticəsində acı çəkməyiniz lazımdırsa** da, sevinclə coşmaqdasınız... (1 Peter, 1:6)

**Rəbbə güvənim odur ki,** mən də yaxında gələcəyəm. (Filipililərə, 2:24)

Nə var ki, əvvəl müjdənin bütün xalqlara eşitdirilməsi lazımdır. Sizi həbs edib məhkəməyə verdiklərində, **"Nə söyləyəcəyik?' deyə əvvəldən narahat olmayın. O anda sizə nə ilham olsa, onu söyləyin.** Çünki danışan siz deyil, Allah... olacaq. (Mark, 13:10-11)

"Sizi sinaqoq birliklərinin, rəhbərlərinin və səlahiyyətlilərin önünə çıxardıqlarında, **"Özümüzü nəylə, necə müdafiə edəcəyik?" ya da, "Nə söyləyəcəyik?" deyə narahat olmayın.** Allah... o anda sizə nə söyləməli olduğunuzu öyrədəcək." (Luka, 12:11-12)

“... **Rəbbiniz, nələrə ehtiyac duyduğunuzu daha siz Ondan diləmədən əvvəl bilər.**” Bunun üçün siz belə dua edin: “Doğru yoldan azdırılmağımıza icazə vermə. Pis olandan bizi qurtar. Çünki hökmranlıq, güc və ucalıq sonsuzlara qədər Sənindir. Amin.” (Matta, 6:8-13)

Bunun üçün Rəbbimizə şahidlik etməkdən [Allahın varlığının dəlillərini təsdiq etməkdən] də, Onun uğruna məhbus olan məndən də utanma. **Allahın gücüylə müjdə [Allahın dini, hökmləri] uğrunda mənimlə birlikdə çətinliyə sinə gər.** Allah bizi, etdiklərimizə görə deyil, Öz məqsədinə və lütfünə görə qurtarıb mübarək bir həyata çağırdı... (2 Timoteyə, 1:8-9)

Dar qapıdan girin. Çünki insanı məhvə aparan qapı geniş və yol enlidir. Bu qapıdan girənlər çoxdur. **[cənnətdəki sonsuz] həyata aparan qapı isə dar, yol da çətindir.** Bu yolu tapanlar azdır. (Matta, 7:13-14)

Özümüzü düzgünlüklə mühakimə etsəydik, mühakimə olunmazdıq. Dünyayla birlikdə məhkum olmayaq deyə Rəbb bizi mühakimə edib tərbiyə edir. (1 Korinflilərə, 11:31-32)

Bu səbəblə vəd, Allahın lütfünə sığınmaq və İbrahimin bütün soyu üçün zəmanət altına alınmaqla imana bağlı qılınmışdır... İbrahim çətin bir vəziyyətdə ikən bir çox xalqın atası olacağına **ümidlə iman etdi. [Allahın vədi olan] “Sənin soyun belə olacaq” sözünə güvənirdi.** Yüz yaşına yaxınlaşmışkən, ölü deyilə biləcək bədənini və Saranın ölü rəhmini düşündüyündə imanı zəifləmədi. (Romalılara, 4:16-19)

**Dünyəvi çadırda yaşayan bizlər ağır bir yük altında inləyirik.** Əsl istədiyimiz soyunmaq deyil, geyinməkdir. Belə ki, ölümlü olan, həyat tərəfindən udulsun. Bizləri tam olaraq bu məqsəd üçün hazırlamış və zəmanət olaraq bizə Öz Ruhundan vermiş Allahdır. **Bu səbəblə həmişə cəsarətimiz vardır... Gözlə görülənə deyil, imana sığınaraq yaşayarıq.** (2 Korinflilərə, 5:4-7)

Sizlərsə **işıqlandıqdan sonra acılarla dolu böyük bir mübarizəyə dayandığınız o ilk günləri xatırlayın.** Bəzən narazılıqlara, çətinliklərə uğrayıb seyr etməli oldunuz, bəzən də eyni vəziyyətdə olanlarla həmrəy idiniz. Həm həbsdəkilərin dərdlərinə ortaq oldunuz, həm də daha yaxşı və qalıcı bir malınız olduğunu bilərək mallarınızın paylanmasını sevinclə qarşıladınız. Onun üçün cəsarətinizi itirməyin; bu cəsarətin mükafatı böyükdür. (İbranilərə, 10:32-35)

İman olmadan Allahı məmnun etmək qeyri-mümkündür. Allaha yaxınlaşan, Onun var olduğuna və Onu axtaranları mükafatlandıracağına iman etməlidir. İman sayəsində Nuh, hələ olmamış hadisələrlə əlaqədar olaraq Allah tərəfindən xəbərdar edilincə, Allah qorxusuyla ev xalqının qurtuluşu üçün bir gəmi düzəltdi. Bununla dünyanı mühakimə etdi və **imana əsaslanan doğruluğun varisi oldu. İman sayəsində İbrahim miras alacağı yerə getməsi üçün çağırılınca, Allahın sözünü dinlədi və hara gedəcəyini bilmədən yola çıxdı. İman sayəsində yadelli olaraq vəd edilən ölkəyə yerləşdi.** Eyni vədin ortaq varisləri olan İshaq və Yaqubla birlikdə çadırlarda yaşadı. Çünki memarı və qurucusu Allah olan təməlli şəhəri gözləyirdi. (İbranilərə, 11:6-10)

Paul Miletdən Efesə xəbər göndərərək kilsənin ağsaqqallarını yanına çağırtdı. Yanına gəldikləri zaman onlara belə dedi: “Asiya vilayətinə ayaq basdığım ilk gündən bəri, sizinlə olduğum bütün müddət boyunca, necə davrandığımı bilirsiniz. Yəhudilərin qurduğu tələlərdən **çəkdiyim çətinliklərin ortasında Rəbbə tam bir təvazökarlıqla, gözyaşları içində qulluq etdim. Faydalı olan hər hansı bir şeyi sizə eşitdirməkdən, istər açıqda, istərsə evdən-evə gəzərək sizə öyrətməkdən çəkinmədim.** Həm yəhudiləri, həm də yunanları, tövbə edib Allaha dönməyə və... İsaya [onun Allahın elçisi olduğuna] inanmağa çağırdım. İndi də... [Allaha] boyun əyərək Yerusəlimə gedirəm. Orada başıma nələr gələcəyini bilmirəm... Məni zəncirlər və çətinliklərin gözlədiyinə dair hər şəhərdə məni xəbərdar edir.

Canıma heç əhəmiyyət vermirəm, ona dəyər vermirəm. Yetər ki, yarışı bitirim və... [Allah rizası üçün] İsadan aldığım vəzifəni, Allahın lütfünü bildirən müjdəyə [Allahın vəhyinə] şahidlik etmə vəzifəsini tamamlayım. (Həvarilərin İşləri, 20:17-24)

[Allah rizası üçün] Məsihin sevgisindən bizi kim ayıra bilər? **Çətinlikmi, əzabmı, zülmmü, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? Yazıldığı kimi: "Sənin uğrunda bütün gün öldürülürük, qəssablıq qoyun sailırıq." Amma bizi sevən [Allah] tərəfindən bu vəziyyətlərin hamısında qaliblərdən üstünük.** Əminəm ki, nə ölüm, nə həyat... nə hakmiyyət, nə indiki, nə gələcək zaman, nə güclər, nə yüksəklik, nə dərinlik, nə də yaradılmış başqa bir şey bizi... Allah sevgisindən ayırmağa yetməyəcəkdir. (Romalılara, 8:35-39)

Qardaşlar, sizlərə Allahın Makedoniyadakı kilsələrinə təmin etdiyi lütfdən danışmaq istəyirik: **Böyük çətinliklərlə sınandıqlarında**, coşğun sevincləri və həddindən artıq yoxsulluqları tam bir səxavətə çevrildi. Əllərindən gəldiyi qədərini, hətta daha çoxunu öz istəkləriylə verdiklərinə şahidlik edərəm. (2 Korinflilərə, 8:1-3)

Bir müddət üçün... səfasını sürməkdənsə, **Allahın xalqıyla [səmimi olaraq iman edənlərlə] birlikdə təzyiq görməyi seçdi. [Allah] uğruna alçaldılmağı Misir xəzinələrindən daha böyük zənginlik saydı. Çünki [axirətdə] alacağı mükafatı düşünürdü. Kralın qəzəbindən qorxmadan imanla Misirdən ayrıldı...** İman sayəsində israillilər qurudan keçər kimi Qamış Dənizindən keçdilər. Misirlilər buna cəhd edincə boğuldular. İsraillilər yeddi gün boyunca Yerixonun divarı ətrafında dolandılar; sonunda **imanları sayəsində divarlar yıxıldı.** (İbranilərə, 11:24-30)

Uyğun zamanda [Allahın] sizi ucaltması üçün... özünüzü alçaldın. **Bütün qayğılarınızı Ona yükləyin [Allaha təvəkkül edin], çünki O sizi qoruyar.** Ayıq və diqqətli olun. Düşməniniz iblis kükrəyən aslan kimi udacaq birini axtararaq gəzir. Dünyanın hər yerindəki qardaşlarınızın da eyni acıları çəkdiyini bilərək imanda sarsılmadan iblisə qarşı müqavimət göstərin... Bütün lütfün qaynağı olan Allahın Özü qısa bir müddət acı çəkməyinizdən sonra sizi yetkinləşdirib gücləndirəcək, gücləndirib təməlləndirəcək. (1 Peter, 5:6-10)

Yol kənarındakılar sözü eşidən kəslərdir. Amma sonra iblis gəlir, inanıb xilas olmasınlar deyə sözü ürəklərindən götürüb aparar. Qayalıq yerə düşənlər, eşitdikləri sözü sevinclə qəbul edən, amma kök sala bilmədikləri üçün ancaq bir müddət inanan kəslərdir. **Bələləri sınandıqları zaman imandan dönərlər.** Tikanlar arasına düşənlər, sözü eşidən, amma zamanla həyatın qayğıları, zənginlikləri və zövqləri içində boğulan, bu səbəbdən yetişmiş məhsul verməyənlərdir. **Yaxşı torpağa düşənlər isə, sözü eşidincə onu yaxşı və möhkəm bir ürəkdə saxlayanlardır. Bunlar səbirlə dözərək məhsul verərlər.** (Luka, 8:12-15)

İsa onlara, "Xalqların kralları, öz xalqlarına hökmran kəsilərlər. Öndə gələnləri də özlərinə xeyirxah ünvanını yaraşdırarlar" dedi. "Amma siz belə olmayacaqsınız. Aranızda ən böyük olan, ən kiçik kimi olsun; idarə edən, xidmət edən kimi olsun. Hansı daha böyük, süfrədə oturanmı, xidmət edən mi? Süfrədə oturan deyilmi? Halbuki mən aranızda xidmət edən biri kimi oldum. **Sınandığım zamanlar mənimlə birlikdə [Allah rizası üçün] dözənlər sizlərsiniz."** (Luka, 22:25-28)

**Hər cür təsəllinin qaynağı olan Allaha,** mərhəmətli Allaha... təriflər olsun! **Özündən [Allahdan] aldığımız güclə hər cür çətinlikdə olanlara təsəlli edə bilməyimiz üçün bütün çətinliklərimizdə bizə güc verir...** Çətinlik çəkiriksə, bu sizin rahatlığınız və qurtuluşunuz üçündür. Rahat olursa bu, **bizim çəkdiyimiz acıların eynisinə dözüm göstərmənizdə təsirli olacaq [Allahda] hüzur və təhlükəsizlik tapmağınız üçündür.**

Sizə bağlı ümidimiz sarsılmaz. Çünki acılarımıza olduğu kimi, hüzurumuza də ortaq olduğunuzu bilirik. (2 Korinflilərə, 1:3-7)

**Mənə dedi ki, "Bunlar o böyük çətinlikdən keçib gələnlərdir...** Bunun üçün, Allahın... Məscidində gecə gündüz Ona tapınırlar..." (Vəhy, 7:15)

İsa, gözlərini şagirdlərinə çevirərək belə dedi: "Nə xoşbəxt sizə, ey yoxsullar! Çünki Allahın dərgahı [cənnət] sizindir. Nə xoşbəxt sizə, indi aclıq çəkənlər! Çünki doyurulacaqsınız... **[Allah rizası üçün] İnsanoğluna [Hz. İsa (ə.s)-a] bağlılığınız üzündən insanlar sizə nifrət etdikləri, sizi cəmiyyətdən xaric edib alçaltdıqları və adınızı pisləyib sizi rədd etdikləri zaman nə xoşbəxt sizə!** O gün sevinin, coşğuyla atılıb-düşün! **Çünki cənnətdəki mükafatınız böyükdür.** Necə ki, onların ataları da peyğəmbərlərə belə davrandılar. (Luka, 6:20-23)

Siz əvvəlcə Onun [Allahın] hökmranlığının və doğruluğunun ardınca gedin, o zaman sizə bütün bunlar da veriləcək. O halda **sabah üçün narahat olmayın...** (Matta, 6:33-34)

... Amma bu, özümüzə deyil, ölüləri dirildən Allaha güvəndiyimiz üçün oldu. Allah bizi belə böyük bir ölüm təhlükəsindən qurtardı; sonra da qurtaracaq. **Ümidimizi Ona bağladıq.** (2 Korinflilərə, 1:9-10)

... Sahib olduqlarınızla kifayətlənin... Beləcə, cəsarətlə deyirik ki, "**Rəbb mənim köməkçimdir, qorxmaram; insan mənə nə edə bilər?**" (İbranilərə, 13:5-6)

... **İmanın verdiyi tam zəmanətlə, ürəkdən bir səmimiliklə Allaha yaxınlaşaq. Açıq şəkildə mənimsədiyimiz ümidə [Allahın köməyinə] möhkəm bağlanaq.** Çünki vəd edən Allah etibarlıdır. (İbranilərə, 10:22-23)

Mən də yaxında gələcəyəm, **bu mövzuda Rəbbə güvənirəm**. (Filipililərə, 2:24)

**Amma bu günə qədər Allah köməkçim oldu.** Bunun sayəsində burada dayanır, böyük-kiçik hər kəsə şahidlik edirəm. Mənim söylədiklərim, peyğəmbərlərin və Musanın əvvəldən xəbər verdiyi hadisələrdən başqa bir şey deyil. (Həvarilərin İşləri, 26:22)

## Dua etmək

**Özünüzü duaya verin. Duada ayıq qalın və şükür edin.** (Kolosselilərə, 4:2)

**İçinizdən biri çətinlikdədirsə, dua etsin.** Sevinclidirsə, ilahi söyləsin. İçinizdən biri xəstədirsə... Rəbbin adıyla... onun üçün dua etsinlər. **İmanla edilən dua xəstəni yaxşılaşdıracaq və Rəbb onu ayağa qaldıracaq.** Əgər xəstə günah işləmişsə, günahları bağışlanacaq. Bu səbəblə, şəfa tapmaq üçün günahlarınızı bir-birinizə etiraf edin və **bir-biriniz üçün dua edin**. Doğru adamın yalvarışı çox güclü və təsirlidir. (Yaqub, 5:13-16)

... Bütün varlığımla qulluq etdiyim **Allah, sizi dayanmadan, hər zaman dualarımda xatırladığıma şahiddir. Allahın istəyiylə sonunda bir yol tapıb yanınıza gəlmək üçün dua edirəm.** Çünki ruh cəhətdən bərkiməniz [mənəvi olaraq güclənməniz] üçün sizə mənəvi bir hədiyyə çatdırmaq üçün sizi görməyi çox istəyirəm. (Romalılara, 1:9-11)

Ümidinizlə sevinin. Çətinliyə səbir edin. **Özünüzü duaya həsr edin.** (Romalılara, 12:12)

**Daima dua edin**. Hər vəziyyətdə şükür edin. Çünki Allahın, Məsih İsada sizin üçün istədiyi budur... (1 Saloniklilərə, 5:17-19)

**Qardaşlar, bizim üçün dua edin.** (1 Saloniklilərə, 5:25)

**Özünüzü duaya verin. Duada ayıq qalın, şükür edin. Eyni zamanda bizim üçün də dua edin ki,** Allah, sözünü yaymağımız və uğrunda [Allah rizası üçün] həbs edildiyim Məsih sirrini açıqlamağımız üçün bizə bir qapı açsın. **Bu sirri lazım olduğu kimi açıqlıqla bildirə bilməyim üçün dua edin.** (Kolosselilərə, 4: 2-4)

Heç narahat olmayın; **hər mövzudakı diləklərinizi, Allaha dua edib yalvararaq təşəkkürlə diləyin.** O zaman Allahın hər idrakı aşan sağlamlığı... ürəklərinizi və düşüncələrinizi qoruyacaq. (Filipililərə, 4:6-7)

**Duam budur ki, sevginiz, elm və hər növ duyğuyla artdıqca artsın.** (Filipililərə, 1:9)

**Dayanmadan dua edin.** (1 Saloniklilərə, 5:17)

Diqqət yetirin, ayıq durun, **dua edin**... Çünki o anın nə vaxt gələcəyini bilə bilməzsiniz. (Mark, 13:33)

İsa şagirdlərinə, "**Mən dua edərkən** siz burada oturun"— dedi. (Mark, 14:32)

**Hər cür dua və yalvarışla, hər zaman... dua edin.** Bu məqsədlə, bütün müqəddəslər [özünü Allaha həsr etmişlər] üçün yalvararaq tam diqqətlə ayıq durun. (Efeslilərə, 6:18)

**Duam budur ki, sevginiz, elm və hər növ duyğuyla dayanmadan artsın.** Belə ki, üstün dəyərləri ayıra biləsiniz və beləcə, Allahın ucaldılıb təriflənməsi üçün, İsa Məsih vasitəsilə gələn düzgünlük meyvəsiylə dolaraq... saf və qüsursuz olasınız. (Filipililərə, 1:9-11)

**Pis bir şey etməməyiniz üçün Allaha dua edirik.** Diləyimiz, bizim imtahanı keçmiş görünməyimiz deyil, biz imtahanda müvəffəqiyyətsiz görünsək belə sizin yaxşı olanı etmənizdir. Çünki həqiqətə qarşı deyil, ancaq həqiqət uğrunda bir şey edə bilərik. Biz gücsüz, sizsə güclüykən sevinirik. **Mükəmməlliyə çatmağınız üçün də dua edirik.** (2 Korinflilərə, 13:7-9)

Bunun üçün... İsaya [Allahın Peyğəmbəri olaraq] iman etdiyinizi və bütün müqəddəsləri [özünü Allaha həsr etmişləri] sevdiyinizi eşitdiyimdən bəri, mən də sizin üçün davamlı şükür edir, **sizi dualarımda həmişə xatırlayıram... Uca Allah, Onu tanımağınız üçün sizə müdriklik və hidayət versin deyə dua edirəm.** Onun çağırışından doğan ümidi, müqəddəslərə verdiyi mirasın uca zənginliyini və iman edən bizlər üçün təsir meydana gətirən [Allahın] qüdrətinin, aşan böyüklüyünü anlamağınız üçün, ürəklərinizin gözləri aydınlansın deyə dua edirəm. Bu qüdrət, Allahın... sərgilədiyi üstün güclə eyni fəaliyyətdədir. (Efeslilərə, 1:15-20)

Beləcə, belinizi həqiqətlə sarmış, sinənizə düzgünlük zirehini taxmış və ayaqlarınıza sağlamlıq müjdəsini yayma hazırlığını geymiş olaraq yerinizdə durun. Bunların hamısına əlavə olaraq, şeytanın bütün atəşli oxlarını söndürə biləcəyiniz iman qalxanını alın. Qurtuluş dəbilqəsini və Allahın... qılıncını, yəni Allah sözünü alın. **Hər cür dua və yalvarışla, hər zaman... dua edin.** Bu məqsədlə, bütün müqəddəslər [özünü Allaha həsr etmişlər] üçün yalvarışda olaraq tam diqqətlə ayıq durun. **Ağzımı hər açdığımda mənə lazımlı söz verilsin deyə mənim üçün də dua edin;** belə ki, müjdənin sirrini cəsarətlə bildirə bilim. [Allah rizası üçün] uğrunda zəncirə vurulmuş vəziyyətdə elçilik etdiyim Müjdəni lazım olduğu kimi cəsarətlə eşitdirə bilməyim üçün dua edin. (Efeslilərə, 6: 14-20)

**Özünüzü duaya həsr edin.** (Romalılara, 12:12)

**İsa bir yerdə dua edirdi. Duasını bitirincə** şagirdlərindən biri... "Yəhyanın öz şagirdlərinə öyrətdiyi kimi sən də **bizə dua etməyi öyrət**." İsa onlara, "**Dua edərkən belə**

**söyləyin**" dedi: "Allah, adın müqəddəs qılınsın. Hakimiyyətin gəlsin [Haqq din əxlaqı dünyaya hakim olsun]. Hər gün bizə gündəlik çörəyimizi ver. Günahlarımızı bağışla. Çünki biz də bizə qarşı günah edən hər kəsi bağışlayırıq. Doğru yoldan ayrılmağımıza icazə vermə." (Luka, 11:1-4)

O günlərdə **İsa, dua etmək üçün dağa çıxdı və bütün gecəni Allaha dua edərək keçirdi.** (Luka, 6:12)

**Sizinlə üz-üzə görüşmək, iman mövzusundakı əskiklərinizi tamamlamaq üçün gecə gündüz var gücümüzlə dua edirik.** Allahımız... [siz Saloniklilərə] qovuşmağımız üçün yolumuzu açsın! Rəbb bir-birinizə və bütün insanlara bəslədiyiniz sevgini, bizim sizə bəslədiyimiz sevgi ölçüsündə çoxaldıb artırsın! Belə ki... Allahın hüzurunda müqəddəslikdə qüsursuz olmanız üçün ürəklərinizi gücləndirsin. (1 Saloniklilərə, 3:10-13)

Məhz bu səbəblə, Allahımız sizi çağırışına layiq görsün, yaxşılığa istiqamətli hər diləyinizi, imana əsaslı hər məşğuliyyətinizi Öz gücüylə nəticələndirsin deyə sizin üçün hər zaman dua edirik. (2 Saloniklilərə, 1:11)

Son olaraq, qardaşlar, **Rəbbin sözü aranızda olduğu kimi sürətlə yailıb ucaldılsın deyə bizim üçün dua edin. Əxlaqsız, pis insanlardan xilas olmağımız üçün də dua edin.** Çünki hər kəs iman etmiş deyil. Amma Rəbb etibarlıdır. O sizi gücləndirəcək, pis olandan qoruyacaq. Buyurduqlarımızı etdiyinizə və edəcəyinizə dair Rəbdə [Allah rizası üçün] sizə güvənirik. (2 Saloniklilərə, 3:1-4)

"Mən sizə bunu söyləyim: **Diləyin, sizə veriləcək; axtarın, tapacaqsınız; qapını döyün, sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar."** (Luka, 11:9-10; Matta, 7:7-8)

**Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın.** Onlar, hər kəs onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməkdən zövq alarlar. Sizə doğrusunu söyləyim, onlar mükafatlarını almışlar. Siz isə, **dua edəcəyiniz zaman otağınıza girib qapını örtün və gizlində olan Rəbbinizə dua edin.** Gizlilik içində ediləni görən Rəbbiniz sizi mükafatlandıracaq... **Rəbbiniz, nələrə ehtiyac duyduğunuzu daha siz Ondan diləmədən əvvəl bilir. Bunun üçün siz belə dua edin:** "... Rəbbimiz, adın müqəddəs qılınsın. Hakimiyyətin gəlsin [Haqq din əxlaqı dünyaya hakim olsun]... Bu gün bizə gündəlik çörəyimizi ver. Bizə qarşı cinayət törədənləri bağışladığımız kimi, Sən də bizim günahlarımızı bağışla. Doğru yoldan ayrılmağımıza icazə vermə. Pis olandan bizi xilas et. Çünki hakimiyyət, güc və ucalıq sonsuzlara qədər Sənindir. Amin." (Matta, 6:5-13)

İsa çölə çıxdı, hər zamanki kimi Zeytun dağına getdi. Şagirdlər də onun ardınca getdilər. Oraya çatınca **İsa onlara, "Dua edin ki, doğru yoldan azmayasınız"** dedi. Onlardan bir daş atımı qədər uzaqlaşdı və **diz çökərək belə dua etdi:** "Allahım, Sənin istəyinə uyğunsa, bu kasanı məndən uzaqlaşdır. Yenə də mənim deyil, Sənin istədiyin olsun." Göydən bir mələk İsaya görünərək onu gücləndirdi... İsa daha hərarətlə dua etdi... **İsa duadan qalxıb şagirdlərin yanına dönüncə** onları... yatmış gördü. Onlara, "Nə üçün yatırsınız?" dedi. **"Qalxıb dua edin ki, doğru yoldan azmayasınız."** (Luka, 22:39-46)

**Sizdən birinin müdriklikdə əskiyi varsa, hər kəsə səxavətlə... verən Allahdan istəsin; Allah ona verəcək. Amma heç şübhə etmədən, imanla istəsin.** Çünki şübhə edən insan küləyin sovurduğu dəniz dalğasına bənzəyər. Bütün həyatında belə dəyişən, qərarsız olan insan Rəbdən bir şey alacağına ümid etməsin. (Yaqub, 1:5-8)

İsa onlara bu qarşılığı verdi: "Sizə doğrusunu söyləyim, əgər imanınız olar və şübhə etməzsəniz, tək əncir ağacına olanı etməklə deyil; bu dağa, "Qalx, dənizə atıl" desəniz,

dediyiniz olacaq. **İman edərək dua etdiyinizdə, dilədiyiniz hər şeyi alacaqsınız.**" (Matta, 21:21-22)

İlk gündən indiyə qədər müjdənin [Allahın vəhyinin] yailmasındakı əməkdaşlığınızdan ötrü, **hər duamda hamınız üçün hər zaman sevinclə diləyirəm**. (Filipililərə 1:4-5)

... Bütün müqəddəslərə [özünü Allaha həsr etmişlərə] bəslədiyin sevgini eşitdikcə **dualarımda səni xatırlayır, Rəbbimə davamlı şükür edirəm. İmanını başqalarıyla paylaşmaqda fəal olmağın və beləliklə... sahib olduğumuz hər yaxşılığın şüuruna çatmağın üçün dua edirəm.** (Filimona, 4:6)

Bunlar İsanın anası Məryəm, o biri qadınlar və İsanın qardaşlarıyla tam bir birlik içində **həmişə dua edirdi**. (Həvarilərin İşləri, 1:14)

**Sonra belə dua etdilər:** "Ya Rəbb, Sən hər kəsin ürəyini bilirsən. Yəhyanın, aid olduğu yerə getmək üçün buraxdığı bu xidməti və elçilik vəzifəsini boynuna götürməklə bu iki adamdan hansını seçdiyini göstər bizə." (Həvarilərin İşləri, 1:24-25)

Peter daha bir neçə sözlərlə onları xəbərdar etdi. "Özünüzü bu azğın nəsildən qurtarın!" deyə yalvardı... O gün təxminən üç min adam birliyə qatıldı. Bunlar özlərini elçilərin təliminə, birlik olmağa, çörək bölməyə və **duaya həsr etdilər**. (Həvarilərin İşləri, 2:40-42)

Bir gün Peterlə Yəhya, saat üçdə, **dua vaxtında məscidə çıxırdılar**. (Həvarilərin İşləri, 3:1)

"Və indi **ya Rəbb... Sənin sözünü tam ürəklə eşitdirmək üçün biz qullarına güc ver..." Duaları bitincə** toplandıqları yer sarsıldı... Allahın sözünü cəsarətlə eşitdirməyə davam etdilər. (Həvarilərin İşləri, 4:29-31)

"Bu səbəblə, qardaşlar, aranızdan Allahın Ruhuyla [Allahın razı olduğu əxlaqla] və müdrikliklə dolu, yeddi hörmətli adam seçin. Onları bu iş üçün vəzifələndirək. **Biz isə özümüzü duaya və Allah sözünü yaymağa həsr edək."** Bu təklif bütün birliyi məmnun etdi... **Elçilər də dua edib** əllərini onların üzərinə qoydular. Beləcə, Allahın sözü yailır, Yerusəlimdəki şagirdlərin sayı artdıqca artır, din adamlarının bir çoxu da iman çağırışına uyurdu. (Həvarilərin İşləri, 6:3-7)

Peterlə Yəhya oraya çatınca, Samariyalı imanlıların Allahın Ruhunu almaları [Allahın razı olacağı əxlaqa qovuşmaları, iman etmələri] üçün **dua etdilər.** (Həvarilərin İşləri 8:15)

... [Hz. İsa (ə.s)] "Qalx" dedi, "Düz Küçə deyilən küçəyə get və Yəhudanın evində Şaul adında Tarsuslu birini soruş. **Bu anda orada dua edir."** (Həvarilərin İşləri, 9:11)

**Peter, hər kəsi çölə çıxartdı, diz çöküb dua etdi...** (Həvarilərin İşləri, 9:40)

Qeysəriyyədə Korneli adında bir adam vardı. O, İtaliyalı adlı alayın yüzbaşılarından biri idi. Dindar bir adam idi. Həm özü, həm də bütün ev xalqı Allahdan qorxardı. Xalqa çox kömək edərdi, Allaha həmişə dua edərdi. (Həvarilərin İşləri, 10: 1-2)

Səhərisi gün onlar yol alıb şəhərə yaxınlaşarlarkən, saat on iki radələrində Peter **dua etmək üçün** dama çıxdı. (Həvarilərin İşləri, 10:9)

Korneli, "Üç gün əvvəl bu sıralarda, saat üçdə **evimdə dua edirdim**" dedi. "Birdən-birə, parlaq geyimli bir adam önümə çıxdı. "Korneli" dedi, "Allah sənin duanı eşitdi [duanı qəbul etdi], verdiyin sədəqələri qəbul etdi."" (Həvarilərin İşləri, 10:30-31)

"Mən Yafo kəndində **dua edirdim**" dedi... (Həvarilərin İşləri, 11:5)

... Peter həbs olundu. **Amma imanlılar birliyi onun üçün Allaha coşğun bir şəkildə dua edirdi...** (Həvarilərin İşləri, 12:5)

Peter olanların fərqinə varınca Mark deyə tanınan Yəhyanın anası Məryəmin evinə getdi. **Orada bir çox adam toplanmış dua edirdi.** (Həvarilərin İşləri, 12:12)

Beləcə **oruc tutub dua etdikdən sonra**, Barnaba ilə Şaulun üzərinə əllərini qoyub onları yolçu etdilər. (Həvarilərin İşləri, 13:3)

Şənbə günü şəhər qapısından çıxıb çay sahilinə getdik. **Orada bir dua yeri** olacağını düşünürdük. Oturduq, orada toplanmış qadınlarla danışmağa başladıq. (Həvarilərin İşləri, 16:13)

Gecə yarısına doğru Paulla Sila **dua edir, Allahı ilahilərlə ucaldırdılar**. O biri məhbuslar da onları dinləyirdi. (Həvarilərin İşləri, 16:25)

Paul bu sözləri söylədikdən sonra **diz çöküb onlarla birlikdə dua etdi**. (Həvarilərin İşləri, 20:36)

Günümüz başa çatanda şəhərdən ayrılıb yolumuza davam etdik. İmanlıların hamısı, yoldaşları və uşaqlarıyla birlikdə bizi şəhərin xaricinə qədər keçirdilər. Dəniz sahilində **diz çöküb dua etdik**. (Həvarilərin İşləri, 21:5)

Yerusəlimə döndükdən sonra, **məsciddə dua etdiyim bir sırada...** (Həvarilərin İşləri, 221:17)

Qayalıqlara mindirməkdən qorxaraq arxa tərəfdən dörd dəmir atdılar və günün tez doğması üçün **dua etdilər**. (Həvarilərin İşləri, 27:29)

... Xəstənin yanına girən Paul **dua etdi...** (Həvarilərin İşləri, 28:8)

... "Allahın cənnətinə bir çox çətinlikdən keçərək girməyimiz lazımdır" deyirdilər. İmanlılar üçün hər kilsədə ağsaqqallar seçdilər. **Dua və orucla onları, inandıqları Rəbbə əmanət etdilər.** (Həvarilərin İşləri, 14:23)

Qardaşlar... sizə yalvarıram**, mənim üçün Allaha dua edərək cəhdimə qatılın.** Yəhudeyadakı imansızlardan xilas olmağım üçün və Yerusəlimə olan xidmətimin... qəbul edilməsi üçün **dua edin**. (Romalılara, 15:30-31)

Keçici bir müddət üçün **razılaşıb özünüzü duaya həsr etməkdən başqa bir səbəblə bir-birinizi məhrum etməyin [bir-birinizdən ayrılmayın].** Sonra yenə birləşin ki, özünüzə nəzarət edə bilmədiyiniz üçün şeytan sizi aldatmasın. (1 Korinflilərə, 7:5)

Elə isə nə etməliyəm? **Ruhumla da, zehnimlə də dua edəcəyəm.** Ruhumla da, zehnimlə də ilahi söyləyəcəyəm. (1 Korinflilərə, 14:15)

Allah bizi belə böyük bir ölüm təhlükəsindən qurtardı; daha da qurtaracaq. Ümidimizi Ona bağladıq. **Siz də dualarınızla bizə kömək etdikcə,** bizi yenə qurtaracaq. Belə ki, bir çox adamın dualarıyla bizə təmin edilən lütfdən ötrü bir çoxlarının ağzından bizim üçün təşəkkürlər təqdim edilsin. (2 Korinflilərə, 1:10-11)

Allahın sizə bağışladığı mükəmməl lütfdən ötrü **sizlər üçün dua edir**, sizin üçün darıxırlar. Sözlə izah edilə bilməyən hədiyyəsi üçün Allaha şükürlər olsun! (2 Korinflilərə, 9:14-15)

Sizi xatırladıqca Allahıma şükür edirəm. İlk gündən indiyə qədər Müjdənin yailmasındakı əməkdaşlığınıza görə **hər duamda hamınız üçün hər zaman sevinclə dua edirəm.** (Filipililərə, 1:3-5)

Çünki **dualarınızla... bunun mənə qurtuluş gətirəcəyini bilirəm.** (Filipililərə, 1:19)

**Sizlər üçün dua edərkən Allaha...** hər zaman şükür edirik. (Kolosselilərə, 1:3)

Bunu eşitdiyimiz gündən bəri biz də **sizlər üçün dua etməkdən**, tam müdriklik və mənəvi anlayışla Allahın istəyini tamamilə bilmənizi təmin etməsini diləməkdən geri qalmadıq. Rəbbə yaraşar şəkildə yaşamanız, Onu hər istiqamətdən məmnun etməniz, hər yaxşı işdə bəhrə verərək **Allahı tanımaqda irəliləməniz üçün dua edirik.** Hər şeyə sevinclə dözüb səbir edə bilməyiniz üçün Onun uca gücünə sığınaraq, bütün qüdrətlə güclənmənizi diləyirik. Bizi müqəddəslərin... [özünü Allaha həsr etmişlərin] mirasına ortaq olmağa yetərli qılan **Allaha şükür etməyiniz üçün dua** edirik. (Kolosselilərə, 1: 9-12)

Sizdən biri və Məsih İsanın qulu olan Epafra sizə salam deyir. Allahın hər istəyindən əmin, yetkin kəslər olaraq möhkəm dayanasız deyə sizin üçün hər zaman duayla mübarizə aparır. (Kolosselilərə, 4:12)

**Dualarımızda sizləri xatırlayır,** hər zaman hamınız üçün Allaha şükür edirik. İmanın məhsulu olan fəaliyyətinizi, sevgiyə əsaslanan əməyinizi və... ümiddən qaynaqlanan möhkəmliyinizi Allahın hüzurunda dayanmadan xatırlayırıq. (1 Saloniklilərə, 1:2-3)

Hər şeydən əvvəl bunu nəsihət edərəm: Allah yoluna tam bir bağlılıq və qətiyyətlə sakit və hüzurlu bir həyat sürək deyə, krallarla bütün baş idarəçilər daxil, bütün insanlar üçün diləklər, **dualar**, yalvarışlar və şükürlər təqdim edilsin. (1 Timoteyə, 2:1-2)

Buna görə, kişilərin qəzəblənib çəkişmədən, **hər yerdə pak əllər yüksəldərək dua etmələrini istəyərəm.** (1 Timoteyə, 2:8)

Halbuki, Allahın yaratdığı hər şey yaxşıdır, heç bir şey rədd edilməməli; yetər ki, təşəkkürlə qəbul edilsin. Çünki **hər şey Allahın sözüylə və duayla müqəddəs qılınar.** (1 Timoteyə, 4:4-5)

Həqiqətən, kimsəsiz, tək qalmış dul qadın ümidini Allaha bağlamışdır; gecə gündüz Ona **dua etməyə davam edər**. Özünü zövqə verən dul qadınsa daha yaşayarkən ölmüşdür. (1 Timoteyə, 5:5-6)

**Dayanmadan, gecə gündüz dualarımda** səni xatırlayaraq atalarım kimi təmiz vicdanla qulluq etdiyim Allaha şükür edirəm. (2 Timoteyə, 1:3)

... [Allahın Peyğəmbəri olaraq] İsaya olan imanını və bütün müqəddəslərə [özünü Allaha həsr etmişlərə] bəslədiyin sevgini duyduqca dualarımda səni xatırlayır, Allahıma həmişə şükür edirəm... Hər yaxşılığın şüuruna çataraq imana əsaslanan birlikdə fəal olmağın üçün **dua edirəm**. (Filimona, 1:4-6)

Bu arada mənə qala biləcəyim bir yer hazırla. Çünki **dualarınız vasitəsilə sizlərə bağışlanacağımı [Allahın sizlərlə birlikdə olmama icazə verəcəyini] ümid edirəm.** (Filimona, 1:22)

... Onu ölümdən qurtaracaq gücdə olan **Allaha böyük fəryad və göz yaşlarıyla dua etdi, yalvardı** və Allah qorxusuna görə eşidildi [duaları qəbul oldu]. (İbranilərə, 5:7)

**Bizim üçün dua edin.** Vicdanımızı təmiz tutduğumuza, hər baxımdan müsbət bir həyat sürmək istədiyimizə əminik. **Yanınıza tez zamanda dönə bilməyim üçün dua etmənizi xüsusilə xahiş edirəm.** (İbranilərə, 13:18-19)

... Bir-biriniz üçün dua edin. **Doğru adamın yalvarışı çox güclü və təsirlidir.** İlyas da eynilə bizim kimi insan idi. **Yağış yağmaması üçün səylə dua etdi**; üç il altı ay ölkəyə yağış yağmadı. **Yenidən dua etdi; göy yağışını, torpaq da məhsulunu verdi.** (Yaqub, 5:16-18)

Hər şeyin sonu yaxındır. Buna görə, **sağlam fikirli olun və dua etmək üçün ayıq olun.** Hər şeydən əvvəl bir-birinizi səmimi olaraq sevin. Çünki sevgi bir çox günahı örtər. Deyilmədən öncə, bir-birinizə qonaqpərvərlik göstərin. Hər kəs Allahın çoxcəhətli lütfünün yaxşı idarəçiləri kimi aldığı ənama görə bir-birinə xidmət etsin. (1 Peter, 4:7-10)

**Qardaşının ölümcül olmayan bir günah işlədiyini görən, onun üçün dua etsin...** (1 Yəhya, 5:16)

Sevimli qardaşım, canın rahatlıq içində olduğu kimi, hər baxımdan sağlam və rahat olmağın üçün dua edirəm. Bəzi qardaşlar gəlib sənin həqiqətə bağlı qaldığına, gerçəyin izindən getdiyinə şahidlik edincə çox sevindim... (3 Yəhya, 1:2-4)

Amma siz, sevimli qardaşlarım, özünüzü bütünlüklə müqəddəs olan imanınızın təməli üzərində təkmilləşdirin... **Dua edin...** Rəbbimizin sizi sonsuz həyata qovuşduracaq mərhəmətini gözləyərkən, özünüzü Allahın sevgisində qoruyun. Bəzi qərarsızlara mərhəmət edin. Bəzisini atəşdən çəkib qurtarın. Bəzisinə də qorxuyla mərhəmət edin. Amma günahkar bədənin ləkələdiyi geyimdən belə iyrənin. (Yəhuda, 1:20-23)

Allahın hüzurunda etibarımız budur ki, **Onun istəyinə uyğun nə diləsək bizi eşidər [Allah dualarımıza qarşılıq verər].** Hər nə diləsək bizi eşitdiyini bildiyimizə görə, Ondan dilədiklərimizi aldığımızı da bilərik. (1 Yəhya, 5:14-15)

... Bunları iki-iki, özünün gedəcəyi hər kəndə, hər yerə özündən qabaq göndərdi. Onlara, "Məhsul bol, amma işçi az" dedi, "Buna görə **məhsulun sahibi Rəbbə yalvarın,** məhsulunu qaldıracaq işçilər göndərsin." (Luka, 10:1-2)

**İsa şagirdlərinə, heç usanmadan, hər zaman dua etmələri lazım olduğunu ifadə edən bu bənzətməyi izah etdi.** "... Allah da, **gecə-gündüz Ona yalvaran seçilmişlərinin** haqqını almayacaqmı? Sizə bunu söyləyim, onların haqqını tez alacaq..." (Luka, 18:1-8)

Səhər erkəndən əncir ağacının yanından keçərkən, ağacın kökdən qurumuş olduğunu gördülər. Hadisəni xatırlayan Peter, "... Əncir ağacı qurumuş!" dedi. İsa onlara belə cavab verdi: "Allaha iman edin. Sizə doğrusunu söyləyim, kim bu dağa, "Qalx, dənizə atıl!" deyər və **ürəyində şübhə duymadan dediyinin olacağına inansa, diləyi yerinə yetəcəkdir. Bunun üçün sizə deyirəm ki, duayla dilədiyiniz hər şeyi daha indidən almış olduğunuza inanın, diləyiniz yerinə yetəcəkdir. Qalxıb dua etdiyiniz zaman**, birinə qarşı bir şikayətiniz varsa onu bağışlayın ki..." (Mark, 11:20-26)

Bir az irəlilədi, **üzü üstə yerə əyilib dua etməyə başladı.** (Mark, 14:35)

"Şimon, Şimon, şeytan sizləri buğda kimi ələkdən keçirmək üçün [Allahdan] icazə almışdır. Amma mən, **imanını itirməyəsən deyə sənin üçün [Allaha] dua etdim**. Geri döndüyün zaman qardaşlarını gücləndir." (Luka, 22:31-32)

O gün məndən heç bir şey soruşmayacaqsınız. Sizə doğrusunu söyləyim... **Allahdan nə diləsəniz, sizə verəcəkdir... Diləyin, alcaqsınız.** Belə ki, sevinciniz tam olsun. (Yəhya, 16:23-24)

Çünki Yəhudi və yunan ayrı-seçkiliyi yoxdur, Rəbb hamısının Rəbbidir. **Özünə yalvaranların hamısına qarşı əli açıqdır [Lütfkarlığı bol olandır]. Rəbbə yalvaran hər kəs xilas olacaq.** (Romalılara, 10:12-13)

**Allahın Öz ucalığının zənginliyinə uyğun olaraq... sizi iç varlığınızda qüdrətlə gücləndirməsini... diləyirəm.** Belə ki, Allahın bütövlüyündə bütöv olmanız üçün, sevgidə

köklənmiş və təməllənmiş olaraq bütün müqəddəslərlə [özünü Allaha həsr etmişlərə] birlikdə Məsihin sevgisinin nə cür geniş və uzun, yüksək və dərin olduğunu anlamağa, biliyi aşan bu sevgini qavramağa gücünüz çatsın. Allah, bizdə təsirli olan qüdrətiylə, dilədiyimiz ya da düşündüyümüz hər şeydən daha çoxunu edə biləcək gücdədir. (Efeslilərə, 3:19-20)

Onun çağırışından [Allahın vədindən] doğan ümidi, müqəddəslərə [özünü Allaha həsr etmişlərə] verdiyi mirasın [cənnətin] uca zənginliyini və iman edən bizlər üçün təsirli olan qüdrətinin aşan böyüklüyünü anlamanız üçün, **ürəklərinizin gözləri işıqlansın deyə dua edirəm**. (Efeslilərə, 1:18-19)

## Vicdana uymaq

Dayanmadan, gecə gündüz dualarımda səni xatırlayaraq [sənin üçün Allaha dua edərək] **atalarım kimi təmiz vicdanla qulluq etdiyim Allaha şükür edirəm.** (2 Timoteyə, 1:3)

... **Vicdanınızı təmiz tutun. (**1 Peter 3:16)

Oğlum Timote... bu buyruğu sənə əmanət edirəm. Belə ki, bu sözlərə əsaslanaraq yaxşı döyüşü [yaxşılıq üçün, gözəlliklə mübarizəni] davam etdirin. **İmana və təmiz vicdana sarıl.** Bəziləri təmiz vicdanı bir tərəfə itələyərək iman mövzusunda batdılar. (1 Timoteyə, 1:18-19)

... Atalarınızın baş qaldırdığı və çöldə onu sınadığı günki kimi, **ürəklərinizi daşlaşdırmayın**. (İbranilərə, 3:7-8)

... Bir-birinizi hər gün ürəkləndirin. Belə ki, **heç birinizin ürəyi günahın aldatmasıyla daşlaşmasın.** (İbranilərə, 3:13)

... Paul, "Qardaşlar" dedi, **"Mən bu günə qədər Allahın hüzurunda tərtəmiz bir vicdanla yaşadım."** (Həvarilərin İşləri, 23:1)

[Allah rizası üçün] Məsihə bağlı biri olaraq həqiqəti söyləyirəm, yalan danışmıram. **Vicdanım da söylədiklərimi... təsdiqləyir.** (Romalılara, 9: 1)

Eynilə bu adamların qəbul etdiyi kimi, həm doğru kəslərin, həm doğru olmayanların ölümdən diriləcəyinə dair Allaha ümid bağladım. Bu səbəblə mən... **Allahın... hüzurunda vicdanımı təmiz tutmağa həmişə diqqət göstərirəm.** (Həvarilərin İşləri, 24: 15-16)

Dünyaya və xüsusilə sizə, insanın müdrikliyiylə deyil, Allahın lütfüylə, Allahdan gələn **saflıq və səmimiyyətlə davrandığımıza vicdanımız şahiddir**. Və biz bununla öyünürük. (2 Korinflilərə, 1:12)

Bu xidməti Allahın mərhəmətiylə boynumuza götürdüyümüz üçün cəsarətimizi itirmərik. Utanc verici gizli yolları rədd etdik. Hiyləyə üz tutmarıq, Allahın sözünü də təhrif etmərik. **Həqiqəti ortaya qoyaraq özümüzü Allahın hüzurunda hər insanın vicdanına tövsiyə edərik.** (2 Korinflilərə, 4:1-2)

... Kilsə vəzifəliləri, özü sözü ayrı, şərab düşkünü, haqsız qazanc arxasınca qaçan kəslər deyil, ciddi kəslər olmalıdır. **Təmiz vicdanla imanın sirrinə sarılmalıdırlar.** Bunlar da əvvəl sınansın; tənqid olunacaq bir istiqamətləri yoxsa vəzifə alsınlar. (1 Timoteyə, 3:8-10)

... Məqsədimiz Rəbbi məmnun etməkdir... Rəbdən qorxmanın nə demək olduğunu bildiyimizdən insanları razı salmağa çalışırıq. **Nə olduğumuzu Allah bilir; ümid edirəm siz də vicdanınızda bilirsiniz.** (2 Korinflilərə, 5:8-11)

**Bu buyruğun məqsədi, pak ürəkdən, təmiz vicdandan, səmimi imandan doğan sevgini oyandırmaqdır.** Bəzi kəslər bunlardan azaraq boş söhbətlərə daldılar. Müqəddəs Qanun müəllimi olmaq istəyirlər, amma nə söylədikləri sözləri, nə də iddialı olduqları mövzuları anlayırlar. (1 Timoteyə, 1:5-7)

Elə isə **ürəklərimiz... pis vicdandan təmizlənmiş**, bədənlərimiz təmiz suyla yuyunmuş olaraq, imanın verdiyi tam zəmanətlə, **qəlbən səmimiyyətlə Allaha yaxınlaşaq**. Açıqca mənimsədiyimiz ümidə möhkəm yapışaq. Çünki vəd edən Allah etibarlıdır. Bir-birimizi sevgi və yaxşı işlər üçün necə cəhdə gətirə biləcəyimizi düşünək. Bəzilərinin alışdığı kimi, bir yerə toplaşmaqdan imtina etməyək; o günün yaxınlaşdığını gördükcə bir-birimizi daha da çox ürəkləndirək. (İbranilərə, 10:22-25)

Yaxşılıq etməyi, sizdə olanı başqalarıyla paylaşmağı unutmayın. Çünki Allah bu cür qurbanlardan məmnun olar. Öndərlərinizin sözünü dinləyin, onlara bağlı qalın. Çünki onlar... sizi qoruyarlar. Onların sözünü dinləyin ki, vəzifələrini... sevinclə etsinlər. Bizim üçün dua edin. **Vicdanımızı təmiz tutduğumuza, hər baxımdan müsbət bir həyat sürmək istədiyimizə əminik.** Yanınıza tez zamanda dönə bilməyim üçün dua etməyinizi, xüsusilə xahiş edirəm. (İbranilərə, 13:16-19)

Yalnız bunu mülayim olaraq, hörmətlə edin. **Vicdanınızı təmiz saxlayın...** Davam etdirdiyiniz müsbət həyatı qınayanlar sizə atdıqları böhtandan utansınlar. Yaxşılıq edib acı çəkmək -əgər Allahın istəyi budursa- pislik edib acı çəkməkdən daha yaxşıdır. (1 Peter, 3:16-17)

... Bizim üçün tək bir Allah vardır. O hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq. Tək bir Rəbb var... Hər şey Onun tərəfindən yaradıldı, biz də Onun icazəsiylə yaşayırıq. Nə var ki, hər kəs bu məlumata sahib deyil. Hələ bütpərəst vərdişlərinin təsirində qalan bəziləri, yedikləri ətin bütə təqdim edildiyini düşünürlər. **Vicdanları zəif olduğu üçün ləkələnir.** (1 Korinflilərə, 8:5-7)

Sevimli qardaşlarım, **ürəyimiz bizi günahlandırmazsa**, Allahın hüzurunda özümüzə etibarımız olar və Ondan hər nə diləsək alarıq [dualarımız qəbul olar]. Çünki Onun buyruqlarını yerinə yetirir və Onu məmnun edən şeyləri edirik. (1 Yəhya, 3: 21-22)

... Son zamanlarda bəziləri yalançıların ikiüzlülüyü səbəbiylə hiyləgər ruhlara və cinlərin təlimlərinə qulaq asaraq imandan dönəcək. **Vicdanları sanki qızğın bir dəmirlə dağlanmış bu yalançılar...** iman edib həqiqəti bilənlərin təşəkkürlə yeməsi üçün Allahın yaratdığı yeməklərdən çəkinmək lazım olduğunu buyuracaqlar. (1 Timoteyə, 4:1-3)

Ürəyi təmiz olanlar üçün hər şey təmizdir, amma ürəyi çirkin olanlar və imansızlar üçün heç bir şey təmiz deyil. Çünki **onların zehinləri də, vicdanları da çirklənmişdir.** Allahı tanıdıqlarını irəli sürər, amma etdikləriylə Onu danarlar. Söz dinləməz, heç bir yaxşı işə yaramaz iyrənc kəslərdir. (Titə, 1:15-16)

Nə xoşbəxt mülayim olanlara! Çünki onlar yer üzünü miras alacaqlar. Nə xoşbəxt doğruluğa acıb susayanlara! Çünki onlar doyurulacaqlar. Nə xoşbəxt mərhəmətli olanlara! Çünki onlar mərhəmət tapacaqlar. **Nə xoşbəxt ürəyi təmiz olanlara!... (**Matta, 5:5-8)

... Adam da özünü xeyli işlərdən təmizləsə, şərəfli məqsədlərə uyğun, müqəddəs qılınmış... faydalı, hər yaxşı işə hazır bir qab olar. **Gənclik arzularından qaç. Təmiz ürəklə Rəbbə**

**yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və sağlamlığın ardınca qaç.** (2 Timoteyə, 2:21-22)

... **Vicdanları buna şahidlik edər.** Düşüncələri isə onları ya günahlandırar ya da müdafiə edər. Yaydığım müjdəyə [Allahın əmrlərinə] görə Allahın, insanları gizlicə etdikləri şeylərdən ötrü... mühakimə edəcəyi gün belə olacaq. (Romalılara, 12:14-16)

Bunun üçün Allaha bağlı olun. Şeytana qarşı müqavimət göstərin, sizdən qaçacaq. Allaha yaxınlaşın... Ey günahkarlar, əllərinizi günahdan təmizləyin. Ey qərarsızlar, ürəklərinizi **pak edin.** (Yaqub, 4:7-8)

... Daha əvvəl deyildiyi kimi, "Bu gün Onun səsini [Allahdan gələn vəhyi] eşitsəniz, **ürəklərinizi daşlaşdırmayın.**" (İbranilərə, 4:7)

... **Təmiz ürəklə** Rəbbə yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və sağlamlığın ardınca qaç. (2 Timoteyə, 2:22)

Yaşlı adamı danlama, atan kimi yol göstər. Gənc kişilərə qardaş kimi, yaşlı qadınlara ana kimi, gənc qadınlara tam ürək təmizliyiylə bacı kimi yol göstər. Həqiqətən, kimsəsiz dul qadınlara hörmət göstər. (1 Timoteyə, 5:1-3)

## Allahın elçilərinə iman və itaət etmək

**[Hz. İsa (ə.s):] "Mənim tərəfimdə olmayan mənə qarşıdır.** Mənimlə birlikdə toplamayan, dağıdır deməkdir." (Matta, 12:30)

Allah tərəfindən təsdiqlənən, **Onun göndərdiyi insana iman etmənizdir.** (Yəhya, 6:29)

**Məni qəbul edən də məni Göndərəni [Allahı] qəbul etmiş olar. (**Luka, 9:48; Mark, 9:37; Matta, 10:40)

[Hz. İsa (ə.s):] "Sizi dinləyən məni dinləmiş olar, sizi rədd edən məni rədd etmiş olar. **Məni rədd edən də məni Göndərəni [Allahı] rədd etmiş olar."** (Luka, 10:16)

Onlar da bunu soruşdular: "Allahın istədiyi işləri etmək üçün nə etməliyik?" İsa, "Allahın işi **[Allahın istədiyi] Onun göndərdiyi adama iman etmənizdir"** deyə cavab verdi. (Yəhya, 6:28-29)

Sizə doğrusunu söyləyim, **sözümü eşidib məni Göndərənə [Allaha] iman edənin [cənnətdə] sonsuz həyatı vardır.** Belə biri... ölümdən həyata keçmişdir. (Yəhya, 5:24)

"Nə üçün... söylədiklərimi etmirsiniz? **Mənə gələn və sözlərimi eşidib tətbiq edən adamın kimə bənzədiyini sizə izah edim. Belə bir adam, evini tikərkən torpağı qazan, dərinlərə enib təməli qaya üzərində atan adama bənzəyər. Sel sularıyla qabaran çay o evə doğru gəlsə də, onu yıxmaz. Çünki ev möhkəm tikilmişdir.** Amma sözlərimi eşidib də tətbiq etməyən adam, evini təməl qoymadan torpağın üzərində quran adama bənzəyər. Qabaran çay gələndə ev dərhal çökər. Evin yıxılması da qorxunc olar." (Luka, 6:46-49)

Amma **onun [hz. İsa (ə.s)-ın] sözünə uyanın Allaha olan sevgisi həqiqətən yetkinliyə çatmışdır.** Allahda olduğumuzu [Allahın razılığına uyduğumuzu] bununla anlayırıq.

"Allahda [Allahın razılığına uyğun] yaşayıram" deyən, Məsihin getdiyi yolda getməlidir. (1 Yəhya, 2:5-6)

**Öndərlərinizin sözünü [Allah rizası üçün] dinləyin, onlara bağlı qalın**. Çünki onlar... sizi qoruyarlar. Onların sözünü dinləyin ki... sevinclə etsinlər. (İbranilərə, 13:17)

[Hz. İsa (ə.s):] **"[Allah rizası üçün] mənim adım uğrunda evlərini, qardaşlarını, ana ya da atalarını, uşaqlarını ya da torpaqlarını buraxan hər kəs, bunların yüz qatını əldə edəcək və [cənnətdəki] sonsuz həyatı miras alacaq.** Nə var ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq." (Matta, 19:29-30)

**Qardaşlar, birlikdə məni nümunə götürün [mənim kimi Allaha və onun Peyğəmbəri hz. İsa (ə.s)-a iman edin].** Sizə verdiyimiz nümunəyə görə yaşayanlara diqqətlə baxın. (Filipililərə, 3:17)

[Hz. İsa (ə.s):] "Sizə bir nümunə göstərdim; **etdiyimin eynisini siz də bir-birinizə edəsiniz deyə."** (Yəhya, 13:15)

**Allahın göndərdiyi biri Allahın sözlərini söyləyər...** (Yəhya, 3:34)

[Hz. İsa (ə.s):] **"Sizə doğrusunu söyləyim, bir kimsə sözümə uysa, ölümü [cəhənnəm həyatını] əsla görməyəcək."** (Yəhya, 8:51)

İsa, ətrafındakı kütləni görüncə gölün qarşı tərəfinə keçilməsini buyurdu. O əsnada din alimlərindən biri ona yaxınlaşıb, **"Müəllimim" dedi, "Hara gedsən də, sənin ardınca gələcəyəm."** (Matta, 8:18-19)

İsa oradan keçərkən, vergi toplama yerində oturan birini gördü. Matta adındakı bu adama, **"Ardımca gəl" dedi. Adam da qalxıb İsanın ardınca getdi.** (Matta, 9:9)

Yəhudilər təəccübləndilər. "Bu adam heç təhsil görmədiyi halda, necə bu qədər məlumatlı ola bilər?" dedilər. **İsa onlara, "Mənim təhsilim mənim deyil, məni Göndərənindir" deyə cavab verdi. "Əgər bir kimsə Allahın istəyini yerinə yetirmək istəyirsə, bu təlimin Allahdanmı olduğunu, yoxsa özlüyümdənmi danışdığımı biləcək.** Özündən danışan özünü ucaltmaq istəyər, amma özünü Göndərəni [Allahı] ucaltmaq istəyən doğrudur və onda haqsızlıq yoxdur." (Yəhya, 7:15-18)

**İsa özünə iman edən yəhudilərə, "Əgər mənim sözümə bağlı qalsanız, həqiqətən, şagirdlərim olarsınız. Həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək." dedi.** (Yəhya, 8:31-32)

**İsa yüksək səslə, "Mənə iman edən mənə deyil, məni Göndərənə [Allaha] iman etmiş olar" dedi...** Mənə iman edən heç kim qaranlıqda qalmasın deyə, dünyaya işıq olaraq [dünyanın hidayəti üçün] gəldim. Sözlərimi eşidib və onlara uymayanı mən mühakimə etmərəm. Çünki mən dünyanı mühakimə etməyə deyil, dünyanı qurtarmağa gəldim. Məni rədd edən və sözlərimi qəbul etməyən adamı mühakimə edəcək Biri [Allah] var... (Yəhya, 12:44-48)

İsa, Qalileya gölünün sahilində gəzərkən Peter adlanan Şimonla qardaşı Andreyi gördü. Balıqçı olan bu iki qardaş gölə tor atırdılar. **Onlara, "Ardımca gəlin" dedi**, "Sizləri insan tutan balıqçılar edəcəyəm." **Onlar da dərhal torlarını buraxıb onun ardınca getdilər.** İsa daha irəli gedincə başqa iki qardaşı, Zavdayın oğulları Yaqubla Yəhyanı gördü. Ataları Zavdayla birlikdə gəmidə torlarını təmir edirdilər. Onları da çağırdı. **Dərhal gəmini və atalarını buraxıb İsanın ardınca getdilər.** (Matta, 4:18-22)

İsa gəmiyə minərkən, əvvəllər cinli olan adam ona, "Səninlə gəlim" deyə yalvardı. Amma **İsa adama icazə vermədi. Ona, "Evinə, yaxınlarının yanına dön" dedi. "Rəbbin sənin**

**üçün nələr etdiyini, sənə necə mərhəmət etdiyini onlara izah et." Adam da getdi, İsanın [Allahın icazəsiylə] onun üçün nələr etdiyini Dekapolisdə eşitdirməyə başladı.** İzah etdiklərinə hər kəs təəccüb qalırdı. (Mark, 5:18-20)

İki gəmidən Şimona aid olanına minən İsa, ona sahildən bir az aralanmasını xahiş etdi. Sonra oturdu, gəminin içindən xalqa öyrətməyə davam etdi. Danışığını bitirincə Şimona, "Dərin sulara açılın, balıq tutmaq üçün torlarınızı atın" dedi. Şimon bu qarşılığı verdi: **"Əfəndimiz, bütün gecə çalışdıq, heç bir şey tuta bilmədik. Yenə də sənin sözündən sonra torları atacağam." Bunu edincə elə çox balıq tutdular ki, torları cırılmağa başladı.** (Luka, 5:3-6)

İsa ona bu qarşılığı verdi: **"Məni sevən sözümə əməl edər, Allahım da onu sevər...** Məni sevməyən, sözlərimə qulaq asmaz. Eşitdiyiniz söz mənim deyil, məni göndərən Allahındır." (Yəhya, 14:23-24)

[Hz. İsa (ə.s):] **"Kim buyruqlarımı bilir və yerinə yetirirsə, məhz məni sevən odur. Məni sevəni Allahım da sevəcək.** Mən də onu sevəcəyəm..." (Yəhya, 14:21)

[Hz. İsa (ə.s):] "Sizə doğrusunu söyləyim... **Məni qəbul edən də məni Göndərəni [Allahı] qəbul etmiş olar."** (Yəhya, 13:20)

İsa Yerixoya girdi. Kəndin içindən keçirdi. Orada vergiyığanların rəisi olan Zakkay adlı varlı bir adam var idi. İsanın kim olduğunu görmək istəyir, amma boyu qısa olduğu üçün izdihamdan görə bilmirdi. İsanı görə bilmək üçün öndən qaçıb bir yabanı əncir ağacına dırmaşdı. Çünki İsa oradan keçəcəkdi. **İsa oraya varınca yuxarı baxıb, "Zakkay, tez aşağı en!" dedi. "Bu gün sənin evində qalmalıyam." Zakkay sürətlə aşağı endi və sevinc içində İsanı evinə dəvət etdi.** (Luka, 19:1-6)

... Nə görmüş, nə eşitmişsə ona şahidlik edər, amma şahidliyini kimsə qəbul etməz. Onun şahidliyini qəbul edən, Allahın gerçək olduğunu qavramışdır. **Allahın göndərdiyi adam Allahın sözlərini söyləyər... İsaya iman edənin [cənnətdə] sonsuz həyatı vardır. Amma İsanın sözünü dinləməyən həyatı görməyəcək. Allahın qəzəbi beləsinin üzərində qalar.** (Yəhya, 3:32-36)

... **Onun [Allahın] göndərdiyi adama iman etmirsiniz.** Müqəddəs Yazıları araşdırırsınız. Çünki bunlar vasitəsilə sonsuz həyata sahib olduğunuzu sanırsınız. Mənə şahidlik edən də bu yazılardır! Elə isə siz, həyata qovuşmaq üçün mənə gəlmək istəmirsiniz. (Yəhya, 5:38-40)

"O zaman... [Hz. İsa (ə.s)] sağındakı kəslərə, "Sizlər, Allahımın müqəddəs hesab etdikləri, gəlin!" deyəcək. "Dünya qurulduğundan bəri sizin üçün hazırlanmış olan məkanı [cənnəti] miras alın! Çünki acmışdım, mənə yemək verdiniz; susamışdım, mənə içəcək verdiniz; yad idim, məni içəri aldınız. Çılpaqdım, məni geydirdiniz; xəstəydim, mənimlə maraqlandınız; zindandaydım, yanıma gəldiniz."... Sonra solundakılara belə deyəcək: "Ey lənətlilər... sönməz atəşə gedin! Çünki acmışdım, mənə yemək vermədiniz; susamışdım, mənə içəcək vermədiniz; yad idim, məni içəri almadınız; çılpaqdım, məni geydirmədiniz; xəstəydim, zindandaydım, mənimlə maraqlanmadınız.'" (Matta, 25:34-36; 41-43)

## Allahın əmrlərini bildirən müqəddəs kitablara iman və itaət

... **Müqəddəs Qanunda [Allahın buyruqlarını ehtiva edən vəhydə] və Peyğəmbərlərin Kitablarında yazılı hər şeyə inanıram.** Eynilə bu şəxslərin qəbul etdiyi kimi, həm doğru kəslərin, həm doğru olmayanların ölümdən diriləcəyinə dair Allaha ümid bağladım. Bu səbəblə mən Allahın hüzurunda... vicdanımı təmiz tutmağa həmişə diqqət göstərirəm. (Həvarilərin İşləri, 24:14-16)

Amma o mənə, "Əsla etmə!" dedi, "Mən sənin, Peyğəmbər qardaşların və **bu Kitabın sözlərinə uyanlar kimi bir Allah quluyam**. Allaha qulluq et!" (Vəhy, 22:9)

Yəhyanın həbs olunmasından sonra **İsa, Allahın Müjdəsini [Allahın əmrlərini] eşitdirə-eşitdirə Qalileyaya getdi.** "Zaman doldu" deyirdi, "Allahın hökmranlğı [cənnət vədi] yaxınlaşdı. **Tövbə edin, Müjdəyə [Allahın əmrlərinə] inanın!"** (Mark, 1:14-15)

Hər ikisi də Allahın nəzərində doğru kəslər idi, **Rəbbin bütün buyruq və qaydalarına əskiksizcə uyğunlaşdırardı.** (Luka, 1:6)

Bu səbəblə Romada olan sizlərə də Müjdəni [Allahın əmrlərini] əlimdən gəldiyincə bildirmək üçün səbirsizlənirəm... **Müjdə [Allahın əmrləri] iman edən hər kəsin -əvvəl yəhudilərin, sonra yəhudi olmayanların- qurtuluşu üçün Allahın gücüdür... Təmizlənmə tək imanla olar.** Yazıldığı kimi, "İmanla təmizlənən yaşayacaq." (Romalılara, 1:15-17)

[Hz. İsa (ə.s):] **"Müqəddəs Qanunu [əvvəlki Allahın vəhyini] ya da Peyğəmbərlərin sözlərini etibarsız etmək üçün gəldiyimi sanmayın. Mən etibarsız etməyə deyil, tamamlamağa gəldim...** Bu buyruqların ən kiçiklərindən birini kim tapdalayar və başqalarına elə etməyi öyrətsə, Allah Qatında [axirətdə] ən kiçik sailacaq. **Amma bu buyruqları kim yerinə yetirər və başqalarına öyrətsə, Allahın Qatında [axirətdə] böyük sailacaq.** (Matta, 5:17-19)

Sevimli qardaşlar... Hər iki məktubumda da bu mövzuları xatırladaraq təmiz düşüncələrinizi oyandırmağa çalışdım. Belə ki, **müqəddəs Peyğəmbərlərin çox əvvəldən söylədiyi sözləri... xatırlayasınız.** (2 Peter, 3:1-2)

İndi, qardaşlar, sizə bildirdiyim, sizin də **qəbul edib bağlı qaldığınız Müjdəni [Allahın əmrlərini] xatırlatmaq istəyirəm. Sizə müjdələdiyim bu sözə möhkəm sarılsanız, onun vasitəsilə xilas olarsınız...** (1 Korinflilərə, 15:1-2)

**... [Allah] Allahı tanımayanları və Özüylə əlaqədar Müjdəyə [Allahın əmrlərinə] uymayanları cəzalandıracaq.** Beləələri Rəbbin varlığından və uca gücündən uzaq qalaraq sonsuza qədər məhv olma cəzasına məhkum olacaqlar... (2 Saloniklilərə, 1:8-9)

**Musa, Müqəddəs Qanuna [Allahın buyruqlarını ehtiva edən vəhyə] əsaslanan düzgünlüklə əlaqədar belə yazır: "Qanunun şərtlərini yerinə yetirən, onlar sayəsində yaşayacaq [axirətdə sonsuz cənnət həyatı ilə qarşılıq görəcək]."** İmana əsaslanan düzgünlük isə belə deyir: ... "Allah sözü sənə yaxındır, ağzında və ürəyindədir." (Romalılara, 10:5-8)

Özünü... mənəvi cəhətdən yetkin sayan varsa, bilsin ki, **sizə yazdıqlarım Rəbbin buyruğudur.** Bunlara əhəmiyyət verməyənin özünə də əhəmiyyət verilməsin. (1 Korinflilərə, 14:37-38)

[Hz. İsa (ə.s):] Şagirdləriylə birlikdə xalqı da yanına çağırıb belə danışdı: "Ardımca gəlmək istəyən... məni izləsin. Canını qurtarmaq istəyən onu itirəcək, **canını [Allah rizası üçün]**

**mənim və Müjdənin [Allahın əmrlərinin] uğrunda itirən isə onu qurtaracaq.”** (Mark, 8:34-35)

Peter ona, “Bax, biz hər şeyi buraxıb sənin ardınca gəldik” deməyə başladı. “Sizə doğrusunu söyləyim” dedi İsa, **“[Allah rizası üçün] Mənim və Müjdənin [Allahın əmrlərinin] uğrunda evini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb indi, bu dövrdə çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, uşağa, torpağa və gələcək dövrdə sonsuz həyata [cənnətə] qovuşmayacaq kimsə yoxdur.”** (Mark, 10:28-30)

**Necə ki, hər kəs Müjdəyə [Allahın əmrlərinə] uymadı.** Yeşayanın dediyi kimi: “Ya Rəbb, verdiyimiz xəbərə kim inandı?” Demək ki, iman, xəbəri eşitməklə, eşitmək də Məsihlə əlaqədar sözün yailmasıyla olar. Amma soruşuram: Onlar eşitmədilərmi? Əlbəttə, eşitdilər. “Səsləri bütün yer üzünə, sözləri dünyanın hər tərəfinə çatdı.”... (Romalılara, 10:16-18)

... **Bu kitabdakı peyğəmbərlik sözlərinə əməl edən nə xoşbəxdirt!** (Vəhy, 7:22)

**Bu peyğəmbərlik sözlərini oxuyan, burada [Allahın Müqəddəs Kitabında] yazılanları dinləyib yerinə yetirən nə xoşbəxtdir!** Çünki gözlənilən zaman yaxındır. (Vəhy, 1:3)

# 10-CU HİSSƏ
# İNCİLDƏ ALLAHA YAXINLIQ VƏ İMAN DƏRİNLİYİ

## İncildə Allaha yaxınlıq, bağlılıq və səmimi iman

Elə isə ürəklərimiz pis vicdandan təmizlənmiş və bədənimiz təmiz su ilə yuyunmuş olaraq, imanın verdiyi tam zəmanətlə, ürəkdən, səmimiyyətlə Allaha yaxınlaşaq. (İbranilərə, 10:22)

Fariseylər, İsanın sadukeyləri susdurduğunu eşidincə bir yerə toplandılar. Onlardan biri... ondan [hz. İsa (ə.s)-dan] bunu soruşdu: "Müəllimim, Müqəddəs Qanunda [Allahın vəhyi olan buyruqları arasında] ən əhəmiyyətli buyruq hansıdır?" İsa ona bu qarşılığı verdi: **"'Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla və bütün ağlınla sev." Məhz ilk və ən əhəmiyyətli buyruq budur."** (Matta, 22:34-38)

Bunun üçün **Allaha tabe olun**. İblisə qarşı müqavimət göstərin, sizdən qaçacaqdır. **Allaha yaxınlaşın, O da sizə yaxınlaşacaqdır**. Ey günahkarlar, əllərinizi günahdan təmizləyin. Ey qərarsızlar, ürəklərinizi pak edin... (Yaqub, 4:7-8)

İman olmadan Allahı məmnun etmək qeyri-mümkündür. **Allaha yaxınlaşan, Onun var olduğuna və Onu axtaranları mükafatlandıracağına iman etməlidir.** İman sayəsində Nuh, hələ baş verməmiş hadisələrlə əlaqədar olaraq Allah tərəfindən xəbərdar edildiyində, Allah qorxusuyla ev xalqının qurtuluşu üçün bir gəmi düzəltdi... İmana əsaslanan doğruluğun varisi oldu. (İbranilərə, 11:6-7)

**Harada iki ya da üç adam Mənim adımla toplansa, Mən də orada onların arasındayam. (**Matta, 18:20)

Dünyanı və içindəkiləri yaradan, yerin və göyün Rəbbi olan Allah... Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özü olduğuna görə... Allah, bütün xalqları tək insandan törətdi və onları yer üzünün hər tərəfinə yerləşdirdi. Xalqların var olacağı müəyyən prosesləri və yerləşəcəkləri bölgələrin sərhədlərini əvvəldən təyin etdi. **Bunu, Özünü axtarsınlar və... tapa bilsinlər deyə etdi. Əslində Allah heç birimizdən uzaq deyil.** Necə ki, Onda yaşayır [yalnız Allahın razılığı üçün yaşayır] və hərəkət edirik, Onda [Allahın lütfüylə] varıq... (Həvarilərin İşləri, 17:24-28)

Sevimli qardaşım, **sənə yad olduqları halda, qardaşlar üçün etdiyin hər şeyi səmimi bağlılıqla edirsən.** Onlar kilsə qarşısında sevginə şahidlik etdilər. Onları Allaha yaraşar şəkildə [Allahın razı olacağı şəkildə] köməyinlə birlikdə yola salarsansa, yaxşı edərsən. Çünki inanmayanlardan heç bir kömək almadan, [Allah rizası üçün] Məsihin adı uğruna yola çıxdılar. (3 Yəhya, 1:5-7)

... "Bundan belə **Rəbbə aid olaraq [Allahın razılığını axtararaq yaşayarkən] ölənlər nə xoşbəxtdir!...** Cəhdlərdə istirahət edəcəklər. Çünki etdikləri onları izləyəcək [etdiklərinin qarşılığını axirətdə alacaqlar ]." (Vəhy, 14:13)

**Allahın buyruqlarını yerinə yetirən Allahda yaşayar [Allahın razılığına uyğun yaşayar],** Allah da o adamda yaşayar [Allah o adama rəhmət edər]... (1 Yəhya, 3:24)

Məhz bu səbəblə **hər cür səyi göstərərək imanınıza** alicənablığı, alicənablığınıza elmi, elminizə nəfsə hakim olmanı, nəfsə hakim olmanıza dözüm gücünü, dözüm gücünüzə

**Allah yoluna bağlılığı**, bağlılığınıza qardaşlıq sevgisini, qardaşlıq sevgisinə məhəbbəti **əlavə edin**. (2 Peter, 1:5-7)

Beləliklə, **səmimiliyi sübut edilən imanınız...** sizə tərif, ucalıq, qürur qazandıracaq. İmanınız, odla təmizlənildiyi halda yox olub gedən qızıldan daha qiymətlidir. (1 Peter, 1:7)

... Bunu [Allahın buyruqlarına itaəti], yalnız insanları məmnun etmək istəyənlər kimi gözə xoş görünən xidmətlə deyil, **saf ürəklə, Rəbb qorxusuyla edin.** Rəbdən miras [cənnət] mükafatını alacağınızı bilərək, **hər nə etsəniz, insanlar üçün deyil, Rəbb üçün qəlbən edin...** (Kolosselilərə, 3:22-24)

Dünyaya və xüsusilə sizə, insan müdrikliyiylə deyil, Allahın lütfüylə, **Allahdan gələn saf və səmimiyyətlə davrandığımıza** vicdanımız şahiddir. Və biz bununla öyünürük. (2 Korinflilərə, 1:12)

... **İnsan ürəkdən iman edərək təmizlənər...** (Romalılara, 10:10)

Bu buyruğun məqsədi, pak ürəkdən, təmiz vicdandan, **səmimi imandan** doğan sevgini oyandırmaqdır. (1 Timoteyə, 1:5)

**Təmiz vicdanla imanın sirrinə sarılmalıdırlar.** (1 Timoteyə, 3:9)

Allahın sizə verdiyi topluluğu qoruyun [məsuliyyətinizdəki möminlərə yol göstərin]. Məcburi kimi deyil, **Allahın istədiyi kimi könüllü köməklik edin.** Pul ehtirasıyla deyil, könül razılığıyla, sizə əmanət edilənlərə hökmranlıq göstərmədən, topluma nümunə olaraq vəzifənizi yerinə yetirin... (1 Peter, 5:2-3)

... İnsanları məmnun etmək istəyənlər kimi gözə xoş görünmək üçün etməyin... **Allahın istəyini qəlbən yerinə yetirin.** İnsanlara deyil, Rəbbə xidmət edər kimi könüldən xidmət edin. Çünki istər kölə, istər azad olsun, hər kəsin etdiyi hər yaxşılığın qarşılığını Rəbdən alacağını bilirsiniz. (Efeslilərə, 6:6-8)

... **İmanınız insan müdrikliyinə deyil, Allah gücünə əsaslansın.** (1 Korinflilərə, 2:5)

Yaxşı torpağa düşənlər isə, **sözü eşidincə onu yaxşı və sağlam bir ürəkdə saxlayanlardır.** Bunlar səbirlə dözərək məhsul verərlər. (Luka, 8:15)

... İmanla dolu, yaxşı bir adam olan Barnaba, Antakyaya çatıb Allahın lütfünün meyvələrini görüncə sevindi. **Hər kəsi, qəlbən və səmimi olaraq Rəbbə bağlı qalmağa etina etdirdi.** Nəticə olaraq Rəbbə [iman edən] daha bir çox adam qazanıldı. (Həvarilərin İşləri, 11:23-24)

## İncildə iman coşğusu, şövqü və sevinci

**Səyiniz azalmasın. Ruhda şövqlü olun.** Rəbbə qulluq edin. (Romalılara, 12:11)

Qardaşlarım, **müxtəlif sınaqlarla üz-üzə gəldiyinizdə bunu böyük sevinclə qarşılayın.** Çünki bilirsiniz ki, imanınızın sınanması dözmə gücünü yaradar. Dözmə gücü də, heç bir əskiyi olmayan, yetkin, kamil kəslər olmanızı təmin etsin. (Yaqub, 1:2-4)

**Daxili varlığımda Allahın Qanunundan [Allahın hökmlərindən] zövq alıram.** (Romalılara, 7:22)

Bu səbəblə, sevimli qardaşlarım, Rəbb yolunda verdiyiniz əməyin boşa getməyəcəyini bilərək möhkəmlik göstərin, sarsılmayın, **Rəbbin işində [Allah yolunda etdiyiniz xidmətdə] həmişə çalışqan olun.** (1 Korinflilərə, 15:58)

Zaman sona çatarkən ortaya çıxarılmağa hazır olan qurtuluşa qovuşasınız deyə iman sayəsində Allahın gücüylə qorunursunuz. Bu səbəblə indi **qısa bir müddət müxtəlif sınaqlar nəticəsində acı çəkməyiniz lazımdırsa da, sevinclə coşursunuz. Beləliklə, səmimiliyi sübut edilən imanınız... sizə tərif, ucalıq, qürur qazandıracaq.** İmanınız, odla təmizlənildiyi halda yox olub gedən qızıldan daha qiymətlidir. Məsihi görməsəniz də [Allah rizası üçün] onu sevirsiniz. Bu anda onu görmədiyiniz halda ona [Allahın bir Peyğəmbəri olaraq] iman edir, sözlə izah edilməz uca bir sevinclə coşursunuz. Çünki imanınızın nəticəsi olaraq canlarınızın qurtuluşuna çatırsınız. (1 Peter, 1:5-9)

Sözüm və bildirişlərim, insan müdrikliyinə deyil, Allahın... [vəhyinin] sübut edici gücünə əsaslanırdı. **Belə ki, imanınız insan müdrikliyinə deyil, Allahın gücünə əsaslansın.** (1 Korinflilərə, 2:4-5)

Qonşularıyla qohumları, Rəbbin ona nə böyük mərhəmət göstərdiyini eşidincə, **onun sevincinə qatıldılar**. (Luka, 1:58)

**Şagirdlər isə sevinc və Allahın Ruhuyla dolu idi.** (Həvarilərin İşləri, 13:52)

**Rəbdə [Allaha imanınızda] həmişə sevinin; yenə söyləyirəm, sevinin!** (Filipililərə, 4:4)

... **Səndəki səmimi imanı xatırlayıram... Allahın sənə verdiyi hədiyyəni alovlandırmağın [artırmağın] lazım olduğunu xatırladıram.** (2 Timoteyə, 1:5-6)

Qardaşlar, mən özümü hələ bunu qazanmış saymıram. Ancaq bunu edirəm: geridə qalan hər şeyi [keçmişdə etdiklərimi] unudub irəlidə olanlara doğru [irəlidə edəcəklərimə yönələrək], Allahın... [vədində] **nəzərdə tutulan mükafatı qazanmaq üçün hədəfə doğru qaçıram.** (Filipililərə 3:13-14)

Əsla kimsə pisliyə pisliklə cavab verməsin. Bir-biriniz və bütün insanlar üçün həmişə yaxşılığı məqsəd hesab edin. **Həmişə sevinin**. Həmişə dua edin. Hər vəziyyətdə şükür edin. Çünki Allahın... sizin üçün istədiyi budur. (1 Saloniklilərə, 5:15-18)

Müjdəni [Allahın əmrlərini] yayıram deyə öyünməyə haqqım yoxdur. Çünki bunu etməkdə öhdəliyim var. Müjdəni [Allahın əmrlərini] yaymazsam vay halıma! **Əgər Müjdəni [Allahın əmrlərini] könüldən yaysam, mükafatım olar;** könülsüzcə yaysam, yalnız mənə əmanət edilən vəzifəni etmiş olaram. Yaxşı, mükafatım nədir? **Müjdəni [Allahın əmrlərini] qarşılıqsız yaymaq...** (1 Korinflilərə, 9:16-18)

Çünki siz Rəbbə bağlı qalsanız, biz əsl o zaman yaşayarıq. **Allahımızın hüzurunda sizə görə böyük sevinc duyuruq...** (1 Saloniklilərə, 3:8-9)

**"Mənə görə insanlar sizi söyüb zülm etdikləri, yalan yerə sizə qarşı hər cür pis sözü söylədikləri zaman nə xoşbəxt sizə! Sevinin, sevinclə coşun!** Çünki göylərdəki [axirətdəki] mükafatınız böyükdür. Sizdən əvvəl yaşayan Peyğəmbərlərə də belə zülm etdilər." (Matta, 5:11-12)

[Hz. İsa (ə.s):] "Allahın Hökmranlığı [cənnət], tarlada gizli bir xəzinəyə bənzəyər. Onu tapan yenidən saxladı, **sevinclə qaçıb getdi,** varını-yoxunu satıb tarlanı aldı." (Matta, 13:44)

**İman edən qadın nə xoşbəxtdir!** Çünki Rəbbin ona söylədiyi sözlər reallaşacaq. Məryəm də belə dedi: "Canım Rəbbi ucaldar; **ruhum, xilaskarım Allah üçün sevinclə**

**coşar.** Çünki O, sıradan biri olan quluna rəhmətini nəsib etdi. Məhz **bundan belə bütün nəsillər məni xoşbəxt sayacaq.** Çünki Güclü Olan [Rəbbim], mənim üçün böyük işlər etdi [mənə böyük lütf etdi]. Onun adı müqəddəsdir." (Luka, 1:45-49)

... Davud belə deyər: "Rəbbi hər zaman önümdə gördüm [Allahın köməyini hər zaman hiss etdim], sağımda dayandığı üçün [Allahın inayəti altında olduğum üçün] sarsılmaram. **Bu səbəblə ürəyim xoşbəxt, dilim sevinclidir. Hətta bədənim də ümid içində yaşayacaq...** Həyat yollarını mənə bildirdin; **varlığınla məni sevinclə dolduracaqsan.**" (Həvarilərin İşləri, 2:25-28)

Hər gün məsciddə toplanmağa davam edən imanlılar, öz evlərində də çörək bölüb **səmimi bir sevinc və sadəliklə yemək yeyir və Allahı tərifləyirdilər**. Bütün xalqın məmnuniyyətini qazanmışdılar. Rəbb də hər gün yeni xilas olanları [hidayət tapanları] birliyə qatırdı. (Həvarilərin İşləri, 2:46-47)

Çünki Allahın Hökmranlığı [cənnət], yemək-içmək problemi deyil, düzgünlük, **sağlamlıq və Allahın Ruhunda sevincdir**. Məsihə [Allah rizası üçün] bu yolda xidmət edən, Allahı məmnun edər, insanların da məmnuniyyətini qazanar. (Romalılara, 14:17-18)

**Ümid qaynağı olan Allah... ümidlə dolub daşmanız üçün iman həyatınızda sizləri tam bir sevinc və sağlamlıqla doldursun.** (Romalılara, 15:13)

**Bunları sizə, sevincim sizdə olsun və sevinciniz tamamlansın deyə söylədim.** Mənim [Allah rizası üçün uymanızı istədiyim] buyruğum budur: Sizi sevdiyim kimi bir-birinizi sevin... Sizə buyurduqlarımı etsəniz, [Allah üçün] mənim dostlarım olarsınız. (Yəhya, 15:11-14)

[Allah rəhmətiylə] sizə yaxşılıq edir. Göydən yağış yağdırır, müxtəlif məhsullarıyla mövsümləri gətirir, sizi yeməklə doyurub **ürəklərinizi sevinclə doldurur.** (Həvarilərin İşləri, 14:16-17)

Sənin uşaqlarından bəzilərinin Allahdan aldığımız buyruğa əməl edərək **həqiqətin arxasınca getdiyini görüncə çox sevindim. (**2 Yəhya, 1:4)

Amma sən, ey Allah adamı, bu şeylərdən qaç! Doğruluğun**, Allah yolunun, imanın,** sevginin, səbirin, itaətliliyin **ardınca qaç. İman uğrunda uca mübarizəni davam etdir. Sonsuz həyata [cənnət vədinə] möhkəm sarıl.** Bunun üçün çağrıldın və bir çox şahid qarşısında uca inancı açıqca mənimsədin. (1 Timoteyə, 6:11-12)

**Təmiz vicdanla imanın sirrinə sarılmalıdırlar.** (1 Timoteyə, 3:9)

Nəticə olaraq qardaşlarım, **Rəbdə sevinin [Allaha imanla sevinin]...** (Filipililərə, 3:1)

Elə isə sevimli qardaşlarım... qurtuluşunuzu nəticəyə aparmaq üçün **daha çox cəhd göstərin.** (Filipililərə, 2:12)

Məhz bu səbəblə **hər cür səyi göstərərək** imanınıza fəziləti, fəzilətinizə biliyi, biliyinizə nəfsə hakim olmanı, nəfsə hakim olmağınıza dözüm gücünü, dözüm gücünüzə Allah yoluna bağlılığı, bu bağlılığınıza qardaş sevginizi, qardaş sevginizə məhəbbəti əlavə edin. (2 Peter 1:5-7)

... **Ürəkdən bir sevgi və mehribanlıq** varsa, eyni düşüncədə, sevgidə, ruhda və məqsəddə birləşərək sevincimi tamamlayın. (Filipililərə, 2:1-2)

**Bir-birinizi ürəkləndirib** bir-birinizi mənəvi cəhətdən inkişaf etdirin. (1 Saloniklilərə, 5:11)

**Eyni şəkildə siz də sevinin və mənim sevincimə qatılın.** (Filipililərə, 2:18)

Baxın bu acılar, Allahın istəyiylə çəkdiyiniz bu acılar [Allahın imtahanı olaraq qarşılaşdığınız çətinliklər] sizdə nə böyük ciddilik, **təmizlənmək üçün nə böyük istək yaratdı!...** (2 Korinflilərə, 7:11)

Ümidinizdən doğan tam zəmanətə qovuşmanız üçün hər birinizin **sona qədər eyni cəhdi göstərməsini** arzu edirik. Tənbəl olmamanızı, vəd edilənləri iman və səbirlə miras alanların nümunəsinə uymağınızı istəyirik. (İbranilərə, 6:11-12)

## İncildə iman möhkəmliyi və dərinliyi

Yetər ki, eşitdiyiniz Müjdənin [Allahın əmrlərinin] verdiyi ümiddən qopmadan, **imanda möhkəmlənmiş olaraq qalın.** (Kolosselilərə, 1:23)

Sözüm və bildirişim, insan müdrikliyinin razı salıcı sözlərinə deyil, Allahın sübut edici gücünə sığındı. Belə ki, **imanınız insan müdrikliyinə deyil, Allah gücünə əsaslansın.** (1 Korinflilərə, 2:4-5)

... **İsa varkən, açıqca mənimsədiyimiz inanca möhkəm sarılaq.** (İbranilərə, 4:14)

**Bizə dünyaya qarşı zəfər qazandıran imanımızdır. (**1 Yəhya, 5)

**İsa onlara bənzətmələrlə bir çox şey izah etdi.** "Baxın" dedi, "Əkinçinin biri toxum əkməyə çıxdı. Əkdiyi toxumlardan neçəsi yol kənarına düşdü. Quşlar gəlib bunları yedi. Bəzisi torpağı az, qayalıq yerlərə düşdü; torpaq dərin olmadığından dərhal cücərdi. Günəş çıxınca qovruldular, kök sala bilmədikləri üçün quruyub getdilər. Bəzisi tikanlar arasına düşdü. Tikanlar böyüdü, tumurcuqları boğdu. **Bəzisi isə yaxşı torpağa düşdü. Bəzisi yüz, bəzisi altımış, bəzisi də otuz qat məhsul verdi.** Qulağı olan eşitsin!... İndi əkinçiylə əlaqədar bənzətməni siz dinləyin. Kim Allahın Böyüklüyü ilə [cənnətlə] əlaqədar sözü eşidib anlamazsa, pis olan gələr, onun ürəyinə əkiləni söküb aparar. Yol kənarına əkilən toxum budur. Qayalıq yerlərə əkilən isə, eşitdiyi sözü dərhal sevinclə qəbul edən, amma kök sala bilmədiyi üçün ancaq bir müddət dayanan adamdır. Belə biri Allah sözündən [Allahın əmrlərinə uymasından] ötrü çətinlik ya da zülmə uğrayınca dərhal səndələyib yıxılar. Tikanlar arasında əkilən də budur: Sözü eşidər, amma dünyəvi qayğılar və zənginliyin hiyləsi sözü boğar və məhsul verməsinə mane olar. **Yaxşı torpağa əkilən toxum isə, sözü eşidib anlayan birinə bənzəyər. Beləsi, əlbəttə, məhsul verər, bəzisi yüz, bəzisi altımış, bəzisi də otuz qat."** (Matta, 13:3-9; 18-23)

... Sevinməniz üçün sizinlə birlikdə çalışırıq. **Çünki imanda möhkəm dayanırsınız.** (2 Korinflilərə, 1:24)

İçinizdən birinin müdriklikdə əskikliyi varsa, hər kəsə səxavətli olan... **Allahdan istəsin; ona veriləcək. Yalnız heç şübhə etmədən, imanla istəsin.** Çünki şübhə edən adam küləyin sovurduğu dəniz dalğasına bənzəyər. Hər baxımdan dəyişən, qərarsız olan adam Rəbdən bir şey alacağını ümid etməsin. (Yaqub, 1:5-8)

... [Hz. İsa (ə.s):] **"Mən gələnə qədər sizdə olana [imanınıza] möhkəm sarılın.** Üzərinizə bundan başqa bir yük qoymuram." (Vəhy, 2:24-25)

Bunun üçün, ey qardaşlar... **[imanınızı] dərinləşdirməyə daha çox cəhd göstərin.** Bunları etsəniz, heç bir zaman büdrəməzsiniz. (2 Peter, 1:10)

Bu səbəblə, sevimli qardaşlarım, **Rəbb yolunda verdiyiniz əməyin boşa getməyəcəyini bilərək möhkəm olun, sarsılmayın, Rəbbin işində həmişə çalışqan olun.** (1 Korinflilərə, 15:58)

Amma siz, sevimli qardaşlarım, **özünüzü bütünlüklə müqəddəs olan imanınızın təməli üzərində inkişaf etdirin...** dua edin... [Allahın] sizi sonsuz həyata qovuşduracaq olan mərhəmətini gözləyərkən özünüzü Allahın sevgisində qoruyun. (Yəhuda, 1:20-21)

Çəkdiyin çətinliklərdən qorxma! Bax, sınanasınız deyə iblis içinizdən bəzilərini yaxında zindana atacaq. On gün çətinlik çəkəcəksiniz. **Ölüm bahasına da olsa sadiq qal, sənə həyat tacını [cənnəti] verəcəyəm.** (Vəhy, 2:10)

Ayıq və diribaş olun. Düşməniniz iblis kükrəyən aslan kimi udacaq birini axtara-axtara gəzir. **Dünyanın hər yerindəki qardaşlarınızın da eyni acıları çəkdiyini bilərək imanda sarsılmadan iblisə qarşı müqavimət göstərin...** Bütün lütfün qaynağı olan Allahın Özü qısa bir müddət acı çəkmənizdən sonra sizi mükəmməlləşdirib gücləndirəcək, gücləndirib təməlləndirəcək. Qüdrət sonsuzlara qədər Onun olsun! Amin. (1 Peter, 5:8-11)

**Yaxşılıq etməkdə çalışqan olsanız,** sizə kim pislik edəcək? Düzgünlük uğrunda acı çəksəniz belə, nə xoşbəxt sizə! **İnsanların "qorxduğundan qorxmayın, ürkməyin."** (1 Peter, 3:13-14)

Bu **səbəblə zehinlərinizi fəaliyyətə hazırlayıb ayıq qalaraq ümidinizi tamamilə... sizə təmin ediləcək lütfə [axirətə] bağlayın.** Söz dinləyən uşaqlar kimi, məlumatsız olduğunuz keçmiş zamandakı ehtiraslarınıza uymayın. Sizi çağıran Allah müqəddəs olduğuna görə, siz də hər davranışınızda müqəddəs olun. Necə ki, belə yazılmışdır: "Müqəddəs olun, çünki Mən müqəddəsəm." (1 Peter, 1:13-16)

**İman sayəsində** Nuh, hələ olmamış hadisələrlə əlaqədar olaraq Allah tərəfindən xəbərdarlıq alınca, Allah qorxusuyla ev xalqının qurtuluşu üçün bir gəmi düzəltdi. Bununla dünyanı mühakimə etdi və imana əsaslanan doğruluğun varisi oldu. **İman sayəsində** İbrahim miras alacağı yerə getməsi üçün çağrılınca, Allahın sözünü dinlədi və hara gedəcəyini bilmədən yola çıxdı. **İman sayəsində** bir yad olaraq vəd edilən ölkəyə yerləşdi. Eyni vədin ortaq varisləri olan İshaq və Yaqubla birlikdə çadırlarda yaşadı. Çünki memarı və qurucusu Allah olan təməlli şəhəri gözləyirdi. İbrahim, yaşı keçmiş və arvadı Sara sonsuz olduğu halda, **imanı sayəsində** Vəd Edənə inandığından uşaq sahibi olmaq üçün **güc tapdı**. Beləcə, tək bir adamdan, üstəlik ölüdən fərqi olmayan birindən göydəki ulduzlar, dəniz sahilindəki qum qədər çox nəvə törədi. **Bu kəslərin hamısı imanlı olaraq öldü.** Vəd edilənlərə qovuşa bilməsələr də bunları uzaqdan görüb salamladılar, yer üzündə yad və qonaq olduqlarını açıqca qəbul etdilər. (İbranilərə, 11:7-13)

**Açıq şəkildə mənimsədiyimiz ümidə möhkəm sarılaq.** Çünki vəd edən Allah etibarlıdır. (İbranilərə, 10:23)

Allah... əməyinizi və müqəddəslərə [özünü Allaha həsr etmişlərə] xidmət etmiş olaraq və etməyə davam edərək Onun adına göstərdiyiniz sevgini unutmaz. Ümidinizdən doğan tam zəmanətə qovuşmağınız üçün **hər birinizin sona qədər eyni səyi göstərməsini diləyirik. Tənbəl olmamağınızı, vəd edilənləri iman və səbir vasitəsilə miras alanların nümunəsinə uymağınızı istəyirik.** (İbranilərə, 6:10-12)

Yetər ki, **eşitdiyiniz Müjdənin [Allahın vəhyinin] verdiyi ümiddən qopmadan, imanda təməllənib yerləşmiş olaraq qalın. Mən Paul...** bu Müjdənin [Allahın vəhyini yaymaqla məsul] xidmətçisi oldum. (Kolosselilərə, 1:23)

Gənclik arzularından qaç. **Təmiz ürəklə Rəbbə yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və sağlamlığın ardınca qaç.** (2 Timoteyə, 2:22)

Bədəni öyrətməyin bir az faydası var; amma indiki və gələcək həyatın vədini ehtiva edən Allah yolunda getmək hər cəhətdən faydalıdır. Bu etibarlı bir sözdür. **Bunun üçün əmək verir, mübarizə aparırıq. Çünki ümidimizi bütün insanların, xüsusilə, iman edənlərin Xilaskarı olan diri Allaha bağladıq.** (1 Timoteyə, 4:8-10)

... Səndə olan mənəvi hədiyyənə [Allahın lütfü olan imanına] laqeyd yanaşma. **Bu mövzuların üzərində dayan, özünü bunlara həsr et ki, irəlilədiyini hər kəs görsün. Özünə və təliminə diqqət yetir, bu yolda getməyə davam et.** Çünki bunu etməklə həm özünü, həm səni dinləyənləri qurtaracaqsan. (1 Timoteyə, 4:14-16)

... Peyğəmbərlik sözlərini kiçik hesab etməyin. **Hər şeyi sınayın, yaxşı olana möhkəm sarılın.** Hər növ pislikdən çəkinin. Sağlamlıq qaynağı olan Allahın Özü sizi tamamilə müqəddəs etsin. Ruhunuz, canınız və bədəniniz... İsa Məsihin gəlişində əksiksiz və qüsursuz olmaq üzrə qorunsun. (1 Saloniklilərə, 5:19-23)

Çünki bu ümidlə xilas olduq. Amma **görülən ümid, ümid deyil. Gördüyü şeyə kim ümid edər? Amma hələ görmədiyimizə ümid bağlamışsaq, səbirlə gözləyə bilərik.** (Romalılara, 8:24-25)

**Bu səbəblə cəsarətimizi itirmərik. Hər nə qədər zahiri varlığımız xarab olursa da, daxili varlığımız gündən günə yenilənir.** (2 Korinflilərə, 4:16)

**İsa ona, "Bacarırsansa nə sözdür? İman edən biri üçün hər şey mümkündür!" dedi.** (Mark, 9:23)

Bunu eşidən şagirdlər tamamilə çaşdılar, "Elə isə kim xilas ola bilər?" deyə soruşdular. İsa onlara baxaraq, **"İnsanlar üçün bu qeyri-mümkündür, amma Allah üçün hər şey mümkündür"** dedi. (Matta, 19:25-26; Luka, 18:26-27)

Sonra şagirdlər tək başlarına İsaya yaxınlaşıb, "Biz cini niyə qova bilmədik?" deyə soruşdular. İsa, "İmanınız az olduğu üçün" qarşılığını verdi. "Sizə doğrusunu söyləyim, bir xardal dənəsi qədər **imanınız olsa** bu dağa, "Buradan oraya köç" desəniz, köçər; **sizin üçün qeyri-mümkün bir şey olmayacaq."** (Matta, 17:19-21; Luka, 17:6-?)

İsa onlara belə cavab verdi: **"Allaha iman edin. Sizə doğrusunu söyləyim, kim bu dağa, "Qalx, dənizə atıl!" deyər və ürəyində şübhə etmədən dediyinin olacağına inansa, diləyi yerinə yetəcəkdir.**" (Mark, 11:22-23)

**Sonra İsa yüzbaşıya, "Get, inandığın kimi olsun" dedi. Və xidmətçi o anda yaxşılaşdı."** (Matta, 8:13)

İman olmadan Allahı məmnun etmək qeyri-mümkündür. Allaha yaxınlaşan, **Onun var olduğuna və Onu axtaranları mükafatlandıracağına iman etməlidir.** (İbranilərə, 11:6)

Allahın Öz ucalığının zənginliyi uyğun olaraq... **sizi daxili varlığınızda qüdrətlə gücləndirməsini...** diləyirəm. Belə ki, Allahın bütövlüyündə [kamil imanla] dolmanız üçün, sevgidə dərinləşmiş və təməllənmiş olaraq bütün müqəddəslərlə [Allaha özünü həsr etmişlərlə] birlikdə Məsihin sevgisinin nə cür geniş və uzun, yüksək və dərin olduğunu anlamağa, hər dərrakədən üstün olan bu sevgini qavramağa gücünüz çatsın. (Efeslilərə, 3:16-19)

Bu səbəblə... gerçəyi rədd edənlərin buyruqlarına qulaq asmayıb **möhkəm imana sahib olmaları üçün** onları ciddi bir şəkildə xəbərdar et. (Titə, 1:13-14)

## İncildə dərin düşünmək

**Məryəm isə bütün bu sözləri dərin-dərin düşünərək ürəyində saxlayırdı.** (Luka, 2:19)

**Dediklərimi yaxşı düşün.** Rəbb sənə hər mövzuda anlayış verəcək. (2 Timoteyə, 2:7)

Qardaşlarım, **aldığınız çağırışı düşünün**... (1 Korinflilərə, 1:26)

... O biriləri **deyilənləri yaxşıca düşünüb-daşınsın.** (1 Korinflilərə, 14:29)

Qardaşlar, uşaq kimi düşünməyin. Pislik mövzusunda uşaqlar kimi, amma **düşünməkdə yetkinlər kimi olun**. (1 Korinflilərə, 14:20)

... **Düşünmürsünüzmü?** Anlamırsınızmı? Ürəyiniz eləmi qatılaşdı? (Mark, 8:17)

Nəticə olaraq, qardaşlarım, **həqiqi, hörmətli, doğru, pak, sevimli, heyranlıq oyandıran, fəzilətli və təriflənməyə dəyər nə varsa, onu düşünün.** (Filipililərə, 4:8)

**Bir-birimizi sevgi və yaxşı işlər üçün necə şövqləndirəcəyimizi düşünək.** Bəzilərinin alışdığı kimi, bir yerə gəlməkdən imtina etməyək; o günün yaxınlaşdığını gördükcə bir-birimizi daha da çox ürəkləndirək. (İbranilərə, 10:24-25)

... Göydəki dəyərlərin [Allahın Qatında qiymətli olan şeylərin] ardınca gedin.... **Yer üzündəki deyil, göydəki [Allahın Qatındakı] dəyərləri düşünün...** (Kolosselilərə, 3:1-2)

Yorulub cəsarətinizi itirməmək üçün, günahkarların bu qədər etiraz etməsinə qatlanmış olanı **[hz. İsa (ə.s)-ın nümunə imanını] düşünün.** (İbranilərə, 12:3)

... Sözləriylə səhv etməyən kimsə, bütün bədənini də nizamlaya bilən yetkin biridir. Bizə boyun əymələri üçün atların ağzına yüyən vurarıq, beləcə bütün bədənlərini istiqamətləndirərik. **Düşünün**, gəmilər də o qədər böyük olduğu, güclü küləklər tərəfindən hərəkət etdirildiyi halda, kapitanın könlü hara istəsə sükanın döndərilməsi ilə o istiqamətə çevrilərlər. Bunun kimi, dil də bədənin kiçik bir üzvüdür, amma böyük işlərlə öyünər. **Düşünün**, kiçik bir qığılcım böyük bir meşəni alovlandıra bilər. Dil də [Allahın rizasına uyğun danışılmadığında] bir ateş, bədənimizin üzvləri arasında bir pislik dünyasıdır. Bütün varlığımızı çirkləndirər. (Yaqub, 3:2-7)

## İncildə Allahın batin (gizli, görünməyən) elmi ilə bağlı izahlar

**"Bunu mənim üçün edən Rəbdir"** dedi... (Luka, 1:25)

... **Allahdan olmayan rəhbərlik yoxdur. Var olanlar Allah tərəfindən qurulmuşdur.** (Romalılara, 13:1)

**Harada iki ya da üç adam Mənim adımla toplansa, Mən də orada onların arasındayam.** (Matta, 18:20)

Bunu, özünü axtarsınlar və əl alışqanlığı ilə də olsa tapa bilsinlər deyə etdi. **Əslində Allah heç birimizdən uzaq deyil. Necə ki, "Onda yaşayır və hərəkət edirik; Onda varıq."...** (Həvarilərin İşləri, 17:27-28)

**Bunu, Onu axtarsınlar və... tapa bilsinlər deyə etdi. Əslində Allah heç birimizdən uzaq deyil.** Necə ki, Onda yaşayır və hərəkət edirik, Onda varıq [Allah hər yeri əhatə edəndir, hər şey Allahın icazəsiylə olar.]... (Həvarilərin İşləri, 17:27)

Oraya çatdıqlarında inananlar birliyini bir yerə toplayıb, **Allahın onlar vasitəsilə nələr etdiyini [onları necə vəsilə etdiyini],** digər xalqlara iman qapısını necə açdığını izah etdilər. (Həvarilərin İşləri, 14:27)

Qüdsə gəldiklərində inananlar birliyi, elçilər və qocalar tərəfindən yaxşı qarşılandılar. **Allahın onlar vasitəsilə [onları necə vəsilə edərək] etdiyi hər şeyi izah etdilər.** (Həvarilərin İşləri, 15:4)

Ürəyindəki gizli düşüncələr ortaya çıxacaq və **"Allah, həqiqətən, aranızdadır!" [Allah hər yeri əhatə edən, hər an hər kəsə şahid olandır]** deyərək üzü üstə yerə çöküb Allaha ibadət edəcək. (1 Korinflilərə, 14:25)

Bu səbəblə İsa belə dedi: "... **Mənim özümdən heç bir şey etmədiyimi, amma eynilə Allahın mənə öyrətdiyi kimi danışdığımı anlayacaqsınız."** (Yəhya, 8:28)

**"Çünki mən özümdən danışmadım.** Məni Göndərən Allahın Özü nə söyləməli və nə danışmalı olduğumu mənə buyurdu. Onun buyruğunun sonsuz həyat [cənnət] olduğunu bilirəm. Bunun üçün nə söyləyirəmsə, Allahın mənə söylədiyi kimi söyləyirəm." (Yəhya, 12:49-50)

**"Məni Göndərən mənimlədir,** O məni tək buraxmadı. Çünki mən hər zaman Onu məmnun edəni edərəm." Bu sözlərdən sonra bir çoxları Ona [Allaha] iman etdi. (Yəhya, 8:29-30)

Nə var ki, əvvəl Müjdənin [Allahın əmrlərinin] bütün xalqlara eşitdirilməsi lazımdır. Sizi həbs edib məhkəməyə verdiklərində, **"Nə söyləyəcəyik?" deyə əvvəldən narahat olmayın. O anda sizə nə ilham edilsə onu söyləyin. Çünki danışan siz deyil, Allahın Ruhu olacaq.** (Mark, 13:10-11)

Sizləri məhkəməyə verdikləri zaman, nəyi necə söyləyəcəyinizi düşünərək narahat olmayın. Nə söyləyəcəyiniz o anda sizə bildiriləcək. **Çünki danışacaq olan siz olmayacaqsınız, Rəbbinizin Ruhu sizin vasitəçiliyinizlə danışacaq.** (Matta, 10:19-20)

**İman, ümid edilənlərə güvənmək, görünməyən şeylərin varlığından əmin olmaqdır.** Atalarımız bununla Allahın təqdirini qazandılar. Kainatın Allahın buyruğuyla yaradıldığını, **beləcə görünənlərin görünməyənlərdən meydana gəldiyini iman sayəsində anlayırıq.** (İbranilərə, 11:1-3)

## İncildə dünya həyatının keçiciliyi ilə bağlı izahlar

**Keçici yemək üçün deyil, sonsuz həyat boyunca qalıcı yemək üçün çalışın...** (Yəhya, 6:27)

... **Qürbəti xatırladan bu dünyadakı zamanınızı** Allah qorxusuyla keçirin. Bilirsiniz ki, atalarınızdan qalma boş yaşayışınızdan **qızıl ya da gümüş kimi keçici şeylərlə** [xilas ola bilməzsiniz]... (1 Peter, 1:17-18)

**İnsan bütün dünyanı qazanıb canını itirsə, canından olsa, bunun özünə nə faydası olar?** (Luka, 9:25)

**İnsan bütün dünyanı qazanıb canından olsa, bunun özünə nə faydası olar? İnsan öz canına qarşılıq nə verə bilər?** (Mark, 8:36-37; Matta, 16:26)

... **Zəngin adam çöl çiçəyi kimi solub gedəcək.** Günəş yandırıcı istisiylə doğular və otu qurudar. **Otun çiçəyi düşər, görünüşünün gözəlliyi yox olar.** Zəngin də bunun kimi öz cəhdləri içində itib gedəcək. (Yaqub, 1:9-11)

... Çünki **dünyanın indiki halı keçicidir.** (1 Korinflilərə, 7:31)

Nuhun gəmiyə mindiyi günə qədər **insanlar yeyib içir, evlənib evləndirilirdilər. Sonra tufan gəlib hamısını yox etdi.** Lutun günlərində də vəziyyət eyni idi. İnsanlar **yeyib içir, alıb satır, toxum əkir, ev tikirdilər.** Amma Lutun Sodomdan ayrıldığı gün **göydən odla kükürd yağdı və hamısını yox etdi**. (Luka, 17:27-29)

İndiki dövrdə zəngin olanlara qürurlanmamalarını, **gəlib keçici zənginliyə ümid bağlamamalarını buyur.** Zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bağlasınlar. Yaxşılıq etmələrini, yaxşılıqdan yana zəngin, əliaçıq və paylaşmağa istəkli olmalarını buyur. Beləliklə, **həqiqi həyata qovuşmaqla,** gələcək üçün özlərinə möhkəm təməl olacaq xəzinə yığmış olarlar. (1 Timoteyə, 6:17-19)

Gözlərimizi görünən şeylərə [dünyəvi qazanca] deyil, görünməyənlərə [axirətdəki qazanca] çeviririk. Çünki **görünənlər keçicidir, görünməyənlərsə sonsuza qədər qalıcıdır.** (1 Korinflilərə, 4:15-18)

Qardaşlar, bunu demək istəyirəm: Zaman daralmışdır. Bundan belə... mal alanlar malları yoxmuş kimi... olsun. **Çünki dünyanın indiki halı keçicidir.** (1 Korinflilərə, 7:29-32)

Ən kiçik işdə etibarlı olan şəxs, böyük işdə də etibarlı olar. Ən kiçik işdə dürüst olmayan adam, böyük işdə də dürüst olmaz. **Dünyanın aldadıcı sərvəti mövzusunda etibarlı deyilsinizsə, həqiqi sərvəti sizə kim əmanət edər?** Başqasının malı mövzusunda etibarlı deyilsinizsə, öz malınız olmaqla sizə kim bir şey verər? (Luka, 16:10-14)

Hərçənd yetkin kəslər arasında müdrik sözlər söyləyirik; amma bu müdriklik nə indiki dövrün, nə də **bu dövrün gəlib-keçən öndərlərinin** müdrikliyidir. (1 Korinflilərə, 2:6)

Bilirik ki, **sığındığımız bu dünyəvi çadır yıxılsa, cənnətdə Allahın bizə təmin etdiyi bir iqamətgah... sonsuza qədər qalacaq bir evimiz vardır... Dünya çadırında yaşayan biz ağır bir yük altında inləyirik...** Belə ki, **ölümlü olan,** həyat tərəfindən udulsun. Bizləri tam bu məqsəd üçün hazırlayan...Allahdır. (2 Korinflilərə, 5:1-5)

Bəli, şeypur çalınacaq, ölülər çürüməz olaraq diriləcək və biz də dəyişdiriləcəyik. Çünki bu **çürüyən bədən** çürüməzliyi, bu ölümlü bədən ölümsüzlüyü geyinməlidir. **Çürüyən və ölümlü bədən** çürüməzliyi və ölümsüzlüyü geyinincə... vəd yerinə yetəcəkdir. (1 Korinflilərə, 15:53-54)

**Yer üzündəki deyil, göydəki [axirətdəki] dəyərləri düşünün.** (Kolosselilərə, 3:2)

Yenə deyir ki, "Ya Rəbb, başlanğıcda dünyanın təməllərini Sən atdın. Göylər də Sənin... əsərindir. **Onlar yox olacaq, amma Sən qalıcısan. Hamısı bir geyim kimi köhnələcək.** Onları bir xalat kimi bükəcəksən və **bir geyim kimi dəyişdiriləcəklər.** Amma Sən həmişə eynisən..." (İbranilərə, 1:10-12)

Necə ki, **"İnsan soyu bir ota bənzəyər. Bütün ucalığı da çöl çiçəyi kimidir. Ot quruyar, çiçəyi düşər.** Amma Rəbbin sözü sonsuza qədər qalıcıdır." Məhz sizə müjdələnmiş olan söz budur. (1 Peter 1:24-25)

**Hər şeyin sonu** yaxındır... (1 Peter, 4:7)

**Dünyanı və dünyaya aid şeyləri sevməyin.** Dünyanı sevənin Allaha sevgisi yoxdur. Çünki dünyaya aid olan hər şey, cismani ehtiraslar, acgözlük və dünya malına görə təkəbbür Allahdan deyil, dünyadandır. **Dünya və dünyəvi ehtiraslar keçər, amma Allahın istəyini yerinə yetirən sonsuza qədər yaşayar.** (1 Yəhya, 2:15-17)

Özünüzə diqqət yetirin. **Zövq-səfayla, sərxoşluqla, həyatın qayğılarıyla ürəkləriniz qatılaşmasın.** Və o gün sizə bir tələ kimi qəflətən gəlməsin. Çünki bu, yer üzündə oturanların hamısına gələcəkdir. Həmişə ayıq olun, dua edin... (Luka, 21:34-36)

Yenə bəziləri tikanlar arasında əkilən toxumlara bənzəyərlər. Bunlar sözü eşidərlər, amma **dünyəvi qayğılar, var-dövlətin aldadıcılığı və daha başqa ehtiraslar araya girib kəlamı boğar və məhsul verməsinə mane olar.** Yaxşı torpağa əkilənlər isə, sözü eşidən, onu mənimsəyən, bəzisi otuz, bəzisi altımış, bəzisi də yüz qat məhsul verən kəslərdir. (Mark, 4:18-20)

Lakin hər kəs **öz ehtirası ilə aparılıb yoldan çıxarılaraq sınağa çəkilir**. Sonra ehtiras boylu qalıb günah doğurur. Günah da yetişəndə ölüm [cəhənnəm əzabı] gətirir. Sevimli qardaşlarım, aldanmayın! (Yaqub, 1:14-16)

... **Sizdən kim varını-yoxunu gözdən çıxarmazsa, şagirdim ola bilməz.** Duz faydalıdır. Amma duz dadını itirsə, bir daha necə o dadı qazana bilər? Nə torpağa, nə də gübrəyə fayda verər; onu zibilliyə atarlar. Eşidəcək qulağı olan eşitsin. (Luka, 14:33-35)

Allaha bağlı olun. Aranızdakı savaş və çəkişmələrin qaynağı nədir? Bədənlərinizin üzvlərində savaşan ehtiraslarınız deyilmi? Bir şey arzu edirsiniz, amma əldə edə bilməyincə adam öldürürsünüz. Qısqanırsınız, amma istəyinizə çata bilməyincə dalaşır və döyüşürsünüz. Əldə edə bilmirsiniz, çünki Allahdan diləmirsiniz. Dilədiyiniz zaman da diləyinizə qovuşa bilmirsiniz. Çünki pis məqsədlə, ehtiraslarınız uğrunda istifadə etmək üçün diləyirsiniz. **Siz, ey vəfasızlar, dünya ilə dostluğun Allaha düşmənlik olduğunu bilmirsinizmi? Dünya ilə dost olmaq istəyən, özünü Allaha düşmən edər.** (Yaqub, 4:1-4)

**İndi hər şeyi aynadakı solğun görünüş kimi görürük, amma o zaman [axirətdə] üz-üzə görüşəcəyik. İndi məlumatım məhduddur, amma o zaman bilindiyim kimi tam biləcəyəm.** (1 Korinflilərə, 13:12)

**Zəngin bir adam vardı... bolluq içində hər gün əylənərdi.** Hər tərəfi yara içində olan Lazar adında yoxsul bir adam bu zənginin qapısının önünə gətirilmişdi; zənginin süfrəsindən düşən qırıntılarla qarnını doyurmağa can atardı... Bir gün yoxsul adam öldü, mələklər onu götürüb İbrahimin yanına apardılar. **Sonra zəngin adam da öldü və basdırıldı. Ölülər diyarında [cəhənnəmdə] iztirab çəkən zəngin adam** başını qaldırıb uzaqda İbrahimi və onun yanında Lazarı gördü... "İbrahim, "Oğlum" dedi, "Həyatın boyunca sənin yaxşılıq payını, Lazarın da pislik payını aldığını unutma. İndiysə o burada təsəlli edilir, sən də əzab çəkirsən. (Luka, 16:19-25)

**"Yer üzündə özünüzə xəzinələr yığmayın. Burada güvə və pas onları yeyib bitirər,** oğrular da girib oğurlayarlar. Bunun yerinə özünüzə göydə [axirətdə] xəzinələr yığın. Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar. Xəzinəniz hardadırsa, ürəyiniz də orada olacaq. (Matta, 6:19-21)

Sevimli qardaşlar... mənliyin [nəfsin] ehtiraslarından çəkinin. Çünki **bu dünyada yad və qonaqsınız.** İnanmayanlar arasında pozitiv bir həyat sürün. (1 Peter, 2:11-12)

Gözlərimizi görünən şeylərə deyil, görünməyənlərə çeviririk. Çünki **görünənlər keçicidir, görünməyənlərsə sonsuza qədər qalıcıdır.** (2 Korinflilərə, 4:18)

Çünki **dünyaya nə bir şey gətirdik, nə də ondan bir şey apara bilərik.** Yeməyimiz, geyəcəyimiz varsa bunlarla kifayətlənərik. Zəngin olmaq istəyənlər büdrəyib tələyə düşərlər, insanı çöküşə və məhvə [cəhənnəm əzabına] aparan bir çox axmaq və zərərli arzulara qapılarlar. Çünki hər cür pisliyin kökü də pul sevgisidir. Bəziləri zəngin olma həvəsiylə imandan azdılar, öz-özlərinə çox acı çəkdirdilər. Amma sən, ey Allah adamı, bu şeylərdən qaç! Doğruluğun, Allah yolunun, imanın, sevginin, səbirin, itaətliliyin ardınca qaç. İman uğrunda uca mübarizəni davam etdir. Sonsuz həyata [cənnətə] möhkəm sarıl. (1 Timoteyə, 6:7-12)

Varlı bir adamın tarlaları bol məhsul verdi. Adam içində, "Nə edəcəyəm mən?" deyirdi, "Çünki məhsullarımı qoyacaq yerim yox!" Sonra, "Nə edəcəyimi bilirəm" dedi, "Anbarlarımı yıxıb daha böyüklərini quracağam. Buğdamın hamısını və başqa hər şeyimi də oraya qoyacağam. Canıma da deyəcəyəm ki, ey can, illərcə çatacaq qədər bol malın var. Rahatlığına bax. Ye, iç, xoşbəxt ol!" Amma Allah ona, **"Ey ağılsız adam, canın bu gecə səndən istənir"** dedi. **"Yığdıqların kimin olacaq?" Öz faydasına mal yığan, amma Allah Qatında zəngin olmayan insanın vəziyyəti budur.** (Luka, 12:16-21)

# 11-Cİ HİSSƏ
# İNCİL DƏ QURANA UYĞUN ƏMR VƏ QADAĞALAR

## Cinayət işləməmək

Başlanğıcdan bəri eşitdiyiniz buyruq budur: Bir-birimizi sevək. **Şeytana aid olub qardaşını öldürən Qabil kimi olmayaq. Qabil qardaşını niyə öldürdü? Öz etdikləri pis, qardaşının etdikləri doğru olduğu üçün öldürdü... Heç bir qatilin sonsuz həyata [cənnətə] sahib olmadığını bilirsiniz.** (1 Yəhya, 3:11-15)

**Atalarımıza, "Adam öldürməyəcəksən. Öldürən mühakimə olunacaq" deyildiyini eşitdiniz.** (Matta, 5:21)

İsa ona, "Mənə niyə yaxşı deyirsən?" dedi. "Yaxşı olan tək biri var, O da Allahdır. **Onun buyruqlarını bilirsən: "Adam öldürmə**, zina etmə, oğurluq etmə, yalan yerə şahidlik etmə, kimsənin haqqını yemə, anana, atana hörmət göstər.'" (Mark, 10:18-19; Luka, 18:19-20)

"Zina etməyəcəksən, **adam öldürməyəcəksən**, oğurlamayacaqsan, başqasının malına göz dikməyəcəksən" buyruqları və bundan başqa nə buyruq varsa, bu kəlamda yekunlaşdırılmışdır: "Qonşunu özün kimi sevəcəksən." (Romalılara, 13:9)

Çünki Qanunun hər dediyini yerinə yetirsə də tək mövzuda ondan azan adam bütün Qanuna qarşı günahkar olar. Necə ki, "Zina etməyəcəksən" deyən, eyni zamanda "**Adam öldürməyəcəksən**" demişdir. Zina etməz, amma **adam öldürsən, Qanunu yenə də tapdalamış olarsan.** (Yaqub, 2:10-11)

... İnsanı kirlədən də budur. Çünki pis düşüncələr, **cinayət**, zina, fahişəlik, oğurluq, yalan yerə şahidlik və böhtan həmişə ürəkdən qaynaqlanar. **İnsanı kirlədən bunlardır...** (Matta, 15:18-20)

İsa belə davam etdi: "İnsanı kirlədən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, fahişəlik, oğurluq, **cinayət**, zina, acgözlük, pislik, hiylə, pozğunluq, qısqanclıq, böhtan, qürur və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. **Bu pisliklərin hamısı daxildən qaynaqlanar və insanı kirləndirər.**" (Mark, 7:20-23)

**Adam öldürməkdən**, cadu, fahişəlik, oğurluq etməkdən də **tövbə etmədilər**. (Vəhy, 9:21)

Allahı tanımaqda fayda görmədikləri üçün [Allahı tənzih edərik], Allah onları faydasız düşüncələrə, yaramaz davranışlara təslim etdi. Hər cür haqsızlıq, pislik, acgözlük və kinlə doldular. Qısqanclıq, **öldürmə ehtirası**, çəkişmə, hiylə, pis niyyətlə **doludurlar**. Dedi-qodu edən, böhtan atan, Allaha nifrət edən [Allahı tənzih edərik], həyasız, təkəbbürlü, lovğa, pislik çıxaran, ana-ata sözü dinləməyən, anlayışsız, sözündə durmayan, sevgidən məhrum, mərhəmətsiz insanlardır. **Hərçənd ki belə işlərlə məşğul olanların ölümə layiq olduğu barədə Allahın ədalətli hökmünü bilirlər, amma yenə də bu işləri görürlər, hətta belə işlər görən başqalarını da alqışlayırlar**. (Romalılara, 1:28-32)

Aranızdakı döyüşlərin, çəkişmələrin qaynağı nədir? Bədəninizin üzvlərində döyüşən ehtiraslarınız deyilmi? **Bir şey arzu edir, əldə edə bilməyincə adam öldürürsünüz**. Qısqanırsınız, istəyinizə çata bilməyincə çəkişib döyüşürsünüz. Əldə edə bilmirsiniz, çünki

Allahdan diləmirsiniz. Dilədiyiniz zaman da diləyinizə qovuşa bilmirsiniz. Çünki pis məqsəd, ehtiraslarınız uğrunda istifadə etmək üçün diləyirsiniz. Ey vəfasızlar, dünyayla dostluğun Allaha düşmən olduğunu bilmirsinizmi? Dünyayla dost olmaq istəyən, özünü Allaha düşmən edər. [Allahı tənzih edirik.] (Yaqub, 4:1-4)

## Oğurluq etməmək

**Oğurluq edən artıq oğurluq etməsin.** Tərsinə, öz əlləriylə yaxşı olanı edərək əmək versin; beləcə ehtiyacı olanla paylaşacaq bir şeyi olsun. (Efeslilərə, 4:28)

[Hz. İsa (ə.s):] "Onun buyruqlarını bilirsən: "Zina etməyəcəksən, adam öldürməyəcəksən, **oğurlamayacaqsan**, yalan yerə şahidlik etməyəcəksən, anana, atana hörmət göstərəcəksən." "Bunların hamısını gəncliyimdən bəri yerinə yetirirəm" dedi adam. (Luka, 18:20-21, Matta, 19:17-19)

"Zina etməyəcəksən, adam öldürməyəcəksən, **oğurlamayacaqsan**, başqasının malına göz dikməyəcəksən" buyruqları və bundan başqa nə buyruq varsa, bu kəlamda yekunlaşdırılmışdır: "Qonşunu özün kimi sevəcəksən." Sevən adam qonşusuna pislik etməz. Bu səbəblə sevmək Müqəddəs Qanunu [Allahın əmrlərini] yerinə yetirməkdir. (Romalılara, 13:9-10)

**Heç biriniz** qatil, **oğru**, pislik edən ya da başqalarının işinə qarışan biri olaraq acı çəkməsin. Amma Məsihə inanan olduğu üçün acı çəkən, bundan utanc duymasın. Daşıdığı bu adla Allahı ucaltsın. (1 Peter, 4:15-16)

Müqəddəs Qanunda məlumatın və həqiqətin özünə qovuşmuş olaraq korların bələdçisi, qaranlıqda qalanların işığı, ağılsızların təlimatçısı, uşaqların müəllimi olduğuna inanmısan. Elə isə başqasına öyrədərkən, özünə də öyrətmirsənmi? **Oğurlamamağı nəsihət edərkən, oğurlayarsanmı?** (Romalılara, 2:19-21)

Adam öldürməkdən, cadu, fahişəlik**, oğurluq etməkdən də tövbə etmədilər.** (Vəhy, 9:21)

[Hz. İsa (ə.s):] "Onun buyruqlarını bilirsən: "Adam öldürməyəcəksən, zina etməyəcəksən, **oğurlamayacaqsan**, yalan yerə şahidlik etməyəcəksən, kimsənin haqqını yeməyəcəksən, anana, atana hörmət göstərəcəksən.'" (Mark, 10:19)

## Zina və fahişəlik etməmək

**Hər kəs evliliyə hörmət göstərsin... günahla ləkələnməsin. Çünki Allah cinsi əxlaqsızlıqda olan və zina edənləri mühakimə edəcək.** (İbranilərə, 13:4)

Onun buyruqlarını bilirsən: "Adam öldürməyəcəksən, **zina etməyəcəksən**, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, kimsənin haqqını yeməyəcəksən, anana atana hörmət göstərəcəksən." (Mark, 10:19)

**"Zina etməyəcəksən" deyildiyini eşitdiniz.** (Matta, 5:27)

**Allahın istəyi budur: Müqəddəs olmanız, fahişəlikdən çəkinməniz.** (1 Saloniklilərə, 4:3)

**Sodom, Homorra və ətraflarındakı şəhərlər də bənzər şəkildə özlərini fahişəlik və pozğunluğa təslim etdilər. Sonsuza qədər atəşdə yanma cəzasını çəkən bu şəhərlər dərs alınacaq bir nümunədir.** (Yəhuda, 1:7)

**Fahişəlikdən çəkinin...** (1 Korinflilərə, 6:18)

**Aranızda fahişəlik, murdarlıq** ya da acgözlük **xatırlanmasın belə. Kimsə fahişəlik etməsin...** müqəddəs dəyərlərə hörmətsizlik etməsin. (İbranilərə, 12:16)

**Müqəddəslərə [özünü Allaha həsr etmişlərə] yaraşmaz bu.** Aranızda açıq-saçıqlıq, axmaqca danışıqlar, bayağı zarafatlar da olmasın. Bunlar sizə yaraşmaz. Bunun yerinə şükür edin. **Bunu qəti olaraq bilin ki, fahişəlik edənin**, pisliyə düşkün olanın ya da bütpərəst olan acgöz adamın... **Allahın dərgahında [cənnətdə] mirası yoxdur.** Heç kim sizi boş sözlərlə aldatmasın. Bu şeylərdən ötrü Allahın qəzəbi söz dinləməyənlərin üzərinə gəlir. Onun üçün beləleriylə oturub-durmayın. (Efeslilərə, 5:3-7)

İnsanı kirlədən, insanın içindən çıxandır... **cinsi əxlaqsızlıq**, oğurluq, cinayət, **zina**, acgözlük, murdarlıq, hiylə, pozğunluq, qısqanclıq, böhtan, təkəbbür və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. **Bu pisliklərin hamısı daxildən qaynaqlanar və insanı kirləndirər.** (Mark, 7:20-22)

"Mənə hər şey sərbəstdir" deyirsiniz, amma hər şey faydalı deyil. "Mənə hər şey sərbəstdir" deyirsiniz, amma heç bir şeyin məhbusu olmayacağam. "Yemək mədə üçün, mədə də yemək üçündür" deyirsiniz, amma Allah həm mədəni, həm də yeməyi ortadan qaldıracaq. **Bədən fahişəlik üçün deyil, Rəbb üçündür [Allahın əmr və qadağalarına uyması üçündür]... Fahişəlikdən çəkinin.** İnsanın işlədiyi bütün o biri günahlar bədənin xaricindədir; amma fahişəlik edən, öz bədəninə qarşı günah işləyər. (1 Korinflilərə, 6:12-13)

Ancaq bütlərə təqdim edilib murdar hala gələn ətlərdən, **fahişəlikdən**, boğularaq öldürülən heyvanların ətindən və qandan **çəkinmələri lazım olduğunu onlara yazmalıyıq.** Çünki çox köhnə zamanlardan bəri Musanın sözləri hər şəhərdə eşitdirilir, hər Şənbə Günü sinaqoqlarda oxunur. (Həvarilərin İşləri, 15:20-21)

... Lazımlı olan bu qaydaların xaricində sizə hər hansı bir şey yükləməməyi uyğun hesab etdik: Bütlərə təqdim edilən qurbanların ətindən, qandan, boğularaq öldürülən heyvanların ətindən və **fahişəlikdən** çəkinməlisiniz. Bunlardan çəkinsəniz, yaxşı edərsiniz. Salamat qalın. (Həvarilərin İşləri 15:28-29)

O biri xalqlardan olan imanlılara gəlincə, biz onlara, bütlərə təqdim edilən qurbanların ətindən, qandan, boğularaq öldürülən heyvanlardan və **fahişəlikdən çəkinmələrini nəzərdə tutan qərarımızı yazmışdıq.** (Həvarilərin İşləri, 21:25)

Çünki pis düşüncələr, cinayət, **zina**, fahişəlik, oğurluq, yalan yerə şahidlik və böhtan həmişə ürəkdən qaynaqlanar. **İnsanı kirlədən bunlardır...** (Matta, 15:19-20)

İsa, "Məndən niyə yaxşılıq haqqında soruşursan?" dedi. "Yaxşı olan tək biri var. Həyata qovuşmaq istəyirsənsə, Onun [Allahın] buyruqlarını yerinə yetir." "Hansı buyruqları?" deyə soruşdu adam. İsa bu qarşılığı verdi: "'Adam öldürməyəcəksən, **zina etməyəcəksən**, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, anana-atana hörmət göstərəcəksən" və "qonşunu özün kimi sevəcəksən." (Matta, 19:17-19, Luka, 18:18-20)

“**Zina etməyəcəksən**, adam öldürməyəcəksən, oğurlamayacaqsan, başqasının malına göz dikməyəcəksən” buyruqları və bundan başqa nə buyruq varsa, bu kəlamda yekunlaşdırılmışdır: “Qonşunu özün kimi sevəcəksən.” (Romalılara, 13:9)

Qalib gələn bunları miras götürəcək... Amma qorxaq, imansız, iyrənc, adam öldürən, **fahişəlik edən**, cadu edən, bütpərəst və bütün yalançılara gəlincə, **onların yeri, kükürdlə yanan atəş gölüdür [cəhənnəmdir]. İkinci ölüm budur.**” (Vəhy, 21:7-8)

**... Fahişəlik edənlər**, adam öldürənlər, bütpərəstlər, yalanı sevib hiylə edənlərin hamısı **çöldə [cənnətin xaricində] qalacaqlar**. (Vəhy, 22:15)

Günahkarların, Allahın dərgahını [cənnəti] miras almayacağını bilmirsinizmi? Aldanmayın! **Nə fahişəlik edənlər Allahın dərgahını miras alacaq,** nə bütə tapınanlar, **nə zina edənlər...** nə oğrular, nə acgözlər, nə əyyaşlar, nə söyənlər, nə də soyğunçular. (1 Korinflilərə, 6:9-10)

Çünki Qanunun hər dediyini yerinə yetirsə də tək mövzuda ondan azan adam bütün Qanuna qarşı günahkar olar. Necə ki, “**Zina etməyəcəksən**” deyən, eyni zamanda “Adam öldürməyəcəksən” demişdir... (Yaqub, 2:10-11)

**Aranızda fahişəlik olduğu deyilir, üstəlik bütpərəstlər arasında belə rast gəlinməyən növdən bir fahişəlik!** Biri atasının arvadını almış... Halbuki... bu işi edəni aranızdan atmağınız lazım deyildimi?... Məktubumda **sizə fahişəlik edənlərlə yoldaşlıq etməməyinizi yazdım... Qardaş deyə bilinərkən fahişəlik edən, acgöz, bütpərəst, söyən, əyyaş ya da soyğunçu olanla yoldaşlıq etməyin,** belə biriylə yemək belə yeməyin. (1 Korinflilərə, 5:1-12)

Bu səbəblə bədənin dünyəvi meyillərini -**fahişəliyi**, pisliyi, şəhvəti, pis arzuları və bütpərəstliklə bərabər olan acgözlüyü- **öldürün**. (Kolosselilərə, 3:5)

Mənliyin [nəfsin] işləri müəyyəndir. Bunlar **fahişəlik**, pislik, pozğunluq, bütpərəstlik, cadugərlik, düşmənçilik, çəkişmə, qısqanclıq, qəzəb, eqoist ehtiraslar, ayrılıqlar, bölünmələr, paxıllıq, sərxoşluq, dəlisov əyləncələr və bənzər şeylərdir. Sizi daha əvvəl xəbərdar etdiyim kimi yenə xəbərdar edirəm, **belə davrananlar Allahın Lütfünü [cənnəti] miras ala bilməyəcəklər**. (Qalatiyalılara, 5:19-21)

Adam öldürməkdən, cadu, **fahişəlik**, oğurluq **etməkdən də tövbə etmədilər.** (Vəhy, 9:21)

... Bu qadın təlimiylə qullarımı **sapdırıb fahişəlik etməyə,** bütlərə təqdim edilən qurbanların ətini yeməyə **yönəldir. Tövbə etməsi üçün ona bir müddət verdim, amma fahişəlik etməkdən tövbə etmək istəmir.** Bax, onu yatağa salacağam; onun etdiklərindən **tövbə etməzlərsə, onunla zina edənləri də böyük çətinliklərin içinə atacağam...** Hər birinizə etdiklərinizin qarşılığını verəcəyəm. (Vəhy, 2:20-23)

İsa belə davam etdi: “İnsanı kirlədən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, **fahişəlik**, oğurluq, cinayət, **zina**, acgözlük, pislik, hiylə, pozğunluq, qısqanclıq, böhtan, təkəbbür və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. **Bu pisliklərin hamısı içdən qaynaqlanar və insanı kirləndirər.**” (Mark, 7:20-23)

Bu adamlarsa sanki dərrakəsiz, qeyri-iradi surətdə aparılan heyvanlardır ki, tutulub kəsilmək üçün doğulublar. Etdikləri haqsızlığa qarşılıq zərər görəcəklər. Gündüz zövq aləmlərinə dalmağı əyləncə sayarlar. Ləkə və üz qarasıdırlar. Sizinlə yeyib içərkən öz hiylələrindən zövq

alarlar. **Gözləri zinayla doludur, günahdan doymazlar.** Qərarsız kəsləri aldadarlar. Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. (2 Peter, 2:12-14)

## Homoseksuallığın və azğın əlaqələrin qadağan olması

... Allah, bir-birlərinin bədənlərini alçaltsınlar deyə, onları ürəklərinin ehtirasları içində əxlaqsızlığa təslim etdi. Allahla bağlı gerçəyin yerinə yalanı qoydular... Beləcə, Allah onları utancverici ehtiraslara təslim etdi. **Qadınları belə normal əlaqə yerinə normal olmayanı üstün tutdular. Eyni şəkildə kişilər də qadınla təbii əlaqələrini buraxıb bir-birləri üçün şəhvətlə yanıb alovlandılar. Kişilər kişilərlə utancverici əlaqələrə girdilər və öz bədənlərində pozğunluqlarına yaraşan qarşılığı aldılar.** Allahı tanımaqda fayda görmədikləri üçün [Allahı tənzih edirik], Allah onları faydasız düşüncələrə, pis davranışlara təslim etdi. (Romalılara 1:24-28)

**Günahkarların, Allahın hökmranlığını [cənnəti] miras almayacağını bilmirsinizmi?** Aldanmayın! Nə fahişəlik edənlər Allahın hökmranlığını [cənnəti] miras alacaq, nə bütə tapınanlar, nə zina edənlər, nə homoseksuallar, nə oğrular, nə acgözlər, nə əyyaşlar, nə söyüş söyənlər, nə də soyğunçular. (1 Korinflilərə, 6:9-10)

[Allah] Sodom və Homorra şəhərlərini yandırıb yaxaraq mühakimə etdi. Beləcə, Allahsızların başına gələcəklərə bir nümunə verdi. Amma **qanun tanımayan kəslərin səfeh yaşayışından** əzab duyan doğru adam Lutu qurtardı. Çünki onların arasında yaşayan bu doğru adam, **görüb eşitdiyi qanun tanımaz davranışlar üzündən doğru ürəyində hər gün iztirab çəkərdi.** Görünür ki, Rəbb Öz yolunda gedənləri qarşılaşdıqları sınaqlardan necə qurtaracağını bilir. Doğru olmayanları, **xüsusilə, mənliyin korlanmış ehtirasları ardınca gedən və səlahiyyətini xor görənləri cəzalandıraraq hesab gününə qədər necə saxlayacağını da bilir.** (2 Peter, 2:6-10)

Çünki Allahımızın lütfünü pozğunluğa vasitə edən... bəzi Allahsızlar gizlicə aranıza sızdılar. Onların mühakimə olunacaqları çoxdan yazılmışdır. Bütün bunları bildiyiniz halda, sizə xatırlatmaq istəyirəm ki, ilk və son dəfə xalqı Misirdən qurtaran Rəbb iman etməyənləri daha sonra yox etdi... **Sodom, Homorra və ətraflarındakı şəhərlər də bənzər şəkildə özlərini fahişəlik və pozğunluğa təslim etdilər. Sonsuza qədər atəşdə yanma cəzasını çəkən bu şəhərlər dərs alınacaq bir nümunədir.** Aranıza sızan bu kəslər də onlar kimi gördükləri xülyalara qapılaraq öz bədənlərini kirlədir, Rəbbin səlahiyyətini heçə sayır, uca varlıqları söyürlər... Digər tərəfdən, **ağıldan məhrum heyvanlar kimi instinktləriylə anladıqları nə varsa, onları məhvə aparır.** (Yəhuda, 1:4-10)

Çünki bilirik ki, **qanun doğrular üçün deyil, qanun tanımayanlarla** üsyankarlar, Allahsızlarla günahkarlar, müqəddəslikdən məhrumlarla müqəddəsata qarşı hörmətsiz olanlar, ana ya da atasını öldürənlər, qatillər, fahişəlik edənlər, homoseksuallar, kölə tacirləri, yalançılar, yalan yerə and içənlər və möhkəm təlimin əleyinə olan başqa nə varsa onlar üçün qoyulmuşdur. (1 Timoteyə, 1:9-10)

## Yalan danışmamaq

**Bir-birinizə yalan danışmayın.** (Kolosselilərə, 3:9)

Yenə atalarımıza, “**Yalan yerə and içməyəcəksən**, amma Rəbbin hüzurunda içdiyin andları yerinə yetirəcəksən” deyildiyini eşitdiniz. (Matta, 5:33)

**Onun [Allahın] buyruqlarını bilirsən:** “Adam öldürməyəcəksən, zina etməyəcəksən, oğurlamayacaqsan, **yalan yerə şahidlik etməyəcəksən,** kimsənin haqqını yeməyəcəksən, anana-atana hörmət göstərəcəksən.” (Mark, 10:19)

İsa, “Məndən niyə yaxşılıq haqqında sual soruşursan?” dedi. “Yaxşı olan tək biri var. Həyata qovuşmaq istəyirsənsə, Onun buyruqlarını yerinə yetir.” “Hansı buyruqları?” deyə soruşdu adam. İsa bu qarşılığı verdi:” “Adam öldürməyəcəksən, zina etməyəcəksən, oğurlamayacaqsan, **yalan yerə şahidlik etməyəcəksən,** anana-atana hörmət göstərəcəksən” və “Qonşunu özün kimi sevəcəksən.”“ (Matta, 19:17-19; Mark, 10:18-19; Luka, 18:18-20)

**Bir-birinizə yalan deməyin**, çünki köhnə mənliyinizi və onun əməllərini üzərinizdən çıxarıb yeni mənliyə büründünüz. Yeni mənliyiniz onu Yaradanın surətinə bənzər şəkildə təzələnir ki, biliyiniz tam olsun.. (Kolosselilərə, 3:9-10)

[Hz. İsa (ə.s):] “... Pis düşüncələr... **yalan yerə şahidlik və böhtan** həmişə ürəkdən qaynaqlanar. **İnsanı kirlədən bunlardır...”** (Matta, 15:19-20; Mark, 7:20-23)

Amma indi qəzəb, hirs, pis niyyət daxil, hamısını üzərinizdən sıyırıb atın. **Ağzınızdan heç bir böhtan... çıxmasın.** (Kolosselilərə, 3:8)

Ey Timote, sənə əmanət ediləni qoru! Müqəddəslikdən məhrum, boş sözlərdən, **yalan yerə “məlumat” deyilən düşüncələrin ziddiyyətlərindən çəkin.** Bəziləri bu saxta məlumata sahib olduqlarını irəli sürərək imandan azdılar. (1 Timoteyə, 6:20-21)

Xananya adında bir adam, arvadı Sapfiranın razılığı ilə bir mülk satdı, pulun bir qismini özünə saxlayaraq qalanını gətirib həvarilərin ixtiyarına verdi. Arvadının da olub-keçənlərdən xəbəri vardı. Peter ona, “Xananya, necə oldu da şeytana uydun... **yalan danışıb mülkün pulunun bir qismini özünə saxladın?” dedi.** “Mülk satılmadan əvvəl sənə aid deyildimi? Sən onu satdıqdan sonra da pulu dilədiyin kimi istifadə edə bilməzdin? **Niyə ürəyində belə bir hiylə qurdun? Sən insanlara deyil, Allaha yalan danışmış oldun.”** Xananya bu sözləri eşidincə yerə yıxılıb can verdi. Olanları eşidən hər kəsi böyük bir qorxu bürüdü... (Həvarilərin İşləri, 5:1-6)

## Hiylə etməmək

Bu səbəblə **hər pisliyi, hiyləni, ikiüzlülüyü**, qısqanclığı və bütün böhtanları **üzərinizdən sıyırıb atın. Yeni doğulmuş körpələr kimi, hiyləsiz südü xatırladan Allah sözünü istəyin ki, bununla bəslənib böyüyərək qurtuluşa çatasınız.** Çünki Rəbbin yaxşılığını daddınız [Allahın rəhmətini gördünüz]. (1 Peter, 2:1-3)

Bu xidməti Allahın mərhəmətiylə boynumuza götürdüyümüz üçün cəsarətimizi itirmərik. **Utancverici gizli yolları rədd etdik. Hiyləyə üz tutmarıq, Allahın sözünü də təhrif etmərik.** Həqiqəti ortaya qoyaraq özümüzü Allahın hüzurunda hər insanın vicdanına tövsiyə edərik. (2 Korinflilərə, 4:1-2)

İtlər, cadugərlər, fahişəlik edənlər, adam öldürənlər, bütpərəstlər, **yalanı sevib hiylə edənlərin hamısı çöldə [cənnətin xaricində] qalacaqlar.** (Vəhy, 22:15)

İsa belə davam etdi: “İnsanı kirlədən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, fahişəlik, oğurluq, cinayət, zina, acgözlük, pislik, hiylə, pozğunluq, qısqanclıq, böhtan, qürur və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanır. **Bu pisliklərin hamısı daxildən qaynaqlanır və insanı kirləndirir.”** (Mark, 7:20-23)

Allahı tanımaqda fayda görmədikləri üçün Allah onları faydasız düşüncələrə, pis davranışlara təslim etdi. Hər cür haqsızlıq, pislik, acgözlük və kinlə doldular. Qısqanclıq, öldürmə ehtirası, çəkişmə, **hiylə, pis niyyətlə doludurlar.** Dedi-qodu edən, böhtan atan, Allahdan nifrət edən, həyasız, təkəbbürlü, lovğa, pislik edən, ana-ata sözü dinləməyən, anlayışsız, sözündə durmayan, sevgidən məhrum, mərhəmətsiz insanlardır. **Belə davrananların ölümə [cəhənnəmi] layiq olduğuna bağlı olaraq Allah buyruğunu bildikləri halda, bunları etməklə qalmaz, edənləri də dəstəkləyərlər.** (Romalılara, 1:28-32)

Son olaraq Rəbdə [Allahın rizasına uymaqda], Onun üstün gücüylə güclənin. **İblisin hiylələrinə qarşı dayana bilmək üçün Allahın verdiyi bütün [mənəvi] silahlara bürünün.** Çünki savaşımız insanlara qarşı deyil... bu qaranlıq dünyanın güclərinə, pisliyin... mənəvi ordularına qarşıdır. Bu səbəblə, pis gündə dözə bilmək, lazımlı hər şeyi etdikdən sonra yerinizdə dayana bilmək üçün Allahın bütün [mənəvi] silahlarına bürünün. (Efeslilərə, 6:10-13)

Natanael Filipə, “Nazaretdən yaxşı bir şey çıxa bilərmi?” deyə soruşdu. Filip, “Gəl özün bax” dedi. İsa, Natanaelin özünə doğru gəldiyini görüncə onun üçün, “**Budur içində hiylə olmayan həqiqi bir israilli!”** dedi. (Yəhya, 1:46-47)

... Şaul, yəni Paul, gözlərini Elimaya dikərək, “Ey iblisin oğlu!” dedi. **“Ürəyin hər cür hiylə və saxtakarlıqla dolu; doğru olan hər şeyin düşmənisən.** Rəbbin düz yollarını təhrif etməkdən imtina etməyəcəksənmi? İndi Rəbbin əli sənə qarşı qalxdı [Allahın əzabından qarşılıq alacaqsan]. Kor olacaqsan, bir müddət gün işığını görə bilməyəcəksən.” (Həvarilərin İşləri, 13:9-11)

... **Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar.** Gözləri zinayla doludur, günahdan doymazlar. Qərarsız kəsləri aldadırlar. Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. Haqsızlıqla əldə etdiyi qazancı sevən Beor oğlu Bilamın yolunu tutaraq doğru yolu buraxıb azdılar. (2 Peter, 2:13-15)

## Cadu kimi işlərlə məşğul olmamaq

Adam öldürməkdən, **cadu**, fahişəlik, oğurluq etməkdən də tövbə etmədilər. (Vəhy, 9:21)

Qalib gələn bunları miras alacaq... Amma qorxaq, imansız, iyrənc, adam öldürən, fahişəlik edən, **cadugər**, bütpərəst və bütün yalançılara gəlincə, **onların yeri, kükürdlə yanan atəş gölüdür [cəhənnəmdir**]. İkinci ölüm budur.” (Vəhy, 21:7-8)

... **Cadugərlər**, fahişəlik edənlər, adam öldürənlər, bütpərəstlər, yalanı sevib hiylə edənlərin hamısı **kənarda [cənnətin xaricində]** qalacaqlar. (Vəhy, 22:15)

... Orada cadugər və saxta peyğəmbər Baryeşu adında bir Yəhudiylə qarşılaşdılar. Baryeşu, vali Sergi Paula yaxın biriydi. Ağıllı bir adam olan vali, Barnabayla Saulu çağırtdırıb Allahın sözünü dinləmək istədi. Nə var ki, **Baryeşu -cadugər mənasını verən o biri adıyla Elima- onlara etiraz edərək valini iman etməkdən daşındırmağa çalışdı.** Amma Allahın Ruhuyla [Allaha imanla] dolan Saul, yəni Paul, gözlərini Elimaya dikərək: “Ey iblisin oğlu!”,—dedi,

—"Ürəyin hər cür hiylə və saxtakarlıqla dolu; doğru olan hər şeyin düşmənisən. Rəbbin düz yollarını təhrif etməkdən imtina etməyəcəksənmi?" (Həvarilərin İşləri, 13:6-10)

## Qanın haram olması

Ancaq bütlərə verilib murdar olan ətlərdən, fahişəlikdən, boğularaq öldürülən heyvanların ətindən və **qandan çəkinmələri lazım olduğunu onlara yazmalıyıq.** Çünki çox köhnə zamanlardan bəri Musanın sözləri hər şəhərdə eşitdirilir, hər Şənbə günü sinaqoqlarda oxunurdu. (Həvarilərin İşləri, 15:20-21)

... Lazımlı olan bu qaydalardan başqa sizə hər hansı bir şey yükləməməyi uyğun gördük: Bütlərə təqdim edilən qurbanların ətindən, **qandan**, boğularaq öldürülən heyvanların ətindən və fahişəlikdən **çəkinməlisiniz**. Bunlardan çəkinsəniz, yaxşı edərsiniz. Salamat qalın. (Həvarilərin İşləri 15:28-29)

Digər xalqlardan olan imanlılara gəlincə, biz onlara bütlərə təqdim edilən qurbanların ətindən, **qandan,** boğularaq öldürülən heyvanlardan və fahişəlikdən **çəkinmələrini nəzərdə tutan qərarımızı yazmışdıq.** (Həvarilərin İşləri, 21:25)

## Boğularaq öldürülən heyvan ətinin haram olması

Ancaq bütlərə verilib murdar olan ətlərdən, fahişəlikdən, **boğularaq öldürülən heyvanların ətindən və** qandan **çəkinmələri lazım olduğunu onlara yazmalıyıq.** Çünki çox köhnə zamanlardan bəri Musanın sözləri hər şəhərdə eşitdirilir, hər Şənbə Günü sinaqoqlarda oxunurdu. (Həvarilərin İşləri, 15:20-21)

... Lazımlı olan bu qaydalardan başqa sizə hər hansı bir şey yükləməməyi uyğun gördük: Bütlərə verilən qurbanların ətindən, qandan, **boğularaq öldürülən heyvanların ətindən** və fahişəlikdən **çəkinməlisiniz.** Bunlardan çəkinsəniz, yaxşı edərsiniz. Salamat qalın. (Həvarilərin İşləri 15:28-29)

Digər xalqlardan olan imanlılara gəlincə, biz onlara, bütlərə təqdim edilən qurbanların ətindən, qandan, **boğularaq öldürülən heyvanlardan** və fahişəlikdən **çəkinmələrini nəzərdə tutan qərarımızı yazmışdıq.** (Həvarilərin İşləri, 21:25)

## Allahdan başqası adına kəsilən ətin yeyilməməsi

... Lazımlı olan bu qaydalardan başqa sizə hər hansı bir şey yükləməməyi uyğun gördük: **Bütlərə verilən qurbanların ətindən**, qandan, boğularaq öldürülən heyvanların ətindən və fahişəlikdən **çəkinməlisiniz**. Bunlardan çəkinsəniz, yaxşı edərsiniz. Salamat qalın. (Həvarilərin İşləri, 15:28-29)

Ancaq **bütlərə verilib murdar olan ətlərdən,** fahişəlikdən, boğularaq öldürülən heyvanların ətindən və qandan **çəkinmələri lazım olduğunu onlara yazmalıyıq.** Çünki çox köhnə zamanlardan bəri Musanın sözləri hər şəhərdə eşitdirilir, hər Şənbə günü sinaqoqlarda oxunurdu. (Həvarilərin İşləri, 15:20-21)

Digər xalqlardan olan imanlılara gəlincə, biz onlara, **bütlərə təqdim edilən qurbanların ətindən,** qandan, boğularaq öldürülən heyvanlardan və **fahişəlikdən çəkinmələrini nəzərdə tutan qərarımızı yazmışdıq.** (Həvarilərin İşləri, 21:25)

İndi bütlərə təqdim edilən qurbanların ətinə gələk. "Hamımızın məlumatı var" deyirsiniz, bunu bilirik. Bilik insanı lovğalandırar, sevgi isə inkişaf etdirər. Bir şey bildiyini sanan, hələ bilməli olduğu kimi bilmir. Amma Allahı sevəni Allah bilər. **Bütlərə verilən qurban ətinin yeyilməsinə gəlincə, bilirik ki, "Dünyada büt bir heçdir" və "Birdən çox ilah yoxdur"...** Bizim üçün tək Allah vardır. O hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq... Nə var ki, hər kəs bu məlumata sahib deyil. **Hələ bütpərəst vərdişlərinin təsirində qalan bəziləri, yedikləri ətin bütə verildiyini düşünürlər. Vicdanları zəif olduğu üçün ləkələnir.** (1 Korinflilərə, 8:1-7)

Nə var ki, **bir neçə mövzuda sənə qarşıyam:** Aranızda Bilamın təliminə bağlı olanlar var. Bütlərə təqdim edilən qurbanların ətini yeməələri, fahişəlik etmələri üçün İsrailoğullarını aldatmağı Balaqa öyrədən Bilam idi. (Vəhy, 2:14)

## Şərab içməmək

... Ağılsız olmayın, Rəbbin istəyinin nə olduğunu anlayın. **Şərabla sərxoş olmayın, bu sizi pozğunluğa aparar...** (Efeslilərə, 5:17-18)

Yəhya gəldiyi zaman **oruc tutub şərabdan çəkindi...** (Luka, 7:33)

Mələk, "Qorxma, Zəkəriyyə" dedi, "Duan qəbul edildi. Arvadın Elizabet sənə bir oğul doğacaq, adını Yəhya qoyacaqsan. Sevinib coşacaqsan. Bir çoxları da onun doğumuna sevinəcək. O, Rəbbin gözündə böyük olacaq. **Heç şərab və içki içməyəcək...** İsrailoğullarından bir çoxunu, Allahları Rəbbə döndərəcək. Atalarının ürəklərini uşaqlarına döndərmək, söz dinləməyənləri doğru kəslərin anlayışına yönəltmək üzrə... gedəcək." (Luka, 1:13-17)

Birliyin xaricindəkilər tərəfindən də yaxşı bir insan olaraq tanınmalıdır. Belə ki, qınanılacaq vəziyyətə və iblisin tələsinə düşməsin. Eyni şəkildə **kilsə vəzifəliləri, özü sözü ayrı, şərab düşkünü, haqsız qazanc arxasınca qaçan kəslər deyil, ciddi kəslər olmalı.** Təmiz vicdanla imanın sirrinə sarılmalıdırlar. (1 Timoteyə, 3:7-9)

Amma o kölə pis olar da... o biri köləlşri döyməyə başlayarsa, **sərxoşlarla birlikdə yeyib içərsə... [Allahın əzabı] onun gözləmədiyi gündə, ümid etmədiyi saatda gələcək, onu şiddətlə cəzalandırıb ikiüzlülərlə bir tutacaq.** Orada ağlaşma və diş qıcırtısı olacaq. (Matta, 24:48-51; Luka, 12:43-47)

Budur etibarlı söz: Kimsə nəzarətçi olmağı könüldən istəyirsə, yaxşı bir vəzifə arzu etmiş olar. Ancaq nəzarət qınanılacaq bir tərəfi olmayan... ölçülü, sağlamfikirli, hörmətli, qonaqpərvər, öyrətməyə qabiliyyətli biri olmalı. **Şərab düşkünü, dikbaş olmamalı;** itaətli, döyüşdən və pul sevgisindən uzaq olmalı. (1 Timoteyə, 3:1-3)

Ağsaqqal seçiləcək adam tənqid olunacaq tərəfi olmayan... biri olsun. Uşaqları imanlı olmalı, pozğunluqla günahlandırılan ya da üsyankar uşaqlar olmamalı. Nəzarətçi, Allah evinin [məscidinin] gözətçisi olduğuna görə, tənqid olunacaq istiqaməti olmamalı. **Tərs, tez hirslənən, şərab düşkünü, dikbaş,** haqsız qazanc arxasında qaçan biri olmamalı. Əksinə,

qonaqpərvər, xeyirxah, sağlamfikirli, ədalətli, pak, özünə nəzarət edə bilən **biri olmalı**. (Titə, 1:6-8)

Sənə gəlincə, möhkəm təlimə uyğun olanı öyrət. Yaşlı kişilərə ölçülü, ciddi, sağlamfikirli olmalarını buyur. İmanda, sevgidə və səbirdə möhkəm olsunlar. Eyni şəkildə yaşlı qadınlar hörmətli bir həyat sürməli. Böhtan atan, **şəraba həris olmamalı;** yaxşı olanı öyrətməli. (Titə, 2:1-3)

# 12-Cİ HİSSƏ
# İNCİLDƏ QURANA UYĞUN DİGƏR ƏMİRLƏR

## Yaxşılığı əmr edib pislikdən çəkindirmək

Həyatınıza diqqət yetirin! **Qardaşınız günah işləyərsə, onu xəbərdar edin; tövbə etsə, bağışlayın.** Gündə yeddi dəfə sizə qarşı günah işləyər və yeddi dəfə sizə gəlib, "Tövbə edirəm" desə, onu bağışlayın. (Luka, 17:3-4)

**Günah işləyənləri hər kəsin önündə xəbərdar et ki,** o biriləri də [Allahdan] qorxsun. (1 Timoteyə, 5:20)

Aldanmayın, "Pis yoldaşlıqlar yaxşı xasiyyəti pozar". Ağıllanıb **özünüzə gəlin, artıq günah işləməyin**. Bəziləriniz Allahı heç tanımır. **Utanasınız deyə söyləyirəm bunları.** (1 Korinflilərə, 15:33-34)

**"Əgər qardaşın sənə qarşı günah işlərsə, ona get, günahını özünə göstər.** Hər şey yalnız ikinizin arasında qalsın. Qardaşın səni dinləyərsə, onu qazanmış olarsan. Amma dinləməzsə, yanına bir ya da iki adam daha al ki, deyilən hər şey iki ya da üç şahidin sözüylə təsdiqlənsin. Onları da dinləməzsə, vəziyyəti iman edənlər birliyinə bildir. Birliyi də dinləməzsə, onu bütpərəst ya da vergi nümayəndəsi say. (Matta, 18:15-17)

## Fitnə çıxarmamaq

Qardaşlar, sizə yalvararam, aldığınız təlimə [Allahın əmrlərinə] qarşı gələrək **ayrılıqlara və azmalara səbəb olanlara diqqət yetirin, onlardan çəkinin**. (Romalılara, 16:17)

İsa şagirdlərinə belə dedi: **"İnsanı günaha salan tələlərin olması qaçılmazdır. Amma bu tələlərə vasitəçilik edən adamın vay halına!** Belə bir adam **bu kiçiklərdən birini günaha salacağına**, boyuna bir dəyirman daşı keçirilib dənizə atılsa, onun üçün daha yaxşı olar. (Luka, 17:1§-2)

... [Allah] mələklərini göndərəcək, onlar da **insanları günaha salan hər şeyi, pislik edən hər kəsi Onun hökmranlığından [axirət hesabından] yığıb qızğın sobaya [cəhənnəm atəşinə] atacaqlar.** Orada ağlaşma və diş qıcırtısı olacaq. Doğru kəslər o zaman Allahın hökmranlığında [cənnətdə] günəş kimi parlayacaqlar. Qulağı olan eşitsin! (Matta, 13:41-43)

[Hz. İsa (ə.s):] "... **İnsanı günaha salan tələlərdən ötrü vay dünyanın halına!** Belə tələlərin olması qaçılmazdır. Amma bu **tələlərə vasitəçilik edən adamın vay halına!"** (Matta, 18:7)

## Tövbə etmək

İsa onlara bu qarşılığı verdi: "Sağlam olanların deyil, xəstələrin həkimə ehtiyacı var. **Mən doğru kəsləri deyil, günahkarları tövbəyə çağırmağa gəldim.**" (Luka, 5:31-32)

Elə isə, **günahlarınızın bağışlanılması üçün tövbə edin və Allaha dönün**. Belə ki, Rəbb sizə yenilənmə fürsətləri versin... (Həvarilərin İşləri, 3:19)

Sənin bu işdə bir payın, bir haqqın yox. Ürəyin, Allahın gözündə doğru deyil. **Bu pisliyindən tövbə et və Rəbbə yalvar, ürəyindəki bu düşüncə, bəlkə, bağışlanar.** Sənin kin dolu, pisliyə bağlı biri olduğunu görürəm. (Həvarilərin İşləri, 8:21-23)

... İsa, Allahın Müjdəsini [Allahın əmrlərini] eşitdirə-eşitdirə Qalileyaya getdi. "Zaman doldu" deyirdi, "Allahın Vədi [axirət hesabı] yaxınlaşdı. **Tövbə edin, Müjdəyə [Allahın əmrlərinə] inanın!**" (Mark, 1:14-15)

O günlərdə... Yəhya Yəhudeya çölündə ortaya çıxdı. Bu çağırışı edirdi: **"Tövbə edin! Allahın Vədi yaxınlaşmışdır."** (Matta, 3:1-2)

Rəbbin qulu davakar olmamalı. Əksinə, hər kəsə şəfqətlə davranmalı, öyrətmə qabiliyyəti olmalı, haqsızlıqlara səbirlə dözməlidir. Özünə qarşı olanları yumşaq xasiyyətlə yola gətirməli. **Həqiqəti anlamaları üçün Allah, bəlkə, onlara bir tövbə yolu açar.** Beləliklə, aila bilər, istəyini yerinə yetirmələri üçün onları məhbus edən iblisin tələsindən xilas ola bilərlər. (2 Timoteyə, 2:24-26)

[Hz. İsa (ə.s):] "Şiloahdakı qüllə üzərlərinə yıxılınca ölən o on səkkiz adamın, Yerusəlimdə yaşayan o biri insanların hamısından daha günahkar olduğunumu sanırsınız? Sizə xeyr deyirəm. **Amma tövbə etməsəniz, hamınız belə məhv olacaqsınız.**" (Luka, 13:4-5)

Peter onlara bu qarşılığı verdi: **"Tövbə edin... Beləcə, günahlarınız bağışlanacaq....** Bu vəd sizlər, uşaqlarınız, uzaqdakıların hamısı üçün, Allahımız Rəbbin çağıracağı hər kəs üçün keçərlidir." (Həvarilərin İşləri, 2:38-39)

Allahı ucaldaraq belə dedilər: "Deməк ki, **Allah tövbə etmə və həyata qovuşma fürsətini o biri xalqlara da vermişdir.**" (Həvarilərin İşləri, 11:18)

[Hz. Yəhya (ə.s):] "Bundan belə **tövbəyə yaraşar meyvələr verin!** Öz- özünüzə, "Biz İbrahimin soyundanıq" deməyə çalışmayın. Mən sizə bunu söyləyim: Allah, İbrahimə bu daşlardan da uşaq yarada bilər. Balta ağacların kökünə dayanmış artıq. Yaxşı meyvə verməyən hər ağac kəsilib atəşə atılar." (Luka, 3:8-9)

İsa, "Daha doğrusu, nə xoşbəxt Allahın sözünü dinləyib tətbiq edənlərə!" dedi. Ətrafdakı izdiham böyüyərkən İsa danışmağa başladı. "İndiki nəsil pis nəsildir" dedi... "Nineva xalqı, **Yunisin çağırışı ilə tövbə etdi.**" (Luka, 11:28-29, 32)

... Yəhya çöldə ortaya çıxdı. **İnsanları, günahlarının bağışlanması üçün tövbə etməyə... çağırırdı.** (Mark, 1:4)

Əvvəl Dəməşq və Yerusəlim xalqını, sonra bütün Yəhudeya bölgəsini və o biri xalqları, **tövbə edib Allaha dönməyə və bu tövbəyə yaraşan işlər etməyə çağırdım.** (Həvarilərin İşləri, 26:20)

Beləcə, **şagirdlər yola çıxıb insanları tövbəyə çağırmağa başladılar.** (Mark, 6:12)

O da İordan çayının ətrafındakı **bütün bölgəni gəzərək insanları, günahlarının bağışlanması üçün tövbə etməyə... çağırdı.** (Luka, 3:3)

Həyatınıza diqqət yetirin! Qardaşınız günah işləyərsə, onu xəbərdar edin; **tövbə etsə, bağışlayın.** Gündə yeddi dəfə sizə qarşı günah işlər və yeddi dəfə sizə gəlib, "tövbə edirəm" desə, onu bağışlayın. (Luka, 17:3-4)

Allah, keçmiş dövrlərin məlumatsızlığını görməzlikdən gəldi [bağışladı]; amma indi **hər yerdə hər kəsin tövbə etməsini buyurur.** (Həvarilərin İşləri, 17:30)

Həm yəhudiləri, həm də yunanları **tövbə edib Allaha dönməyə** və... [Allah üçün] İsaya inanmağa **çağırdım**. (Həvarilərin İşləri, 20:21)

Geriyə qalan insanlar, yəni bu bəlalardan ölməyənlər, **öz əlləriylə düzəltdikləri bütlərdən dönüb tövbə etmədilər.** Cinlərə və görə bilməyən, eşidə bilməyən, gəzə bilməyən qızıl, gümüş, tunc, daş, taxta bütlərə tapınmaqdan imtina etmədilər. **Adam öldürməkdən, cadu, fahişəlik, oğurluq etməkdən də tövbə etmədilər.** (Vəhy, 9:20-21)

Bəzilərinin düşündüyü kimi Rəbb vədini yerinə yetirməkdə gecikməz; amma sizə qarşı səbir edir [vaxt verir]. Çünki **[Allah] kimsənin məhv olmasını istəmir, hər kəsin tövbə etməsini istəyir.** Amma Rəbbin günü... [qəflətən] gələcək. O gün göylər böyük bir səs-küylə ortadan qalxacaq, maddi elementlər yanaraq yox olacaq, yer və yer üzündə qurulmuş hər şey yanıb tükənəcək. (2 Peter, 3:9-10)

Nə var ki, bir mövzuda sənə qarşıyam: Başlanğıcdakı sevgindən uzaqlaşdın. Bunun üçün, haradan düşdüyünü xatırla! **Tövbə et və başlanğıcda etdiklərini davam etdir...** (Vəhy, 2:4-5)

Mən sevdiklərimi xəbərdar edib tərbiyə edərəm. Onun üçün səyə gəl, **tövbə et.** (Vəhy, 3:19)

Allahın istəyiylə çəkilən acı, **adamı qurtuluşla nəticələnən və peşmanlıq doğurmayan tövbəyə aparar.** Dünyanın acıları isə ölüm [cəhənnəm əzabı] gətirər. Baxın bu acılar, Allahın istəyiylə çəkdiyiniz bu acılar sizdə ciddiyyət, paklanmaq üçün nə böyük istək yaratdı! Sizdə nə böyük qəzəb, qorxu, həsrət, səy və günahkarı cəzalandırma arzusu oyandırdı! Bu mövzuda hər baxımdan günahsız olduğunuzu sübut etdiniz. (2 Korinflilərə, 7:10-11)

Sizə bunu söyləyim, eyni şəkildə **Allahın mələkləri də tövbə edən bir tək günahkar üçün sevinc duyacaqlar.** (Luka, 15:10)

Bunun üçün, **ölü işlərdən [cəhənnəm əzabına aparan işlərdən] tövbə etməyin və** Allaha inanmağın təməlini... ölülərin dirilişi və sonsuz mühakiməylə əlaqədar təlimin təməlini atmadan... yetkinliyə doğru irəliləyək. Allah icazə versə, bunu edəcəyik. Bir dəfə aydınlaşdırılmış mənəviyyatı dadmış və Allah sözünün yaxşılığını və gələcək çağın güclərini dadmış olduqları halda, **yoldan azanları yenidən tövbə edəcək vəziyyətə gətirməyə imkan yoxdur...** (İbranilərə, 6:1-6)

## İsraf etməmək

Hər kəs doyunca İsa şagirdlərinə: **"Artıq qalan parçaları toplayın, heç bir şey ziyan olmasın"—** dedi. Onlar da topladılar. Yedikləri beş arpa çörəyindən artıq qalan parçalarla on iki səbət doldurdular. Xalq, İsanın etdiyi möcüzəni görüncə, "Həqiqətən, dünyaya gələcək olan Peyğəmbər budur" dedi. (Yəhya, 6:12-14)

## Allah dilərsə (inşaAllah) demək

Dinləyin indi, "Bu gün ya da sabah filan şəhərə gedəcəyik, orada bir il qalıb ticarət edəcəyik və pul qazanacağıq" deyən sizlər, sabah nə olacağını bilmirsiniz. Həyatınız nədir ki? Qısa bir müddət görünən və sonra itən bir buxar kimisiniz. Bunun yerinə, **"Rəbb dilərsə yaşayacağıq, onu, bunu edəcəyik" deməlisiniz.** (Yaqub, 4-cü hissə, 13:15)

... Mükəmməlliyə doğru irəliləyək. **Allah icazə versə, bunu edəcəyik.** (İbranilərə, 6:1-3)

## Evlərə girildiyində əvvəl salam vermək

**Hansı evə girsəniz, əvvəl: "Bu evə əmin-amanlıq olsun!" deyin.** Orada əmin-amanlığa layiq biri varsa, dilədiyiniz əmin-amanlıq onun üzərində qalacaq; yoxsa, sizə dönəcək. (Luka, 10:5-6)

Onun evinə girərkən, **evdəkilərə əmin-amanlıq diləyin.** Əgər evdəkilər buna layiqsə, dilədiyiniz əmin-amanlıq üzərlərində qalsın; layiq deyillərsə, sizə geri dönsün (Matta, 10:12-13)

**... İsa oraya gəldi, ortada dayanıb onlara, "Üzərinizə əmin-amanlıq olsun" dedi...** İsa yenə onlara, "Sizə əmin-amanlıq olsun!" dedi. (Yəhya, 20:19-21)

## İman edənlərin birlik olması

**Qardaşlar... hamınız bir-birinizlə uyğunlaşın, aranızda bölünmələr olmadan eyni düşüncə və fikirdə birləşin...** (1 Korinflilərə, 1:10)

**Qardaş qardaşa qarşı dava açır, üstəlik imansızlar qarşısında! Əslində bir-birinizdən şikayətçi olmanız belə sizin üçün açıq-aşkar məğlubiyyətdir.** Haqsızlığa uğrasanız daha yaxşı olmazmı? Aldadılsanız daha yaxşı olmazmı? Bunun yerinə, siz özünüz haqsızlıq edib başqasını aldadırsınız. Üstəlik bunu qardaşlarınıza edirsiniz. (1 Korinflilərə, 6:6-8)

**Artıq nə yəhudi, nə yunan, nə kölə, nə azad, nə kişi, nə qadın ayrı-seçkiliyi var. Hamınız [Allah rizası üçün] Məsih İsada [hz. İsa (ə.s)-a bağlılıqda] birsiniz.** (Qalatiyalılara, 3:28)

Bəzilərinin alışdığı kimi, **bir araya gəlməkdən imtina etməyək;** o günün yaxınlaşdığını gördükcə bir-birimizi daha da çox ürəkləndirək. (İbranilərə, 10:25)

... Yaşayışınız Məsihin müjdəsinə [Allahın Kitabına] layiq olsun. Belə ki, gəlib sizi görsəm də, uzaqda qalsam da, sizinlə əlaqədar xəbərləri, **tək bir ruhda dayandığınızı, Müjdədə [Allahın əmrlərində] açıqlanan inanc uğrunda tək bir can halında birlikdə mübarizə apardığınızı, sizə qarşı duranlardan heç bir şəkildə qorxmadığınızı eşidim. Belə davranmanız onlar üçün bir əlamətdir, özlərinin məhv olacağını, sizlərin isə xilas olacağını göstərən bir əlamət.** Və bu Allahın işidir [Adətullahıdır]." (Filipililərə, 1:27-28)

[Hz. İsa (ə.s):] "[Allah rizası üçün] mənim tərəfimdə olmayan mənə qarşıdır, **mənimlə birlikdə toplamayan dağıdır deməkdir.**" (Luka, 11:23)

Onların nə düşündüyünü bilən İsa belə dedi: **“Öz içində bölünmüş olan hər ölkə məhvə məruz qalar. Öz içində bölünmüş heç bir şəhər ya da ev möhkəm qala bilməz.”** (Matta, 12:25; Luka, 11:17; Mark, 9:39)

... Qardaşına qarşı hirslənən hər adam mühakimə olunmağa layiq olacaq. Kim qardaşına alçaldıcı bir söz söyləsə... kim qardaşına axmaq desə, cəhənnəm atəşini qazanacaq. Buna görə... **qardaşının sənə qarşı bir şikayəti olduğunu xatırlasan... get, əvvəl qardaşınla barış;** sonra gəl, əhdini təqdim et. (Matta, 5:21-24)

İsa buna qarşılıq onlara, “Kimdir anam və qardaşlarım?” dedi. Sonra ətrafında oturanlara baxıb belə dedi: **“Budur anam, budur qardaşlarım! Allahın istəyini kim yerinə yetirsə, qardaşım, bacım və anam odur.”** (Mark, 3:33-35)

Hər baxımdan təvazökar, mülayim, səbirli olun. **Bir-birinizə sevgiylə, anlayışla davranın.** (Efeslilərə, 4:2)

Qardaşlar, siz azad olmağa çağırıldınız. Ancaq azadlığınız təbii mənliyə fürsət olmasın. **Bir-birinizə sevgiylə xidmət edin.** Bütün Müqəddəs Qanun tək bir sözdə yekunlaşdırılmışdır: “Qonşunu özün kimi sev.” **Amma bir-birinizi yeyib bitirərkən, diqqət yetirin, bir-birinizi yox etməyəsiniz!** (Qalatiyalılara, 5:13-15)

Ürəklərinin cəsarət tapmasını, **sevgidə birləşmələrini diləyirəm**. Belə ki, anlayışın verdiyi tam təhlükəsizliyin bütün zənginliyinə qovuşsunlar və Allahın sirrini, yəni elmin və müdrikliyin bütün xəzinələrinin gizli olduğu Məsihi tanısınlar. (Kolosselilərə, 2:2-3)

Bundan sonra İsa din alimlərini yanına çağırıb onlara bənzətmələrlə səsləndi: **“Bir ölkə öz içində bölünmüşsə, ayaqda dura bilməz. Bir ev öz içində bölünmüşsə, ayaqda dura bilməz...** Heç kim güclü adamın evinə girib malını oğurlaya bilməz.” (Mark, 3:23-27)

İsanın anasıyla qardaşları onun yanına gəldilər, amma izdihamdan ona yaxınlaşa bilmədilər. İsaya, “Ananla qardaşların çöldə dayanır, səni görmək istəyirlər” deyə xəbər verildi. **İsa xəbəri gətirənlərə belə cavab verdi: “Anamla qardaşlarım, Allahın sözünü eşidib yerinə yetirənlərdir.”** (Luka, 8:19-21)

İsa: “Ona mane olmayın!” dedi. **“Sizə qarşı olmayan, sizin tərəfinizdədir.”** (Luka, 9:50)

**Biz də [Allah rizası üçün] qardaşlarımız üçün canımızı verməliyik.** (1 Yəhya, 3:16)

## Əmanəti əhlinə vermək

**Ən kiçik işdə etibarlı olan adam, böyük işdə də etibarlı olar. Ən kiçik işdə dürüst olmayan adam, böyük işdə də dürüst olmaz.** Dünyanın hiyləgər sərvəti mövzusunda etibarlı deyilsinizsə, həqiqi sərvəti sizə kim əmanət edər? Başqasının malı mövzusunda etibarlı deyilsinizsə, öz malınız olmaq üzrə sizə kim bir şey verər? (Luka, 16:10-12)

Bir çox şahid qarşısında məndən eşitdiyin sözləri, **başqalarına da öyrətməyə yetərli olacaq etibarlı kəslərə əmanət et.** Məsih İsanın yaxşı bir əsgəri [şagirdi, təqibçisi] olaraq mənimlə birlikdə çətinliyə sinə gər. (2 Timoteyə, 2:2-3)

Müqəddəs olanı itlərə verməyin. İncilərinizi donuzların önünə atmayın. Yoxsa bunları ayaqlarıyla tapdaladıqdan sonra dönüb sizi parçalaya bilərlər. (Matta, 7:6)

## Ədalətlə hökm etmək

Vay halınıza...! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, **lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və imanı atırsınız**. Amma onda biri verməklə yanaşı bunları da yerinə yetirməli idiniz. (Matta, 23:23; Luka, 11:42)

**Xarici görünüşə görə mühakimə etməyin, mühakiməniz ədalətli olsun.** (Yəhya, 7:24)

Siz**, ağalar xidmətçilərinizə ədalət və bərabərliklə davranın...** (Kolosselilərə, 4:1)

İsa ona, "Mənə niyə yaxşı deyirsən?" dedi. "Yaxşı olan tək biri var, O da Allahdır. Onun buyruqlarını bilirsən: "Adam öldürmə, zina etmə, oğurluq etmə, **yalan yerə şahidlik etmə, kimsənin haqqını yemə,** anana-atana hörmət göstər." (Mark, 10:18-19)

**... Necə mühakimə etsəniz [axirətdə] elə mühakimə olunacaqsınız.** Hansı ölçü ilə versəniz, [axirətdə] eyni ölçü ilə alacaqsınız. (Matta, 7:1-2)

Bunlar iman sayəsində ölkələr ələ keçirdilər, **ədaləti təmin etdilər,** vəd edilənlərə qovuşdular, aslanların ağzını bağladılar. (Pauldan İbranilərə , 11:33)

Tərsinə, qonaqpərvər, xeyirxah, sağlamfikirli, **ədalətli,** pak, özünə nəzarət edə bilən biri **olmalı.** (Titə, 1:8)

İman edən sizlərə qarşı davranışımızın nə cür müqəddəs, **ədalətli**, qüsursuz **olduğuna siz şahidsiniz**; Allah da buna şahiddir. (1 Saloniklilərə, 2:10)

Qardaşlarım... **insanlar arasında ayrı-seçkilik etməyin.** Toplandığınız yerə qızıl üzüklü, qəşəng geyimli bir adamla çirkin geyimli yoxsul bir adam gəldiyində, qəşəng geyimli adama maraqla, "Sən bura, yaxşı yerdə otur", yoxsula da "Sən orada dayan", ya da "Ayaqlarımın dibində otur" desəniz, **aranızda ayrı-seçkilik edən, pis niyyətli hakimlər olmursunuzmu**? (Yaqub, 2:1-4)

**... Hakimiyyətin əsası ədalət əsasıdır.** Doğruluğu sevdin, pislikdən nifrət etdin... (İbranilərə, 1:8-9)

... Könlümün məmnun olduğu sevimli qulum odur... **O ədaləti xalqlara bildirəcək...** Əzilmiş qamışı qırmayacaq, tüstüləyən fitili söndürməyəcək və sonunda **ədaləti zəfərə çatdıracaq**. (Matta, 12:18-20)

Onlardan birinə **haqsızlıq edildiyini görən Musa,** onu müdafiə etdi... Sabahısı gün Musa, döyüşən iki ibraniylə qarşılaşınca onları barışdırmaq istədi. "Əfəndilər",—dedi,—"**Siz qardaşsınız. Niyə bir-birinizə haqsızlıq edirsiniz?'** (Həvarilərin İşləri, 7:24-26)

[Hz. İsa (ə.s):] **"Siz insan gözüylə mühakimə edirsiniz.** Mən kimsəni mühakimə etmərəm. **Mühakimə etsəm belə mənim mühakiməm doğrudur.** (Yəhya, 8:15-16)

**Amma insanlar arasında ayrı-seçkilik etsəniz, günah işləmiş olarsınız;** Qanun [Müqəddəs Kitab] tərəfindən Qanunu [Allahın əmrlərini] tapdalayanlar olaraq günahkar olarsınız. (Yaqub, 2:9-10)

Allah "hər kəsə, etdiklərinin qarşılığını verəcək." Həmişə yaxşılıq edərək ucalıq, möhtərəmlik, ölümsüzlük axtaranlara sonsuz həyat [cənnət] verəcək. Eqoistlərin, gerçəyə

uymayıb **haqsızlıq arxasınca gedənlərin üzərinə isə qəzəb və kin yağdıracaq.** (Romalılara, 2:6-8)

**Haqsızlıq edən etdiyi haqsızlığın qarşılığını alacaq,** heç bir ayrı-seçkilik edilməyəcək. (Kolosselilərə, 3:25)

**Etdikləri haqsızlığa qarşılıq zərər görəcəklər...** (2 Peter, 2:13)

Bu söylədiklərimi, **tərəf tutmadan və ayrı-seçkilik etmədən** yerinə yetirməyin üçün səni Allahın, Məsih İsanın və seçilmiş mələklərin hüzurunda xəbərdar edirəm... Başqalarının günahlarına ortaq olma. Özünü təmiz tut. (1 Timoteyə, 5:20-22)

Ürəklərinizdə bizə yer verin. **Kimsəyə haqsızlıq etmədik**, kimsəni yoldan azdırmadıq, kimsəni istismar etmədik. (2 Korinflilərə, 7:2)

Bunlar gəlib İsaya, “Müəllimimiz” dedilər, “Sənin dürüst biri olduğunu, **kimsənin tərəfini tutmadan, insanlar arasında ayrı-seçkilik etmədən** Allah yolunu dürüstcə öyrətdiyini bilirik...” (Mark, 12:14; Matta, 22:16)

## Pislikdən çəkinmək

**Pisliyə pisliklə cavab verməyin.** Hər kəsin gözündə yaxşı olanı etməyə diqqət yetirin. Hər kəslə sülh içində yaşamaq üçün əlinizdən gələni edin. Mümkünsə, əlinizdən gəldiyi qədər hər kəslə sülh içində yaşayın. Sevimli qardaşlar, kimsədən qisas almayın; bunu Allahın qəzəbinə buraxın. Çünki belə yazılmışdır: “Rəbb deyir ki, “Qisas mənim, mən qarşılıq verəcəyəm.” Amma, “Düşmənin acmışsa doyur, susamışsa su ver. Bunu etməklə onu utandırarsan” **Pisliyə məğlub olma, pisliyi yaxşılıqla məğlub et.** (Romalılara, 12:17-21)

Hər növ acı söz, qəzəb, kin, səs-küy, söyüşmək və bunlarla yanaşı **hər növ pislik üzərinizdən getsin.** Bir-birinizə qarşı yaxşı ürəkli olun... Mehribanlıqla bir-birinizi bağışlayın. (Efeslilərə, 4:31-32)

Nəsihət verəndirsə, nəsihət versin; pay verəndirsə, səxavətlə, rəhbərdirsə, səylə, mərhəmət göstərəndirsə, sevinə-sevinə öz işini görsün. Sevginiz ikiüzlü olmasın. **Pislikdən çəkinin,** yaxşılığa bağlanın. (Romalılara, 12:8-9)

Bunun üçün, **hər cür pisliyi və hər tərəfə yailmış pisliyi üstünüzdən sıyırıb ataraq,** daxildə olan, canlarınızı qurtaracaq gücdə olan sözü təvazökarlıqla qəbul edin. (Yaqub, 1:21)

**Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, əksinə, müqəddəslik diləyərək cavab verin.** Çünki müqəddəs qılınmağı miras almaq üçün çağırıldınız. (1 Peter, 3:9)

**Sevən biri qonşusuna pislik etməz.** Bu səbəblə sevmək Müqəddəs Qanunu [Allahın əmrlərini] yerinə yetirməkdir. (Romalılara, 13:10)

Bunun üçün köhnə mayayla -**kin və pislik mayasıyla- deyil,** səmimiliyin və dürüstlüyün mayasız çörəyiylə bayram edək. (1 Korinflilərə, 5:8)

Sizə yalvarırıq, qardaşlar, boş gəzənləri xəbərdar edin, ürəksizləri cəsarətləndirin, gücsüzlərə dəstək olun, hər kəsə qarşı səbirli olun. **Əsla kimsə pisliyə pisliklə cavab verməsin.** Bir-biriniz və bütün insanlar üçün hər zaman yaxşılığı məqsəd tutun. Hər zaman

sevinin. Həmişə dua edin. Hər vəziyyətdə şükür edin. Çünki Allahın... sizin üçün istədiyi budur. (1 Saloniklilərə , 5:14-18)

Hər şeyi sınayın, yaxşı olana möhkəm yapışın. **Hər növ pislikdən çəkinin.** (1 Saloniklilərə , 5:21-22)

Diriliş olub bitdi deyərək həqiqi yoldan azdılar. İndi də bəzilərinin imanını alt-üst edirlər. Nə var ki, Allahın atdığı möhkəm təməl, "Rəbb Özünə aid olanları bilir" və "**Rəbbin adını anan hər kəs pislikdən uzaq dursun**" sözləriylə möhürlənmiş olaraq dayanır. (2 Timoteyə, 2:18-19)

**Pislikdən çəkinib yaxşılıq etsin.** Əmin-amanlığı məqsəd qoysun, ardınca getsin. Çünki Rəbbin gözləri [Allah inayəti] doğru kəslərin üzərindədir. Qulaqları onların yalvarışına açıqdır [Allah doğruların dualarını qəbul edər]. Amma Rəbb pislik edənlərə qarşıdır. (1 Peter, 3:11-12)

Sevgi səbirlidir, sevgi şəfqətlidir. Sevgi qısqanmaz, öyünməz, lovğalanmaz. Sevgi kobud davranmaz, öz mənfəətini axtarmaz, asanlıqla hirslənməz, **pisliyin hesabını tutmaz**. Sevgi haqsızlığa sevinməz, həqiqi olanla sevinər. Sevgi hər şeyə dözər... hər şeyə qatlanar. (1 Korinflilərə , 13:4-7)

Aranızdakı mübarizə və çəkişmələrin qaynağı nədir? Bədənlərinizin üzvlərində savaşan ehtiraslarınız deyilmi? Bir şey arzu edirsiniz, amma əldə edə bilməyincə adam öldürürsünüz. Qısqanırsınız, amma istəyinizə çata bilməyincə çəkişir və döyüşürsünüz. Əldə edə bilmirsiniz, çünki Allahdan diləmirsiniz. Dilədiyiniz zaman da diləyinizə qovuşa bilmirsiniz. **Çünki pis məqsəd qoyub, ehtiraslarınız uğrunda istifadə etmək üçün diləyirsiniz**. Siz ey vəfasızlar, dünya ilə dostluğun Allahla düşmən olduğunu bilmirsinizmi? Dünya ilə dost olmaq istəyən, özünü Allaha düşmən edər. (Yaqub, 4:1-4)

## Yaxşılıq etmək

**Yaxşılıq etməyi** və sizdə olanı başqalarıyla paylaşmağı **unutmayın**. Çünki Allah... [bunlardan] məmnun olar. (İbranilərə, 13:16)

... Qardaşlar... əsla kimsə pisliyə pisliklə cavab verməsin. **Bir-biriniz və bütün insanlar üçün hər zaman yaxşılığı məqsəd qoyun.** (1 Saloniklilərə, 5:14-15)

**Sizə zülm edənlər üçün yaxşılıq diləyin. Yaxşılıq diləyin,** lənət etməyin. (Romalılara, 12:14)

Sevimli qardaşım, pisi deyil, **yaxşını nümunə götür. Yaxşılıq edən, Allahdandır [Allahın rizasına uyanlardandır]...** (3 Yəhya, 1:11)

**Bir-birimizi sevgi və yaxşı işlər üçün necə şövqə gətirə biləcəyimizi düşünək.** (İbranilərə, 10:24)

... Bunun üçün fürsətimiz varkən hər kəsə, **xüsusilə iman ailəsinin üzvlərinə yaxşılıq edək.** (Qalatiyalılara, 6:9-10)

[Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: **Düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin, sizə lənət edənlər üçün yaxşılıq diləyin, sizi təhqir edənlər üçün dua edin." (Luka, 6:27-28)**

[Hz. İsa (ə.s):] “Sizdən bir şey diləyən hər kəsə verin, malınızı alandan onu geri istəməyin. **İnsanların sizə necə davranmasını istəyirsinizsə, siz də onlara elə davranın.** Əgər yalnız sizi sevənləri sevsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə özlərini sevənləri sevər. **Yalnız sizə yaxşılıq edənlərə yaxşılıq etsəniz, bu sizə nə tərif qazandırar?** Günahkarlar da belə edər. Amma siz düşmənlərinizi sevin, **yaxşılıq edin**, heç bir qarşılıq gözləmədən borc verin. Alacağınız mükafat böyük olacaq...” (Luka, 6:30-35)

**Yaxşı ağac pis meyvə verməz.** Pis ağac da yaxşı meyvə verməz. Hər ağac meyvəsindən tanınar. Tikanlı bitkilərdən əncir toplanmaz, kollardan üzüm yığılmaz. **Yaxşı insan, ürəyindəki yaxşılıq xəzinəsindən yaxşılıq**, pis insan isə içindəki pislik xəzinəsindən pislik **çıxarar**. İnsanın ağzı, ürəyindən çıxanı söyləyir. (Luka, 6:43-45; Matta, 12:33-35)

Sizlər isə, qardaşlar, **yaxşılıq etməkdən bezməyin...** (2 Salonikililərə, 3:13)

**Allahın istəyi, yaxşılıq edərək ağılsızların məlumatsızlığını susdurmanızdır.** Azad insanlar olaraq yaşayın; amma azadlığınızı pislik etmək üçün bəhanə etməyin. Allahın qulları olaraq yaşayın. Bütün insanlara hörmət edin. İmanlı qardaşlarınızı sevin. Allahdan qorxun... (1 Peter, 2:16-17)

... Həyatdan zövq almaq və yaxşı günlər görmək istəyən, dilini pislikdən, dodaqlarını hiyləli sözlərdən uzaq tutsun. Pislikdən çəkinsin və **yaxşılıq etsin. Əmin-amanlığı axtarıb onun ardınca getsin.** Çünki Rəbbin gözləri [Allahın rəhməti və köməyi] doğru kəslərin üzərindədir... (1 Peter, 3:10-12)

Və onlar məzarlarından çıxacaqlar. **Yaxşılıq edənlər yaşamaq [sonsuz cənnət həyatında yaşamaq],** pislik edənlər mühakimə olunmaq [axirət əzabını çəkmək] **üçün diriləcəklər**. (Yəhya, 5:29)

**İsa hər yanı gəzərək yaxşılıq edir,** şeytanın təzyiqi altında olanların hamısını yaxşılaşdırırdı. Çünki Allah onunla birlikdə idi. (Həvarilərin İşləri, 10:37-38)

Sevginiz ikiüzlü olmasın. Pislikdən çəkinin, **yaxşılığa bağlanın**. (Romalılara, 12:9)

Çünki istər kölə istər azad olsun, **hər kəsin etdiyi hər yaxşılığın qarşılığını Rəbdən alacağınızı bilirsiniz.** (Efeslilərə, 6:8)

Hər birimiz qonşusunu mənəvi cəhətdən inkişaf etdirmək üçün, **qonşusunun yaxşılığını güdərək** [Allah rizası üçün] onu məmnun etsin. (Romalılara, 15:2)

Öz əllərimizlə çalışıb əmək veririk. **Bizə söyənlərə yaxşılıq diləyirik,** zülm edilincə səbir edirik. (1 Korinflilərə, 4:12)

**Pislikdən çəkinib yaxşılıq etsin.** Əmin-amanlığı məqsəd qoysun, ardınca getsin. (1 Peter, 3:11)

**Yaxşılıq etməkdə çalışqan olsanız, sizə kim pislik edəcək?** Düzgünlük uğruna acı çəksəniz belə, nə xoşbəxt sizə! İnsanların “qorxduğundan qorxmayın, ürkməyin.”... İçinizdəki ümidin səbəbini soruşan hər kəsə uyğun bir cavab verməyə həmişə hazır olun. Yalnız bunu mülayim olaraq, hörmətlə edin. Vicdanınızı təmiz tutun... (1 Peter, 3:13-16)

Amma dul qadının uşaqları ya da nəvələri varsa, bunlar əvvəlcə öz ev xalqına kömək edərək Allah yolunda getməyi və **böyüklərinə yaxşılıq borcunu ödəməyi öyrənsinlər. Çünki bu Allahı məmnun edər.** (1 Timoteyə, 5:4)

İndiki dövrdə zəngin olanlara qürurlanmamalarını, gəlib-keçici zənginliyə ümid bağlamamalarını buyur. Zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid

bağlasınlar. **Yaxşılıq etmələrini, yaxşılıq üçün zəngin, əliaçıq və paylaşmağa meyilli olmalarını buyur.** Beləliklə, həqiqi həyata qovuşmaq üçün gələcək üçün onlara möhkəm təməl olacaq xəzinə yığmış olarlar. (1 Timoteyə, 6:17-19)

Çünki günah işləyib döyüldüyünüzdə dözsəniz, bunda təriflənəcək nə var? Amma **yaxşılıq edib acı çəkdiyinizdə dözsəniz, Allahı məmnun edərsiniz.** (1 Peter, 2:20)

Elə isə, Allahın mübarək və sevimli seçilmişləri [iman etmiş qulları] olaraq ürəkdən mehribanlığı, **yaxşılığı**, təvazökarlığı, səbiri, mülayimliyi qəbul edin. (Kolosselilərə, 3:12)

İnadçılığın və tövbəsiz ürəyin üzündən Allahın ədalətli mühakiməsinin açıqlanacağı qəzəb günü üçün özünə qarşı qəzəb yığırsan. Allah "hər kəsə, etdiklərinin qarşılığını verəcək." **Həmişə yaxşılıq edərək ucalıq, möhtərəmlik, ölümsüzlük axtaranlara sonsuz həyat [cənnət həyatı] verəcək.** Eqoistlərin, həqiqətə uymayıb haqsızlıq arxasınca gedənlərin üzərinə isə qəzəb və kin yağdıracaq. Pislik edən hər kəsə... çətinlik və əzab verəcək; **yaxşılıq edən hər kəsə... ucalıq, möhtərəmlik, sağlamlıq verəcək.** (Romalılara, 2:5-10)

Sizə gəlincə, qardaşlarım, **yaxşılıqla dolu**, hər məlumatla **bəzəndiyinizdən mən əminəm**. Həmçinin, bir-birinizə öyüd verə biləcək vəziyyətdəsiniz. (Romalılara, 15:14)

Söz dinləməyinizi hər kəs eşitdi, bu səbəblə sizin adınıza sevinirəm. **Yaxşılıq mövzusunda müdrik**, pislik mövzusunda təcrübəsiz **olmanızı istəyirəm.** (Romalılara , 16:19)

Çünki **işığın meyvəsi hər yaxşılıqda, düzgünlükdə və həqiqətdə görünər.** Rəbbi nəyin məmnun etdiyini bilin. Qaranlığın meyvəsiz işlərinə qatılmayın. Əksinə, onları ortaya çıxarın. Qaranlıqdakıların gizlicə etdiklərindən danışmaq belə ayıbdır. (Efeslilərə, 5:9-12)

Müjdənin [Allahın əmrlərinin] uğrunda məhbus qaldığım müddətcə sənin yerinə mənə xidmət etməsi üçün onu yanımda saxlamaq istəyərdim; amma sənin təsdiqin olmadan bir şey etmək istəmədim. **Belə ki, edəcəyin yaxşılıq zərurətdənmiş kimi görünməsin, könüldən olsun.** (Filimona, 1:13-14)

Məsələn, Sara İbrahimi "Əfəndim" deyə çağırar, sözünü dinləyərdi. **Yaxşılıq edər, heç bir təhdiddən qorxmazsanız,** siz də Saranın uşaqları olarsınız. (1 Peter, 3:6)

Bunun üçün, Allahın istəyinə uyğun olaraq acı çəkənlər, **yaxşılıq edərək canlarını etibarlı Yaradana əmanət etsinlər.** (1 Peter, 4:19)

Bu səbəblə Allahımız sizi çağırışına layiq görsün, **yaxşılığa istiqamətli hər diləyinizi,** imana əsaslanan hər məşğuliyyətinizi **Öz gücüylə nəticələndirsin deyə sizin üçün həmişə dua edirik.** (2 Saloniklilərə, 1:11)

Əksinə Allahın xidmətçiləri olaraq fövqəladə möhkəm dayanmaqda, çətinlik, sıxıntı və əzablarda, işgəncə, həbs, qarışıqlıq, əmək, yuxusuzluq və aclıqda; pak yaşayışda, məlumat, səbir, **yaxşılıq... və səmimi sevgidə;** həqiqətin elanında və Allahın gücündə; sağ və sol əllərimizdə doğruluğun silahlarıyla... **özümüzü hər vəziyyətdə nümunə göstəririk...** (2 Korinflilərə, 6:4-8)

**"Yaxşılıq tapmaq**, yer üzündə uzun ömürlü olmaq üçün anana-atana hörmət göstərəcəksən." Vəd ehtiva edən ilk buyruq budur. (Efeslilərə, 6:2-3)

**Bunu sizin yaxşılığınız üçün söyləyirəm**, azadlığınızı məhdudlaşdırmaq üçün deyil. Diqqətinizi dağıtmadan, Rəbbə adanmış olaraq, Ona yaraşar şəkildə yaşamağınızı istəyirəm. (1 Korinflilərə, 7:35)

Yafoda İsanın şagirdi olan Tabita adında bir qadın vardı... **Bu qadın hər zaman yaxşılıq edib yoxsullara kömək edərdi.** (Həvarilərin İşləri, 9:36)

"Doğru və Allahdan qorxan, bütün Yəhudi xalqı tərəfindən **yaxşılığıyla tanınan,** Korneli adında bir yüzbaşı var" dedilər... (Həvarilərin İşləri, 10:22)

## Riya və göstərişdən çəkinmək

**Doğruluğunuzu insanların gözü qarşısında göstəriş məqsədiylə sərgiləməkdən çəkinin.** Yoxsa Allahdan mükafat ala bilməzsiniz. (Matta, 6:1)

**... Birinə sədəqə verərkən bunu car çəkərək elan etməyin. İkiüzlülər insanların tərifini qazanmaq üçün... belə edərlər.** Sizə doğrusunu söyləyim, onlar qarşılıqlarını almışlar. Siz sədəqə verərkən, sol əliniz sağ əlinizin nə etdiyini bilməsin. Belə ki, verdiyiniz sədəqə gizli qalsın. Gizlicə ediləni görən Allah sizi mükafatlandıracaq. (Matta, 6:2-4)

**Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Onlar, hər kəs onları görsün deyə... küçələrin tinlərində durub dua etməkdən zövq alarlar.** Sizə doğrusunu söyləyim, onlar qarşılığını almışlar. (Matta, 6:5)

Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: "... Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin. Çünki söylədikləri şeyləri özləri etməzlər. Ağır və daşınması çətin yükləri bağlayıb başqalarının kürəyinə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmaq istəməzlər. **Etdiklərinin hamısını nümayiş üçün edərlər..."** (Matta, 23:1-5)

[Hz. İsa (ə.s):] "Vay halınıza... ikiüzlülər! Siz ağardılmış məqbərələrə bənzərsiniz ki, xaricdən gözəl görünərlər, lakin daxili ölü sümükləri və hər cür murdarlıqla doludur. **Siz də beləcə insanlara xaricdən saleh görünərsiniz, lakin daxilən ikiüzlülük və fəsadla dolusunuz."** (Matta, 23:27-28)

Oruc tutduğunuz zaman, ikiüzlülər kimi üzünüzü turşutmayın. **Onlar oruc tutduqlarını insanlara bildirmək üçün özlərinə pərişan bir görünüş verərlər...** (Matta, 6:16)

Dul qadınların malını mülkünü istismar edən, **nümayiş üçün uzun-uzun dua edən bu kəslərin cəzası daha da ağır olacaq.** (Mark, 12:40; Luka, 20:47)

İsa onu yeməyə çağırana da belə dedi: "... Amma **ziyafət verdiyin zaman yoxsulları, iflicləri, şikəstləri, korları çağır. Beləcə, xoşbəxt olarsan. Çünki bunlar sənə qarşılıq verəcək vəziyyətdə deyildirlər.** Qarşılığı sənə... insanlar dirildiyi zaman veriləcək." Süfrədə oturanlardan biri bunu eşidincə İsaya, "Allahın axirətində [cənnətdə] yemək yeyəcək olana nə xoşbəxt!" dedi. (Luka, 14:12-15)

## Nəfsi təmizləmək, istəklərdən (nəfsin eqoist ehtiraslarından) çəkinmək

**Cismani təbiətin işləri açıqdır. Bunlar cinsi əxlaqsızlıq, pislik, pozğunluq, bütpərəstlik, cadugərlik, düşmənlik, çəkişmə, qısqanclıq, kin, eqoist ehtiraslar, ayrılıqlar, bölünmələr, dözümsüzlük, sərxoşluq, dəlisov əyləncələr və bənzər**

**şeylərdir. Sizi daha əvvəl xəbərdar etdiyim kimi yenə xəbərdar edirəm, belə davrananlar Allahın hökmranlığını [cənnəti] miras ala bilməyəcəklər.** Allahın Ruhunun meyvəsi [Rəhmanı olan] isə sevgi, sevinc, sağlamlıq, səbir, şəfqət, yaxşılıq, bağlılıq, həlimlik və nəfsə hakim olmaq. Bu cür xüsusiyyətləri qadağan edən qanun yoxdur. (Qalatiyalılara, 5:19-23)

Belə ki, Qanunun [Allahın əmrlərinin] gərəyi, mənliyə görə deyil, Allahın Ruhuna [Allah rizasına] görə yaşayan bizlərdə yerinə gəlsin. Cismani təbiətə uyanlar cismani təbiətlə bağlı... düşünərlər. **Cismani təbiətə əsaslanan düşüncə ölüm [cəhənnəm əzabı], Allahın Ruhuna [Allah rizasına] əsaslanan düşüncədirsə həyat və əmin-amanlıqdır. Çünki cismani təbiətə əsaslanan düşüncə Allaha düşməndir;** Allahın Qanununa boyun əyməz, əyə bilməz də... **Cismani təbiətin sınağında olanlar Allahı məmnun edə bilməzlər.** (Romalılara, 8:4-8)

Şübhəsiz, İsanın səsini eşitdiniz... Onun yolunda öyrədildiniz. **Əvvəlki yaşayışınıza aid olub hiyləgər ehtiraslarla korlanan köhnə yaradılışı üzərinizdən sıyırıb atmağı,** düşüncədə və ruhda yenilənməyi, həqiqi düzgünlük və müqəddəslikdə... yeni yaradılışı geyinməyi **öyrəndiniz**. (Efeslilərə, 4:21-24)

Bunu demək istəyirəm: ... [Allahın rizasına uyğun] yaşayın. **O zaman cismani təbiətin ehtiraslarını əsla yerinə yetirməzsiniz.** (Qalatiyalılara, 5:16)

Bu səbəblə **bədənin dünyəvi meyillərini fahişəliyi, pisliyi, şəhvəti, pis arzuları və bütpərəstliklə bərabər olan acgözlüyü öldürün.** Bunlar üzündən Allahın qəzəbi söz dinləməyənlərin üzərinə gəlir. Keçmişdə bunlarla iç-içə yaşadığınız zaman siz də bu yollarda yürüdünüz. Amma indi kin, qəzəb, pis niyyət daxil, hamısını üzərinizdən sıyırıb atın. Ağızınızdan heç bir böhtan ya da nalayiq söz çıxmasın. Bir-birinizə yalan danışmayın. Çünki köhnə yaradılışı pis vərdişləriylə birlikdə üzərinizdən çıxarıb atdınız... (Kolosselilərə, 3:5-10)

**Çünki cismani təbiətə görə yaşasanız, öləcəksiniz [cəhənnəmə gedəcəksiniz]; amma bədənin pis işlərini Allahın Ruhuyla [Allah rizası üçün yaşayaraq] öldürsəniz yaşayacaqsınız [cənnətə gedəcəksiniz].** (Romalılara, 8:13)

**Çünki biz cismani təbiətin sınağındaykən... günah ehtirasları bədənimizin üzvlərinə də təsir edir.** Bunun nəticəsi olaraq ölümə [cəhənnəm əzabına] aparan meyvələr verdik. (Romalılara, 7:5)

**Öz cismani təbiətinə əkən, cismani təbiətdən ölüm [cəhənnəm əzabı] biçəcək. Allahın Ruhuna əkən [Allahın rizasına görə yaşayan]... sonsuz həyat biçəcək [cənnəti qazanacaq].** Yaxşılıq etməkdən bezməyək. İstirahət etməsək, mövsümündə biçərik. Bunun üçün fürsətimiz varkən hər kəsə, xüsusilə iman ailəsinin üzvlərinə yaxşılıq edək. (Qalatiyalılara, 6:8-10)

Onun [Allahın] ucalığı və fəziləti sayəsində bizə çox böyük və qiymətli vədlər verildi. Belə ki, dünyada **pis arzuların gətirib çıxardığı korlanmadan xilas olaraq [yaşayasınız]...** Məhz bu səbəblə hər cür səyi göstərərək imanınıza fəziləti, fəzilətinizə məlumatı, məlumatınıza nəfsə hakim olmanı, nəfsə hakim olmağınıza dözmə gücünü, dözmə gücünüzə Allah yoluna bağlılığı, bağlılığınıza qardaşsevərliyi, qardaşsevərliyinizə sevgini qatın. (2 Peter, 1:4-7)

Bu kəslər, susuz çeşmələr, fırtınanın yaydığı duman kimidirlər. Onları zil qaranlıq gözləyir. Çünki səhv yolda gedənlərdən hələ xilas olanları, **boş və mənasız sözlər söyləyərək cismani təbiətin ehtiraslarıyla, pozğunluqla aldadırlar. Onlara azadlıq vəd edərlər, halbuki özləri pozğunluğun kölələridirlər. Çünki insan nəyə məğlub olsa, onun köləsi olar.** (2 Peter, 2:17-19)

Söz dinləyən uşaqlar olaraq, **məlumatsız olduğunuz keçmiş zamandakı ehtiraslarınıza uymayın.** Sizi çağıran Allah müqəddəs olduğuna görə, siz də hər davranışınızda müqəddəs olun. (1 Peter, 1:14-15)

Sevimli qardaşlar... **cana qarşı döyüşən cismani təbiətin ehtiraslarından çəkinin.** Çünki bu dünyada yad və qonaqsınız. İnanmayanlar arasında müsbət bir həyat sürün. Belə ki, pislik edənlərmişsiniz kimi sizə böhtan atsalar da, yaxşı işlərinizi görərək Allahı, onlara yaxınlaşdığı gün ucaltsınlar. (1 Peter, 2:11-12)

Gecə irəlilədi, gündüz yaxınlaşdı. Bunun üçün qaranlığın işlərini üzərimizdən atıb işığın silahlarını [mənəvi silahları] götürək. Özümüzü dəlisov əyləncəyə və sərxoşluğa, əxlaqsızlığa və pozğunluğa, çəkişməyə və qısqanclığa bağlamayaq. Gün işığında olduğu kimi, hörmətli bir həyat sürək .... **Mənliyinizin ehtiraslarına uymağı düşünməyin.** (Romalılara, 13:12-14)

**Zəngin olmaq istəyənlər təmizlənib tələyə düşərlər, insanı çöküşə və yıxıma aparan bir çox axmaq və zərərli arzulara qapılarlar.** Çünki hər cür pisliyin kökü də pul sevgisidir. Kimiləri zəngin olma həvəsiylə imandan azdılar, öz-özlərinə çox acı çəkdirdilər. (1 Timoteyə, 6:9-10)

**Bir çoxları da onların pozğunluğuna qapılacaq.** Onlara görə həqiqət yolu söyüləcək. Acgözlüklərinə görə uydurma sözlərlə sizi istismar edəcəklər. Onlar üçün çoxdan verilmiş mühakimə gecikməz. Onları gözləyən dağıntı da gecikməz. (2 Peter, 2:2-3)

Sizlər bir zamanlar içində yaşadığınız səhvlərdən və günahlardan ötrü ölü idiniz. Bu dünyanın gedişinə... yəni söz dinləməyən insanlarda indi təsirli olan ruha uyurdunuz. **Bir zamanlar hamımız belə insanların arasında, cismani təbiətin... istəklərini yerinə yetirərək cismani təbiətin ehtiraslarına görə yaşayırdıq.** Təbii olaraq o birilər kimi biz də qəzəb uşaqlarıydıq. (Efeslilərə, 2:1-3)

Görünür ki, Rəbb Öz yolunda gedənləri qarşılaşdıqları sınaqlardan necə qurtaracağını bilir. Doğru olmayanları, **xüsusilə cismani təbiətin korlanmış ehtirasları ardınca gedən** və səlahiyyətini xor görənləri cəzalandıraraq mühakimə gününə qədər necə saxlayacağını da bilər. Bu həyasız, dikbaş kəslər uca varlıqları söyməkdən qorxmazlar... Amma anlamadıqları mövzularda söyüb sayan bu kəslər, instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğulan, ağıldan məhrum heyvanlar kimidir. Heyvanlar kimi onlar da məhvə uğrayacaqlar. Etdikləri haqsızlığa qarşılıq zərər görəcəklər. Gündüz zövq aləmlərinə dalmağı əyləncə sayarlar. Ləkə və üz qarasıdırlar. Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar. Gözləri zinayla doludur, günahdan doymazlar. Qərarsız kəsləri azdırırlar. Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. (2 Peter, 2:9-14)

## Saleh əməllər görmək, xeyirlərdə yarışmaq

Qardaşlar, siz azad olmağa çağırıldınız. Ancaq azadlıq cismani təbiət [nəfsinizə uymaq] üçün fürsət olmasın. **Bir-birinizə sevgiylə xidmət edin.** (Qalatiyalılara, 5:13)

İnsanlara deyil, **Rəbbə xidmət edər kimi [Allah rizası üçün] könüldən xidmət edin.** Çünki istər kölə, istər azad olsun, hər kəsin etdiyi hər yaxşılığın qarşılığını Rəbdən alacağınızı bilirsiniz. (Efeslilərə, 6:7-8)

**[Hz. İsa (ə.s):] "[Allah rizası üçün] mənə xidmət etmək istəyən, ardımca gəlsin.** Mən haradayamsa, mənə xidmət edən də orada olacaq. **Allah, mənə xidmət edəni şərəfləndirəcək."** (Yəhya, 12:26)

Hər biriniz hansı mənəvi hədiyyəni aldınızsa, bunu **Allahın çox cəhətli lütfünün yaxşı xidmətçiləri olaraq bir-birinizə xidmət etməkdə istifadə edin.** Danışan, Allahın sözlərini çatdırar kimi danışsın. **Başqalarına xidmət edən, Allahın verdiyi güclə xidmət etsin.** Belə ki... Allah hər şeydə ucaldılsın... (1 Peter, 4:10-11)

İsa onlara, "Xalqların kralları, öz xalqlarına hakim kəsilərlər. Öndə gedənləri də özlərinə xeyirxah adını yaraşdırarlar" dedi. **"Amma siz belə olmayacaqsınız. Aranızda ən böyük olan, ən kiçik kimi olsun; idarə edən, xidmət edən kimi olsun."** (Luka, 22:25-26)

**Etdiyiniz bu xidmət yalnız müqəddəslərin [özünü Allaha həsr etmişlərin] əskiklərini aradan qaldırmaqla qalmır,** bir çoxlarının Allaha şükür etməsiylə də zənginləşirsiniz. Onlar **səmimiliyinizi sübut edən bu xidmətə görə**, açıqca mənimsədiyiniz Məsih Müjdəsinə [Allahın hz. İsa (ə.s)-a vəhyinə] uyaraq özləriylə və hər kəslə malınızı comərdcə paylaşdığınız üçün Allahı ucaldırlar. (2 Korinflilərə, 9:12-13)

**Qaçışda yarışanların hamısı qaçdığı halda mükafatı bir adamın qazandığını bilmirsinizmi? Elə qaçın ki, mükafatı qazanasınız. Yarışa qatılan hər kəs** özünə hər cəhətdən nəzarət edər. Belələri bunu çürüyüb gedəcək bir dəfnə tacı qazanmaq üçün edərlər. Bizsə heç çürüməyəcək bir tac üçün edirik. Bunun üçündür ki, **məqsədsiz olaraq qaçan biri kimi qaçmıram...** (1 Korinflilərə, 9:24-27)

... Allahın nəzərində **təmiz və qüsursuz olan dindar adamın, yetimlərlə dulları çətin vəziyyətlərində ziyarət etməsi** və özünü dünyanın ləkələməsindən qorumasıdır." (Yaqub, 1:27)

İsa belə cavab verdi: "Bir nəfər Yerusəlimdən Yerixoya gedən yolda quldurların əlinə düşdü. Onu soyundurub döydülər, yarımcan halda buraxıb getdilər... O yoldan keçən bir Samariyalı isə... adamın yanına getdi... **Sonra adamı öz heyvanına mindirib mehmanxanaya apardı, onunla maraqlandı.** Ertəsi gün iki dinar çıxararaq mehmanxana sahibinə verdi. "Ona yaxşı bax" dedi, "Bundan artıq nə xərcləsən, geri qayıdanda sənə ödəyərəm." Səncə bu üç nəfərdən hansı quldurlar arasına düşən adama qonşu kimi davrandı?" Qanunşünas [din alimi], **"Ona mərhəmət göstərən" dedi. İsa, "Get, sən də elə et" dedi.** (Luka, 10:30-37)

Yafoda, İsanın şagirdi olan Tabita adında bir qadın vardı. Tabita ceyran mənasını verir. **Bu qadın hər zaman yaxşılıq edib yoxsullara kömək edərdi.** (Həvarilərin İşləri, 9:36)

Şagirdlərin hər biri öz gücü qədər, **Yəhudeyada yaşayan qardaşlara göndərilmək üzrə yardım toplamağı qərara aldılar.** Bu qərarı yerinə yetirib hədiyyələrini Barnaba və Şaulun əliylə kilsənin ağsaqqallarına göndərdilər. (Həvarilərin İşləri, 11:29-30)

İsa hələ Qalileyada ikən **bu qadınlar onun ardınca getmiş, ona xidmət etmişlərdi...** (Mark, 15:41)

Siz də bilirsiniz ki, **bu əllər həm mənim, həm də mənimlə birlikdə olanların ehtiyac duymalarını qarşılamaq üçün xidmət etmişdir.** (Həvarilərin İşləri, 20:34)

Məsihə [Allah rizası üçün] **bu yolda xidmət edən, Allahı məmnun edər,** insanların da məmnuniyyətini qazanar. (Romalılara, 14:18)

Bunun üçün Məsih İsaya aid [Allah rizası üçün hz. İsa (ə.s)-a bağlı] biri olaraq **Allaha verdiyim xidmətlə öyünə bilərəm.** (Romalılara, 15:17)

Bir-birinizə qardaşlıq sevgisiylə bağlı olun. Bir-birinizə hörmət göstərməkdə yarışın. Səyiniz azalmasın... Rəbbə qulluq edin. Ümidinizlə sevinin. Çətinliyə dözün. Özünüzü duaya həsr edin. **Ehtiyac içində olan müqəddəslərə [özünü Allaha həsr etmişlərə] kömək edin. Qonaqpərvər olmağı məqsəd edin.** (Romalılara, 10:10-13)

**Amma indi müqəddəslərə [özünü Allaha həsr etmişlərə] bir xidmət üçün Yerusəlimə gedirəm.** Çünki Makedoniya və Axayyada olanlar, Yerusəlimdəki müqəddəslər arasında yoxsul olanlar üçün yardım toplamağı uyğun gördülər... Beləcə bu işi başa çatdırıb əldə olunan səmərəni onlara çatdırandan sonra sizin yerlərdən keçib İspaniyaya gedəcəyəm.... (Romalılara, 15:25-29)

**Etdiyi yaxşılıqlarla tanınmış... çətinlikdə olanlara kömək etmiş, özünü hər cür yaxşı işə həsr etmişsə...** (1 Timoteyə, 5:9-10)

**İmanlı bir qadının dul yaxınları varsa onlara kömək etsin.** İnananlar birliyi yük altına girməsin ki, həqiqətən, kimsəsiz olan dullara kömək edə bilsin. (1 Timoteyə, 5:16)

**Yoxsullar hər zaman aranızdadır, dilədiyiniz anda onlara kömək edə bilərsiniz;** amma mən hər zaman aranızda olmayacağam. (Mark, 14:7)

**Mallarını mülklərini satır və bunun pulunu hər kəsə ehtiyacına görə paylayırdılar.** (Həvarilərin İşləri, 2:45)

Aralarında yoxsul olan yox idi. **Çünki torpaq ya da ev sahibi olanlar bunları satar, satdıqlarının əvəzini gətirib elçilərin buyruğuna verərdilər; bu da hər kəsə ehtiyacına görə paylanardı.** (Həvarilərin İşləri, 4:34-35)

**Qardaşlarım, əgər bir kimsə yaxşı hərəkətləri yoxkən imanı olduğunu söyləsə, bu nəyə yarayar? Elə bir iman o kimsəni qurtara bilərmi? Bir kişi ya da qadın çılpaq və gündəlik yeməkdən məhrumkən, sizdən biri ona, "Əmin-amanlıqla get, isinməni və doymağını diləyirəm" desə, amma bədənin ehtiyac duyduqlarını verməzsə, bu nəyə yarayar?... Görürsən, onun [hz. İbrahim (ə.s)-ın] imanı hərəkətləriylə birlikdə təsirli idi; imanı, hərəkətləriylə tamamlandı.** (Yaqub, 2:14-22)

Keçici yemək üçün deyil, **sonsuz həyat boyunca qalıcı yemək üçün çalışın...** (Yəhya, 6:27)

**... Bunlar, öz imkanlarıyla İsaya və şagirdlərinə kömək edirdilər.** (Luka, 8:3)

**Bizimkilər də özlərini yaxşı işlərə həsr etməyi öyrənsinlər.** Bələliklə, təməl ehtiyacları qarşılanmış və səmərəsiz bir həyat sürməmiş olarlar. (Titə, 3:14)

**Rəbbin xidmətində [Allah yolunda] çalışan** Trifenayla Trifosaya salam söyləyin. **Rəbbin xidmətində çox çalışmış** sevimli Persisə salam deyin. (Romalılara, 16:12)

Axayyada **ilk iman edən və özlərini müqəddəslərin [özünü Allaha həsr etmişlərin] xidmətinə həsr edən** Stefananın ailəsini tanıyırsınız. Qardaşlar, sizə yalvarıram, bu kimilərə və onlarla birlikdə çalışıb əmək verənlərin hamısına bağlı olun. (1 Korinflilərə, 16:15-16)

Müjdəni [Allahın əmrlərini] yayma səylərindən ötrü bütün kilsələr tərəfindən təriflənən bir qardaşı da onunla birlikdə göndəririk. Üstəlik bu qardaş, Rəbbi ucaltmaq və **köməyə hazır**

**olduğumuzu göstərmək üçün etdiyimiz bu xeyirli xidmətdə** yol yoldaşımız olmaq üzrə kilsələr tərəfindən seçildi. (2 Korinflilərə, 8:18-19)

... Timotenin, dəyərini sübut etmiş biri olduğunu... Müjdənin [Allahın əmrlərinin] yailması üçün mənim yanımda **xidmət etdiyini** bilirsiniz. (Filipililərə, 2:22)

Əfəndiləri iman etmiş olanlarsa, necə olsa qardaşıq deyib əfəndilərinə hörmətsizlik etməsinlər. **Əksinə, daha yaxşı xidmət etsinlər. Çünki bu yaxşı xidmətdən faydalananlar, sevdikləri imanlılardır.** Bu qanunları öyrət və nəsihət et. (2 Timoteyə, 6:2)

... Romaya gəldiyində **məni səylə axtarıb tapdı.** O gün Rəbdən mərhəmət tapmasını diləyirəm. Efesdə **onun mənə nə qədər xidmət etdiyini sən də çox yaxşı bilirsən.** (2 Timoteyə, 1:16-18)

... **Edəcəyin yaxşılıq zərurətdənmiş kimi görünməsin, könüldən olsun.** (Filimona, 1:13-14)

Allah... **əməyinizi və müqəddəslərə [özünü Allaha həsr etmişlərə] xidmət etmiş olaraq və etməyə davam edərək** Onun adına [Allahın razılığı üçün] göstərdiyiniz sevgini unutmaz. Ümidinizdən doğan tam zəmanətə qovuşmağınız üçün hər birinizin sona qədər eyni səyi göstərməsini diləyirik. Tənbəl olmamağınızı, vəd edilənləri iman və səbir vasitəsilə miras alanların örnəyinə uymağınızı istəyirik. (İbranilərə, 6:10-12)

**Etdiklərini, sevgini, imanını, xidmətini, səbrini bilirəm.** Son etdiklərinin ilk etdiklərini aşdığını da bilirəm. (Vəhy, 2:19)

**Bu xidməti Allahın mərhəmətiylə üzərimizə götürdüyümüz üçün cəsarətimizi itirmərik.** Utancverici gizli yolları rədd etdik. Hiyləyə üz tutmarıq, Allahın sözünü də təhrif etmərik. Həqiqəti ortaya qoyaraq özümüzü Allahın qarşısında hər insanın vicdanına tövsiyə edərik. (2 Korinflilərə, 4:1-2)

[Hz. İsa (ə.s)] əlinə toxununca qadının hərarəti düşdü. **Qadın qalxıb İsaya [Allah rizası üçün] xidmət etməyə başladı.** (Matta, 8:15)

**Davud, öz nəslində Allahın məqsədinə uyğun olaraq xidmət etdikdən sonra gözlərini həyata bağladı,** ataları kimi basdırıldı və bədəni çürüyüb getdi. (Həvarilərin İşləri, 13:36)

Belə ki, **müqəddəslər [özünü Allaha həsr etmişlər] xidmət vəzifəsini etmək...** üzrə təchiz edilsin. (Efeslilərə, 4:12)

## Allahın əmrlərini tövsiyə edərkən eyni zamanda yerinə yetirmək

**Allah sözünü yalnız eşitməklə özünüzü aldatmayın, bu sözü yerinə yetirənlərdən də olun.** (Yaqub, 1:22)

... Mükəmməl qanuna [Allahın əmrlərinə], azadlıq qanununa diqqətlə baxıb ona bağlı qalan şəxs **unutqan eşidən deyil, əməldə icraçıdır; belə adam öz işində nə bəxtiyardır!** (Yaqub, 1:25)

... Qanunu [Allahın əmrlərini] bildikləri halda günah işləyənlərsə Qanunla mühakimə olunacaqlar. Çünki **Allah Qatında təmizlənənlər Qanunu eşidənlər deyil, yerinə yetirənlərdir.** (Romalılara, 2:12-13)

Nə var ki, indi təkəbbürlü olmağınızla öyünürsünüz. Bu cür öyünmələrin hamısı pisdir. **Deməli, kimsə bir yaxşı işi görməli olduğunu bilib onu etmirsə, günah edir.** (Yaqub, 4:16-17)

## İman sahibi ana və ataya qarşı hörmətli olmaq

[Hz. İsa (ə.s):] "Onun [Allahın] buyruqlarını bilirsən: "Adam öldürməyəcəksən, zina etməyəcəksən, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, kimsənin haqqını yeməyəcəksən, **anana-atana hörmət göstərəcəksən."** (Mark, 10:19)

[Hz. İsa (ə.s):] "... **Anana atana hörmət göstərəcəksən."** (Luka, 18:20; Matta, 19:19)

Ey uşaqlar, **Rəbb yolunda ana-atanızın sözünü dinləyin**. Çünki doğrusu budur. "Yaxşılıq etmək, yer üzündə uzunömürlü olmaq üçün **anana-atana hörmət göstərəcəksən."** Vəd ehtiva edən ilk buyruq budur. Ey atalar, siz də uşaqlarınızın qəzəbini oyandırmayın. Onları Rəbbin tərbiyə və öyüdüylə böyüdün. (Efeslilərə, 6:1-4)

Musa, **"Anana-atana hörmət göstərəcəksən"**... (Mark, 7:10)

# 13-CÜ HİSSƏ
# İNCİLDƏ TÖVSİYƏ EDİLƏN GÖZƏL ƏXLAQ XÜSUSİYYƏTLƏRİ

## Təvazökar olmaq və təkəbbürdən çəkinmək

Ey gənclər... **hamınız bir-birinizə qarşı təvazökar olun. Çünki "Allah təkəbbürlülərə qarşıdır, amma təvazökarlara lütf edər."** (1 Peter, 5:5)

**Hər baxımdan təvazökar**, mülayim, səbirli **olun**, sevgiylə bir-birinizə səbir edin. (Efeslilərə, 4:2)

**Aranızda ən üstün olan, o birilərin xidmətçisi olsun. Özünü ucaldan alçaldılacaq, özünü alçaldan ucaldılacaq.** (Matta, 23:11-12)

**Heç bir şeyi eqoist ehtiraslarla ya da boş öyünməklə etməyin. Hər biriniz təvazökarlıqla digərini özündən üstün saysın.** (Filipililərə, 2:3)

İsa onlara, "Millətlərin padşahları onların üzərində hökm edir və bu hakimiyyətdə olanlar himayədar adlanır. "**Amma siz belə olmayacaqsınız. Aranızda ən böyük olan, ən kiçik kimi olsun; idarə edən, xidmət edən kimi olsun.** Hansı daha böyük, süfrədə oturanmı, xidmət edənmi? Süfrədə oturan deyilmi? Halbuki mən aranızda xidmət edən biri kimi oldum. Sınandığım zamanlar mənimlə birlikdə dözmüş olanlar sizlərsiniz..." (Luka, 22:25-28; Matta, 20:25-26)

Bilirsiniz ki, millətlərin padşahları sailanlar, onları hökmranlıq ehtirasıyla idarə edərlər, qabaqcılları da onlara böyüklüklərini hiss etdirərlər. Sizin aranızda belə olmayacaq. **Aranızda böyük olmaq istəyən, digərlərinin xidmətçisi olsun. Aranızda birinci olmaq istəyən, hamınıza xidmət etsin.** Çünki İnsanoğlu [hz. İsa (ə.s)] belə xidmət edilməyə deyil, xidmət etməyə... gəldi. (Mark, 10:41-45)

Bu sırada şagirdləri İsaya yaxınlaşıb, "Allahın Hökmranlığında [axirətdə] ən böyük kimdir?" deyə soruşdular. İsa, yanına kiçik bir uşaq çağırdı, onu ortada otuzdurub belə dedi: "Sizə doğrusunu söyləyim, yolunuzdan dönüb kiçik uşaqlar kimi olmasanız, Allahın Hökmranlığına [cənnətə] əsla girə bilməzsiniz. **Kim bu uşaq kimi təvazökar olsa, Allahın Hökmranlığında [axirətdə] ən böyük odur.**" (Matta, 18:1-4)

... [Hz. İsa (ə.s):] onlara belə dedi: "**Birinci olmaq istəyən ən sonuncu olsun, hər kəsin xidmətçisi olsun.**" (Mark, 9:35)

**"Bu kiçiklərdən birini belə xor görməkdən çəkinin!..."** (Matta, 18:10-11)

Şagirdlər, aralarında kimin ən böyük olduğunu müzakirə etməyə başladılar. Ağıllarından keçəni bilən İsa... onlara belə dedi: "**... Aranızda ən kiçik kim isə, məhz ən böyük odur.**" (Luka, 9:46-48)

Yeməyə çağırılanların yuxarı başları seçdiyini fərq edən İsa, onlara bu bənzətməni izah etdi: "Biri səni toya çağırdığı zaman baş tərəfə keçmə. Bəlkə, səndən daha hörmətli birini də çağırmışdır. İkinizi də çağıran gəlib, "Yerini bu adama ver" deyə bilər. O zaman utancla qalxıb ən arxaya keçərsən. Bir yerə çağırıldığın zaman get, ən arxada otur. Belə ki, səni çağıran gəlincə,

"Yoldaşım, daha önə buyurmazsanmı?" desin. O zaman səninlə birlikdə süfrədə oturan hər kəsin qarşısında şərəfləndirilmiş olarsan. **Özünü ucaldan hər kəs alçaldılacaq, özünü alçaldan ucaldılacaq."** (Luka, 14:7-11)

Öz doğrularına güvənib **başqalarına yüksəkdən baxan bəzi kəslərə İsa bu bənzətməni izah etdi...** "Sizə bunu söyləyim... **Özünü ucaldan hər kəs alçaldılacaq, özünü alçaldan isə ucaldılacaq."** (Luka, 18:9, 14)

Bir-birinizlə eyni düşüncədə olun. **Lovğalanmayın; əksinə, xor görülənlərlə yoldaşlıq edin. Çoxbilmişlik etməyin.** Pisliyə pisliklə cavab verməyin. Hər kəsin gözündə yaxşı olanı etməyə diqqət yetirin. Mümkünsə, əlinizdən gəldiyincə hər kəslə sülh içində yaşayın. (Romalılara, 12:16-18)

... **"Allah təkəbbürlülərə qarşıdır, amma təvazökarlara lütf edər."** Bunun üçün Allaha tabe olun. İblisə qarşı müqavimət göstərin, o da sizdən qaçacaq. (Yaqub, 4:6-8)

[Hz. İsa (ə.s):] "Ey bütün yorğunlar və yükü ağır olanlar! Mənə gəlin, mən sizə rahatlıq verərəm. Boyunduruğumu üzərinizə götürün, məndən öyrənin. Çünki **mən mülayim, təvazökaram.** Beləcə canlarınız rahatlığa qovuşar. Boyunduruğumu daşımaq asan, yüküm yüngüldür." (Matta, 11:28-30)

Bilik insanı lovğalandırar, sevgi isə təkmilləşdirər. **Bir şey bildiyini sanan, lazımi kimi bilmir...** (1 Korinflilərə, 8:1-3)

**Rəbbin hüzurunda özünüzü alçaldın...** (Yaqub, 4:10)

Nəticə olaraq hamınız eyni düşüncədə birləşin. Başqalarının duyğularını paylaşın. Bir-birinizi qardaşca sevin. Şəfqətli, **təvazökar olun.** Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, əksinə, müqəddəs sayaraq cavab verin. Çünki müqəddəs hesab edilməyi [mübarək qılınmağı] miras almaq üçün çağırıldınız. (1 Peter, 3:8-9)

Siz də beləcə, sizə verilən buyruqların hamısını yerinə yetirdikdən sonra, **"Biz dəyərsiz qullarıq; yalnız etməli olduğumuzu etdik" deyin."** (Luka, 17:10)

... **Təkəbbürlənməməyi**, gəlib keçici zənginliyə ümid bağlamamalarını **buyur**. Zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bağlasınlar. (1 Timoteyə, 6:17)

Qardaşlarım, aldığınız çağırışı düşünün. Bir çoxunuz insan ölçülərinə görə müdrik, güclü ya da soylu kəslər deyildiniz. Nə var ki, **Allah müdrikləri utandırmaq üçün dünyanın axmaq saydıqlarını, güclüləri utandırmaq üçün də dünyanın zəif saydıqlarını seçdi. Dünyanın əhəmiyyətli gördüklərini heçə endirmək üçün dünyanın əhəmiyyətsiz, soysuz, dəyərsiz gördüklərini seçdi.** Belə ki, Allahın qarşısında heç kim öyünməsin... Bunun üçün yazıldığı kimi, "Öyünən, Allah ilə öyünsün." (1 Korinflilərə, 1:26-31)

**Öyünməniz yersizdir.** Azca mayanın bütün xəmiri qabartdığını bilmirsinizmi? Yeni bir xəmir ola bilmək üçün köhnə mayadan təmizlənin... Bunun üçün köhnə mayayla -kin və pislik mayasıyla- deyil, səmimiliyin və dürüstlüyün mayasız çörəyiylə bayram edək. (1 Korinflilərə, 5:6-8)

Uyğun zamanda sizi ucaltması üçün, **özünüzü Allahın qüdrətli əli altında [Allahın qüdrəti, gücü hüzurunda] alçaldın.** (1 Peter 5:6)

O da onlara belə dedi: "Siz insanlar qarşısında özünüzü təmizə çıxarırsınız, amma Allah ürəyinizi bilir. **İnsanların təkəbbürləndikləri nə varsa, Allah Qatında bəyənilməz."** (Luka, 16:15)

Sevgi səbirlidir, sevgi şəfqətlidir. **Sevgi [Allah rizası üçün sevən, gerçək sevgini yaşayan] qısqanmaz, öyünməz, lovğalanmaz.** (1 Korinflilərə, 13:4)

Amma zeytun ağacının bəzi budaqları kəsildisə və sən yabanı bir zeytun toxumuykən onların yerinə calaq edilib ağacın kökünə ortaq oldunsa, o budaqlara qarşı öyünmə. **Əgər öyünürsənsə, unutma ki, sən kökü daşımırsan, kök səni daşıyır.** O zaman, "Mən calaq edək deyə budaqlar kəsildi" deyəcəksən. Doğru, onlar imansızlıq üzündən kəsildilər. Sənsə imanla yerində dayanırsan. **Lovğalanma, [Allahdan] qorx!** (Romalılara, 11:18-20)

Özlərini tövsiyə edən bəziləriylə özümüzü bir tutmağa, ya da müqayisə etməyə, əlbəttə, cəsarət edə bilmərik! Onlar özlərini özləriylə ölçüb müqayisə etməklə, ağılsızlıq, edirlər. Amma **biz həddimizi aşıb çox öyünmərik; öyünməyimiz, Allahın bizim üçün təyin etdiyi, sizlərə qədər də uzanan sahənin sərhədləri içində qalar.** (2 Korinflilərə, 10:12-13)

Öyünmək istəsəm belə ağılsız olmayacağam. Çünki gerçəyi söyləmiş olacağam. Amma **kimsə məni gördüyündən, ya da eşitdiyindən daha üstün görməsin deyə öyünməkdən çəkinirəm.** (2 Korinflilərə, 12:6)

**Boş yerə öyünən**, bir-birinə meydan oxuyan, bir-birini qısqanan kəslər olmayaq. (Qalatiyalılara, 5:26)

Aranızda müdrik və anlayışlı olan kimdir? Yaxşı yaşayışıyla, **müdriklikdən doğan təvazökarlıqla yaxşı hərəkətlərini göstərsin.** Amma ürəyinizdə kin, qısqanclıq, eqoizm varsa öyünməyin, gerçəyi yadırğamayın... Çünki harada qısqanclıq, eqoizm varsa, orada qarışıqlıq və hər növ pislik vardır. Amma göydən enən [Allah rizasına uyan] müdriklik hər şeydən əvvəl pakdır, sonra sülhsevərdir, mülayimdir, itaətkardir. Mərhəmət və yaxşı meyvələrlə doludur. Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur. (Yaqub, 3:13-17)

## Səxavətli olmaq, xəsislikdən çəkinmək

İndiki çağda zəngin olanlara qürurlanmamalarını, gəlib-keçici zənginliyə ümid bağlamamalarını buyur. Zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bağlasınlar. Onlara, yaxşılıq etmələrini, yaxşılıq üçün zəngin olmalarını, **səxavətli və paylaşmağa meyilli olmalarını buyur. Beləliklə, gerçək həyata [cənnətə] qovuşmaqla gələcək üçün özlərinə möhkəm təməl olacaq bir xəzinə yığmış olarlar.** (1 Timoteyə, 6:16-19)

Öyüd verən, öyüddə olsun. **Hədiyyə edən, bunu səxavətlə etsin.** İdarə edən, səylə idarə etsin. Mərhəmət edən, bunu gülər üzlə etsin. (Romalılara, 12:8)

**Mən də... [Allah rizası üçün] malımı da, özümü də sevərək xərcləyəcəyəm...** (2 Korinflilərə, 12:15)

[Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: ... **Əbanızı alandan çuxanızı da əsirgəməyin. Sizdən bir şey diləyən hər kəsə verin, malınızı alandan onu geri istəməyin.** İnsanların sizə necə davranmasını istəyirsinizsə, siz də onlara elə davranın... Sizə yaxşılıq edənlərə yaxşılıq etsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar da belə edər. Geri alacağınızı ümid etdiyiniz kəslərə borc versəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar belə verdiklərini geri almaq şərtiylə günahkarlara borc verərlər. Amma siz düşmənlərinizi sevin, yaxşılıq edin, heç bir qarşılıq gözləmədən borc verin. Alacağınız mükafat böyük olacaq..." (Luka, 6:27-35)

**Hər vəziyyətdə səxavətli olmanız üçün hər baxımdan zənginləşdirilirsiniz. Səxavətiniz... Allaha təşəkkür səbəbi olur...** Onlar səmimiliyinizi sübut edən bu xidmətə görə açıqca mənimsədiyiniz Məsih Müjdəsinə [Allahın hz. İsa (ə.s)-a vəhyinə] uyaraq özləriylə və **hər kəslə malınızı səxavətlə paylaşdığınız üçün Allahı ucaldırlar.** (2 Korinflilərə, 9:11-13)

Bu səbəblə əvvəl yanınıza gəlmələri və **səxavətlə verməyi vəd etdiyiniz hədiyyələri** hazırlamaları üçün qardaşlardan xahiş etməyi vacib bildim. Belə ki, **hədiyyəniz xəsislik deyil, səxavət nümunəsi olaraq hazır olsun**. Bunu unutmayın: Az əkən az biçər, çox əkən çox biçər. Hər kəs ürəyində niyyət etdiyi kimi versin; istəksizcə ya da məcbur edilmiş kimi deyil. Çünki **Allah sevinclə vereni sevər.** Həmişə hər cəhətdən, hər şeyə kafi ölçüdə sahib olaraq **hər yaxşı işə səxavətlə qatıla bilməniz üçün,** Allah hər neməti sizə bol-bol təmin edəcək gücdədir. (2 Korinflilərə, 9:5-8)

... Böyük çətinliklərlə sınandıqlarında, **coşqun sevincləri və həddindən artıq yoxsulluqları tam bir səxavətə çevrildi. Əllərindən gəldiyi qədərini, hətta daha çoxunu öz istəkləriylə verdiklərinə şahidlik edirəm.** Müqəddəslərə [özünü Allaha həsr etmişlərə] edilən köməkdə yer alma imtiyazının onlara verilməsi üçün bizə yalvarıb yaxardılar. (2 Korinflilərə, 8:1-4)

Varlı bir adamın tarlaları bol məhsul verdi. Adam ürəyində, "Nə edəcəyəm mən?" deyirdi, "Çünki məhsullarımı qoyacaq yerim yox!" Sonra, "Nə edəcəyimi bilirəm" dedi, "Anbarlarımı yıxıb daha böyüklərini quracağam. Buğdamın hamısını və başqa hər şeyimi də oraya qoyacağam. Canıma da deyəcəyəm ki, ey can, illərcə çatacaq qədər bol malın var. Rahatına bax. Ye, iç, xoşbəxt ol!" Amma Allah ona, "Ey ağılsız adam, canın bu gecə səndən istənir" dedi. "Yığdıqların kimin olacaq?" **Öz faydası üçün mal yığan, amma Allah Qatında zəngin olmayan insanın vəziyyəti budur.** (Luka, 12:16-21)

Yəhya onlara, **"İki çuxası olan birini çuxası olmayana versin; yeməyi olan yeməyi olmayanla paylaşsın"** cavabını verdi. (Luka, 3:11)

Getdiyiniz hər yerdə Allahın Hökmranlığının [cənnət vədinin] yaxınlaşdığını elan edin. Xəstələri yaxşılaşdırın... cüzamlıları təmiz qılın... **Qarşılıqsız aldınız, qarşılıqsız verin.** Qurşağınıza qızıl, gümüş ya da mis pul qoymayın. (Matta, 10:7-9)

... Allahın böyük lütfü hamısının [iman edənlər] üzərində idi. Aralarında yoxsul olan yox idi. Çünki **torpaq ya da ev sahibi olanlar bunları satar, satdıqlarının əvəzini gətirib elçilərin buyruğuna verərdilər; bu da hər kəsə ehtiyacına görə paylanardı.** (Həvarilərin İşləri, 4:33-35)

**İmanlıların hamısı bir yerdə idi, hər şeyi ortaq şəkildə istifadə edirdilər. Mallarını, mülklərini satır və bunun pulunu hər kəsə ehtiyacına görə paylayırdılar.** Hər gün məsciddə toplanmağa davam edən imanlılar, öz evlərində də çörək bölüb səmimi bir sevinc və sadəliklə yemək yeyir və Allahı tərifləyirdilər. Bütün xalqın məmnuniyyətini qazanmışlardı. Rəbb də hər gün yeni xilas olanları [hidayətə çatanları] birliyə qatırdı. (Həvarilərin İşləri, 2:44-47)

**Yaşayışınız pul sevgisindən uzaq olsun. Sahib olduqlarınızla kifayətlənin.** Çünki Allah belə dedi: "Səni əsla tərk etmərəm, səni əsla buraxmaram." (İbranilərə, 13:6)

**Yer üzündə özünüzə xəzinələr yığmayın.** Burada güvə və pas onları yeyib bitirər, oğrular da girib oğurlayarlar. Bunun yerinə özünüzə göydə xəzinələr yığın. Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar. Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq. (Matta, 6:19-21)

Amma **ziyafət verdiyin zaman yoxsulları, iflicləri, şikəstləri, korları çağır.** Beləcə, xoşbəxt olarsan. **Çünki bunlar sənə cavab verəcək vəziyyətdə deyildirlər.** Qarşılığı sənə, insanlar dirildiyi zaman veriləcək. (Luka, 14:13-14)

İsa məscidin pul qutusu qarşısında oturub cəmiyyətin qutuya pul atmasını müşahidə etdi. Bir çox varlı adam çox pul atdı. Bu vaxt yoxsul bir dul qadın yaxınlaşıb bir iki mis qara pul atdı. İsa şagirdlərini yanına çağıraraq, "Doğrusu sizə deyirəm ki" dedi, **"Bu yoxsul dul qadın qutuya pul atanların hamısından daha çox pul atdı. Çünki o birilərin hamısı varlarının bolluğundan atdılar. Amma bu qadın yoxsulluğundan -nəyi varsa onu, bütün yaşayış imkanını-atdı."** (Mark, 12:41-44; Luka, 21:1-4)

Adam: "Müəllimim, bunların hamısını gəncliyimdən bəri yerinə yetirirəm" —dedi. **Ona sevgiylə baxan İsa, "Bir əskiyin var" dedi. "Get nəyin varsa sat, pulunu yoxsullara ver; beləcə göydə [axirətdə] xəzinən olar. Sonra gəl, məni izlə."** (Mark, 10:20-21)

Bu söz etibarlıdır: kim cəmiyyətdə nəzarətçi olmağa can atırsa, xeyirli iş arzu edir. Nəzarətçi nöqsansız, tək arvadlı olaraq ona sadiq, ayıq, ağıllı-kamallı, ədəbli, qonaqpərvər olmalı, öyrətməyi bacarmalıdır. Şərab düşkünü olmamalı; zorakı deyil, mülayim olmalı; davakar və **pulpərəst olmamalıdır**. (1 Timoteyə, 3 :1-3)

Sonra [hz. İsa (ə.s)] onlara, "Diqqətli olun!" dedi. **"Hər cür acgözlükdən çəkinin.** Çünki insanın həyatı, malının çoxluğundan ibarət deyil." (Luka, 12:15)

Etdiyim hər işdə sizlərə, belə əmək verərək gücsüzlərə kömək etməyimiz və... **İsanın, "vermək, almaqdan daha böyük xoşbəxtlikdir" deyən sözünü unutmamalı olduğumuzu göstərdim.** (Həvarilərin İşləri, 20:35)

## Allah rizası üçün diqqət və ayıqlıq halı

**Elə isə başqaları kimi yatmayaq, ayıq və diribaş olaq.** Çünki yatanlar gecə yatar... Gündüzə aid olan bizlərsə, **iman və sevgi zirehini geyinib başımızda dəbilqə olaraq qurtuluş ümidini geyinərək ayıq dayanaq.** (1 Saloniklilərə, 5:6-8)

**Ayıq və diribaş olun.** Düşməniniz iblis kükrəyən aslan kimi udacaq birini axtararaq gəzir. Dünyanın hər yerindəki qardaşlarınızın da eyni acıları çəkdiyini bilərək imanda sarsılmadan iblisə qarşı müqavimət göstərin. (1 Peter, 5:8-9)

... Hər cür dua və yalvarışla, həmişə... dua edin. Bu məqsədlə, bütün müqəddəslər [özünü Allaha həsr etmişlər] üçün yalvararaq tamamilə [Allaha] həsr etməklə ayıq durun. (Efeslilərə, 6:17-18)

... [Hz. İsa (ə.s):] "Burada qalın, **mənimlə birlikdə ayıq durun." (**Matta, 26:38)

**Elə isə necə yaşadığınıza çox diqqət yetirin.** Müdriklikdən məhrum olanlar kimi deyil, müdriklər kimi yaşayın. Fürsəti dəyərləndirin. Çünki yaşadığımız günlər pisdir. Bunun üçün ağılsız olmayın, Rəbbin istəyinin nə olduğunu anlayın. (Efeslilərə, 5:15-17)

**Ayıq qalın, imanda dimdik durun,** mərd və güclü olun. Hər şeyi sevgiylə edin. Axayyada ilk iman edən və özlərini müqəddəslərin [Allahın dininə xidmətlə vəzifəlilərin] xidmətinə həsr edən Stefananın ailəsini bilərsiniz. Qardaşlar, sizə yalvarıram, bu kimilərə və onlarla birlikdə işləyib əmək verənlərin hamısına tabe olun. (Korinflilərə, 16:13-16)

**“Özünüzə diqqət edin! Ürəkləriniz pozğunluq, sərxoşluq və bu həyatın qayğılarıyla ağırlaşmasın.** O gün [qiyamət günü], üzərinizə tələ kimi qəflətən enməsin. Çünki o gün bütün yer üzündə yaşayan hər kəsin üzərinə gələcəkdir. **Hər an ayıq qalın**, reallaşmaq üzrə olan bütün bu hadisələrdən xilas ola bilmək... üçün dua edin.” (Luka, 21:34-36)

**Həyatınıza diqqət edin!** Qardaşınız günah işləyərsə, onu xəbərdar edin; tövbə etsə, bağışlayın. Gündə yeddi dəfə sizə qarşı günah işləyər və yeddi dəfə sizə gəlib, “Tövbə edirəm” desə, onu bağışlayın. (Luka, 17:3-4)

Pisliyə pisliklə cavab verməyin. **Hər kəsin gözündə yaxşı olanı etməyə diqqət edin.** (Romalılara, 12:17)

Qardaşlar, sizə yalvararam, aldığınız təlimə [Allahın əmrlərinə] qarşı gələrək **ayrılıqlara və azmalara səbəb olanlara diqqət yetirin, onlardan çəkinin**. (Romalılara, 16:17)

**Bacardıqlarınızı itirməmək və mükafatınızı əksiksiz almaq üçün özünüzə diqqət edin.** (2 Yəhya, 1:8)

... **Mübarək qardaşlarım, diqqətinizi açıqca mənimsədiyimiz inancın elçisi və baş din adamı İsaya yönəldin.** Musa... Allaha necə sadiq qaldısa, İsa da özünü vəzifələndirənə sadiqdir... Ey qardaşlar, **hər birinizdə diri [Hayy olan] Allahı tərk edən, pis, imansız bir ürəyin olmamasına diqqət edin.** (İbranilərə, 3:1-2, 12)

**Diqqət edin, kimsə Allahın lütfündən məhrum qalmasın.** İçinizdə sizi narahat edəcək və bir çoxlarını zəhərləyəcək acı bir kök cücərməsin. (İbranilərə, 12:15)

Bədənin işığı gözdür. Gözün sağlamdırsa, bütün bədənin də işıqlı olar. Gözün xarabdırsa, bədənin də qaranlıq olar. **Elə isə diqqət et, səndəki “işıq” qaranlıq olmasın.** Əgər bütün bədənin işıqlı olar və heç bir yanı qaranlıq qalmazsa, şamın səni şüalarıyla işıqlandırdığı zamankı kimi, bədənin bütünlüklə işıqlı olar. (Luka, 11 :34-36)

**“Bunun üçün ayıq qalın...** Bunu bilin ki, ev sahibi, oğrunun gecə hansı saatda gələcəyini bilsə, ayıq qalar, evinin soyulmasına fürsət verməz. Bunun üçün **siz də hazır olun!** Çünki İnsanoğlu [hz. İsa (ə.s)] gözləmədiyiniz saatda gələcəkdir. (Matta, 24:42-44)

Allahın mənə lütf etdiyi vəzifəyə uyğun olaraq müdrik bir memar kimi təməl atdım, başqaları da bu təməl üzərində inşa edir. **Hər kəs necə inşa etdiyinə diqqət etsin.** Çünki heç kim atılan təməldən, yəni İsa Məsihdən başqa bir təməl ata bilməz. Bu təməl üzərində bəzisi qızıl, gümüş ya da qiymətli daşlarla, bəzisi də taxta, ot ya da qamışla tikəcək. Hər kəsin etdiyi iş müəyyən olacaq, mühakimə günü ortaya çıxacaq. Hər kəsin işi odla aşkar ediləcək. Atəş hər işin xüsusiyyətini sınayacaq. (1 Korinflilərə, 3:10-13)

Bu hadisələr başqalarına dərs olsun deyə onların başına gəldi; çağların sonuna çatmış olan bizləri xəbərdar etmək üçün yazıya keçirildi. Onun üçün, **ayaqda möhkəm dayandığını sanan diqqət yetirsin, düşməsin!** Hər kəsin qarşılaşdığı sınaqlardan başqa sınaqlarla qarşılaşmadınız. Allah etibarlıdır, gücünüzü aşan şəkildə sınanmanıza icazə verməz. Dözə bilməniz üçün sınaqla birlikdə çıxış yolunu da təmin edəcək. (1 Korinflilərə, 10:11-13)

Hətta şagirdləri öz arxalarından aparmaq üçün sizin aranızdan da azğın sözlər söyləyən kəslər çıxacaq. **Bunun üçün ayıq olun.** Üç il boyunca, fasiləsiz, gecə-gündüz demədən... hər birinizi necə xəbərdar etdiyimi xatırlayın. İndi sizi Allaha və Onun lütfünü bildirən sözə [Allahın vəhyi olan əmrlərinə] əmanət edirəm. Bu söz, sizi mənəvi cəhətdən inkişaf etdirəcək və müqəddəs qılınmış olan bütün insanlar arasında mirasa qovuşduracaq gücdədir. (Həvarilərin İşləri, 20 :30-32)

**"Bu səbəblə ayıq qalın.** Çünki o günü [qiyamət gününü] və o saatı bilə bilməzsiniz." (Matta, 25:13)

Şagirdlərin yanına döndüyündə onları yatmış gördü. Peterə, "Demək ki, mənimlə birlikdə bir saat ayıq qala bilmədiniz!" dedi. **"Ayıq qalıb dua edin ki, doğru yoldan azdırılmayasınız.** Ruh istəklidir, amma bədən gücsüzdür." (Matta, 26:40-41; Mark, 14:37-41)

İsa belə davam etdi: **"Eşitdiklərinizə diqqət edin!** Hansı ölçü ilə versəniz, eyni ölçü ilə alacaqsınız. Hətta sizə daha çoxu veriləcək. Çünki kimdə varsa, ona daha çox veriləcək. Amma kimdə yoxsa, əlindəki də alınacaq." (Mark, 4 :24-25)

Çünki ortaya çıxarılmayacaq gizli heç bir şey yoxdur; bilinməyəcək, aydınlığa çıxmayacaq gizli heç bir şey yoxdur. Bunun üçün, [Allahın əmrlərini] **necə dinlədiyinizə diqqət yetirin**. Kimdə varsa, ona daha çox veriləcək. Amma kimdə yoxdursa, özündə var sandığı belə əlindən alınacaq. (Luka, 8:17-18)

**Bunları söyləyəni rədd etməməyə diqqət yetirin.** Çünki yer üzündə özlərini xəbərdar edəni rədd edənlər xilas ola bilmədilərsə, göylərdən bizi xəbərdar edəndən [Allahın göndərdiyi elçisi hz. İsa (ə.s)-dan] üz çevirsək, bizim də xilas ola bilməyəcəyimiz daha çox qətidir. O zaman Onun səsi yeri sarsıtmışdı. Amma indi, "Bir dəfə daha təkcə yeri deyil, göyü də sarsıdacağam" deyə söz vermişdir. "Bir dəfə daha" sözü, sarsılanların, yəni yaradılmış olan şeylərin ortadan qaldırılacağını, beləliklə, sarsılmayanların qalacağını izah edir. Beləcə sarsılmaz bir cənnətə qovuşduğumuz üçün minnətdar olaq. Belə ki, Allahı məmnun edəcək şəkildə hörmət və qorxuyla ibadət edək. (İbranilərə, 12:25-28)

Amma **siz özünüzə diqqət yetirin!** İnsanlar sizi məhkəmələrə verəcək, sinaqoqlarda döyəcəklər. Məndən ötrü valilərin, kralların önünə çıxarılacaq, beləcə onlara şahidlik edəcəksiniz. Nə var ki, əvvəl Müjdə [Allahın əmrləri] bütün xalqlara eşitdirilməlidir. Sizi həbs edib məhkəməyə verdiklərində, "Nə söyləyəcəyik?" deyə əvvəldən narahat olmayın. O anda sizə nə vəhy olunsa onu söyləyin. Çünki danışan siz deyil, Allahın Ruhu olacaq. (Mark, 13 :9-11)

O günü və o saatı nə göydəki mələklər, nə də İsa bilər; Allahdan başqa kimsə bilməz... **Diqqət yetirin, ayıq olun, dua edin.** Çünki o anın nə vaxt gələcəyini bilə bilməzsiniz. Bu, səfərə çıxan bir adamın vəziyyətinə bənzəyər. Evindən ayrılarkən kölələrinə səlahiyyət və vəzifə verər, qapıdakı növbətçiyə də oyaq qalmasını buyurar. **Siz də oyaq qalın.** Çünki ev sahibi nə vaxt gələcək, axşammı, gecə yarısımı, xoruz banladığındamı, səhərə doğrumu, bilməzsiniz. Qəflətən gəlib sizi yuxuda tapmasın! **Sizə söylədiklərimi hər kəsə söyləyirəm; oyaq qalın**!" (Mark, 13:32-37)

İzdihamın içindən biri İsaya, "Müəllimim, qardaşıma söylə mirası mənimlə paylaşsın" dedi. İsa ona belə dedi: "Ey adam! Kim məni üzərinizdə hakim etdi?" **Sonra onlara: "Diqqətli olun!"** dedi. "Hər cür acgözlükdən çəkinin. Çünki insanın həyatı, malının çoxluğuna bağlı deyil." İsa onlara bu bənzətməni izah etdi: "Zəngin bir adamın torpaqları bol məhsul verdi. Adam öz-özünə, "Nə edəcəyəm? Məhsullarımı qoyacaq yerim yox" deyə düşündü. Sonra, "Belə edəcəyəm" dedi. "Anbarlarımı söküb daha böyüklərini tikəcəyəm, bütün taxıllarımı və mallarımı oraya yığacağam. Özümə, ey canım, illərcə çatacaq qədər bol malın var. Rahatına bax, ye, iç, həyatın dadını çıxar deyəcəyəm." Amma Allah ona, "Ey ağılsız!" dedi. "Bu gecə canın səndən istəniləcək. Yığdığın bu şeylər kimə qalacaq?" Özü üçün sərvət yığan, amma Allah Qatında zəngin olmayan adamın sonu belə olar." (Luka, 12:13-21)

"Qurşaqlarınız belinizdə bağlı və şamlarınız yanar vəziyyətdə hazır olun. Toy şənliyindən dönəcək ağalarının gəlib qapını döydüyü an qapını açmaq üçün hazır gözləyən kölələr kimi olun. **Ağaları gəldiyində oyaq olan kölələr nə xoşbəxtdir!** Sizə doğrusunu söyləyim,

ağaları belinə qurşağını bağlayacaq, kölələrini süfrəyə oturdacaq və gəlib onlara xidmət edəcək. **Ağaları gecənin istər ikinci, istər üçüncü növbəsində gəlsin, oyaq görəcəyi kölələr nə xoşbəxtdir!** Amma bunu bilin ki, ev sahibi, oğrunun hansı saatda gələcəyini bilsə, evinin soyulmasına fürsət verməz. **Siz də hazır olun.** Çünki İnsanoğlu [hz. İsa (ə.s)] gözləmədiyiniz saatda gələcəkdir." (Luka, 12:35-40; Matta, 24:42-51; Mark, 13:34-36)

## Doğru və dürüst olmaq

Bunlar gəlib İsaya, "Müəllimimiz" dedilər, **"Sənin dürüst biri olduğunu, kimsəni ayırmadan, insanlar arasında ayrı-seçkilik etmədən Allah yolunu dürüstcə öyrətdiyini bilirik..."** (Mark, 12:14; Matta, 22:16; Luka, 20:21-22)

[Hz. İsa (ə.s):] **"Ən kiçik işdə etibarlı olan adam, böyük işdə də etibarlı olar. Ən kiçik işdə dürüst olmayan adam, böyük işdə də dürüst olmaz.** Dünyanın aldadıcı sərvəti mövzusunda etibarlı deyilsinizsə, həqiqi sərvəti sizə kim əmanət edər? Başqasının malı mövzusunda etibarlı deyilsinizsə, öz malınız olmaq üçün sizə kim bir şey verər?" (Luka, 16:10-12)

Yaxşı olanı edərək hər mövzuda onlara nümunə ol. **Öyrətməyində dürüst və ciddi ol, kimsənin qınaya bilməyəcəyi doğru sözlər söylə.** Belə ki, bizə qarşı gələn, haqqımızda söyləyəcək pis bir söz tapa bilməyib utansın. (Titə, 2:7-8)

**Nə xoşbəxt doğruluğa acıb susayanlara!** Çünki onlar doyurulacaqlar. (Matta, 5:6)

**Nə xoşbəxt düzgünlük uğrunda zülm görənlərə!** Çünki Allahın Vədi [cənnət] onlarındır. (Matta, 5:10)

[Allah hz. İsa (ə.s) üçün:] "**Doğruluğu sevdin**, pislikdən nifrət etdin." (İbranilərə, 1:9)

Əvvəlki yaşayışınıza aid olub aldadıcı ehtiraslarla cılızlaşan köhnə yaradılışı üzərinizdən sıyırıb atmağı, düşüncədə və ruhda **yenilənməyi, gerçək düzgünlük və müqəddəslikdə... yeni yaradılışı geyinməyi öyrəndiniz. Bunun üçün yalanı üzərinizdən sıyırıb ataraq hər biriniz qonşusuna həqiqəti söyləsin.** Çünki hamımız eyni bədənin üzvləriyik... Günah işləməyin... İblisə də fürsət verməyin. (Efeslilərə, 4:22-27)

Siz əvvəlcə **Onun Hökmranlığının [Allahın razılığının] və doğruluğunun ardınca gedin,** o zaman sizə bütün bunlar da veriləcək. (Matta, 6:33)

Bəzi vergi vəzifəliləri də... "Müəllimimiz, biz nə edək?" dedilər. Yəhya, **"Sizə buyrulandan çox vergi almayın" dedi.** Bəzi əsgərlər də, "Bəs biz nə edək?" deyə soruşdular. O da, "Kobudluqla ya da yalan günahlandırmalarla kimsədən pul qoparmayın" dedi, "Ödənişinizlə kifayətlənin." (Luka, 3:12-14)

Pislik edən hər kəs işıqdan nifrət edər və etdikləri ortaya çıxmasın deyə işığa yaxınlaşmaz. Amma **gerçəyi tətbiq edən adam etdiklərini, Allaha əsaslanaraq etdiyini göstərmək üçün işığa gələr.** (Yəhya, 3:20-21)

Bu səbəblə bədənin ehtiraslarına uymamaq üçün günahın ölümlü bədənlərinizdə hökmranlıq etməsinə icazə verməyin. Bədəninizin üzvlərini haqsızlığa vasitə edərək günaha təqdim etməyin. Ölümdən dirilənlər kimi özünüzü Allaha həsr edin; **bədəninizin üzvlərini düzgünlük vasitələri olaraq Allaha təqdim edin.** Günah sizə hökmran olmayacaq. Çünki... Allahın lütfü altındasınız. (Romalılara, 6:12-14)

İman sayəsində Nuh, hələ olmamış hadisələrlə əlaqədar olaraq Allah tərəfindən xəbərdar edilincə, Allah qorxusuyla ailəsinin qurtuluşu üçün bir gəmi düzəltdi. Bununla... **imana əsaslanan doğruluğun varisi oldu.** (İbranilərə, 11:7)

Söz dinləyən kölələr kimi özünüzü kimə təslim etsəniz, sözünü dinlədiyiniz adamın köləlı olduğunuzu bilməzsinizmi? Ya ölümə aparan günahın ya da **doğruluğa aparan söz dinləməyin kölələrisiniz.** Amma şükürlər olsun Allaha! Əvvəl günahın köləlı olan sizlər, həsr edildiyiniz təlimə ürəkdən bağlandınız. **Günahdan azad qılınaraq doğruluğun köləlı oldunuz.** (Romalılara, 6:16-18)

Onlarla bağlı şahidlik edərəm ki, Allah üçün çalışqandırlar; amma bu şüurlu bir səy deyil. **Allahın nəzərdə tutduğu doğruluğu anlamadıqları və öz düzgünlüklərini yerləşdirməyə çalışdıqları üçün Allahın nəzərdə tutduğu doğruluğa boyun əymədilər.** (Romalılara, 10:2-3)

Tərsinə, Allahın xidmətçiləri olaraq fövqəladə dözümdə, çətinlik və əzablarda, dayaq, həbs, qarışıqlıq, əmək, yuxusuzluq və aclıqda; pak yaşayışda, bilik, səbir, yaxşılıq... və səmimi sevgidə; **gerçəyin elanında və Allahın gücündə; sağ və sol əllərimizdə doğruluğun silahlarıyla...** yaxşı adda və pis adda, özümüzü hər vəziyyətdə nümunə göstəririk. **Aldadanlar sailırıqsa da dürüst kəslərik.** (2 Korinflilərə, 6:4-8)

Amma sən, ey Allah adamı, bu şeylərdən qaç! **Doğruluğun**, Allah yolunun, imanın, sevginin, səbirin, itaətliliyin **ardınca qaç**. İman uğrunda uca mübarizəni davam etdir. Sonsuz həyata möhkəm sarıl. Bunun üçün çağırıldın və bir çox şahid qarşısında uca inancı [Allaha imanı] açıqca mənimsədin. (1 Timoteyə, 6:11-12)

Gənclik arzularından qaç. Təmiz ürəklə Rəbbə yalvaranlarla birlikdə **doğruluğun,** imanın, sevginin və əmin-amanlığın **ardınca qaç.** (2 Timoteyə, 2:22)

Bu səbəblə, pis gündə dözə bilmək, lazımlı hər şeyi etdikdən sonra yerinizdə dayana bilmək üçün Allahın bütün silahlarını [Allaha imandan gələn mənəvi gücünüzü] istifadə edin. Beləcə, **belinizi gerçəklə əhatə etmiş, sinənizə düzgünlük zirehini taxmış və** ayaqlarınıza əmin-amanlıq Müjdəsini [Allahın əmrlərini] yayma hazırlığını geymiş **olaraq yerinizdə durun**. Bunların hamısına əlavə olaraq, şeytanın bütün atəşli oxlarını söndürə biləcəyiniz iman qalxanını alın. Qurtuluş dəbilqəsini və ruhun qılıncını, yəni Allah sözünü alın. (Efeslilərə, 6:13-17)

Əkinçiyə toxum və yemək təmin edən Allah, sizin də əkəcəyinizi təmin edib çoxaldacaq, **doğruluğunuzun məhsullarını artıracaq**. (2 Korinflilərə, 9:10)

Amma siz Allahın sayəsində Məsih İsadasınız [hz. İsa (ə.s) ilə birlikdə iman etdiniz]. O bizim üçün Allahdan gələn müdriklik, **düzgünlük,** müqəddəslik və qurtuluş [vəsiləsi**] oldu.** (1 Korinflilərə, 1:30)

Bir zamanlar qaranlıq idiniz, amma indi Rəbdə işıqsınız [Allahın nuru üzərinizdə təcəlli edir]... **İşığın meyvəsi hər yaxşılıqda, düzgünlükdə və gerçəkdə görülər**. Rəbbi nəyin məmnun etdiyini ayırd edin. Qaranlığın meyvəsiz işlərinə qatılmayın. Tərsinə, onları ortaya çıxarın. (Efeslilərə, 5:8-11)

Duam budur ki, sevginiz, bilik və hər növ duyğu ilə dayanmadan artsın. Belə ki, üstün dəyərləri ayırd edə biləsiniz və beləcə **Allahın ucaldılıb tərifələnməsi üçün İsa Məsih vasitəsilə gələn düzgünlük meyvəsiylə dolaraq...** saf və qüsursuz olasınız. (Filipililərə, 1:9-11)

Müqəddəs Yazıların [Allahın vəhyi olan Müqəddəs Kitabların] hamısı Allah vəhyidir və öyrətmək, xəbərdar etmək, yola gətirmək, **düzgünlük mövzusunda təhsil vermək üçün faydalıdır**. Bunların sayəsində Allah adamı hər yaxşı iş üçün təchiz edilmiş olaraq yetkin olar. (2 Timoteyə, 3:16-17)

Allah... bizi öz faydamıza tərbiyə edir. Tərbiyə edilmək başlanğıcda heç şirin gəlməz, acı gələr. Nə var ki, **belə öyrədilənlər üçün bu sonradan əmin-amanlıq verən doğruluğu çıxarar.** Bunun üçün sallanan əllərinizi qaldırın, bükük dizlərinizi uzadın, **ayaqlarınız üçün düz yollar tapın**. Belə ki, iflic olan parça oynaqdan çıxmasın, əksinə şəfa tapsın. (İbranilərə, 12:11-13)

Çünki harada qısqanclıq, eqoizm varsa, orada qarışıqlıq və hər növ pislik vardır. Amma göydən enən [Allah Qatından gələn] müdriklik hər şeydən əvvəl pakdır, sonra sülhsevərdir, həlimdir, itaətlidir. Mərhəmət və yaxşı meyvələrlə doludur. Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur. **Sülh içində əkən sülh quruluşçuları düzgünlük məhsulunu biçərlər.** (Yaqub, 3:16-18)

Yaxşılıq etməkdə çalışqan olsanız, sizə kim pislik edəcək? **Düzgünlük uğrunda acı çəksəniz belə, nə xoşbəxt sizə!** İnsanların "qorxduğundan qorxmayın, ürkməyin."... İçinizdəki ümidin səbəbini soruşan hər kəsə uyğun bir cavab verməyə hər zaman hazır olun. Yalnız bunu həlim xasiyyətlə, hörmətlə edin. Vicdanınızı təmiz tutun. Belə ki, Məsihə bağlı olaraq davam etdirdiyiniz yaxşı həyatı qınayanlar sizə etdikləri böhtandan utansınlar. Yaxşılıq edib acı çəkmək -əgər Allahın istəyi budursa- pislik edib acı çəkməkdən daha yaxşıdır. (1 Peter, 3:13-17)

Başınızın üzərinə də and içməyin. Çünki saçınızın tək telini yaş ya da quru edə bilməzsiniz. **"Bəliniz bəli, xeyriniz xeyr" olsun.** Bundan çoxu şeytandandır. (Matta, 5:36-37)

Qardaşlarım, əvvəlcə bunu söyləyim, nə göy üzərinə, nə yer üzərinə, nə də başqa bir şey üzərinə and için. **"Bəli"niz bəli, "xeyr"iniz xeyr olsun ki,** mühakiməyə [hesab günündə əzaba] uğramayasınız."" (Yaqub, 4:12)

Sizə görə yaxşı olanın pislənməsinə fürsət verməyin. Çünki Allahın Hökmranlığı [axirət hesabı], yemək içki problemi deyil, **düzgünlük**, əmin-amanlıq və... sevincdir. Məsihə bu yolda xidmət edən, Allahı məmnun edər, insanların da məmnuniyyətini qazanar. Elə isə özümüzü əmin-amanlıq gətirən və qarşılıqlı inkişafımızı təmin edən işlərə verək. (Romalılara, 14:16-19)

## Şəfqətli və mərhəmətli olmaq

**Nə xoşbəxt mərhəmətli olanlara!** Çünki onlar mərhəmət tapacaqlar. (Matta, 5:7)

**Bəzi qərarsızlara mərhəmət edin. Bəzilərini atəşdən çəkib qurtarın. Bəzilərinə də qorxuyla mərhəmət edin.** Amma günahlı bədənin ləkələdiyi geyimdən belə uzaq durun. (Yəhuda, 1:22-23)

Gənclik arzularından qaç. Təmiz ürəklə Rəbbə yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və əmin-amanlığın ardınca qaç. Axmaq, cahilcə mübahisələrə girməyi rədd et. Bunların dava yaratdığını bilirsən. Rəbbin qulu davakar olmamalı. **Əksinə, hər kəsə şəfqətlə davranmalı,** öyrətmə qabiliyyəti olmalı, haqsızlıqlara səbirlə dözməlidir. **Özünə qarşı olanları mülayimliklə yola gətirməli. Həqiqəti anlamaları üçün Allah, bəlkə onlara tövbə yolu açar.** Beləliklə, aila bilər, istəyini yerinə yetirmələri üçün onları məhbus edən iblisin tələsindən xilas ola bilərlər. (2 Timoteyə, 2:22-26)

... **Mərhəmət edən, bunu gülər üzlə etsin.** (Romalılara, 12:8)

**Dünya malına sahib olub, qardaşını ehtiyac içində gördüyü halda ondan şəfqətini əsirgəyən adamda Allahın sevgisi ola bilərmi?** Balalarım, sözlə və dillə deyil, hərəkətlə və səmimiyyətlə sevək. (1 Yəhya, 3:17-18)

Sizlərsə qardaşlar, yaxşılıq etməkdən bezməyin. Əgər bu məktubdakı sözlərimizə uymayan olsa onu nəzərdə saxlayın. Etdiklərindən utanması üçün onunla əlaqənizi kəsin. **Yenə də onu düşmən saymayın, bir qardaş olaraq xəbərdar edin.** (2 Saloniklilərə, 3:13-15)

Vay halınıza... ikiüzlülər! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, **mərhəməti** və imanı **atırsınız**. Amma onda biri verməklə yanaşı bunları da yerinə yetirməli idiniz. (Matta, 23:23)

[Hz. İsa (ə.s):] "Özləriylə birlikdə olduğum müddətcə... **onları qorudum...**" (Yəhya, 17:12)

İsa gəmiyə minərkən, əvvəllər cinə tutulmuş adam ona, "Səninlə gəlim" deyə yalvardı. Amma İsa adama icazə vermədi. Ona, "Evinə, yaxınlarının yanına dön" dedi. **"Rəbbin sənin üçün nələr etdiyini, sənə necə mərhəmət etdiyini onlara izah et."** (Mark, 5:18-19)

**... Rəhmanı müdriklik** hər şeydən əvvəl pakdır, sonra sülhpərvərdir, həlimdir, itaətkardır. **Mərhəmət və yaxşı meyvələrlə doludur. Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur.** Sülh içində əkən sülh quruluşçuları düzgünlük məhsulunu biçərlər. (Yaqub, 3:17-18)

... [Allaha iman ruhunun] məhsuludursa sevgi, sevinc, sağlamlıq, səbir, **şəfqət**, yaxşılıq, bağlılıq, mülayimlik və nəfsə hakim olmaqdır. Bu cür xüsusiyyətləri qadağan edən qanun yoxdur. (Qalatiyalılara, 5:22-23)

Bildiyiniz kimi, heç bir zaman yalan sözlərlə, ya da acgözlüyü örtən bir maskayla gəlmədik. Allah buna şahiddir. İnsanlardan -nə sizdən, nə başqalarından- gələcək tərifi də gözləmirdik. Məsihin elçiləri [nümayəndələri, şagirdləri] olaraq sizə ciddiliyimizi hiss etdirə bilərdik. **Amma uşaqlarını bağrına basan bir ana kimi sizə şəfqətlə davrandıq.** Sizlərə elə könüldən bağlanmışdıq ki, sizinlə tək Allahın Müjdəsini [Allahın əmrlərini] deyil, [Allah rizası üçün] öz canlarımızı da paylaşmağa razıydıq. Çünki sizi o cür çox sevdik! Bəli, qardaşlar, necə əlləşib çalışdığımızı xatırlayarsınız. Heç birinizə yük olmamaq üçün gecə-gündüz çalışdıq, Allahın Müjdəsini [Allahın əmrlərini] sizə eşitdirdik. İman edən sizlərə qarşı davranışımızın nə cür müqəddəs, ədalətli, qüsursuz olduğuna siz şahidsiniz; Allah da buna şahiddir. (1 Saloniklilərə, 2:5-10)

[Hz. İsa (ə.s):] "Amma **siz düşmənlərinizi sevin**, yaxşılıq edin, heç bir qarşılıq gözləmədən borc verin. Alacağınız mükafat böyük olacaq... O [Allah], nankor və pis kəslərə qarşı mülayimdir [Rəhimdir]. Allahınız mərhəmətli olduğu kimi, siz də mərhəmətli olun. (Luka, 6:35-36)

## Bağışlayıcı olmaq

[Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: **Düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin, sizə lənət edənlər üçün yaxşılıq diləyin, sizə təhqir edənlər üçün dua edin."** (Luka 6:27-28)

Qalxıb dua etdiyiniz zaman, **birinə qarşı bir şikayətiniz varsa onu bağışlayın...** (Mark, 11:25-26)

**Başqalarının günahlarını bağışlasanız, Allah da sizin günahlarınızı bağışlayar.** (Matta, 6:14)

Başqasını mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Günahkar çıxarmayın, siz də günahkar çıxarılmazsınız. **Başqasını bağışlayın, siz də bağışlanarsınız.** Sizdə olanı verin, sizə veriləcək. Yaxşıca basdırılmış, silkələnilmiş və daşmış, dolu bir ölçü ilə qucağınıza boşaldılacaq. Hansı ölçü ilə ölçsəniz, sizə də eyni ölçü tətbiq olunacaq. (Luka, 6 :37-38)

"Gözə göz, dişə diş" deyildiyini eşitdiniz. Amma mən sizə deyirəm ki, pisə qarşı müqavimət göstərməyin. **Sağ yanağınıza şillə vurana o biri yanağınızı da çevirin. Sizə qarşı şikayətçi olub çuxanızı almaq istəyənə, əbanızı da verin. Sizi min addım yol getməyə məcbur edənlə iki min addım gedin."** (Matta, 5:38-41)

"Elə isə, Allahın müqəddəs və sevimli seçilmişləri olaraq ürəkdən mehribanlığı, yaxşılığı, təvazökarlığı, səbiri, həlimliyi geyinin. Bir-birinizə anlayışlı davranın. **Birinizin o birindən bir şikayəti varsa, Rəbbin sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın.** Bunların hamısının üzərinə yetkin birliyin bağı olan sevgiyə bürünün." (Kolosselilərə, 3:12-14)

Həyatınıza diqqət yetirin! **Qardaşınız günah işləyərsə, onu xəbərdar edin; tövbə etsə, bağışlayın.** Gündə yeddi dəfə sizə qarşı günah işlər və yeddi dəfə sizə gəlib, "Tövbə edirəm" desə, onu bağışlayın." (Luka, 17:3-4)

Bunun üzərinə Peter İsaya gəlib... **"Qardaşım mənə qarşı neçə dəfə günah işləyərsə onu bağışlamalıyam? Yeddi dəfəmi?" İsa, "Yeddi dəfə deyil" dedi. "Yetmiş yeddi dəfə deyirəm sənə."** (Matta, 18:21-22)

İsa onlara, "Dua edərkən belə söyləyin" dedi: ... **"[Rəbbimiz] günahlarımızı bağışla. Çünki biz də bizə qarşı günah işləyən hər kəsi bağışlayırıq.** Doğru yoldan azmağımıza icazə vermə." (Luka, 11:2-4)

**"Bizə qarşı günah işləyənləri bağışladığımız kimi, Sən də bizim günahlarımızı bağışla.** Doğru yoldan azmağımıza icazə vermə. Bizi pis olandan qurtar. Çünki hökmranlıq, güc və ucalıq sonsuzlara qədər Sənindir! Amin." (Matta, 6:12-13)

"'Qonşunu sevəcəksən, düşmənindən nifrət edəcəksən" deyildiyini eşitdiniz. **Amma mən sizə deyirəm ki, düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin...** Çünki O [Allah], Günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurar; yağışını həm doğruların, həm əyrilərin üzərinə yağdırar. Əgər yalnız sizi sevənləri sevsəniz, nə mükafatınız olar?..." (Matta, 5:43-46)

## Mülayim olmaq

**Nə xoşbəxtdir mülayim olanlar! Çünki onlar yer üzünü miras alacaqlar.** (Matta, 5:5)

**Gizli olan daxili varlığınız, sakit və həlim bir ruhun solmayan gözəlliyiylə** bəzəyiniz olsun. Bu, Allahın gözündə çox qiymətlidir. (1 Peter, 3:4)

**Rəbbin qulu davakar olmamalı.** Tərsinə, hər kəsə şəfqətlə davranmalı, öyrətmə qabiliyyəti olmalı, haqsızlıqlara səbirlə dözməlidir. **Özünə qarşı olanları həlimliklə yola gətirməli.** Həqiqəti anlamaları üçün Allah, bəlkə, onlara tövbə yolu açar. Beləliklə, aila bilər, istəyini yerinə yetirmələri üçün özlərini məhbus edən iblisin tələsindən xilas ola bilərlər. (2 Timoteyə, 2:24-26)

Qardaşlar, əgər biri günah işləyərkən yaxalansa, **Allahın Ruhuna uyan sizlər, belə birini mülayim ruhla yola gətirin.** Siz də doğru yoldan azmamaq üçün özünüzə nəzarət edin. Bir-birinizin yüklərini daşıyın, beləcə Məsihin qanununu [hz. İsa (ə.s)-a vəhy olunan Allahın əmrlərini] yerinə yetirərsiniz. (Qalatiyalılara, 6:1-2)

İmanlılara xatırlat ki, başçılar və hakimlərə tabe olub itaət etsinlər. Hər cür xeyirli iş görməyə hazır olsunlar. Kimsəni pisləməsinlər. **Davakar deyil, mülayim olsunlar. Hər kəsə hər zaman həlim davransınlar.** (Titə, 3:1-2)

[Hz. İsa (ə.s):] "Ey bütün yorğunlar və yükü ağır olanlar! Mənə gəlin, mən sizə rahatlıq verərəm... Məndən öyrənin. Çünki mən **mülayim xasiyyətli, təvazökaram.** Beləcə canlarınız rahatlığa qovuşar." (Matta, 11:28-29)

... İçinizdəki ümidin səbəbini soruşan hər kəsə uyğun bir cavab verməyə hər zaman hazır olun. **Yalnız bunu həlim xasiyyətlə, hörmətlə edin.** Vicdanınızı təmiz tutun. Belə ki, Məsihə aid olaraq [hz. İsa (ə.s)-a uyaraq] davam etdirdiyiniz yaxşı həyatı qınayanlar sizə etdikləri böhtandan utansınlar. (1 Peter, 3:15-16)

Amma göydən enən [Allah Qatından olan] müdriklik hər şeydən əvvəl pakdır, sonra **sülhsevərdir, həlimdir, mülayimdir**. Mərhəmət və yaxşı meyvələrlə doludur.Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur. (Yaqub, 3:17)

Hər pis niyyətlə birlikdə hər cür kin, qəzəb, hirs, bağırma və böhtan sizdən uzaq olsun. **Bir-birinizə qarşı yumşaq ürəkli, şəfqətli olun.** Allahın... sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. (Efeslilərə, 4:31-32)

Qardaşlar, aranızda çalışanların, Rəbb yolunda sizə öndərlik edib öyüd verənlərin dəyərini bilməyinizi xahiş edirik. Etdikləri işdən ötrü onlara sərhədsiz hörmət, sevgi göstərin. **Bir-birinizlə sülh içində yaşayın...** Qardaşlar, boş gəzənləri xəbərdar edin, ürəksizləri cəsarətləndirin, gücsüzlərə dəstək olun, hər kəsə qarşı səbirli olun. **Əsla kimsə pisliyə pisliklə cavab verməsin. Bir-biriniz və bütün insanlar üçün hər zaman yaxşılığı məqsəd hesab edin.** Hər zaman sevinin. (1 Saloniklilərə, 5:12-16)

Allahın Ruhunun məhsulu isə **[Allah rizasına uyğun olan isə]** sevgi, sevinc, əmin-amanlıq, səbir, şəfqət, yaxşılıq, bağlılıq, **həlimlik** və nəfsə hakim olmadır. Bu cür xüsusiyyətləri qadağan edən qanun yoxdur. (Qalatiyalılara, 5:22-23)

... Aldığınız çağırışa yaraşar şəkildə [sizə çatan Allahın vəhyinə görə] yaşamağınızı xahiş edirəm. **Hər baxımdan təvazökar, həlim, səbirli olun. Bir-birinizə sevgiylə, anlayışla davranın.** (Efeslilərə , 4:1-2)

Ancaq nəzarətçi utanılacaq bir tərəfi olmayan... ölçülü, sağlamfikirli, hörmətli, qonaqpərvər, öyrətmə qabiliyyətli biri olmalı. Şərab düşkünü, kobud olmamalı; **mülayim**, döyüşdən və pul sevgisindən **uzaq olmalı.** (1 Timoteyə , 3:2-3)

## Qəzəbi boğmaq

Hər pis niyyətlə birlikdə **hər cür kin, hirs, qəzəb,** bağırma və böhtan **sizdən uzaq olsun.** Bir-birinizə qarşı yumşaq ürəkli, şəfqətli olun. Allahın... sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. (Efeslilərə, 4:31-32)

Sevimli qardaşlarım, bunu ağlınızda tutun: Hər kəs dinləməkdə tez... **qəzəblənməkdə də yavaş olsun. Çünki insanın qəzəbi, Allahın istədiyi doğruluğu təmin etməz.** Bunun üçün hər cür murdarlığı və hər tərəfə yailmış olan pisliyi üstünüzdən sıyırıb ataraq, içinə əkilmiş və canlarınızı qurtaracaq gücdə olan sözü [Allahın əmrlərini] təvazökarlıqla qəbul edin. (Yaqub, 1:19-21)

Amma mən sizə deyirəm ki, **qardaşına qəzəblənən hər kəs mühakimə olunacaq...** (Matta, 5:22)

Amma indi **hirs, qəzəb**, pis niyyət daxil, **hamısını üzərinizdən sıyırıb atın**. Ağzınızdan heç bir böhtan ya da utanmaz söz çıxmasın. Bir-birinizə yalan danışmayın. Çünki köhnə yaradılışı pis vərdişləriylə birlikdə üzərinizdən çıxarıb atdınız... (Kolosselilərə, 3:8-10)

## Etibarlı olmaq

**Ən kiçik işdə etibarlı olan adam, böyük işdə də etibarlı olar.** Ən kiçik işdə dürüst olmayan adam, böyük işdə də dürüst olmaz. Dünyanın aldadıcı sərvəti mövzusunda etibarlı deyilsinizsə, həqiqi sərvəti sizə kim əmanət edər? Başqasının malı mövzusunda etibarlı deyilsinizsə, öz malınız olmaq üzrə sizə kim bir şey verər? (Luka, 16:10-12)

Beləcə, insanlar bizi Məsihin [Allah rizası üçün] xidmətçiləri və Allahın sirlərinin xidmətçiləri saysın. Xidmətçidə axtarılan **başlıca xüsusiyyət etibarlı olmasıdır.** (1 Korinflilərə, 4:1-2)

... Amma Rəbbin mərhəməti sayəsində **etibarlı biri olaraq düşündüklərimi söyləyirəm.** (1 Korinflilərə, 7:25)

... Çünki [hz. **İsa (ə.s)] məni etibarlı sayaraq xidmətinə götürdü.** Bir zamanlar onu söyən, zalım və həyasız biri olduğum halda, mənə mərhəmət edildi. Çünki nə etdimsə məlumatsızlıqdan və imansızlıqdan etdim. (1 Timoteyə, 1:12-13)

Eyni şəkildə qadınlar ciddi olmalı; böhtançı deyil, amma ölçülü və **hər baxımdan etibarlı olmalı.** (1 Timoteyə, 3:11)

... Bir çox şahid qarşısında məndən eşitdiyin sözləri, **başqalarına da öyrətməyə yetərli olacaq etibarlı kəslərə əmanət et.** Məsih İsanın yaxşı bir əsgəri [şagirdi, təqibçisi] olaraq mənimlə birlikdə çətinliyə sinə gər. (2 Timoteyə, 2:1-3)

... Məsihə bağlı mübarək **və etibarlı qardaşlara salam!** Allahdan sizlərə lütf və sağlamlıq olsun. (Kolosselilərə, 1:1-2)

Müjdəni [Allahın əmrlərini] bizim adımıza **Məsihin etibarlı xidmətçisi olan sevimli əməkdaşımız Epafradan öyrəndiniz...** (Kolosselilərə, 1:7-8)

Rəbb yolunda əməkdaşım və **etibarlı bir xidmətçi olan sevimli qardaşımız** Tixik, mənimlə əlaqədar hər şeyi sizə bildirəcək. Məhz bu məqsədlə, vəziyyətimizi çatdırması və ürəklərinizə cəsarət verməsi üçün özünü sizə göndərirəm. Onunla birlikdə, sizdən biri olan, **etibarlı və sevimli qardaş Onisimi də göndərirəm.** Burada olub bitən hər şeyi sizə bildirəcəklər. (Kolosselilərə, 4:7-9)

Necə olduğumu, nə etdiyimi sizin də bilməyiniz üçün sevimli qardaşımız, **Rəbbin etibarlı xidmətçisi** Tixik sizə hər şeyi bildirəcək. Özünü bu məqsədlə, vəziyyətimizi çatdırması və ürəklərinizə cəsarət verməsi üçün sizə göndərirəm. (Efeslilərə 6:21-22)

**Etibarlı bir qardaş saydığım** Sila vasitəsilə sizə qısaca yazmış oluram. Sizi ürəkləndirir və sözünü tutduğum lütfün Allahın gerçək lütfü olduğuna şahidlik edirəm. Buna bağlı qalın... Bir-birinizi sevgiylə öpərək salamlayın. Sizlərə, Məsihə aid olan [Allah rizası üçün hz. İsa (ə.s)-ı izləyənlərə] hər kəsə əmin-amanlıq olsun. (1 Peter, 5:12-14)

Ağanın, xidmətçilərinə vaxtında yemək vermək üçün **başlarına təyin etdiyi etibarlı və ağıllı kölə kimdir?** Ağası evə döndüyündə işinin başında tapacağı o kölə nə xoşbəxtdir! Sizə doğrusunu söyləyim, ağası onu bütün malının üzərində səlahiyyətli edəcək. (Matta, 24:45-47)

Ağası ona, "Afərin, yaxşı və **etibarlı** kölə!" dedi. "Sən kiçik işlərdə etibarlı olduğunu göstərdin, mən də səni böyük işlərin başına keçirəcəyəm. Gəl, ağanın şənliyinə qatıl!" (Matta, 25:21; Luka, 19:17)

... Ağanın, xidmətçilərinə vaxtında azuqə vermək üçün başlarına təyin etdiyi **etibarlı və ağıllı eşikağası kimdir**? Ağası evə döndüyündə işinin başında olacağı o kölə nə xoşbəxtdir! Sizə gerçəyi söyləyim, ağası onu bütün malının üzərində səlahiyyətli edəcək. (Luka, 12:42-44)

Kölələri, hər mövzuda ağalarına bağlı olmağa can atır. Ağalarını məmnun etsinlər. Tərs cavab vermədən, oğurluq etmədən, **tamamilə etibarlı olduqlarını göstərsinlər...** Allahın bütün insanlara qurtuluş təmin edən lütfü ortaya çıxmışdır. Bu lütf, Allahsızlığı və dünyəvi arzuları rədd edib indiki çağda sağlam fikirli, doğru, Allah yoluna yaraşan bir həyat yaşaya bilməyimiz üçün bizi öyrədir... (Titə, 2:9-13)

## Səbirli olmaq

**Bir kimsə haqsız yerə acı çəkdiyində Allah şüuruyla bu acılara səbir etsə, Allahı məmnun edər... Yaxşılıq edib acı çəkdiyinizdə səbir etsəniz, Allahı məmnun edərsiniz.** (1 Peter, 2:19-20)

**Siz də səbir edin.** Ürəklərinizi gücləndirin. Çünki Rəbbin... [köməyi] yaxındır. Qardaşlar, mühakimə olunmamaq üçün bir-birinizə qarşı donquldanmayın... Qardaşlar, Rəbbin adıyla danışmış **peyğəmbərləri çətinliklərdə səbir nümunəsi olaraq alın. Çətinliyə səbir etmiş olanları xoşbəxt sayarıq. Əyyubun necə səbir etdiyini eşitdiniz. Rəbbin ən sonunda onun üçün nələr etdiyini bilirsiniz.** Rəbb çox şəfqətli və mərhəmətlidir. (Yaqub, 5:8-11)

Rəbbin qulu davakar olmamalı. Əksinə, hər kəsə qarşı mehriban və öyrətmə qabiliyyətli olmalı, **haqsızlıqlara səbirlə dözməli**. (2 Timoteyə, 2:24)

Amma sən, ey Allah adamı, bu şeylərdən qaç! Doğruluğun, Allah yolunun, imanın, sevginin, **səbirin**, mülayimliyin **ardınca qaç**. (1 Timoteyə, 6:11)

Beləcə, **İbrahim səbirlə dözərək vədə çatdı.** (İbranilərə, 6:15)

Hər baxımdan təvazökar, həlim xasiyyətli, **səbirli** olun. Bir-birinizə sevgiylə, anlayışla davranın. (Efeslilərə, 4:2)

... Qardaşlar, boş gəzənləri xəbərdar edin, ürəksizləri cəsarətləndirin, gücsüzlərə dəstək olun, **hər kəsə qarşı səbirli olun**. Əsla kimsə pisliyə pisliklə cavab verməsin. Bir-biriniz və bütün insanlar üçün hər zaman yaxşılığı məqsəd qoyun. (1 Saloniklilərə, 5:14-15)

**Hər şeyə sevinclə dözüb səbir edə bilməyiniz** üçün Onun [Allahın] uca gücünə sığınıb bütün qüdrətlə güclənməyinizi diləyirik. (Kolosselilərə, 1:11)

... Belə ki, dünyada pis arzuların gətirib çıxardığı korlanmadan xilas olmuş... olasınız. Məhz bu səbəblə **hər cür səyi göstərərək imanınıza** əzmi, əzminizə biliyi, biliyinizə nəfsə hakim olmanı, nəfsə hakim olmağınıza dözüm gücünü, **dözüm gücünüzə Allah yoluna bağlılığı**, bağlılığınıza qardaşsevərliyi, qardaşsevərliyinizə sevgini **qatın**. Çünki bu xüsusiyyətlərə artan ölçüdə sahib olsanız... İsa Məsihi tanımaqda təsirsiz və səmərəsiz olmazsınız. (2 Peter, 1:4-8)

[Hz. İsa (ə.s):] "Qardaş qardaşı, ata uşağını ölümə təslim edəcək. Uşaqlar ana-ataya baş qaldırıb onları öldürdəcək. Mənim adımdan ötrü [Allah rizasına uyaraq məni izlədiyiniz üçün] hər kəs sizə nifrət edəcək. Amma sonuna qədər **dözüm göstərən xilas olacaq.**" (Matta, 10:21-22; Mark, 13:12-13)

[Hz. İsa (ə.s):] "O zaman bir çox adam imandan azacaq, bir-birlərini ələ verəcək və bir-birlərinə nifrət edəcəklər. Bir çox saxta peyğəmbər çıxacaq və bunlar bir çox adamı azdıracaq. Pisliklərin çoxalmasından ötrü bir çoxlarının sevgisi soyuyacaq. **Amma sonuna qədər səbir edən xilas olacaq.**" (Matta, 24:10-13)

Sənsə mənim təhsilimi, davranışımı, məqsədimi, imanımı, səbirimi, sevgimi, **dözüm gücümü, çəkdiyim zülm və acıları,** məsələn Antakyada, Konyada və Listrada başıma gələnləri yaxından izlədiniz. **Nə zülmlərə səbir etdim! Amma Rəbb məni hamısından qurtardı... Allah yoluna yaraşan bir həyat sürmək istəyənlərin hamısı zülm görəcək.** Amma pislər və saxtakarlar, aldadaraq və aldanaraq getdikcə daha betər olacaqlar. (2 Timoteyə, 3:10-13)

Səyiniz azalmasın... Rəbbə qulluq edin. Ümidinizlə sevinin. **Çətinliyə dözümlü olun.** Özünüzü duaya həsr edin. (Romalılara, 12:11-12)

Məsih İsanın yaxşı bir əsgəri [tələbəsi, təqibçisi] olaraq mənimlə birlikdə çətinliyə sinə gər... Dediklərimi yaxşı düşün. Rəbb sənə hər mövzuda anlayış verəcək. Bu Müjdə [Müqəddəs Kitab] uğrunda bir günahkar kimi **zəncirə vurulmağa qədər çətinliklərə səbir edirəm.** Amma Allahın sözü zəncirə vurulmuş deyil. Bunun üçündür ki, **seçilmişlər [Allahın iman nəsib etdiyi qulları] uğruna hər şeyə səbir edirəm.** Belə ki, onlar da... qurtuluşa qovuşsunlar. (2 Timoteyə, 2:3, 7-10)

Yaxşı torpağa düşənlər isə, sözü eşidincə onu yaxşı və möhkəm bir ürəkdə saxlayanlardır. **Bunlar səbirlə dözərək məhsul verərlər.** (Luka, 8:15)

[Hz. İsa (ə.s):] "Sınandığım zamanlar **mənimlə birlikdə səbir etmiş olanlar sizlərsiniz.**" (Luka, 22:28)

Etdiklərini, çalışqanlığını, **səbirini bilirəm.** Pis kəslərə dözə bilmədiyini də [büğz etdiyini] bilirəm. Elçi olmadıqları halda özlərini elçi deyə tanıdanları sınadın və onları yalançı gördün. **Bəli, səbirlisən, [Allah rizası üçün]... acılara dözdün və qorxmadın.** (Vəhy, 2:2-3)

Bu səbəblə, sevimli qardaşlarım, **Rəbb yolunda verdiyiniz əməyin boşa getməyəcəyini bilərək dözüm göstərin, sarsılmayın,** Rəbbin yolunda hər zaman çalışqan olun. (1 Korinflilərə, 15:58)

## Qısqanclıqdan çəkinmək

Sevgi səbirlidir, sevgi şəfqətlidir. **Sevgi qısqanmaz**, öyünməz, lovğalanmaz. (1 Korinflilərə, 13:4)

Allah sayəsində yaşayırıqsa... boş yerə öyünən, bir-birinə meydan oxuyan, **bir-birini qısqanan kəslər olmayaq.** (Qalatiyalılara, 5:25-26)

İsa belə davam etdi: "İnsanı kirlədən, insanın içindən çıxandır. Çünki pis düşüncələr, fahişəlik, oğurluq, cinayət, zina, acgözlük, pislik, hiylə, pozğunluq, **qısqanclıq**, böhtan, qürur və ağılsızlıq daxildən, insanın ürəyindən qaynaqlanar. **Bu pisliklərin hamısı içdən [nəfsdən] qaynaqlanar və insanı kirləndirər.**" (Mark, 7:20-23)

Cismani təbiətin [nəfsin] işləri açıqdır. Bunlar cinsi əxlaqsızlıq, pislik, pozğunluq, bütpərəstlik, cadugərlik, düşmənlik, çəkişmə**, qısqanclıq,** qəzəb**, eqoist ehtiraslar,** ayrılıqlar, bölünmələr, **gözü götürməmək,** sərxoşluq, dəlisov əyləncələr və bənzər şeylərdir... (Qalatiyalılara, 5:19-21)

Bu səbəblə hər pisliyi, hiyləni, ikiüzlülüyü, **qısqanclığı** və bütün böhtanları **üzərinizdən sıyırıb atın.** Yeni doğulmuş körpələr kimi, qatqısız südü xatırladan Allah sözünü dinləyin ki, bununla bəslənib böyüyərək qurtuluşa çatasınız. Çünki Rəbbin yaxşılığını daddınız. (1 Peter, 2:1-3)

Çünki hələ cismani təbiətə [nəfsinizə] uyursunuz. **Aranızda qısqanclıq və çəkişmə olması, cismani təbiətə uyduğunuzu, o biri insanlar kimi yaşadığınızı göstərmirmi?** (1 Korinflilərə, 3:3)

**Qısqanırsınız**, istəyinizə çata bilməyincə çəkişib döyüşürsünüz. **Əldə edə bilmirsiniz, çünki Allahdan diləmirsiniz.** (Yaqub, 4:2)

Aranızda müdrik və anlayışlı olan kim? Yaxşı yaşayışıyla, müdriklikdən doğan təvazökarlıqla yaxşı hərəkətlərini göstərsin. Amma **ürəyinizdə kin, qısqanclıq, eqoizm varsa öyünməyin,** gerçəyi yadırğamayın. Belə "müdriklik" Rəhmani deyil, dünyadan, insan təbiətindən, cinlərdən gələn müdriklikdir. Çünki **harada qısqanclıq, eqoizm varsa, orada qarışıqlıq və hər növ pislik vardır.** Amma göydən enən [Rəhmani olan] müdriklik hər şeydən əvvəl pakdır, sonra sülhpərvərdir, mülayimdir, həlimdir. Mərhəmət və yaxşı meyvələrlə doludur.Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur. Sülh içində əkən sülh quruluşçuları düzgünlük məhsulunu biçərlər. (Yaqub, 3:13-18)

Allahı tanımaqda fayda görmədikləri üçün, Allah onları faydasız düşüncələrə, pis davranışlara təslim etdi. Hər cür haqsızlıq, pislik, acgözlük və kinlə doldular. **Qısqanclıq**, öldürmə ehtirası, çəkişmə, hiylə, pis niyyətlə doludurlar. Dedi-qodu edən, böhtançı, Allaha nifrət edən [Allahı tənzih edirik], həyasız, təkəbbürlü, öyünən, pislik çıxaran, ana-ata sözü dinləməyən, anlayışsız, sözündə durmaz, sevgidən məhrum, mərhəmətsiz insanlardır. **Belə davrananların ölümə [cəhənnəm əzabına] layiq olduğuna bağlı Allah buyruğunu bildikləri halda, bunları etməklə qalmaz, edənləri də dəstəkləyərlər.** (Romalılara , 1:28-32)

Gecə irəlilədi, gündüz yaxınlaşdı. Bunun üçün qaranlığın işlərini üzərimizdən atıb işığın silahlarına bürünək. Özümüzü dəlisov əyləncəyə və sərxoşluğa, əxlaqsızlığa və pozğunluğa, çəkişməyə və **qısqanclığa bağlamayaq**. Gün işığında olduğu kimi, hörmətli bir həyat sürək... Cismani təbiətin ehtiraslarına uymağı düşünməyin. (Romalılara, 13:12-14)

... **Aranızda çəkişmə, qısqanclıq**, qəzəb, eqoist ehtiraslar, böhtan, dedi-qodu, lovğalanma, qarışıqlıq **olmasından qorxuram**. (2 Korinflilərə, 12:20)

## Sülhsevər olmaq

Pisliyə pisliklə cavab verməyin. Hər kəsin gözündə yaxşı olanı etməyə diqqət yetirin. **Hər kəslə sülh içində yaşamaq üçün əlinizdən gələni edin.** (Romalılara, 12:17-18)

**Nə xoşbəxt sülhü təmin edənlərə!...** (Matta, 5: 9)

**Hər kəslə sülh içində yaşamaq** və müqəddəs [saleh mömin] olmaq üçün **cəhd göstərin**. Müqəddəsliyə sahib olmadan kimsə Rəbbi görə bilməyəcək. [Saleh möminlərin cənnət neməti olaraq Allahın Uca Şəxsinin təcəllisini görmələri nəzərdə tutulur.] Diqqət yetirin ki, kimsə Allahın lütfündən məhrum qalmasın... (İbranilərə, 12:14-15)

Buna görə, qurbangahda əhd təqdim edərkən qardaşının sənə qarşı bir şikayəti olduğunu xatırlasan, əhdini orada, qurbangahın qarşısında burax, **get əvvəl qardaşınla barış;** sonra gəlib əhdini təqdim et. **Səndən şikayətçi olanla hələ yoldaykən tez razılaş...** (Matta, 5:23-25)

Duz faydalıdır. Amma duz duzluluğunu itirsə, bir daha ona necə dad verə bilərsiniz? **İçinizdə duz olsun və bir-birinizlə sülh içində yaşayın!** (Mark, 9:50)

İman etməyən ayrılırsa ayrılsın. Qardaş ya da bacı belə vəziyyətlərdə azaddır. **Allah sizi sülh içində yaşamağa çağırdı.** (1 Korinflilərə , 7:15)

Qardaşlar, aranızda çalışanların, Rəbb yolunda sizə öndərlik edib öyüd verənlərin dəyərini bilməyinizi xahiş edirik. Etdikləri işdən ötrü onlara çox hörmət, sevgi göstərin. **Bir-birinizlə sülh içində yaşayın.** (1 Saloniklilərə, 5:12-13)

Amma **göydən enən [Allah Qatından olan] müdriklik hər şeydən əvvəl pakdır, sonra sülhsevərdir, həlimdir, mülayimdir.** Mərhəmət və yaxşı meyvələrlə doludur. Tərəfkeşliyi, ikiüzlülüyü yoxdur. **Sülh içində əkən sülh quruluşçuları düzgünlük məhsulunu biçərlər.** (Yaqub, 3:17-18)

Bunun üçün, sevimli qardaşlarım, madam ki, bunları gözləyirsiniz, Allahın hüzurunda ləkəsiz, qüsursuz və **sülh içində olmağa cəhd göstərin**. (2 Peter, 3:14)

## Sədaqət sahibi olmaq

Vay halınıza...! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və **sədaqəti** atırsınız. **Amma onda biri verməklə yanaşı bunları da yerinə yetirməli idiniz**. (Matta, 23:23)

**Rəbbə sadiq olan sevimli uşağım** Timoteni bu məqsədlə sizə göndərirəm. Hər yerdə, hər kilsədə öyrətdiyim və [Allah rizası üçün] Məsihdə izlədiyim yolları o sizə xatırladacaq. (1 Korinflilərə, 4:17)

... Pauldan Efesdə olan mübarəklərə, **Məsih İsaya aid olan [Allah rizası üçün hz. İsa (ə.s)-ı izləyən] sadiqlərə salam!** Rəbbimiz Allahdan... sizlərə lütf və əmin-amanlıq olsun. (Efeslilərə, 1:1-2)

**Musa... Allaha necə sadiq qaldısa, İsa da özünü vəzifələndirənə [Allaha] sadiqdir.** (İbranilərə, 3:2)

**Musa**, gələcəkdə deyiləcək sözlərə şahidlik etmək üçün... **[Allaha] bir xidmətçi olaraq sadiq qaldı...** (İbranilərə, 3:5)

Çəkdiyin çətinliklərdən qorxma! Bax, sınanasınız deyə şeytan içinizdən bəzilərini yaxında zindana atacaq. On gün çətinlik çəkəcəksiniz. **Ölüm bahasına da olsa sadiq qal,** sənə həyat tacını [cənnəti] verəcəyəm. (Vəhy, 2:10)

**... Onunla [hz. İsa (ə.s)-la] birlikdə olanlar**, çağırılmış, seçilmiş və ona [Allah rizası üçün hz. İsa (ə.s)-a] **sadiq olanlardır.** (Vəhy, 17:14)

**İsa özünə iman etmiş yəhudilərə, "Əgər mənim sözümə bağlı qalsanız,** həqiqətən şagirdlərim olarsınız. Gerçəyi biləcəksiniz və gerçək sizi azad edəcək" dedi. (Yəhya, 8:31-32)

... İmanla dolu, yaxşı bir adam olan Barnaba, Antakyaya çatıb Allah lütfünün meyvələrini görüncə sevindi. **Hər kəsi, candan və ürəkdən Rəbbə bağlı qalmağa etina etdirdi.** Nəticə olaraq Rəbbə daha bir çox adam qazanıldı. (Həvarilərin İşləri, 11:23-24)

## Xeyirxah olmaq

Hər kəs öz faydasını deyil, **başqalarının faydasını güdsün.** (1 Korinflilərə, 10:24)

[Hz. İsa (ə.s):] "... **Qarşılıqsız aldınız, qarşılıqsız verin."** (Matta, 10:8)

Yoxsullar hər zaman aranızdadır, **dilədiyiniz anda onlara kömək edə bilərsiniz...** (Mark, 14:7)

**Ehtiyac içində olan müqəddəslərə [özünü Allaha həsr etmişlərə] kömək edin.** Qonaqpərvər olun. (Romalılara, 12:13)

... Siz də bilərsiniz ki, bu əllər həm mənim, həm də **mənimlə birlikdə olanların ehtiyac duymalarını qarşılamaq üçün** xidmət etmişdir. Etdiyim hər işdə sizlərə, belə **əmək verərək gücsüzlərə kömək etməyimiz və... İsanın, "vermək, almaqdan daha böyük xoşbəxtlikdir" deyən sözünü unutmamağımız lazım olduğunu göstərdim."** (Həvarilərin İşləri, 20:34-35)

Amma dul qadının uşaqları ya da nəvələri varsa, **bunlar əvvəlcə öz ailəsinə kömək edərək Allah yolunda yürüməyi** və böyüklərinə yaxşılıq borcunu ödəməyi **öyrənsinlər.** Çünki bu Allahı məmnun edər. (1 Timoteyə, 5:4)

Qeysəriyyədə Korneli adında bir adam vardı. "İtalyan" batalyonunda yüzbaşı idi. Dindar bir adam idi. Həm özü, həm də bütün külfəti Allahdan qorxardı. **Xalqa çox kömək edər, Allaha daim dua edərdi.** (Həvarilərin İşləri, 10:1-2)

Sevimli qardaşım, sənə yad olduqları halda, qardaşlar üçün etdiyin hər şeydə səmimi bağlılıqla davranırsan. Onlar, inananlar birliyi qarşısında sənin sevginə şahidlik etdilər. **Onları Allaha yaraşan [Allahın rizasına uyğun] şəkildə yardımlarınla birlikdə yola salarsansa, yaxşı edərsən.** Çünki inanmayanlardan heç bir kömək almadan, [Allah rizası üçün] Məsih adı uğruna yola çıxdılar. Bu səbəblə **gerçək uğruna əməkdaşlar olmaq üçün belələrini dəstəkləməliyik.** (3 Yəhya, 5-8)

... Məcdəlli adlanan Məryəm, Hirodun eşikağası Xuzanın arvadı Yoxanna, Şoşanna və daha bir çoxları İsayla birlikdə gəzirdi. **Bunlar, öz imkanlarıyla İsaya və şagirdlərinə kömək edirdilər.** (Luka, 8:2-3)

Yofada, İsanın şagirdi olan Tabita adında bir qadın vardı. Tabita, ceyran mənasını verir. Bu qadın **hər zaman yaxşılıq edib yoxsullara kömək edərdi.** (Həvarilərin İşləri, 9:36)

Apollo Axayyaya getmək istəyincə qardaşlar onu cəsarətləndirdilər. Onu yaxşı qarşılamaları üçün oradakı şagirdlərə məktub yazdılar. Apollo Axayyaya çatınca **Allahın lütfüylə iman etmiş olanlara çox kömək etdi.** (Həvarilərin İşləri, 18:27)

İmanlı bir qadının **dul yaxınları varsa onlara kömək etsin.** İnananlar birliyi yük altına girməsin ki, həqiqətən **kimsəsiz olan dullara kömək edə bilsin.** (1 Timoteyə, 5:16)

Siz də bilirsiniz, ey Filipililər, Müjdə [Allahın əmrləri] yailmağa başladığında, Makedoniyadan ayrılmağımdan sonra **sizdən başqa heç bir birlik qarşılıqlı köməkləşmə mövzusunda mənimlə əməkdaşlıq etmədi.** Mən Salonikdəykən də, **ehtiyacım olduğunda bir neçə dəfə mənə kömək etdiniz.** (Filipililərə, 4:15-16)

Yanımda yalnız Luka var. Markı özünlə gətir, **edəcəyim xidmətdə mənə kömək edər.** (2 Timoteyə, 4:11)

**... Hər hansı bir ehtiyacı olsa, ona kömək edin.** Çünki o, [Allah rizası üçün] mən daxil, bir çoxlarına dəstək olmuşdur. (Romalılara, 16:2)

O biri gəmidəki ortaqlarına işarə edərək **gəlib kömək etmələrini istədilər.** Onlar da gəldilər və hər iki gəmini balıqla doldurdular; gəmilər az qala batırdı. (Luka, 5:7)

## İncildə ağıl və hikmətə verilən əhəmiyyət

Allahın Rəbbi bütün ürəyinlə, bütün canınla, **bütün ağlınla** və bütün gücünlə **sevəcəksən**. (Mark, 12:30; Luka, 10:27)

Daxili varlığımda Allahın Qanunundan zövq alıram... Allaha şükürlər olsun! **Nəticə olaraq mən ağlımla Allahın Qanununa... qulluq edirəm.** (Romalılara, 7:22-25)

Elə isə necə yaşadığınıza çox diqqət edin. **Müdriklikdən məhrum olanlar kimi deyil, müdriklər kimi yaşayın.** (Efeslilərə, 5:15)

Ona görə bunu eşitdiyimiz gündən bəri sizin **tam hikmət və ruhani idrakla Allahın iradəsini bütünlüklə qavramanız üçün** biz də dualarımızı və yalvarışlarımızı kəsmədik. (Kolosselilərə, 1:9)

Uşaq [Hz. İsa (ə.s)] böyüyür, güclənir və **müdriklikdə yetkinləşirdi**. Allahın lütfü onun üzərində idi. (Luka, 2:40)

**İsa müdriklikdə** və boyda **inkişaf edir, Allahın və insanların məmnuniyyətini qazanırdı.** (Luka, 2:52)

**İçinizdən birinin müdriklikdə əskiyi varsa,** hər kəsə səxavətlə... verən Allahdan istəsin; özünə veriləcək. (Yaqub, 1:5)

Amma göydən enən **[Allah Qatından olan] müdriklik hər şeydən əvvəl pakdır, sonra sülhsevərdir, həlimdir, mülayimdir.** Mərhəmət və yaxşı meyvələrlə doludur... (Yaqub, 3:17)

**Aranızda müdrik və anlayışlı olan kimdir? Yaxşı yaşayışıyla, müdriklikdən doğan təvazökarlıqla yaxşı hərəkətlərini göstərsin.** (Yaqub, 3:13)

Bunun fərqində olan İsa, "Çörəyiniz yox deyə nə üçün mübahisə edirsiniz?" dedi. **"Hələ düşünə bilmirsinizmi, anlamırsınızmı? Zehniniz korlandımı?** Gözləriniz olduğu halda görmürsünüzmü? Qulaqlarınız olduğu halda eşitmirsinizmi? Xatırlamırsınızmı, beş çörəyi beş min adam arasında bölüşdürdüyümdə neçə səbət dolusu yemək artığı yığdınız?" "On iki" dedilər. "Yeddi çörəyi dörd min adam arasında bölüşdürdüyümdə neçə torba dolusu yemək yığdınız?" "Yeddi" dedilər. İsa onlara, "Hələ anlamırsınızmı?" dedi. (Mark, 8:17-21)

Məsihin sözü bütün zənginliyiylə içinizdə yaşasın. **Tam bir müdrikliklə bir-birinizə öyrədin,** öyüd verin, məzmurlar, ilahilər, ruhani nəğmələr söyləyərək ürəklərinizdə minnətdarlıqla Allaha nəğmələr ucaldın. (Kolosselilərə, 3:16)

... **Allah Onu tanımağınız üçün sizə müdriklik... ruhunu versin** deyə dua edirəm. (Efeslilərə, 1:17)

Amma anlamadıqları mövzularda söyən bu kəslər, instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğan, **ağıldan məhrum heyvanlar kimidir**. Heyvanlar kimi onlar da məhvə uğrayacaqlar. (2 Peter, 2:12)

... Stefanın **danışığındakı müdrikliyə... qarşı gələ bilmədilər.** (Həvarilərin İşləri, 6:10)

Bunun üzərinə On ikilər, bütün şagirdləri bir yerə yığıb belə dedilər: "Allahın sözünü [Allahın vəhyini] yayma işini buraxıb maddi işlərlə məşğul olmağımız doğru olmaz. Bu səbəblə, qardaşlar, aranızdan... **müdrikliklə dolu, yeddi hörmətli adam seçin**. Onları bu iş üçün

vəzifələndirək. Biz isə özümüzü duaya və Allah sözünü yaymağa həsr edək." (Həvarilərin İşləri, 6:2-4)

Yusifi qısqanan atalarımız, onu kölə olaraq Misirə satdılar. Amma Allah onunla idi və onu bütün çətinliklərindən qurtardı. **Ona müdriklik verərək** Misir Fironunun gözünə girməsini təmin etdi. Firon da onu Misir və bütün saray xalqı üzərinə idarəçi təyin etdi. (Həvarilərin İşləri, 7:9-10)

Ürəklərinin cəsarət tapmasını, sevgidə birləşmələrini diləyirəm. Belə ki, **anlayışın verdiyi tam təhlükəsizliyin bütün zənginliyinə qovuşsunlar və... biliyin və müdrikliyin bütün xəzinələrinin gizli olduğu Məsihi tanısınlar.** Kimsə sizi qulağa xoş gələn sözlərlə aldatmasın deyə söyləyirəm bunu. (Kolosselilərə 2:2-4)

Amma bu kəslər anlamadıqları hər şeyi söyürlər. Digər tərədən, **ağıldan məhrum heyvanlar kimi** instinktləriylə anladıqları nə varsa, onları məhvə aparır. (Yəhuda, 1:10)

Paul... "Gerçək və **ağıla uyğun sözlər söyləyirəm.**" (Həvarilərin İşləri, 26:25)

# 14-CÜ HİSSƏ

# İNCİLDƏ ALLAHI XATIRLAMAQ VƏ GÖZƏL SÖZ SÖYLƏMƏYİN ƏHƏMİYYƏTİ

## Allahı xatırlamaq

İsa Zeytun Dağından aşağı enən yola yaxınlaşdığı əsnada, şagirdlərindən ibarət olan kütlənin hamısı, gördükləri bütün möcüzələrdən ötrü, **sevinc içində yüksək səslə Allahı tərifləməyə başladılar.** (Luka, 19:37)

Adam o anda yenidən görməyə başladı və **Allahı ucaldaraq İsanın ardınca getdi. Bunu görən bütün xalq Allaha təriflər söylədi.** (Luka, 18:43)

**Daim məsciddə olur, Allahı tərifləyirdilər.** (Luka, 24:53)

**Hər gün məsciddə toplanmağa davam edən imanlılar**, öz evlərində də çörək bölüb səmimi bir sevinc və sadəliklə yemək yeyir və **Allahı tərifləyirdilər**. (Həvarilərin İşləri, 2:46)

Çobanlar, **eşidib gördüklərinin hamısı üçün Allahı ucaldıb tərifləyərək geri döndülər.** Hər şey, özlərinə izah edildiyi kimi idi. (Luka, 2:20)

O anda **Zəkəriyya... Allahı tərifləyərək danışmağa başladı.** (Luka, 1:64)

**Dilimizlə Allahı tərifləyərik...** (Yaqub, 3:9)

... O biri xalqlar **mərhəməti üçün Allahı ucaltsın.** Yazıldığı kimi: "Bunun üçün xalqlar arasında **Sənə şükür edəcəyəm, Adını ilahilərlə tərifləyəcəyəm.**" Yenə deyilir ki, "Ey xalqlar, Onun xalqıyla [qullarıyla] birlikdə sevinin!" **Və, "Ey xalqlar, Rəbbə təriflər təqdim edin! Ey bütün xalqlar, Onu ucaldın!"** (Romalılara, 15:8-11)

On səkkiz ildir içində xəstəlik ruhu olan bir qadın da orada idi. İkiqat olmuş, belini heç düzəldə bilmirdi. İsa onu görüncə yanına çağırdı. "Qadın" dedi, "Xəstəliyindən xilas oldun." Əllərini qadının üzərinə qoydu. Qadın dərhal düzəldi və **Allahı ucaltmağa başladı**. (Luka, 13:11-13)

Onlardan biri, yaxşılaşdığını görüncə **yüksək səslə Allahı ucaldaraq geri döndü...** (Luka, 17:15-16)

Xalq bunu görüncə qorxuya düşdü. **İnsana belə bir səlahiyyət verən Allahı ucaltdılar.** (Matta, 9:8)

Çünki onların, **bilmədikləri dillərlə danışıb Allahı ucaltdıqlarını** eşidirdilər. (Həvarilərin İşləri, 10:46-47)

Adam onların gözü qarşısında dərhal ayağa qalxdı, üzərində yatdığı yatağı yığdı və **Allahı ucaldaraq evinə getdi**. Hər kəs təəccüb içində idi. **Allahı ucaldır**, böyük qorxu içində, "Bu gün təəccübləndirəcək işlər gördük!" deyirdilər. (Luka, 5:25-26)

Hər kəsi bir qorxu bürümüşdü. "Aramızda böyük bir peyğəmbər ortaya çıxdı!"... deyərək **Allahı ucaltmağa başladılar.** (Luka, 7:16)

Məryəm də belə dedi: **“Canım Rəbbi ucaldar;** ruhum, xilaskarım Allah sayəsində sevinclə coşar. Çünki O, adi quluyla maraqlandı. Məhz bundan belə bütün nəsillər məni xoşbəxt sayacaq. Çünki Güclü Olan, mənim üçün böyük işlər etdi. Onun adı müqəddəsdir. Nəsillər boyunca Özündən qorxanlara mərhəmət edər.” (Luka, 1:46-50)

Uşağın atası Zəkəriyya... : “... **Rəbbə tariflər olsun!** Çünki xalqının [qullarının] köməyinə gəlib onları qurtardı...” (Luka, 1:67-68)

Bunları dinlədikdən sonra sakitləşdilər. **Allahı ucaldaraq belə dedilər...** (Həvarilərin İşləri, 11:18)

Olanları görən yüzbaşı, “Bu adam, həqiqətən, doğru biriydi” deyərək **Allahı ucaltmağa başladı**. (Luka, 23:47)

Gecə yarısına doğru Paulla Sila dua edir, **Allahı ilahilərlə ucaldırdılar**. O biri məhbuslar da onları dinləyirdi. (Həvarilərin İşləri, 16:25)

**... İsa Məsihin Allahını... birlik içində həmişə bir ağızdan ucaldasınız**. Bu səbəblə, Məsih sizi qəbul etdiyi kimi, Allahın ucalığı üçün bir-birinizi qəbul edin. (Romalılara, 15:6-7)

Ali Şuranın üzvləri onları bir daha təhdid etdikdən sonra sərbəst buraxdılar; onları cəzalandırmaq üçün heç bir səbəb tapa bilməmişdilər. **Çünki bütün xalq, olub bitənlər üçün Allahı ucaldırdı.** (Həvarilərin İşləri, 4:21)

[Hz. İsa (ə.s):] **“Adını qardaşlarıma eşitdirəcəyəm, birliyin ortasında Səni ilahilərlə tərifləyəcəyəm”** deyir. (İbranilərə, 2:12)

İmansızlıq edib Allahın vədindən şübhələnmədi; əksinə, imanı gücləndi və **Allahı ucaltdı**. (Romalılara, 4:20)

**Bunları eşidincə Allahı ucaltdılar.** Paula, “Görürsən, qardaş, yəhudilər arasında minlərlə imanlı var və hamısı Müqəddəs Qanunun [Allahın əmrlərinin] candan müdafiəçisidir” dedilər. (Həvarilərin İşləri, 21:20)

Amma Məsih imanlısı olduğu üçün [hz. İsa (ə.s)-a Allahın peyğəmbəri olaraq iman etdiyi üçün] acı çəkən, bundan utanc duymasın. Daşıdığı bu adla **Allahı ucaltsın**. (1 Peter, 4:16)

Yüksək səslə belə deyirdi: “Allahdan qorxun! **Onu ucaldın!** Çünki Onun mühakimə etmə saatı gəldi. Göyü, yeri, dənizi, su mənbələrini yaradana qulluq edin!” (Vəhy, 14:7)

Adam qalxdı, dərhal döşəkcəsini yığdı, hamısının gözü qarşısında çıxıb getdi. Hər kəs çaşıb qalmışdı. **Allahı tərifləyirlər, “Beləsini heç görməmişdik” deyirdilər.** (Mark, 2:12)

... **Allahı tərifləyərək, “Ən ucalarda Allaha ucalıq olsun**, yer üzündə Onun məmnun qaldığı insanlara əmin-amanlıq olsun!” dedilər. (Luka, 2:13-14)

... Şimon onu qucağına aldı, **Allahı tərifləyərək belə dedi**... (Luka, 2:28)

Sıçrayıb ayağa qalxdı, getməyə başladı. Yürüyüb sıçrayaraq, **Allahı tərifləyərək onlarla birlikdə məscidə girdi. Bütün xalq, onun gedib Allahı tərifədiyini gördü**. Onun... oturub pul dilənən adam olduğunu anlayınca ondakı dəyişiklik qarşısında böyük bir heyrət və qarışıqlığa düşdülər. (Həvarilərin İşləri, 3:8-10)

Üstəlik bu qardaş, **Rəbbi ucaltmaq** və köməyə hazır olduğumuzu göstərmək üçün icra etdiyimiz bu xeyirli xidmətdə yol yoldaşımız olmaq üzrə kilsələr tərəfindən seçildi. (2 Korinflilərə, 8:9)

Onlar səmimiliyinizi sübut edən bu xidmətdən ötrü, açıqca mənimsədiyiniz Məsih Müjdəsinə [hz. İsa (ə.s)-a vəhy edilən Allahın əmrlərinə] uyaraq özləriylə və hər kəslə **malınızı səxavətlə paylaşdığınız üçün Allahı ucaldırlar**. (2 Korinflilərə, 9:13)

Xalq, dilsizlərin danışdığını, çolaqların yaxşılaşdığını, korların gördüyünü, ifliclərin gəzdiyini görüncə təəccübləndi və **Allahı ucaltdı**. (Matta, 15:31)

Tam o saatda şiddətli bir zəlzələ oldu, şəhərin onda biri yıxıldı. Zəlzələdə yeddi min adam can verdi. Geriyə qalanlar dəhşətə qapılıb... **Allahı ucaltdılar.** (Vəhy, 11:13)

## Pis sözdən çəkinmək, gözəl sözlü olmaq

**Ağzınızdan heç bir pis söz çıxmasın.** Eşidənlər faydalansın deyə, ehtiyaca görə, başqalarının inkişafına yarayacaq olanı söyləyin. (Efeslilərə, 4:29)

**Sözünüz duzla tərbiyə edilmiş kimi həmişə lütflə dolu olsun**. Beləcə hər kəsə necə cavab vermək lazım olduğunu biləcəksiniz. (Kolosselilərə, 4: 6)

Hər kəs İsanı tərifləyir, **ağzından çıxan lütfkar sözlərə heyran qalırdı...** (Luka, 4:22)

Nəticə olaraq hamınız eyni düşüncədə birləşin. Başqalarının duyğularını paylaşın. Bir-birinizi qardaşca sevin. Şəfqətli, təvazökar olun. **Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, əksinə, müqəddəslik diləyərək cavab verin.** Çünki müqəddəs qılınmağı miras almaq üçün çağırıldınız. (1 Peter, 3:8-9)

**... Həyatdan zövq almaq və yaxşı günlər görmək istəyən, dilini pislikdən, dodaqlarını hiyləli sözlərdən uzaq tutsun.** Pislikdən çəkinsin və yaxşılıq etsin. Əmin-amanlığı axtarıb onun ardınca getsin. Çünki Rəbbin gözləri [inayəti] doğru kəslərin üzərindədir... Amma Rəbb pislik edənlərə qarşı durar. (1 Peter, 3:10-12)

Amma indi hirs, qəzəb, pis niyyət daxil, hamısını üzərinizdən sıyırıb atın. **Ağzınızdan heç bir böhtan ya da, nalayiq söz çıxmasın.** (Kolosselilərə, 3:8)

Özünü dindar sanıb da **dilini düzəltməyən adam özünü aldadar...** (Yaqub, 1:26)

Amma mən sizə deyirəm ki, qardaşına hirslənən hər kəs mühakimə olunacaq. **Kim qardaşına alçaldıcı bir söz söyləsə... mühakimə olunacaq [axirətdə qarşılığını alacaq]...** (Matta, 5:22)

[Axirətdə] öz sözlərinizlə təmizlənəcək, yenə **öz sözlərinizlə günahkar çıxarılacaqsınız**. (Matta, 12:37)

... Allah tərəfindən Müjdəni [Allahın vəhyini] əmanət götürməyə layiq görüldüyümüz üçün, **insanları deyil, ürəklərimizi sınayan Allahı məmnun edəcək şəkildə danışırıq.** (1 Saloniklilərə, 2:3-4)

Qardaşlar... **bir-birinizə qarşı deyinməyin.** (Yaqub, 4:9)

**... [Allah rizası üçün istifadə edilməyən] dil, öldürücü zəhərlə dolu, dayanmayan bir pislikdir. Dilimizlə Rəbbi... tərifləyərik. Yenə dilimizlə... yaradılmış olan insanları söyərik. Tərif və söyüş eyni ağızdan çıxar. Qardaşlarım, bu belə olmamalı. Bir mənbə eyni gözdən şirin və acı su axıdarmı?** Qardaşlarım, əncir ağacı, zeytun, ya da üzüm əncir verə bilərmi? Eyni şəkildə, duzlu su qaynağı şirin su verə bilməz. (Yaqub, 3:8-12)

Amma **anlamadıqları mövzularda söyən bu kəslər**, instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğan, ağıldan məhrum heyvanlar kimidir. Heyvanlar kimi onlar da məhvə uğrayacaqlar. (2 Peter, 2:12)

Amma **bu kəslər anlamadıqları hər şeyi söyürlər.** Digər tərəfdən, ağıldan məhrum heyvanlar kimi instinktləriylə anladıqları nə varsa, onları məhvə aparır. (Yəhuda, 1:10)

Baxın, gəmilər də o qədər böyük olduğu və güclü küləklər tərəfindən süründürüldüyü halda, sükançının könlü hara istəsə, kiçik bir sükanla o istiqamətə çevrilərlər. Bunun kimi, dil də bədənin kiçik bir üzvüdür, amma böyük işlərlə öyünər. Baxın, kiçik bir qığılcım nə qədər böyük bir meşəni alovlandıra bilər! **Dil də [Allah rizasına uyğun istifadə edilmədiyində] bir atəş, bədənimizin üzvləri arasında bir pislik dünyasıdır. Bütün varlığımızı kirlədər...** (Yaqub, 3:4-6)

**... Əgər bir kimsə sözləriylə heç səhv etməzsə, bütün bədənini də tərbiyələndirə bilən kamil bir adamdır.** Bizə boyun əymələri üçün atların ağızlarına yüyən vursaq, onların bütün bədənlərini də istiqamətləndirə bilərik. (Yaqub, 3:2-3)

Listra və Konyadakı **qardaşlar ondan təriflə danışırdılar.** (Həvarilərin İşləri, 16:2)

İmanlılar, **məktubdakı ürəkləndirici sözləri oxuyunca sevindilər.** (Həvarilərin İşləri, 15:31)

Bunun kimi, hər yaxşı ağac yaxşı meyvə verər, **pis ağac isə pis meyvə verər.** Yaxşı ağac pis meyvə, pis ağac da yaxşı meyvə verə bilməz. (Matta, 7:17-18)

**Acgözlüklərindən ötrü uydurma sözlərlə sizi istismar edəcəklər.** Onlar üçün çoxdan bəri verilmiş mühakimə gecikməz. Onları gözləyən məhv də mürgüləməz. (2 Peter, 2:3)

İsa, xalqı yanına çağırıb onlara, “Dinləyin və bunu əzbərləyin” dedi. “Ağızdan girən şey insanı kirlətməz. **İnsanı kirlədən ağızdan çıxandır... ağızdan çıxan, ürəkdən qaynaqlanar.** İnsanı kirlədən də budur. **Çünki pis düşüncələr,** cinayət, zina, fahişəlik, oğurluq, **yalan yerə şahidlik və böhtan həmişə [çirkli] ürəkdən qaynaqlanar. İnsanı kirlədən bunlardır...**” (Matta, 15:10-20)

**... Ağız ürəkdən daşanı söyləyər.** (Matta, 12:34)

## Mübahisə üslubundan çəkinmək

Gənclik arzularından qaç. Təmiz ürəklə Rəbbə yalvaranlarla birlikdə doğruluğun, imanın, sevginin və əmin-amanlığın ardınca qaç. **Axmaq, cahilcə mübahisələrə girməyi rədd et. Bunların dava yaratdığını bilirsən. Rəbbin qulu davakar olmamalı.** Əksinə, hər kəsə şəfqətlə davranmalı, öyrətmə qabiliyyəti olmalı, haqsızlıqlara səbirlə dözməlidir. Özünə qarşı olanları həlim xasiyyətlə yola gətirməli. Həqiqəti anlamaları üçün Allah, bəlkə, onlara bir tövbə yolu açar. (2 Timoteyə, 2:22-26)

**Ağılsız mübahisələrdən, soyla bağlı didişmələrindən, Müqəddəs Qanunla [Allahın əmrləriylə] əlaqədar çəkişmə və davalardan çəkin. Bunlar [çəkişmə və mübahisə] faydasız və boş şeylərdir.** Birinci və ikinci xəbərdarlıqdan sonra bölücü adamla əlaqəni kəs. Belə birinin azmış olduğundan və günah işlədiyindən əmin ola bilərsən... (Titə, 3:9-11)

**Özümüzü... çəkişməyə** və qısqanclığa **salmayaq**. Gün işığında olduğu kimi, hörmətli bir həyat sürək. (Romalılara, 13:13)

... İsa, "Çörəyiniz yox deyə **nə üçün mübahisə edirsiniz?" dedi**. **"Hələ düşünə bilmir, anlamırsınızmı?** Zehniniz korlandımı? Gözləriniz olduğu halda görmürsünüzmü? Qulaqlarınız olduğu halda eşitmirsinizmi? Xatırlamırsınızmı, beş çörəyi beş min adam arasında bölüşdürdüyümdə neçə səbət dolusu yemək yığdınız?" "On iki" dedilər. (Mark, 8:17-19; Matta, 16:8-11)

... İsa onlara, **"Yolda nəyi mübahisə edirdiniz?" deyə soruşdu. Heç birindən səs çıxmadı. Çünki yolda aralarında kimin ən böyük olduğunu mübahisə etmişdilər**. İsa oturub On ikiləri yanına çağırdı. Onlara belə dedi: "Birinci olmaq istəyən ən sonuncu olsun, hər kəsin xidmətçisi olsun." (Mark, 9:33-35)

... Bəzi kəslərin fərqli təlimlər yaymamasını, nağıllarla və sonu gəlməyən soylarıyla məşğul olmamasını nəsihət et. **Bu şeylər, imana əsaslanan Allahın məmnun olduğu nizama xidmət etməkdən çox, mübahisəyə gətirib çıxarar.** (1 Timoteyə, 1:3-4)

Əgər biri fərqli təlimlər yayar, doğru sözləri... İsa Məsihin sözlərini və Allah yoluna əsaslanan təlimi təsdiqləməzsə, özünü bəyənmiş, məlumatsız bir adamdır. **Belə biri mübahisə və söz güləşdirməyi xəstəlik dərəcəsində sevər. Bu şeylər** qısqanclığa, **çəkişməyə, böhtana, pis şübhələrə, düşüncələri korlanmış və gerçəyi itirmiş kəslərin dayanmadan toqquşmasına gətirib çıxarar.** Onlar Allah yolunu qazanc yolu sanırlar. (1 Timoteyə, 6:3-5)

Çünki hələ cismani təbiətə [nəfsə] uyursunuz. **Aranızda qısqanclıq və çəkişmə olması, cismani təbiətə [nəfsinizə] uymanızı, o biri insanlar kimi yaşadığınızı göstərmirmi?...** Əhəmiyyətli olan, əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır. (1 Korinflilərə, 3:3, 7)

**Hər şeyi deyinmədən və çəkişmədən edin ki,** həyat sözünə möhkəm sarılaraq aralarında kainatdakı ulduzlar kimi parladığınız bu yanlış və azğın nəslin ortasında qüsursuz və saf, Allahın ləkəsiz qulları olasınız... (Filipililərə, 2:14-16)

Buna görə, **kişilərin hirslənib çəkişmədən**, hər yerdə pak əllər yüksəldərək dua etmələrini istəyərəm. (1 Timoteyə, 2:8)

**Aranızdakı döyüşlərin, çəkişmələrin qaynağı nədir?** Bədəninizin üzvlərində döyüşən ehtiraslarınız deyilmi? (Yaqub, 4:1)

Bir şey arzu edir, əldə edə bilməyincə adam öldürürsünüz. Qısqanırsınız, **istəyinizə çata bilməyincə çəkişib döyüşürsünüz.** Əldə edə bilmirsiniz, çünki Allahdan diləmirsiniz. (Yaqub, 4:2)

## Boş söz söyləməkdən çəkinmək

Sizə bunu söyləyim, **insanlar söylədikləri hər boş söz üçün mühakimə günü hesab verəcəklər.** (Matta, 12:36)

**Bayağı, boş sözlərdən çəkin.** Çünki bunlara qapananlar Allahsızlıqda daha da irəli gedəcəklər. (2 Timoteyə, 2:16)

... Aranızda açıq-saçıqlıq, **axmaq danışıqlar, bayağı zarafatlar da olmasın. Bunlar sizə yaraşmaz.** Bunun yerinə şükür edin... **Heç kim sizi boş sözlərlə aldatmasın.** Bu şeylərdən ötrü Allahın qəzəbi söz dinləməyənlərin üzərinə gəlir. Onun üçün belələriylə oturub durmayın. (Efeslilərə, 5:3-7)

Çünki **boş və lovğa sözlər söyləyərək** səhv yolla gedənlərin arasından çətinliklə qaçanları **cismani ehtiraslarla və əxlaqsızlıqla yoldan azdırırlar.** (2 Peter, 2:18)

Ey Timote, sənə əmanət ediləni qoru. **Bayağı və boş sözlərdən, yalan yerə "məlumat" deyilən düşüncələrin ziddiyyətlərindən çəkin.** Bu sözdə bilgiyə sahib olma iddiasında olan bəziləri imandan azdılar. Allahın lütfü sizlərlə birlikdə olsun. (1 Timoteyə, 6:20-21)

Diqqətli olun! ... **İnsanların ənənəsinə, dünyanın təməl qanunlarına əsaslanan [dinsiz] fəlsəfəylə, boş və aldadıcı sözlərlə kimsə sizi məhbus etməsin.** (Kolosselilərə, 2:8)

## Doğru söz söyləmək

Yaxşı olanı edərək hər mövzuda onlara nümunə ol. **Öyrədərkən dürüst və ciddi ol, kimsənin qınaya bilməyəcəyi doğru sözlər söylə.** Belə ki, bizə qarşı gələn, haqqımızda söyləyəcək pis bir söz tapa bilməyib utansın. (Titə, 2:7-8)

Amma indi hirs, qəzəb, pis niyyət daxil, hamısını üzərinizdən sıyırıb atın. **Ağzınızdan heç bir böhtan ya da nalayiq söz çıxmasın.** (Kolosselilərə, 3:8)

**Məndən eşitdiyin doğru sözləri nümunə götürərək** imanla və [Allah rizası üçün] Məsih İsada olan sevgiylə bunlara bağlı qal. (2 Timoteyə, 1:13)

Əgər biri fərqli təlimlər yayar, **doğru sözləri... İsa Məsihin sözlərini və Allah yoluna əsaslanan təlimi təsdiqləməzsə, özünü bəyənmiş, məlumatsız bir adamdır.** (1 Timoteyə, 6:3-4)

O [Hz. İsa (ə.s)] günah işləmədi, **ağzından hiyləli söz çıxmadı.** (1 Peter, 2:22)

**Ağızlarından heç yalan çıxmamışdır...** (Vəhy, 14:5)

Çünki pis düşüncələr, cinayət, zina, fahişəlik, oğurluq, **yalan yerə şahidlik və böhtan həmişə [çirkin] ürəkdən qaynaqlanar. İnsanı kirlədən bunlardır...** (Matta, 15:19-20; Mark, 7:21-23)

Bu səbəblə hər pisliyi, hiyləni, ikiüzlülüyü, qısqanclığı və **bütün böhtanları üzərinizdən sıyırıb atın.** (1 Peter, 2:1)

## Allahın əmrlərini və haqq dini təbliğ etmək

Qardaşların çoxu da zəncirə vuruluşumdan ötrü Rəbbə güvənərək **Allahın sözünü qorxusuzca söyləməkdə** daha da cəsur davranırlar. (Filipililərə, 1:14)

**Getdiyiniz hər yerdə Allahın Hökmranlğının [axirət həyatının] yaxınlaşdığını yayın...** Qarşılıqsız aldınız, qarşılıqsız verin. (Matta, 10:7-8)

**Danışan, Allahın sözlərini [Allahdan gələn vəhyi] çatdıran kimi danışsın.** Başqalarına xidmət edən, Allahın verdiyi güclə xidmət etsin... (1 Peter, 4:11)

[Hz. İsa (ə.s):] "Ədalətli Allah, dünya Səni tanımır, amma mən Səni tanıyıram... **Sənin adını onlara bildirdim və bildirməyə davam edəcəyəm."** (Yəhya, 17:25-26)

Orada olan xəstələri yaxşılaşdırın və onlara, **"Allahın Hökmranlığı [axirət həyatı] sizə yaxınlaşdı" deyin.** (Luka, 10:9)

Eyni zamanda bizim üçün də dua edin ki, **Allah, sözünü yaymağımız və uğrunda həbs olunduğum Məsih sirrini [hz. İsa (ə.s)-a enən vəhyi] açıqlamağımız üçün bizə bir qapı açsın.** (Kolosselilərə, 4:3)

Yerusəlimdən başlayıb İllirikum bölgəsinə qədər **gəzərək Məsihin Müjdəsini [Allahın hz. İsa (ə.s)-a vəhyini] əskiksiz eşitdirdim.** (Romalılara, 15:18-19)

İndi qardaşlarım, yanına gəlib dillərlə danışsam, amma **sizə bir vəhy, bir məlumat, bir peyğəmbərlik sözü ya da bir təlim gətirməsəm, sizə nə faydam olar?** Qaval ya da lira kimi səs verən cansız obyektlər belə dəyişik səslər çıxarmasa, qavalmı, liramı çalındığını kim

anlayar? Şeypur diqqətə çarpan bir səs çıxarmasa, kim döyüşə hazırlanar? **Bunun kimi, siz də aydın olan bir dil danışmasanız, söylədikləriniz necə aydın olar?...** (1 Korinflilərə, 14:6-9)

**... Allahın sözünü eşitdir. Zaman uyğun olsun olmasın, bu vəzifəni davam etdir. İnsanları tam bir səbirlə öyrədərək razı sal, xəbərdar et, istəkləndir.** Çünki elə bir zaman gələcək ki, möhkəm təlimə dözə bilməyəcəklər. Qulaqlarını oxşayan sözlər dinləyə bilmək üçün ətraflarına, öz arzularına uyğun müəllimlər yığacaqlar. Qulaqlarını gerçəyin səsinə tıxayacaq, dönüb əfsanələrə dalacaqlar. **Amma sən hər vəziyyətdə** ayıq ol, çətinliyə sinə gər, **müjdəçi olaraq çalış, vəzifəni tamamla**. (2 Timoteyə, 4:1-5)

**Allahın sözünü [Allahdan gələn vəhyi] sizə çatdırmış** öndərlərinizi xatırlayın. Yaşayışlarının nəticəsinə baxaraq onların imanını nümunə götürün. (İbranilərə, 13:7)

Ağzınızdan heç pis söz çıxmasın. **Eşidənlər faydalansın deyə, ehtiyaca görə, başqalarının inkişafına yarayacaq olanı söyləyin.** (Efeslilərə, 4:29)

Elə isə nə deyək, qardaşlar? **Toplandığınızda hər birinizin bir ilahisi, öyrədəcək bir mövzusu...** bilmədiyi dildə söyləyəcək bir sözü ya da bir tərcüməsi vardır. **Hər şey birliyin inkişafı üçün olsun.** (1 Korinflilərə, 14:26)

**Yaşlı adamı danlama, belə birinə atanmış kimi öyüd ver. Gənc kişilərə qardaşlarınmış kimi, yaşlı qadınlara ananmış kimi, gənc qadınlara da tam bir ürək təmizliyiylə bacılarınmış kimi öyüd ver.** Həqiqətən, kimsəsiz olan dul qadınlara hörmət göstər. (1 Timoteyə, 5:1-3)

İmanda, **söz söyləməkdə [Allahın dinini təbliğdə],** bilikdə, hər növ səydə, bizə bəslədiyiniz sevgidə, hər şeydə üstün olduğunuz kimi, bu xeyirli işdə də üstün olmağa baxın. (2 Korinflilərə, 8:7)

## Dedi-qodudan çəkinmək

Çünki gəldiyimdə sizi istədiyim vəziyyətdə tapa bilməyəcəyimdən qorxuram. Sizlər də məni istədiyiniz vəziyyətdə tapmaya bilərsiniz. **Aranızda** çəkişmə, qısqanclıq, qəzəb, eqoist ehtiraslar, böhtan, **dedi-qodu**, lovğalanma, qarışıqlıq olmasından **qorxuram**. (2 Korinflilərə, 12:20)

# 15-Cİ BÖLÜM
# İNCİLDƏ QURANA UYĞUN İBADƏTLƏR

## Oruc tutmaq

“**Oruc tutduğunuz zaman**, ikiüzlülər kimi üzünüzü turşutmayın. Onlar oruc tutduqlarını insanlara bildirmək üçün özlərinə pərişan bir görünüş verərlər... **Siz oruc tutduğunuz zaman, başınıza yağ sürüb üzünüzü yuyun.** Belə ki, insanlara deyil, gizlidə olan Allaha oruclu görünəsiniz [yalnız gizlidə olanı bilən Allahın razılığını güdün]. Gizlilik içində ediləni görən Allah sizi mükafatlandıracaq.” (Matta, 6:16-18)

... [Xanna adındakı qadın] məsciddən ayrılmaz, **oruc tutub dua edərək** gecə-gündüz Allaha ibadət edərdi. (Luka, 2:36-37)

... İsa qırx gün qırx gecə **oruc tutduqdan sonra** acdı. (Matta, 4:1-2)

**Yəhya gəldiyi zaman oruc tutub** içkidən çəkindi... (Matta, 11:18; Luka, 7:33)

Farisey ayaq üstdə öz-özünə belə dua etdi: “Allahım o biri insanlara -soyğunçulara, haqq yeyənlərə, zina edənlərə- ya da bu vergi vəzifəlisinə bənzəmədiyim üçün Sənə şükür edirəm. Həftədə iki gün **oruc tutur**, bütün qazancımın onda birini verirəm.” (Luka, 18:11-12)

Bunlar Rəbbə ibadət edib **oruc tutarkən**... Beləcə **oruc tutub dua etdikdən sonra**, Barnabayla Şaulun üzərinə əllərini qoyub onları yola saldılar. (Həvarilərin İşləri, 13:2-3)

... **Dua və orucla** onları, inandıqları Rəbbə əmanət etdilər. (Həvarilərin İşləri, 14:23)

... **Oruc günü** belə keçmişdi. (Həvarilərin İşləri, 27:9)

## Zəkat-sədəqə ibadəti

**Mən də... [Allah rizası üçün] malımı da, özümü də sevə-sevə xərcləyəcəyəm ...** (2 Korinflilərə, 12:15)

... Siz stəkanın və qabın xaricini təmizləyərsiniz, amma içiniz acgözlük və pisliklə doludur. Ey ağılsızlar! Xarici və daxili düzəldən eyni deyilmi? **Siz qablarınızın içindəkini sədəqə olaraq verin, o zaman sizin üçün hər şey təmiz olar.** (Luka, 11:39-41)

Doğruluğunuzu insanların gözü qarşısında nümayiş məqsədiylə sərgiləməkdən çəkinin. Yoxsa... Allahdan mükafat ala bilməzsiniz. Bu səbəblə, **birinə sədəqə verərkən bunu şeypur çalıb elan etməyin.** İkiüzlülər, insanların tərifini qazanmaq üçün sinaqoqlarda və küçələrdə belə edərlər. Sizə doğrusunu söyləyim, onlar mükafatlarını almışlar. **Siz sədəqə verərkən, sol əliniz sağ əlinizin nə etdiyini bilməsin. Belə ki, verdiyiniz sədəqə gizli qalsın.** Gizlicə ediləni görən Allahınız sizi mükafatlandıracaq. (Matta, 6:1-4)

Getdiyiniz hər yerdə Allahın Hökmranlığının [cənnət vədinin] yaxınlaşdığını elan edin. Xəstələri yaxşılaşdırın... cüzamlıları təmiz qılın... **Qarşılıqsız aldınız, qarşılıqsız verin. Qurşağınıza qızıl, gümüş, ya da mis pul qoymayın.** (Matta, 10:7-9)

... Allahın böyük lütfü hamısının [iman edənlər] üzərində idi. Aralarında yoxsul olan yox idi. Çünki **torpaq ya da ev sahibi olanlar bunları satar, satdıqlarının əvəzini gətirib elçilərin buyruğuna verərdilər; bu da hər kəsə ehtiyacına görə paylanardı.** (Həvarilərin İşləri, 4:33-35)

Dünya xalqları həmişə bu şeylərin arxasınca qaçar. Halbuki Allahınız, bunlara ehtiyac duymanız olduğunu bilər. Siz Onun Hökmranlığının ardınca gedin [Allahın rizasını axtarın], o zaman sizə bunlar da veriləcək. Qorxma, ey kiçik sürü! Çünki Allahınız, hökmranlığı sizə verməyi uyğun hesab etdi. **Mallarınızı satın, sədəqə olaraq verin. Özünüzə köhnəlməyən kisələr, göylərdə [axirətdə] tükənməyən bir xəzinə qazanın.** Orada nə oğru ona yaxınlaşar, nə də güvə onu yeyər. Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq. (Luka, 12:30-34)

[Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: ... **Əbanızı alandan çuxanızı da əsirgəməyin. Sizdən bir şey diləyən hər kəsə verin, malınızı alandan onu geri istəməyin.** İnsanların sizə necə davranmasını istəyirsinizsə, siz də onlara elə davranın... Sizə yaxşılıq edənlərə yaxşılıq etsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar da belə edər. **Geri alacağınızı ümid etdiyiniz kəslərə borc versəniz, bu sizə nə tərif qazandırar?** Günahkarlar belə verdiklərini geri götürmək şərtiylə günahkarlara borc verərlər. Amma siz düşmənlərinizi sevin, yaxşılıq edin, **heç bir qarşılıq gözləmədən borc verin**. Alacağınız mükafat böyük olacaq..." (Luka, 6:27-35)

**Yer üzündə özünüzə xəzinələr yığmayın.** Burada güvə və pas onları yeyib bitirər, oğrular da girib oğurlayarlar. Bunun yerinə **özünüzə göydə [axirət üçün] xəzinələr yığın**. Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar. Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq. (Matta, 6:19-21)

Öyüd verən, öyüddə olsun. **Hədiyyə verən, bunu səxavətlə etsin.** İdarə edən, səylə idarə etsin. Mərhəmət edən, bunu gülər üzlə etsin. (Romalılara, 12:8)

Yəhya onlara, **"İki çuxası olan birini çuxası olmayana versin; yeməyi olan yeməyi olmayanla paylaşsın"** cavabını verdi. (Luka, 3:11)

**Ehtiyac içində olan müqəddəslərə [özünü Allaha həsr etmişlərə] kömək edin.** Qonaqpərvər olmağa baxın. (Romalılara, 12:13)

İsa özünü yeməyə çağırana da belə dedi: "Bir nahar ya da şam yeməyi verdiyin zaman dostlarını, qardaşlarını, qohumlarını və zəngin qonşularını çağırma. Yoxsa onlar da səni çağıraraq qarşılıq verərlər. **Amma ziyafət verdiyin zaman yoxsulları, iflicləri, şikəstləri, korları çağır.** Beləcə, xoşbəxt olarsan. Çünki bunlar sənə qarşılıq verəcək vəziyyətdə deyildirlər. **Qarşılığı sənə... [insanlar] dirildiyi zaman [axirətdə] veriləcək.** (Luka, 14:12-14)

Zakkay ayağa qalxıb... belə dedi: "... **Malımın yarısını yoxsullara verirəm. Bir kimsədən haqsızlıqla bir şey aldımsa, dörd qatını geri verəcəyəm."** İsa dedi ki, "Bu ev bu gün qurtuluşa qovuşdu. Çünki bu adam da İbrahimin oğludur." (Luka, 19:8-9)

İsa məscidin pul qutusu qarşısında oturub cəmiyyətin qutuya pul atmağını müşahidə etdi. Bir çox varlı adam bol pul atdı. Bu vaxt yoxsul bir dul qadın yaxınlaşıb bir dinar dəyərində iki mis qəpik atdı. İsa şagirdlərini yanına çağıraraq, "Doğrusu sizə deyirəm ki" dedi, **"Bu yoxsul dul qadın qutuya pul atanların hamısından daha çox pul atdı. Çünki o birilərin hamısı varlarının bolluğundan verdilər. Amma bu qadın yoxsulluğundan -nəyi varsa onu, bütün dolanış imkanını-verdi."** (Mark, 12:41-44; Luka, 21:1-4)

İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ona, “Yaxşı müəllimim, sonsuz həyata [cənnətə] qovuşmaq üçün nə etməliyəm?” deyə soruşdu. İsa, “... Onun [Allahın] buyruqlarını bilirsən: “Adam öldürməyəcəksən, zina etməyəcəksən, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, kimsənin haqqını yeməyəcəksən, anana-atana hörmət göstərəcəksən.'“ Adam, “Müəllimim, bunların hamısını gəncliyimdən bəri yerinə yetirirəm” dedi. **Ona sevgiylə baxan İsa, “Bir əskiyin var” dedi. “Get nəyin varsa sat, pulunu yoxsullara ver; beləcə, göydə [axirətdə] xəzinən olar. Sonra gəl, məni izlə.”** Bu sözlər üzərinə adamın kefi pozuldu, kədər içində oradan uzaqlaşdı. Çünki çox malı vardı. İsa ətrafına göz gəzdirdikdən sonra şagirdlərinə, “Varlı kəslərin [infaq etmədikləri müddətcə] Allah Hökmranlığına [cənnətə] girməsi nə çətin olacaq!” dedi. Şagirdlər onun sözlərindən təəccübləndilər... Bir-birlərinə, “Elə isə kim xilas ola bilər?” deyirdilər... Peter ona [hz. İsa (ə.s)-a], “Bax, biz hər şeyi buraxıb sənin ardınca gəldik” deməyə başladı. “Sizə doğrusunu söyləyim” dedi İsa, “[Allah rizası üçün] mənim və Müjdənin [Allahın əmrlərinin] uğrunda evini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb da indi, bu çağda çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, uşağa, torpağa və gələcək zamanda sonsuz həyata [cənnətə] qovuşmayan kimsə yoxdur. Nə var ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq.” (Mark, 10:17-31; Matta, 19:16-30; Luka, 18:18-30)

Xananya adında bir adam, arvadı Sapfiranın təsdiqiylə bir mülk satdı, pulun bir qismini özünə saxlayaraq gerisini gətirib elçilərin buyruğuna verdi. Arvadının da olanlardan xəbəri vardı. Peter ona, “Xananya, **necə oldu da şeytana uydun... yalan danışıb mülkün pulunun bir qismini özünə saxladın?”** dedi. “Mülk satılmadan əvvəl sənə aid deyildimi? Sən onu satdıqdan sonra da pulu dilədiyin kimi istifadə edə bilməzdinmi? Niyə ürəyində belə bir hiylə qurdun? Sən insanlara deyil, Allaha yalan danışmış oldun.” (Həvarilərin İşləri, 5:1-4)

Müqəddəslərə ediləcək pul köməyinə gəlincə: Qalatya kilsələrinə nə buyurdumsa, siz də elə edin. Həftənin ilk günü **hər kəs qazancına görə bir miqdar pul ayırıb yığsın**. Belə ki, yanına gəldiyimdə pul toplamaya gərək qalmasın. Oraya çatdığımda, **hədiyyələrinizi aparmaq üzrə** uyğun hesab etdiyiniz kəsləri tanıdıcı məktublarla Yerusəlimə göndərəcəyəm... (1 Korinflilərə, 16:1-4)

Onlar, səmimiliyinizi sübut edən bu xidmətdən ötrü, açıqca mənimsədiyiniz Məsih Müjdəsinə [Allahın hz. İsa (ə.s)-a vəhyinə] uyaraq özləriylə və **hər kəslə malınızı səxavətlə paylaşdığınız üçün Allahı ucaldırlar.** (2 Korinflilərə, 9:13)

**İmanlıların hamısı bir yerdə olur, hər şeyi ortaq şəkildə istifadə edirdilər. Mallarını mülklərini satır və bunun pulunu hər kəsə ehtiyacına görə paylayırdılar.** Hər gün məsciddə toplanmağa davam edən imanlılar, öz evlərində də çörək bölüb səmimi bir sevinc və sadəliklə yemək yeyir və Allahı tərifləyirdilər. Bütün xalqın məmnuniyyətini qazanmışdılar. Rəbb də hər gün yeni xilas olanları [hidayətə çatanları] birliyə qatırdı. (Həvarilərin İşləri, 2:44-47)

Farisey ayaq üstdə öz-özünə belə dua etdi: “Allahım, o biri insanlara -soyğunçulara, haqq yeyənlərə, zina edənlərə- ya da bu vergi vəzifəlisinə bənzəmədiyim üçün sənə şükür edərəm. Həftədə iki gün oruc tutur, **bütün qazancımın onda birini verirəm.”** (Luka, 18:11-12)

Bu Melkisedeq Salem padşahı və Allah-Taalanın kahini idi. Padşahları məğlub edib geri qayıdan İbrahimin pişvazına çıxdı və ona xeyir-dua verdi. **İbrahim də ona hər şeyin onda bir hissəsini verdi...** (İbranilərə, 7:1-2)

Siz də bilirsiniz, ey Filipililər, Müjdə [Allahın əmrləri] yailmağa başladığında, Makedoniyadan ayrılmağımdan sonra **sizdən başqa heç bir birlik qarşılıqlı yardımlaşma mövzusunda mənimlə əməkdaşlıq etmədi**. Mən Salonikdəykən də, **ehtiyacım olduğunda bir neçə dəfə mənə kömək etdiniz.** Hədiyyə gözləmirəm, amma mənəvi qazancın hesabınızda yığılmasını [axirətdəki əcrinizin qarşılığının çoxalmasını] istəyirəm. Mənim hər şeyim var, bolluq içindəyəm. Epafroditun əliylə **göndərdiyiniz hədiyyələri alınca bir əksiyim qalmadı.** Bunlar gözəl qoxulu təqdimatlar, Allahın məmnuniyyətini qazanan, Onu məmnun edən qurbanlardır. Allahım da hər ehtiyacınızı Öz zənginliyiylə... görkəmli bir şəkildə qarşılayacaq. Allaha sonsuzlara qədər ucalıq olsun! Amin. (Filipililərə, 4:15-20)

Dindar bir adam idi. Həm özü, həm də bütün ev xalqı Allahdan qorxardı. **Xalqa çox kömək edərdi,** Allaha daim dua edərdi. Bir gün saat üç radələrində, bir görüntüdə Allahın bir mələyinin ona gəldiyini açıqca gördü. Mələk ona, "Korneli" deyə səsləndi. Korneli qorxu içində gözlərini ona dikdi, "Nə var, əfəndim?" dedi. Mələk ona belə dedi: **"**Duaların və **sədəqələrin xatırlanmaq üzrə Allah Qatına çatdı."** (Həvarilərin İşləri, 10:2-4)

Amma indi müqəddəslərə [özünü Allaha həsr etmişlərə] bir xidmət üçün Yerusəlimə gedirəm. Çünki Makedoniya və Axayyada olanlar, Yerusəlimdəki müqəddəslər arasında **yoxsul olanlar üçün kömək toplamanı uyğun hesab etdilər**. Bəli, uyğun hesab etdilər. Gerçəkdə onlara kömək etməkdə borcluydular. Xalqlar, onların mənəvi bərəkətlərinə [mənəvi zənginliklərinə] ortaq olduqlarına görə, maddi bərəkətlərlə onlara xidmət etməyə borcluydular. Bu işi bitirib **edilən köməyi onlara çatdırdıqdan sonra** sizə uğrayacağam, sonra da İspaniyaya gedəcəyəm. Yanınıza gəldiyimdə, [Allahın diləməsiylə] Məsihin bərəkətinin bolluğu ilə gələcəyimi bilirəm. (Romalılara, 15:25-29)

Bunu unutmayın: Az əkən az biçər, çox əkən çox biçər. Hər kəs ürəyində niyyət etdiyi kimi versin; istəksizcə ya da məcbur edilmiş kimi deyil. Çünki **Allah sevinclə verəni sevər.** Hər zaman, hər cəhətdən, hər şeyə yetərincə sahib olaraq hər yaxşı işdə səxavətli ola bilməniz üçün, Allah hər neməti sizə bol-bol təmin edəcək gücdədir. (2 Korinflilərə, 9:6-8)

## İncildə namaz

Sonra İsa şagirdləriylə birlikdə Getsemani deyilən yerə gəldi. Şagirdlərinə, "Mən buraya gedib dua edəcəyəm, siz burada oturun" dedi... Bir az irəlilədi, **üzüstə yerə qapanıb dua etməyə başladı...** (Matta, 26:36-39)

İsa şagirdlərinə, "Mən dua edərkən siz burada oturun" dedi... Bir az irəlilədi, **üzüstə yerə qapanıb dua etməyə başladı...** (Mark, 14:32-35)

[İnananlar birliyi]... **üzüstə yerə qapanıb Allaha ibadət edəcək.** (1 Korinflilərə, 14:25)

... İyirmi dörd qoca **üzüstə yerə qapandı. Allaha ibadət edərək belə dedilər:** "Hər şeyə gücü çatan, var olan, var olmuş olan Rəbb Allah! Sənə şükür edirik..." (Vəhy, 11:16-17)

... **Üzüstə yerə qapanıb Allaha ibadət edərək belə deyirdilər:** "Amin! Tərif, ucalıq, müdriklik, minnətdarlıq, hörmət, güc, qüdrət, sonsuzlara qədər Allahımızın olsun! Amin!" (Vəhy, 7:11)

Öz düzgünlüklərinə güvənib başqalarına təpədən baxan bəzi kəslərə İsa bu bənzətməni izah etdi: "Biri Farisey, o birisi vergi vəzifəlisi iki adam **dua etmək üçün məscidə çıxdı. Farisey ayaqda öz-özünə belə dua etdi:** "Allahım, o biri insanlara -soyğunçulara, haqq

yeyənlərə, zina edənlərə- ya da bu vergi vəzifəlisinə bənzəmədiyim üçün Sənə şükür edirəm." (Luka, 18:9-11)

**Qalxıb dua etdiyiniz zaman**, birinə qarşı bir şikayətiniz varsa onu bağışlayın ki, Allah da sizin günahlarınızı bağışlasın. (Mark, 11:25-26)

İsa çölə çıxdı, hər zamanki kimi Zeytun Dağına getdi. Şagirdlər də onun ardınca getdilər. Oraya çatanda İsa onlara, "Dua edin ki, yoldan azmayasınız" dedi. Onlardan bir daş atımı qədər uzaqlaşdı və **diz çökərək belə dua etdi**: "Allahım, Sənin istəyinə uyğunsa, bu kasanı məndən uzaqlaşdır. Yenə də mənim deyil, Sənin istədiyin olsun." (Luka, 22:39-42)

Peter, hər kəsi çölə çıxartdı, **diz çöküb dua etdi**... (Həvarilərin İşləri, 9:40)

Paul bu sözləri söylədikdən sonra **diz çöküb onlarla birlikdə dua etdi.** (Həvarilərin İşləri, 20:36)

Günümüz dolunca şəhərdən ayrılıb yolumuza davam etdik. İmanlıların hamısı, yoldaşları və uşaqlarıyla birlikdə bizi şəhərin kənarına qədər keçirdilər. Dəniz sahilində **diz çöküb dua etdik**. (Həvarilərin İşləri, 21:5)

Bunun üçün... **Allahın hüzurunda diz çökərəm.** (Efeslilərə, 3:14-15)

Sonra **diz çökərək yüksək səslə belə dedi:** "Ya Rəbb, bu günahı onlara yükləmə!"... (Həvarilərin İşləri, 7:60)

Yazıldığı kimi: "Rəbb belə deyir: "Varlığım haqqı üçün **hər diz önümdə çökəcək,** hər dil Allah olduğumu açıqca söyləyəcək." (Romalılara, 14:11)

... Göydəki, yerdəki və yer altındakıların **hamısı diz çöksün**... (Filipililərə, 2:10)

## İncildə ibadət vaxtları

**Səhər çox erkəndən, ortalıq hələ ağarmadan İsa qalxdı, evdən çıxıb kimsəsiz bir yerə getdi, orada dua etməyə başladı.** (Mark, 1:35)

Xalqı göndərdikdən sonra **dua etmək üçün tək başına dağa çıxdı. Axşam olarkən** orada tək idi. (Matta, 14:23)

O günlərdə İsa, dua etmək üçün dağa çıxdı və **bütün gecəni Allaha dua edərək keçirdi.** (Luka, 6:12)

Bir gün Peterlə Yəhya, saat üçdə, **dua vaxtında** məsciddən çıxırdılar. (Həvarilərin İşləri, 3:1)

Ertəsi gün onlar yol alıb şəhərə yaxınlaşarlarkən, **saat on iki radələrində Peter dua etmək üçün dama çıxdı.** (Həvarilərin İşləri, 10:9)

Korneli, "Üç gün əvvəl bu radələrdə, **saat üçdə evimdə dua edirdim**" dedi. "Birdən-birə, parlaq geyimli bir adam önümə çıxdı. "Korneli" dedi, "Allah sənin duanı eşitdi [qəbul etdi], verdiyin sədəqələri andı [qəbul etdi]." (Həvarilərin İşləri, 10:30-31)

# 16-CI HİSSƏ
# HZ. İSA (Ə.S)-IN BƏŞƏRİ XÜSUSİYYƏTLƏRİ VƏ ALLAHIN QULU OLMASI

## Hz. İsa (ə.s) bir insandır

.... **O [Hz. İsa] İnsanoğludur.** Buna təəccüblənməyin. Məzarda olanların hamısının Onun [Allahın] səsini eşidəcəkləri saat gəlir. Və onlar məzarlarından çıxacaqlar. Yaxşılıq etmiş olanlar yaşamaq, pislik etmiş olanlar mühakimə olunmaq üçün diriləcəklər. (Yəhya, 5:27-29)

Ey İsraillilər, bu sözləri dinləyin: Bildiyiniz kimi Nazaretli İsa, Allahın, onun vasitəsilə aranızda göstərdiyi möcüzələr, xariqələr və əlamətlərlə **şəxsiyyəti sübut edilmiş bir insandır**. (Həvarilərin İşləri, 2:22)

## Hz. İsa (ə.s)-ın doğumu, soyu, yaxınları

**Məryəm bir oğul doğacaq.** Adını İsa qoyacaqsan... (Matta, 1:21)

Evə girib **uşağı anası Məryəmlə birlikdə** görüncə yerə qapanaraq Ona [Allaha] tapındılar... (Matta, 2:11)

Onlar oradaykən, **Məryəmin doğum vaxtı gəldi və ilk oğlunu doğurdu.** Onu qundağa bürüyüb bir yemliyə yatırtdı. Çünki mehmanxanada yer yox idi. (Luka, 2:6-7)

Daha sonra **İsanın anasıyla qardaşları** gəldi. Çöldə dayandılar, xəbər göndərib onu çağırdılar. (Mark, 3:31)

Öndən gedən və arxadan gələn izdihamlar belə qışqırırdılar: "**Davud oğluna** şükür hosanna (indi qurtar)! Rəbbin adıyla gələnə təriflər olsun, ən ucalarda hosanna!" İsa Qüdsə girdiyi zaman bütün şəhər, "Bu kimdir?" deyərək çalxalandı. İzdihamlar, "Bu, **Qalileyanın Nazaret şəhərindən İsa Peyğəmbər**" deyirdi. (Matta, 21:9-11)

**Məryəmin oğlu, Yaqub, Yuisf, Yəhuda və Şimonun qardaşı olan dülgər deyilmi bu? Bacıları burada, aramızda yaşamırmı?...** (Mark, 6:3)

İbrahim oğlu, **Davud oğlu İsa Məsihin soyuyla əlaqədar qeyd belədir...** (Matta, 1:1-2)

## Hz. İsa (ə.s)-ın uşaqlığı, elmi və fiziki cəhətdən inkişafı

Şimon onları müqəddəs hesab edib **uşağın anası Məryəmə** belə dedi: "**Bu uşaq**, İsraildə bir çox adamın düşməsinə ya da yüksəlməsinə yol açmaq... [və] bir əlamət olmaq üzrə təyin olunmuşdur." (Luka, 2:34)

**Uşaq [hz. İsa (ə.s)] böyüyür, güclənir** və elmdə yetkinləşirdi. Allahın lütfü onun üzərində idi. (Luka, 2:40)

**İsa elmdə və boyda inkişaf edir,** Allahın və insanların məmnuniyyətini qazanırdı. (Luka, 2:52)

Bayramdan sonra evə dönəkən **kiçik İsa Yerusəlimdə qaldı**.... Sonra onu qohumlar və dostlar arasında axtarmağa başladılar. Tapa bilməyincə onu axtara-axtara Yerusəlimə döndülər. Üç gün sonra onu məsciddə tapdılar. **Din müəllimləri arasında oturmuş, onları dinləyir, suallar soruşurdu. Onu dinləyən hər kəs, zəkasına və verdiyi cavablara heyran qalırdı.** (Luka, 2:43-47)

## Hz. İsa (ə.s)-ın acması və yemək yeməsi

Sevincdən hələ inana bilməyən, təəccüb içindəki şagirdlərinə, **"Sizdə yeməyə bir şey varmı?" deyə soruşdu. Ona bir parça qızarmış balıq verdilər. İsa onu alıb gözlərinin qarşısında yedi.** (Luka, 24:41-43)

Daha sonra **İsa, Levinin evində yemək yeyərkən...** (Mark, 2:15)

Axşam olunca **İsa on iki şagirdiylə yeməyə oturdu**. Yemək yeyərkən, "Sizə doğrusunu söyləyim, sizdən biri mənə xəyanət edəcək" dedi. (Matta, 26:20-21)

İsa... **sonra acdı.** (Matta, 4:2)

... İordan çayından dönən İsa... **o günlərdə heç bir şey yemədi. Bu səbəbdən bu müddətin sonunda acdı.** (Luka, 4:1-2)

... İsa, səfərdən yorulduğu üçün quyunun yanında oturmuşdu. Saat on iki radələri idi. Samariyalı bir qadın su çəkməyə gəldi. **İsa ona, "Mənə su ver, içim" dedi.** (Yəhya, 4:6-7)

O da, "Mənə xəyanət edəcək olan" dedi, **"əlindəki çörəyi mənimlə birlikdə boşqaba batırandır." (**Matta, 26:23)

Sonra **İsa, Levinin evində yemək yeyərkən**, bir çox vergi vəzifəlisiylə günahkar onunla və şagirdləriylə birlikdə süfrəyə oturmuşdu. Onu izləyən belə bir çox adam vardı. (Mark, 2:15)

Fariseylərdən biri **İsanı yeməyə çağırdı. O da Fariseyin evinə gedib süfrəyə oturdu.** (Luka, 7:36)

**İsa Bet-Anyada cüzamlı Şimonun evində süfrədə oturarkən** yanına bir qadın gəldi... (Mark, 14:3)

**Süfrəyə oturmuş yemək yeyərlərkən İsa,** "Sizə doğrusunu söyləyim" dedi, "Sizdən biri, mənimlə yemək yeyən biri mənə xəyanət edəcək." (Mark, 14:18)

İsa onlara, “On ikilərdən biridir, **çörəyini mənimlə birlikdə boşqaba batırandır”** dedi. (Mark, 14:20)

Sonra Levi, **evində İsanın qürununa böyük bir mərasim** verdi. Vergi vəzifəliləriylə başqa kəslərdən ibarət olan böyük bir izdiham onlarla birlikdə yeməyə oturmuşdu. (Luka, 5:29)

Mayasız Çörək bayramının ilk günü şagirdlər İsanın yanına gələrək, **“Pasxa yeməyini yemək üçün harada hazırlıq etməyimizi istəyirsən?”** deyə soruşdular. (Matta, 26:17)

İsa bundan sonra evə getdi. Yenə elə böyük bir izdiham toplandı ki, **İsayla şagirdləri yemək yeyə bilmədilər.** (Mark, 3:20)

İsa onlara, “Gəlin, tək başımıza tənha bir yerə gedək və bir az istirahət edin” dedi. Gələn gedən elə çox idi ki, **yemək yeməyə belə vaxt tapa bilmirdilər.** (Mark, 6:31)

## Hz. İsa (ə.s)-ın yorulub istirahət etməsi, yatması

... **İsa, səfərdən yorulduğu üçün** quyunun yanında oturmuşdu... (Yəhya, 4:6)

**İsa**, qayığın uc tərəfində **bir yastığa söykənmiş yatırdı...** (Mark, 4:38)

### Hz. İsa (ə.s)-ın digər insani xüsusiyyətlərinə bir nümunə

**İsa, izdihamın arasında sıxışıb qalmamaq üçün** şagirdlərinə bir qayıq hazır etmələrini söylədi. (Mark, 3:9)

## Hz. İsa (ə.s) Allahın quludur

Allah, sizləri pis yollarınızdan çevirib müqəddəs hesab etmək üçün **qulunu [hz. İsa (ə.s)-ı] ortaya çıxarıb əvvəl sizə göndərdi.** (Həvarilərin İşləri, 3:26)

İsa ona belə cavab verdi: “... Allahın Rəbbə tapacaq, **yalnız Ona qulluq edəcəksən”** deyə yazılmışdır.” (Matta, 4:10)

İsa belə cavab verdi: “Ən əhəmiyyətlisi budur: “Dinlə, ey İsrail! **Allahımız Rəbb tək Rəbdir.** Allahın Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sevəcəksən.” (Mark, 12:29-30)

Din alimi İsaya, “Yaxşı söylədin, müəllimim” dedi. **“'Allah təkdir və Ondan başqası yoxdur” deməklə doğrunu söylədin...** İsa onun ağıllı cavab verdiyini görüncə, “Sən Allahın Hökmranlığından uzaq deyilsən” dedi... (Mark, 12:32-34)

İsa ona bu qarşılığı verdi: “Allahın Rəbbə tapacaq, yalnız Ona qulluq edəcəksən” deyə yazılmışdır.” (Luka, 4:8)

## Hz. İsa (ə.s) Allahın göndərdiyi peyğəmbərdir

[Hz. İsa (ə.s):] **"Mən özlüyümdən heç bir şey edə bilmərəm.** Eşitdiyim kimi mühakimə edirəm və mənim mühakiməm ədalətlidir. Çünki məqsədim öz istədiyimi deyil, **məni Göndərənin [Allahın] istədiyini etməkdir."** (Yəhya, 5:30)

Məni **Göndərən [Allah]...** mənim üçün şahiddir. (Yəhya, 5:37)

... Məni **Sənin göndərdiyinə** iman etdilər. (Yəhya, 17:8)

[Hz. İsa (ə.s):] "... Mən özümdən gəlmədim. Amma **məni Göndərən gerçəkdir.** Nə var ki, Onu [Allahı] tanımırsınız. Halbuki mən Onu [Allahı] tanıyıram. Çünki Ondanam və **məni O göndərdi."** (Yəhya, 7:28-29)

İsa, "Allah tərəfindən təsdiqlənən iş, **Onun [Allahın] göndərdiyi adama iman etmənizdir"** deyə cavab verdi. (Yəhya, 6:29)

**Allahın göndərdiyi adam** Allahın sözlərini danışar... (Yəhya, 3:34)

Xalq, İsanın göstərdiyi möcüzəni görüncə, "Həqiqətən, **dünyaya gələcək Peyğəmbər budur"** dedi. (Yəhya, 6:14)

... İzdihamlar, **"Bu, Qalileyanın Nazaret şəhərindən İsa Peyğəmbər"** deyirdi. (Matta, 21:11)

... "O adam, Allahın və bütün xalqın qarşısında **istər söz, istər hərəkətdə güclü bir Peyğəmbər idi."** (Luka, 24:19)

İsa, "Başqa yerə gedək" dedi, "Yaxın qəsəbələrə. **Oralarda da sözü yaymalıyam. Çünki bunun üçün gəldim." (**Mark, 1:38)

... Onu [Hz. İsa (ə.s)-ı] rədd etdilər. Amma İsa onlara belə dedi: **"Bir Peyğəmbər, öz məmləkətindən və evindən başqa yerdə xor görülməz."** (Matta, 13:57)

Onu həbs etmək istədilərsə də, xalqın reaksiyasından qorxdular. Çünki **xalq, onu [hz. İsa (ə.s)-ı] Peyğəmbər sayırdı.** (Matta, 21:46)

İsa da onlara, **"Bir Peyğəmbər, öz məmləkətindən, qohum ətrafından və öz evindən başqa yerdə xor görülməz"** dedi. (Mark, 6:4)

... Çünki **məni Göndərəni [Allahı] tanımırlar.** [Allahı tənzih edirik.] (Yəhya, 15:21)

Allah, sizləri pis yollarınızdan çevirib müqəddəs hesab etmək üçün **qulunu [hz. İsa (ə.s)-ı] ortaya çıxarıb əvvəl sizə göndərdi.** (Həvarilərin İşləri, 3:26)

... İsa, "Mənim, sizin bilmədiyiniz bir yeməyim var" dedi. Şagirdlər bir-birlərinə, "Görəsən biri ona yeməkmi gətirdi?" deyə soruşdular. **İsa, "Mənim yeməyim, məni Göndərənin [Allahın] istəyini yerinə yetirmək** və Onun işini tamamlamaqdır" dedi. (Yəhya, 4:31-34)

Hər kəsi bir qorxu bürümüşdü. **"Aramızda böyük bir peyğəmbər ortaya çıxdı!"...** deyərək Allahı ucaltmağa başladılar. İsayla əlaqədar bu xəbər bütün Yəhudeyaya və ətraf bölgələrə yaildı. (Luka, 7:16-17)

## Hz. İsa (ə.s)-ın Allahın verdiyi buyruqları yerinə yetirməsi

**... Allahın mənə verdiyi buyruğa uyğun olaraq** iş görürəm... (Yəhya, 14:31)

... Sizə əhəmiyyətlə söyləyirəm ki, **elçi özbaşına heç bir şey edə bilməz...** (Yəhya, 5:19)

... Mən hər zaman **Onun [Allahın] bəyəndiyi işləri edirəm.** (Yəhya, 8:29)

[Hz. İsa (ə.s):] **"Mən özlüyümdən heç bir şey edə bilmərəm...** Məqsədim öz istədiyimi deyil, məni Göndərənin [Allahın] istədiyini etməkdir." (Yəhya, 5:30)

[Hz. İsa (ə.s):] "... öz istəyimi deyil, **məni Göndərənin [Allahın] istəyini yerinə yetirmək üçün gəldim."** (Yəhya, 6:38)

## Hz. İsa (ə.s)-ı danışdıran Allahdır

... Sizə söylədiyim sözləri **özlüyümdən söyləmirəm...** (Yəhya, 14:10)

... Mənim **öyrətməyim özümdən deyil, məni Göndərəndən [Allahdan] ilhamlanır.** (Yəhya, 7:16)

Çünki **mən özümdən danışmadım. Nə deyəcəyimi, nə danışacağımı məni göndərən Allah buyurdu.** Onun buyruğunun isə sonsuz həyat olduğunu bilirəm. Bunun üçün danışdığım hər sözü Allahın mənə bildirdiyi kimi söyləyirəm. (Yəhya, 12:49-50)

Məni sevməyən, sözlərimi tutmaz. **Eşitdiyiniz söz mənim deyil, məni göndərən Allahındır.** (Yəhya, 14:24)

... Amma məni Göndərən **[Allah]** gerçəkdir və mən **Ondan [Allahdan] eşitdiklərimi dünyaya bildirirəm.** (Yəhya, 8:26)

**Allahın göndərdiyi adam Allahın sözlərini danışar...** (Yəhya, 3:34)

## Hz. İsa (ə.s)-a hər şeyi verən Allahdır

**... İsa, Rəbbin gücü sayəsində xəstələri yaxşılaşdırırdı.** (Luka, 5:17)

**Hər şey mənə Rəbbim tərəfindən verildi...** (Matta, 11:27)

İsa **Allahın hər şeyi öz əllərinə verdiyini** və Allahdan gəlmiş olub yenə Allaha getdiyini bilirdi. (Yəhya, 13:3)

**Onları mənə verən Rəbbim** hər varlıqdan üstündür... (Yəhya, 10:29)

Özünə **Rəbbimdən imkan verilmədikcə, kimsə mənə gələ bilməz...** (Yəhya, 6:65)

...Təəccübləndilər. "Bu adam heç təhsil görmədiyi halda, necə bu qədər məlumatlı ola bilər?" dedilər. İsa onlara, **"Mənim təhsilim mənim deyil, məni Göndərənindir [Allahındır]"** deyə cavab verdi. "Əgər bir kimsə Allahın istəyini yerinə yetirmək istəyirsə, bu təlimin Allahdanmı olduğunu, yoxsa özlüyümdənmi danışdığımı biləcək. Özündən danışan özünü ucaltmaq istəyər, **amma özünü Göndərəni [Allahı] ucaltmaq istəyən doğrudur..."** (Yəhya, 7:15-18)

## Hz. İsa (ə.s)-ın Allaha ibadət və dua etməsi

Bir az **irəliyə gedərək üzüstə yerə qapandı, duaya üz tutdu...** (Matta, 26:39)

Xalqı yolladıqdan sonra **dua etmək üçün tək başına dağa çıxdı...** (Matta, 14:23)

Səhər çox erkəndən, dan yeri hələ ağarmadan İsa qalxdı, evdən çıxıb kimsəsiz bir yerə getdi, **orada dua etməyə başladı.** (Mark, 1:35)

Onları yola saldıqdan sonra, **dua etmək üçün dağa çıxdı.** (Mark, 6:46)

İsa şagirdlərinə, **"Mən dua edərkən siz burada oturun"** dedi. (Mark, 14:32)

O günlərdə **İsa, dua etmək üçün dağa çıxdı və bütün gecəni Allaha dua edərək keçirdi.** (Luka, 6:12)

Bir gün **İsa tək başına dua edirdi,** şagirdləri də yanında idi... (Luka, 9:18)

**İsa bir yerdə dua edirdi...** (Luka, 11:1)

... Mən, imanını itirməyəsən deyə **sənin üçün [Allaha] dua etdim...** (Luka, 22:32)

Sonra İsa şagirdləriylə birlikdə Getsemani deyilən yerə gəldi. Şagirdlərinə**, "Mən buraya gedib dua edəcəyəm,** siz burada oturun" dedi. (Matta, 26:36)

**Məsih,** yer üzündə olduğu günlərdə özünü ölümdən qurtaracaq gücdə olan **Allaha** böyük fəryad və gözyaşlarıyla **dua etdi, yalvardı** və Allah qorxusu səbəbiylə eşidildi. (İbranilərə, 5:7)

İsa, "Onları bura, mənə gətirin" dedi. Xalqa otluğun üstündə oturmalarını buyurduqdan sonra, beş çöräklə iki balığı götürdü... **şükür etdi;** sonra çörəkləri bölüb şagirdlərinə verdi, onlar da xalqa payladılar. (Matta, 14:18-19)

Onlarla süfrədə oturarkən İsa çörək götürdü, **şükür etdi** və çörəyi bölüb onlara verdi. (Luka, 24:30)

## Hz. İsa (ə.s)-ın imtahan olması

[Hz. İsa (ə.s):] **"Sınandığım zamanlar mənimlə birlikdə səbir etmiş olanlar sizlərsiniz."** (Luka, 22:28)

Sonra şeytan İsanı yüksəklərə çıxararaq bir anda ona dünyanın bütün ölkələrini göstərdi. Ona, "Bütün bunların rəhbərliyini və zənginliyini sənə verəcəyəm" dedi. "Bunlar mənə təslim edildi, mən də dilədiyim adama verərəm. **Mənə tapınsan, hamısı sənin olacaq." İsa ona bu qarşılığı verdi: ""Allahın Rəbbə tapacaq, yalnız Ona qulluq edəcəksən" deyə yazılmışdır."** (Luka, 4:5-8)

Bundan sonra **İsa, şeytan tərəfindən sınanmaq üzrə...** səhraya aparıldı. (Matta, 4:1)

... İordan Çayından dönən İsa... **qırx gün şeytan tərəfindən sınandı.** (Luka, 4 :1)

**İsa** səhrada qaldığı qırx gün boyunca **şeytan tərəfindən sınandı...** (Mark, 1:13)

**Şeytan, İsanı hər baxımdan sınadıqdan sonra...** (Luka, 4:13)

# 17-Cİ HİSSƏ
# İNCİLDƏ İMTAHANIN SİRRİ VƏ İMAN EDƏNLƏRİN QARŞILAŞDIQLARI İMTAHANLAR

## İman edənlərin Allah yolunda canlarıyla və mallarıyla mübarizə aparmaları

"Sizə doğrusunu söyləyim" dedi İsa, **"[Allah rizası üçün] mənim və Müjdənin [Allahın əmrlərinin] uğrunda evini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb indi, bu çağda çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, uşağa, torpağa və gələcək çağda sonsuz həyata qovuşmayacaq kimsə yoxdur.** Nə var ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq." (Mark, 10:29-31)

Canını qurtarmaq istəyən onu itirəcək, **canını [Allah rizası üçün] mənim uğruma itirən isə onu qurtaracaq. İnsan bütün dünyanı qazanıb da canından olsa, bunun özünə nə faydası olar?** İnsan öz canına qarşılıq nə verə bilər? (Matta, 16:25-26)

[Hz. İsa (ə.s):] **"[Allah rizası üçün] mənim adım uğrunda evlərini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxan hər kəs, bunların yüz qatını əldə edəcək və sonsuz həyatı miras alacaq.** Nə var ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq." (Matta, 19:29-30)

[Hz. İsa (ə.s)] Şagirdləriylə birlikdə xalqı da yanına çağırıb belə danışdı: "**Ardımca gəlmək istəyən** özünü inkar etsin [dünyadan keçsin]... **Canını qurtarmaq istəyən onu itirəcək, canını [Allah rizası üçün] mənim və Müjdənin [Allahın əmrlərinin] uğrunda itirən isə onu qurtaracaq.** İnsan bütün dünyanı qazanıb da canından olsa, bunun özünə nə faydası olar? İnsan öz canına qarşılıq nə verə bilər? (Mark, 8:34-37; Luka, 9:23-25)

Aralarında yoxsul olan yox idi. Çünki **torpaq ya da ev sahibi olanlar bunları satar, satdıqlarının əvəzini gətirib elçilərin buyruğuna verərdilər;** bu da hər kəsə ehtiyacına görə paylanardı. (Həvarilərin İşləri, 4:34-35)

[Hz. İsa (ə.s):] "Canını qurtaran onu itirəcək. **Canını [Allah rizası üçün] mənim uğrumda itirən isə onu qurtaracaq."** (Matta, 10:39; Luka, 17:33)

Bu səbəblə, **Rəbbin uğrunda məhbus olan mən**, aldığınız çağırışa yaraşar şəkildə yaşamanızı xahiş edirəm. (Efeslilərə, 4:1)

Canını sevən onu itirər. Amma **bu dünyada canını gözdən çıxaran onu sonsuz həyat [sonsuz cənnət həyatı] üçün qoruyacaq.** (Yəhya, 12:25)

**Canıma heç əhəmiyyət vermirəm, ona dəyər vermirəm.** Yetər ki, yarışı bitirim və... aldığım vəzifəni, Allahın lütfünü bildirən Müjdəyə [Allahın vəhyinə] şahidlik etmə vəzifəsini tamamlayım. (Həvarilərin İşləri, 20:24)

Bu, on iki oymağımızın **gecə-gündüz Allaha canla-başla qulluq edərək çatmağı ümid etdikləri vəddir...** (Həvarilərin İşləri, 26:7)

... Onun kimi kəsləri şərəfləndirin. **Çünki sizin mənə edə bilmədiyiniz köməyi etmək üçün canını təhlükəyə ataraq Məsihin işi uğrunda [Allah rizası üçün Məsihin sözlərini yayarkən] az qala ölürdü.** (Filipililərə, 2:29-30)

Bunun üçün, **Allahın istəyinə uyğun olaraq acı çəkənlər, yaxşılıq edərək canlarını etibarlı Yaradana əmanət etsinlər.** (1 Peter, 4:19)

... **Sizinlə yalnız Allahın Müjdəsini [Allah vəhyini] deyil, [Allah rizası üçün] öz canlarımızı da paylaşmağa razıydıq...** (1 Saloniklilərə, 2:8)

## İnkarçıların, iman edənləri haqsız səbəblərlə həbsə atıb işgəncə vermələri

[Hz. İsa (ə.s):] "Amma siz özünüzə diqqət yetirin! **İnsanlar sizi məhkəmələrə verəcək... [və] döyəcəklər. Məndən ötrü [Allah rizası üçün mənə uyduğunuzdan ötrü] valilərin, kralların önünə çıxarılacaq,** beləcə onlara şahidlik edəcəksiniz. Nə var ki, əvvəl Müjdə [Allahın əmrləri] bütün xalqlara eşitdirilməlidir. **Sizi həbs edib məhkəməyə verdiklərində,** "Nə söyləyəcəyik?" deyə əvvəldən narahat olmayın. O anda sizə nə vəhy olunsa onu söyləyin. Çünki danışan siz deyil, Allah olacaq. Qardaş qardaşı, ata uşağını ölümə təslim edəcək. Uşaqlar ana-atalarına baş qaldırıb onları öldürəcək. **Mənim adımdan ötrü [Allah rizası üçün mənə uyduğunuzdan ötrü] hər kəs sizə nifrət edəcək.** Amma sonuna qədər dözüm göstərən xilas olacaq." (Mark, 13:9-13)

[Hz. İsa (ə.s):] "... Döyüş və üsyan xəbərləri eşidincə təlaşlanmayın. Əvvəl bunların olması lazımdır, amma son dərhal gəlməyəcək." Sonra onlara belə dedi: "Xalq xalqa, dövlət dövlətə müharibə elan edəcək. Şiddətli zəlzələlər, bəzi yerlərdə qıtlıqlar və yolxucu xəstəliklər, qorxunc hadisələr və göydə fövqəladə işarələr olacaq. **Amma bütün bu hadisələrdən əvvəl sizi tutub zülm edəcəklər. Sizi... zindanlara atacaqlar. Mənim adımdan ötrü kralların, valilərin önünə çıxarılacaqsınız... Ana atanız, qardaşlarınız, qohum və dostlarınız belə sizi ələ verəcək və bəzilərinizi öldürəcəklər. Mənim adımdan ötrü [Allah rizası üçün mənə uyduğunuzdan ötrü] hər kəs sizə nifrət edəcək.** Nə var ki, başınızdakı saçlardan bir tel belə yox olmayacaq. Dözümlülük göstərməklə canlarınızı qazanacaqsınız." (Luka, 21:5-19)

... Xalqa səslənən Peterlə Yəhyanın üzərinə getdilər. Çünki onların xalqa [Allahın vəhyini] öyrətmələrinə... **çox əsəbiləşmişdilər. Onları tutdular, axşam olduğu üçün sabahısı günə qədər həbsdə tutdular.** Nə var ki, söhbəti dinləmiş olanların bir çoxu iman etdi. Beləcə, imanlı kişilərin sayı beş minə çatdı. (Həvarilərin İşləri, 4:1-4)

... O gün Yerusəlimdəki kilsəyə qarşı **dəhşətli bir təzyiq dövrü başladı... Şaul isə iman edənlər birliyini qırıb keçirməyə başladı. Ev-ev gəzərək, qadın kişi demədən iman edənləri çölə sürüyür, həbsə atırdı.** Bunun nəticəsində dağılan imanlılar, getdikləri hər yerdə Allah sözünü müjdələyirdilər. (Həvarilərin İşləri, 8:1-4)

Xalq da Paulla Silaya edilən hücuma qatıldı. Hakimlər onların geyimlərini soyundurub dəyənəklə döyülmələri üçün əmr verdi. **Onları yaxşıca döydürdükdən sonra həbsə atdılar.** Zindanın baş mühafizəçisinə, onları möhkəm nəzarət altında saxlamasını buyurdular. **Bu buyruğu alan zindanın baş mühafizəçisi onları həbsxananın xüsusi otağına ataraq ayaqlarını kilidə vurdu.** Gecə yarısına doğru Paulla Sila dua edir, Allahı ilahilərlə ucaldırdılar.

O biri məhbuslar da onları dinləyirdi. Birdən-birə elə şiddətli bir zəlzələ oldu ki, həbsxana yerindən sarsıldı. Bir anda bütün qapılar açıldı, hər kəsin zəncirləri qırıldı. (Həvarilərin İşləri, 16:22-26)

O günlərdə İsayla əlaqədar xəbərləri eşidən bölgə kralı Hirod, adamlarına, "Bu, vəftizçi Yəhyadır" dedi... Hirod... **Yəhyanı həbs etdirmiş, zindana atdırmışdı... Hirod Yəhyanı öldürmək istəmiş, amma xalqdan qorxmuşdu.** Çünki xalq Yəhyanı peyğəmbər sayırdı. (Matta, 14:1-5)

... Bu Müjdə [Allahın əmrləri] uğrunda **bir günahkar kimi zəncirə vurulmağa qədər olan çətinliklərə səbir edirəm...** (2 Timoteyə, 2:9)

Tərsinə **Allahın xidmətçiləri olaraq fövqəladə dözümdə, çətinlik və əzablarda, dayaq, həbs, qarışıqlıq, əmək, yuxusuzluq və aclıqda;** pak yaşayışda, bilik, səbir, yaxşılıq... və səmimi sevgidə; həqiqətin elanında və Allahın gücündə... özümüzü hər vəziyyətdə nümunə göstəririk. **Aldadanlar sailırıqsa da** dürüst kəslərik. (2 Korinflilərə, 6:4-8)

... [Peyğəmbərlər] iman sayəsində ölkələr ələ keçirdilər, ədaləti təmin etdilər, vəd edilənlərə qovuşdular, aslanların ağzını bağladılar. Qızğın atəşi söndürdülər, qılıncın ağzından qaçıb xilas oldular. Gücsüzlükdə qüvvət tapdılar, döyüşdə gücləndilər, xarici orduları məhvə uğratdılar... Başqalarısa yollanılmağı rədd edərək dirilib **[axirətdə] daha yaxşı bir həyata qovuşma ümidiylə işgəncələrə səbir etdilər. Digərləri istehza ilə qamçılandı, hətta zəncirə vurulub həbs edildi. Daşlandılar, mişarla biçildilər, qılıncdan keçirilib öldürüldülər.** Qoyun, keçi dərisi içində gəzdilər, **yoxsulluq çəkdilər, çətinliklərə uğradılar, təzyiq gördülər.** Dünya onlara layiq deyildi. Çöllərdə, dağlarda, mağaralarda, yeraltı oyuqlarında dolanıb dayandılar. (İbranilərə, 11:33-38)

... Qardaş sevgisi davamlı olsun. Qonaqpərvər olmaqdan geri qalmayın. Çünki bunun sayəsində bəziləri bilmədən mələkləri qonaq etdilər. **Həbsdə olanları, onlarla birlikdə həbs edilmiş kimi xatırlayın.** Sizin də bir bədəniniz olduğunu düşünərək **təzyiq görənləri xatırlayın**. (İbranilərə, 13:1-3)

... **[Onların] böhtanlarını bilirəm. Çəkdiyin çətinliklərdən qorxma!** Bax, sınanasınız deyə şeytan **içinizdən bəzilərini yaxında zindana atacaq.** On gün çətinlik çəkəcəksiniz. Ölüm bahasına da olsa sadiq qal, sənə həyat tacını [cənnət həyatını] verəcəyəm. (Vəhy, 2:9-10)

## İnkarçıların, iman edənləri sürgün etmək ya da öldürmək istəmələri

... [İman edənlər] Rəbbin sözünü ucaltdılar. Sonsuz həyat [cənnət] üçün təyin olunanların hamısı iman etdi. Beləcə, Rəbbin sözü bütün bölgədə yaildı. Nə var ki... [inkar edənlər xalqı] incitdilər, Paulla Barnabaya qarşı **bir təzyiq başladıb onları bölgə sərhədlərindən kənara atdılar.** (Həvarilərin İşləri, 13:48-50)

[Hz. İsa (ə.s):] **"O zaman sizi çətinliyə salacaq, öldürəcəklər.** Mənim adımdan [Allah rizası üçün mənə uyduğunuzdan] ötrü **bütün xalqlar sizə nifrət edəcəklər.**" (Matta, 24:9-10)

[Hz. İsa (ə.s):] "Amma bütün bu hadisələrdən əvvəl sizi tutub zülm edəcəklər. Sizi... zindanlara atacaqlar. Mənim adımdan ötrü [Allah rizası üçün mənə uyduğunuzdan ötrü] kralların, valilərin önünə çıxarılacaqsınız... Ana atanız, qardaşlarınız, qohum və dostlarınız belə sizi ələ verəcək və **bəzilərinizi öldürdəcəklər.**" (Luka, 21:12-16)

[Hz. İsa (ə.s):] "Bunları sizə, səndələyib düşməyəsiniz deyə söylədim... **Bəli, elə bir saat gəlir ki, sizi öldürən hər kəs Allaha xidmət etdiyini sanacaq.** Bunları, Allahı və məni tanımadıqları üçün edəcəklər. Bunları sizə indidən bildirirəm. Belə ki, saatı gəlincə bunları sizə söylədiyimi xatırlayasınız..." (Yəhya, 16:1-4)

... [Peyğəmbərlər, axirətdə] daha yaxşı bir həyata qovuşma ümidiylə işgəncələrə səbir etdilər. Daha başqaları lağ edilib qamçılandı, hətta zəncirə vurulub həbs edildi. **Daşlandılar, mişarla biçildilər, qılıncdan keçirilib öldürüldülər**. Qoyun dərisi, keçi dərisi içində gəzdilər, yoxsulluq çəkdilər, çətinliklərə uğradılar, təzyiq gördülər. Dünya onlara layiq deyildi. Çöllərdə, dağlarda, mağaralarda, yeraltı oyuqlarında gəzib dolandılar. (İbranilərə, 11:35-38)

## İman edənlərə atılan böhtanlar və onlara edilən təzyiqlər

[Hz. İsa (ə.s):] "Nə xoşbəxt düzgünlük uğrunda zülm görənlərə!... [Allah rizası üçün] mənə olan bağlılığınızdan ötrü insanlar **sizi söyüb zülm etdikləri, yalan yerə sizə qarşı hər cür pis sözü söylədikləri zaman nə xoşbəxt sizə!** Sevinin, sevinclə coşun! Çünki mükafatınız böyükdür. **Sizdən əvvəl yaşamış peyğəmbərlərə də belə zülm etdilər."** (Matta, 5:10-12)

[Hz. İsa (ə.s)-a] bağlılığınız üzündən **insanlar sizə nifrət etdikləri, sizi cəmiyyətdən xaric edib alçaltdıqları və adınızı pisləyib sizi rədd etdikləri zaman nə xoşbəxt sizə!** O gün sevinin, coşğuyla tullanın! Çünki göydəki mükafatınız böyükdür. Necə ki, onların ataları da peyğəmbərlərə belə davrandılar. (Luka, 6:22-23)

**Elçiləri içəri çağırdıb qamçılatdılar və İsanın adından danışmamalarını buyurduqdan sonra yolladılar. Elçilər [Allah rizası üçün] İsanın adı uğrunda təhqirə layiq görüldükləri üçün... sevinc içində ayrıldılar**. Hər gün məsciddə və evlərdə öyrətməkdən və Məsih İsayla əlaqədar Müjdəni [hz. İsa (ə.s)-a vəhy olunan Allahın əmrlərini] yaymaqdan geri qalmadılar. (Həvarilərin İşləri, 5:40-42)

[Hz. İsa (ə.s):] "Sizə söylədiyim sözü xatırlayın: ... **Mənə zülm etdilərsə, sizə də zülm edəcəklər...** Bütün bunları sizə mənim adımdan ötrü [Allah rizası üçün mənə uyduğunuzdan ötrü] edəcəklər. Çünki məni Göndərəni [Allahı] tanımırlar." (Yəhya, 15:20-21)

Öz əllərimizlə çalışıb əmək sərf edirik. **Bizi söyənlərə** yaxşılıq diləyirik, **zülm edilincə** səbir edirik. **Böhtana uğrayınca** şirinliklə cavab veririk... (1 Korinflilərə, 4:12-13)

Allahın seçdiklərini [hidayət verdiklərini] kim günahlandıracaq? Onları təmizləyən Allahdır. Kim günahkar çıxaracaq?... [Allah rizası üçün] Məsihin sevgisindən bizi kim ayıra bilər? **Çətinlikmi, əzabmı, zülmmü, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? Yazıldığı kimi: "Sənin uğrunda [Allah üçün hz. İsa (ə.s)-a tabe olduğumuzdan ötrü] bütün gün öldürülürük, qəssablıq qoyun kimi sailırıq."** Amma bizi sevənin vasitəsilə bu vəziyyətlərin hamısında qaliblərdən üstünük. (Romalılara, 8:33-37)

İnanmayanlar arasında xoşbəxt bir həyat sürün. **Belə ki, pislik edənlərmişsiniz kimi sizə böhtan atsalar da, yaxşı işlərinizi görsünlər və mühakimə edəcəyi gündə Allahı ucaltsınlar.** (1 Peter, 2:12)

**Məsih uğrunda [Allah rizası üçün hz. İsa (ə.s)-a bağlılıqda qarşılaşdığımız] gücsüzlükləri, təhqirləri, çətinlikləri, zülmləri və darlıqları sevinclə qarşılayıram.** Çünki [bu dünyada] nə vaxt gücsüzsəm, o zaman [axirətdə] güclüyəm. (2 Korinflilərə, 12:10)

Yalnız bunu yumşaq xasiyyətlə, hörmətlə edin. Vicdanınızı təmiz tutun. Belə ki, **Məsihə aid olaraq [Allah rizası üçün hz. İsa (ə.s)-a bağlı olaraq] davam etdirdiyiniz müsbət həyatı qınayanlar sizə atdıqları böhtandan utansınlar.** Yaxşılıq edib acı çəkmək -əgər Allahın istəyi budursa- pislik edib acı çəkməkdən daha yaxşıdır. (1 Peter, 3:16-17)

Sənsə mənim təhsili, davranışımı, məqsədimi, imanımı, səbirimi, sevgimi, dözüm gücümü, **çəkdiyim zülm və ağrıları,** məsələn Antakyada, Konyada və Listrada **başıma gələnləri yaxından izlədin. Nə zülmlərə** səbir etdim! Amma Rəbb məni hamısından qurtardı... **Allah yoluna yaraşan həyat keçirmək istəyənlərin hamısı zülm görəcək.** Amma pislər və saxtakarlar, aldadaraq və aldanaraq getdikcə daha betər olacaqlar. (2 Timoteyə, 3:10-13)

## İman edənlərlə lağ etmələri

İsanı göz altında tutan adamlar **onunla lağ edir**... (Luka, 22:63)

**[İman edənlərdən] daha başqaları lağ edilib qamçılandı,** hətta zəncirlənib həbs edildi. (İbranilərə, 11:36)

... Onunla [hz. İsa (ə.s) ilə] **lağ etdilər**. (Matta, 27:29)

[Hz. İsa (ə.s):] "... Siz həm Allaha, həm pula qulluq edə bilməzsiniz." **Pulu sevən[lər]... bütün bu sözləri eşidincə İsayla lağ etməyə başladılar.** O da onlara belə dedi: "Siz insanlar qarşısında özünüzü təmizə çıxarırsınız, amma Allah ürəyinizi bilir. İnsanların qürurlandıqları nə varsa, Allah bəyənməz." (Luka, 16:13-15)

İsa arxasına dönüb onu görüncə, "Cəsur ol, qızım! İmanın səni qurtardı" dedi. Və qadın o anda yaxşılaşdı. İsa, idarəçinin evinə çatıb qaval çalanlarla səs-küylü kütləni görüncə, "Çəkilin!" dedi. "Qız ölmədi, yatır." **Onlar isə onunla lağ etdilər**. İzdiham çölə çıxarılınca İsa içəri girib qızın əlini tutdu, qız ayağa qalxdı. Bu xəbər bütün bölgəyə yaildı. (Matta, 9:22-26)

... Evinə çatdıqlarında İsa, acı-acı ağlayıb fəryad edən gurultulu bir izdihamla qarşılaşdı. İçəri girərək onlara, "Niyə səs-küy edib ağlayırsınız?" dedi. "Uşaq ölmədi, yatır." **Onlar isə onunla lağ etdilər**. Amma İsa hamısını çölə çıxardıqdan sonra uşağın anasını-atasını və özüylə birlikdə olanları götürüb uşağın olduğu otağa girdi. Uşağın əlini tutaraq ona, "Talita kumi!" dedi. Bu söz, "Qızım, sənə söyləyirəm, qalx" deməkdir. On iki yaşında olan qız dərhal ayağa qalxdı, getməyə başladı. Oradakıları dərin bir təəccüb bürüdü. (Mark, 5:38-42; Luka, 8:50-55)

Ölülərin dirilməsiylə əlaqədar sözləri eşidincə **bəzisi lağ etdi**... (Həvarilərin İşləri, 17:32)

## Xalqın iman edənlərdən uzaq durması

... İmanlıların hamısı Süleymanın Eyvanında toplanırdı. **Xalq onlara böyük hörmət etdiyi halda, çöldən heç kim onlara qatılmağı gözə ala bilmirdi.** (Həvarilərin İşləri, 5:12-13)

[Hz. İsa (ə.s)-a] bağlılığınız üzündən **insanlar sizə nifrət etdikləri, sizi cəmiyyətdən xaric edib alçaltdıqları və adınızı pisləyib sizi rədd etdikləri zaman** nə xoşbəxt sizə! O

gün sevinin, coşğuyla tullanın! Çünki göydəki mükafatınız böyükdür. Necə ki, onların ataları da peyğəmbərlərə belə davrandılar. (Luka, 6:22-23)

[Hz. İsa (ə.s):] "Mənim adımdan [Allah rizası üçün mənə uyduğunuzdan] ötrü hər kəs sizə nifrət edəcək. Amma sonuna qədər dözən xilas olacaq." (Matta, 10:22)

## İman edənlərin Allah yolunda sınaqlarla qarşılaşması

**Qardaşlarım, müxtəlif sınaqlarla qarşılaşdığınızda** özünüzü çox sevincli sayasınız. Bilirsiniz ki, **imanınızın sınanması** dözüm gücü meydana gətirər. Bu dözüm gücü mükəmməl nəticəsini göstərsin. Belə ki, həm yetkin olasınız, həm də mükəmməlliyə çatasınız. Heç bir mövzuda əskiyiniz qalmasın. (Yaqub, 1:2-4)

**Nə xoşbəxt sınağa səbir edən adama! Sınaqdan müvəffəqiyyətlə çıxdığı zaman** Rəbbin Özünü sevənlərə vəd etdiyi həyat tacını [cənnət həyatını] verəcək. (Yaqub, 1:12)

Bu səbəblə indi **qısa bir müddət müxtəlif sınaqlar nəticəsi acı çəkməniz lazımdırsa da,** sevinclə coşmaqdasınız... (1 Peter, 1:6)

**Hər kəsin qarşılaşdığı sınaqlardan başqa sınaqlarla qarşılaşmadınız.** Allah etibarlıdır, gücünüzü aşan şəkildə sınanmağınıza icazə verməz. Dözə bilməniz üçün **sınaqla birlikdə çıxış yolunu da təmin edəcək.** (1 Korinflilərə, 10:13)

Görülür ki, Rəbb **Öz yolunda gedənləri qarşılaşdıqları sınaqlardan necə qurtaracağını bilir.** Doğru olmayanları, xüsusilə cismani təbiətin korlanmış ehtirasları ardınca gedən və səlahiyyətini xor görənləri cəzalandıraraq mühakimə gününə qədər necə saxlayacağını da bilər. (2 Peter, 2:9-10)

Bu çətinliklərdən ötrü kimsə sarsılmasın deyə sizi imanda gücləndirib ürəkləndirməsini istədik. **Çətinliklərdən keçmək üçün təyin olunduğumuzu siz də bilirsiniz. Çünki çətinlik çəkəcəyimizi sizə əvvəldən, daha yanınızdaykən söyləmişdik.** Bildiyiniz kimi, elə oldu. (Saloniklilərə, 3:3-4)

Qardaşlar, sizlərə Allahın Makedoniyadakı kilsələrinə etdiyi lütfdən danışmaq istəyirik: **Böyük çətinliklərlə sınandıqlarında**, coşğun sevincləri və həddindən artıq yoxsulluqları bir səxavətə çevrildi. Əllərindən gəldiyi qədərini, hətta daha çoxunu öz istəkləriylə verdiklərinə şahidlik edərəm. Müqəddəslərə [özünü Allaha həsr etmişlərə] edilən köməkdə yer almağın onlara verilməsi üçün bizə yalvarıb yaxardılar. (2 Korinflilərə, 8:1-4)

O şəhərdə də Müjdəni [Allahın əmrlərini] eşitdirib bir çox şagird qazandılar. Paulla Barnaba daha sonra Listra, Konya və Antakyaya dönərək şagirdləri mənəvi cəhətdən gücləndirdilər, imana bağlı qalmaları üçün onlara cəsarət verdilər. **"Allahın Hökmranlığına [cənnətə], bir çox çətinlikdən keçərək girməyimiz lazımdır"** deyirdilər. (Həvarilərin İşləri, 14:20-22)

## İman edənlərin imtahanın sirrini bilmələri və Allah yolunda göstərdikləri cəsarət

Onun üçün **cəsarətinizi itirməyin; bu cəsarətin mükafatı böyükdür.** Çünki Allahın istəyini yerinə yetirmək və vəd edilənə qovuşmaq üçün dözüm gücünə ehtiyacınız vardır... Biz, geri çəkilib məhv olanlardan deyilik; iman edib canlarının qurtuluşuna qovuşanlardanıq. (İbranilərə, 10:35-36, 39)

Yaxşılıq etməkdə çalışqan olsanız, sizə kim pislik edəcək? Düzgünlük uğrunda acı çəksəniz belə, sizə nə xoşbəxt! **İnsanların "qorxduqlarından qorxmayın və təlaşlanmayın."** (1 Peter, 3:13-14)

Duaları bitincə toplandıqları yer sarsıldı. Hamısı Allahın Ruhuyla doldular və **Allahın sözünü cəsarətlə eşitdirməyə davam etdilər.** (Həvarilərin İşləri, 4:31)

**Bu xidməti Allahın mərhəmətiylə boynumuza götürdüyümüz üçün cəsarətimizi itirmərik.** Utancverici gizli yolları rədd etdik. Hiyləyə üz tutmarıq, Allahın sözünü də təhrif etmərik. Gerçəyi ortaya qoyaraq özümüzü Allahın qarşısında hər insanın vicdanına tövsiyə edərik. (2 Korinflilərə, 4:1-2)

Paulla Barnaba isə **cəsarətlə cavab verdilər**: **"Allahın sözünü əvvəlcə sizə bildirməyimiz lazım idi.** Siz onu rədd etdiyinizə və özünüzü sonsuz həyata [cənnətə] layiq görmədiyinizə görə, biz indi o biri xalqlara gedirik." (Həvarilərin İşləri, 13:46)

Əvvəldən nə yazıldısa, bizə öyrətmək üçün, səbirlə və **Müqəddəs Yazıların [Allahın vəhyi olan hökmlərin] verdiyi cəsarətlə ümidimiz olsun deyə yazıldı. Səbir və cəsarət qaynağı olan Allahın,** sizləri... eyni düşüncədə birləşdirməsini diləyirəm. Belə ki... [Allahı] həmişə bir ağızdan ucaldasınız. (Romalılara, 15:4-6)

Orada uzun müddət qalan Paulla Barnaba, Rəbb haqqında cəsarətlə danışırdılar... (Həvarilərin İşləri, 14:3)

**Sinaqoqa girən Paul cəsarətlə danışmağa başladı.** Üç ay boyunca oradakılarla danışıb durdu, onları Allahın Hökmranlığı [axirət həyatı] mövzusunda razı salmağa çalışdı. **Nə var ki, bəziləri sərt bir mövqe tutub razı olmaqda müqavimət göstərdilər** və İsanın yolunu xalqın qarşısında pisləməyə başladılar. Bunun üzərinə Paul onlardan ayrıldı. Şagirdlərini də götürüb apardı və Tiranın mühazirə otağında hər gün danışıqlarını davam etdirdi. **Bu vəziyyət iki il davam etdi.** Sonunda Yəhudi olsun, Yunan olsun, Asiyada yaşayan **hər kəs Rəbbin sözünü [Allahın hz. İsa (ə.s)-a vəhyini] eşitdi...** (Həvarilərin İşləri, 19:8-11)

Paul tam iki il kirayəyə götürdüyü evdə qaldı və ziyarətinə gələn hər kəsi qəbul etdi. Heç bir maneə ilə qarşılaşmadan **Allahın Hökmranlığını [axirət həyatını] tam bir cəsarətlə eşitdirir... İsa Məsihlə əlaqədar gerçəkləri öyrədirdi.** (Həvarilərin İşləri, 28:30-31)

... Qalıcı olanın ucalığı daha böyükdür. **Belə bir ümidə sahib olduğumuz üçün böyük cəsarətlə danışa bilərik.** (2 Korinflilərə, 3:12)

... Eyni iman ruhuna sahib olaraq biz də iman edir və bu səbəblə danışırıq... Beləliklə, Allahın lütfü çoxalıb daha çox insana çatdıqca, Allahın ucalığı üçün təşəkkür də artsın. **Bu səbəblə cəsarətimizi itirmərik.** Hər nə qədər zahiri varlığımız xarab olursa da, daxili varlığımız gündən-günə yenilənir. Çünki keçici, yüngül çətinliklərimiz bizə, ağırlıqda heç bir şeylə qarşılaşdırılamayacaq qədər böyük, sonsuz bir ucalıq qazandırır. Gözlərimizi görünən şeylərə deyil, görünməyənlərə çeviririk. Çünki görünənlər keçicidir, görünməyənlərsə sonsuza qədər qalıcıdır. (2 Korinflilərə, 4:13-18)

**Bu səbəblə hər zaman cəsarətimiz vardır... Gözlə görülənə deyil, imana əsaslanaraq yaşayarıq. Cəsarətimiz vardır deyirəm və bədəndən uzaqda, Rəbbin**

**yanında olmağı istəyirik.** Bunun üçün, istər bədəndə yaşayaq, istər bədəndən uzaq olaq, məqsədimiz Rəbbi məmnun etməkdir. (2 Korinflilərə, 5:6-9)

Uğrunda zəncirə vurulmuş vəziyyətdə elçilik etdiyim **Müjdəni [Allahın əmrlərini] lazım olduğu kimi cəsarətlə eşitdirə bilməyim üçün dua edin.** (Efeslilərə, 6:20)

Qardaşlar, sizə etdiyimiz ziyarətin boşa getmədiyini siz də bilirsiniz. Bildiyiniz kimi, daha əvvəl Filipidə əziyyət görmüş, alçaldılmışdıq. **Amma böyük ziddiyyətlərə baxmayaraq, Allahdan gələn Müjdəni [Allahın vəhyini] sizə eşitdirmək üçün Rəbbimizdən cəsarət aldıq.** (1 Saloniklilərə, 2:1-2)

... Bizi sevib **lütfüylə bizə tükənməz cəsarət və möhkəm bir ümid verən Rəbbimiz Allah sizi ürəkləndirsin,** hər yaxşı hərəkət və sözdə gücləndirsin. (2 Saloniklilərə, 2:16-17)

Vəzifələrini yaxşı yerinə yetirənlər [Allahın razılığına uyğun yaşayanlar], özləri üçün yaxşı bir yer əldə edər... **imanda böyük cəsarət qazanarlar.** (1 Timoteyə, 3:13)

Şimon İsaya, "... **mən [Allah rizası üçün] səninlə birlikdə zindana da, ölümə də getməyə hazıram"** dedi. (Luka, 22:33)

Qardaşların çoxu da zəncirə vurulmağımdan ötrü Rəbbə güvənərək **Allahın sözünü qorxusuzca söyləməkdə daha da cəsur davranırlar**... Heç bir şəkildə utandırılmayacağımı, yaşasam da, ölsəm də... **tam bir cəsarət göstərə biləcəyimi gözləyir və ümid edirəm.** (Filipililərə, 1:14, 20)

Bir müddət günahın səfasını sürməkdənsə, **Allahın qullarıyla [möminlərlə] birlikdə təzyiq görməyi istədi...** Alçaldılmağı Misir xəzinələrindən daha böyük zənginlik saydı. Çünki [axirətdə] alacağı mükafatı düşünürdü. **Kralın qəzəbindən qorxmadan imanla Misirdən ayrıldı...** (İbranilərə, 11:25-27)

Dar qapıdan girin. Çünki məhvə [cəhənnəm əzabına] aparan qapı geniş və yol enlidir. Bu qapıdan girənlər çoxdur. **Halbuki həyata [cənnətə] aparan qapı dar, yol da çətindir.** Bu yolu tapanlar azdır. (Matta, 7:13-14)

Elçiləri içəri çağırıb qamçılatdılar və İsanın adından danışmamalarını buyurduqdan sonra yolladılar. **Elçilər [Allah rizası üçün] İsanın adı uğrunda təhqirə layiq görüldükləri üçün... sevinc içində ayrıldılar.** Hər gün məsciddə və evlərdə öyrətməkdən və Məsih İsayla əlaqədar Müjdəni [hz. İsa (ə.s)-a vəhy olunan Allahın əmrlərini] yaymaqdan geri qalmadılar. (Həvarilərin İşləri, 5:40-42)

# 18-Cİ HİSSƏ
# İNCİLDƏ MÜNAFİQ XARAKTERİ

## Dini sadəcə zahirən yaşamaları, səmimi iman etməmələri

Vay halınıza.... ikiüzlülər! **Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və imanı atırsınız.** Amma onda biri verməklə yanaşı bunları da yerinə yetirməli idiniz. Ey kor rəhbərlər! **Ağcaqanadı süzgəclə çıxarır, dəvəni isə udursunuz**! (Matta, 23:23)

Vay halınıza... ikiüzlülər! **Çünki siz kasanın və boşqabın bayır tərəfini təmizləyirsiniz, lakin onların daxili soyğunçuluq və pozğunluqla doludur**. Ey kor... Əvvəlcə kasanın daxilini təmizlə ki, bayır tərəfi də təmiz olsun! (Matta, 23:25-26)

Amma vay halınıza... **Çünki siz nanə, sədəfotu və hər cür göyərtinin onda birini verirsiniz, lakin ədalətə və Allah məhəbbətinə etinasızlıq göstərirsiniz. Amma onda biri verməklə yanaşı bunları da yerinə yetirməli idiniz**. (Luka, 11:42)

... Siz... **kasanın və boşqabın bayır tərəfini təmizləyirsiniz, lakin daxiliniz soyğunçuluq və pisliklə dolub**. Ey ağılsızlar, zahiri yaradanla daxili yaradan eyni deyilmi? Yaxşısı budur ki, qablarınızın içindəkilərini sədəqə verəsiniz, onda sizin üçün hər şey təmiz olar. (Luka, 11:39-41)

## Dini çətin göstərməyə çalışmaları

İsa da belə dedi: «Elə sizin də vay halınıza, ey qanunşünaslar! **Çünki adamları ağır yüklərlə yükləyirsiniz, amma özünüz barmağınızın biri ilə də bu yüklərə toxunmursunuz.** (Luka, 11:46)

Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: "... Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin. Çünki söylədikləri şeyləri özləri etməzlər. **Ağır və daşınması çətin yükləri bağlayıb başqalarının kürəyinə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmaq istəməzlər.** Etdiklərinin hamısını nümayiş üçün edərlər..." (Matta, 23:1-5)

## Dinə bidətlər əlavə etmələri, təqvalı görünmək üçün halal-haram çıxarmaları

... Vicdanları sanki qızğın bir dəmirlə dağlanılmış **bu yalançılar... iman edib gerçəyi bilənlərin təşəkkürlə yeməsi üçün Allahın yaratdığı yeməklərdən çəkinmək lazım olduğunu buyuracaqlar.** (1 Timoteyə, 4:1-3)

... Dünyanın təməl qanunlarından xilas olduğunuza görə, **nə üçün dünyada yaşayanlar kimi, "Bunu eləmə", "Bunu dadma", "Buna toxunma" kimi qaydalara uyursunuz?** Bu qaydaların hamısı, istifadə edildikcə yox olacaq şeylərlə əlaqədardır; **insanların buyruqlarına, təlimlərinə əsaslanır. Şübhəsiz, bu qaydaların saxta dindarlıq, saxta təvazökarlıq, bədənə əziyyət baxımından müdrikcə bir görünüşü vardır; amma cismani təbiətin [nəfsin] ehtiraslarına nəzarət etməkdə heç bir faydaları yoxdur.** (Kolosselilərə, 2:20-23)

İsa onları belə cavabladı: **"[İkiüzlülərin]... öyrətdikləri, yalnız insan buyruqlarıdır." Siz Allahın buyruğunu bir tərəfə buraxmış, insan adətinə uyursunuz."** İsa onlara ayrıca bunu söylədi: **"Öz adətinizi davam etdirmək üçün Allahın buyruğunu bir kənara qoymağı necə də gözəl bacarırsınız!"** (Mark, 7:6-9)

## Gizli dinsiz olmaları

Çünki Allahımızın lütfünü pozğunluğa vasitə edən... İsa Məsihi yadırğayan **bəzi Allahsızlar gizlicə aranıza sızdılar.** Onların mühakimə olunacaqları çoxdan bəri yazılmışdır. (Yəhuda, 1:4)

Bunu bil ki, son günlərdə çətin anlar olacaq... **Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaq.** Belələrindən uzaq dayan. (2 Timoteyə, 3:1-5)

## Məlumat sahibi olduqları halda, imanı qavramayan kəslər olmaları

Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaq... Bunların arasında evlərin içinə soxulub günahla yüklü, müxtəlif arzularla süründürülən, **hər zaman öyrənən, amma həqiqətin elminə heç cür çata bilməyən...** adamlar var. (2 Timoteyə, 3:1-7)

Bu buyruğun məqsədi, pak ürəkdən, təmiz vicdandan, səmimi imandan doğan sevgini oyandırmaqdır. **Bəzi kəslər bunlardan azaraq boş danışıqlara daldılar. Müqəddəs Qanun müəllimi [Allahın əmrlərini öyrədən] olmaq istəyirlər, amma nə söylədikləri sözləri, nə də iddialı olduqları mövzuları anlayırlar.** (1 Timoteyə, 1:3-6)

## Ürəklərində olmayanı söyləmələri

İsa onları belə cavabladı: "Yeşayanın siz ikiüzlülərlə əlaqədar peyğəmbərlik sözü nə qədər yerindədir! Yazıldığı kimi, **"Bu xalq, dodaqlarıyla Məni [Allahı] sayar, amma ürəkləri Məndən uzaqdır."** (Mark, 7:6; Matta, 15:7-8)

**Bu buyruğun məqsədi, pak ürəkdən, təmiz vicdandan, səmimi imandan doğan sevgini oyandırmaqdır. Bəzi kəslər bunlardan azaraq boş danışıqlara dalarlar.** Müqəddəs Qanun müəllimi [Allahın əmrlərini öyrədən] olmaq istəyirlər, amma nə söylədikləri sözləri, nə də iddialı olduqları mövzuları anlayırlar. (1 Timoteyə, 1:3-6)

Amma şagirdlərindən biri, **İsaya sonradan xəyanət edən Yəhuda İskaryot, "Bu yağ niyə üç yüz dinara satılıb pulu yoxsullara verilmədi?" dedi. Bunu, yoxsullarla maraqlandığı üçün deyil, oğru olduğu üçün söyləyirdi.** Ortaq pul qutusu onda idi və qutuya qoyulandan götürürdü. (Yəhya, 12:4-6)

## Nümayiş üçün ibadət etmələri

Bütün xalq dinləyərkən İsa şagirdlərinə belə dedi: **"İlahiyyatçılardan özünüzü gözləyin. Onlar uzun paltarlarda gəzməyi xoşlayar, bazar meydanlarında salam almağı və sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı başı tutmağı sevərlər.** Onlar dul qadınların evlərini yeyib-dağıdar və **özlərini göstərmək üçün uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha ağır olacaq"** (Luka, 20:45-47; Mark, 12:38-40)

**Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Onlar, hər kəs özlərini görsün deyə... tinlərin başında dikilib dua etməkdən zövq alarlar.** Sizə doğrusunu söyləyim, onlar qarşılıqlarını almışlar. (Matta, 6:5)

Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: "... Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin. Çünki söylədikləri şeyləri özləri etməzlər. Ağır və daşınması çətin yükləri bağlayıb başqalarının kürəyinə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmaq istəməzlər. **Etdiklərinin hamısını nümayiş üçün edərlər..."** (Matta, 23:1-5)

Vay halınıza... **Məscidlərdə ən seçmə yerlərdə olmaq, meydanlarda salamlanılmaq üçün ürəyiniz gedir.** Vay halınıza! İnsanların, fərqində olmadan üzərlərində gəzişdiyi naməlum məzarlara bənzəyirsiniz. (Luka, 11:43-44)

## Allah rizasını deyil, insanların məmnuniyyətini güdmələri

Bununla birlikdə, öndərlərin belə bir çoxu İsaya iman etdi. Amma... iman etdiklərini açıqca söyləmədilər. **Çünki insandan gələn tərifi, Allahdan gələn tərifdən daha çox sevirdilər.** (Yəhya, 12:42-43)

## Başqalarına söylədiklərini özləri etməmələri

Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: "... Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin. **Çünki söylədikləri şeyləri özləri etməzlər.** Ağır və daşınması ağır yükləri bağlayıb başqalarının kürəyinə yükləyərlər, özlərisə bu yükləri daşımaq üçün barmaqlarını belə oynatmaq istəməzlər. Etdiklərinin hamısını nümayiş üçün edərlər..." (Matta, 23:1-5)

**Öz gözündəki tiri görməzkən, qardaşına necə, "qardaş, icazə ver, gözündəki çöpü çıxarım" deyərsən? İkiüzlü!** Əvvəl öz gözündəki tiri çıxar, o zaman qardaşının gözündəki çöpü çıxarmaq üçün daha yaxşı görərsən. (Luka, 6:42)

## Xarici görünüşlərinin aldadıcı olması

Vay halınıza ey din alimləri və Fariseylər, ikiüzlülər! **Siz xaricdən gözəl görünən, amma içi ölü sümükləri və hər cür pisliklə dolu ağardılmış məzarlara bənzəyirsiniz.** Xaricdən insanlara doğru görünərsiniz, amma daxildə ikiüzlülük və pisliklə dolusunuz. (Matta, 23:27-28)

## Möminlər əleyhinə hiylə qurmaları

Bunun üzərinə... **İsanı, öz söyləyəcəyi sözlərlə tələyə salmaq məqsədiylə hiylə qurdular.** (Matta, 22:13; Mark, 12:13)

İsa oradan ayrılınca... **onu şiddətlə sıxışdıraraq bir çox mövzuda ağzını aramağa başladılar. Ağzından çıxacaq bir sözlə onu tələyə salmaq üçün fürsət gözləyirdilər.** (Luka, 11:53-54)

Tez-tez səfər etdim. Çaylarda, quldurlar arasında, istər soydaşlarımın, istərsə də o biri xalqların arasında təhlükələrə uğradım. **Şəhərdə, çöldə, dənizdə, saxta qardaşlar arasında təhlükələrə düşdüm.** (2 Korinflilərə, 11:26)

## İnkarçılara xəbər daşımaq üçün möminlərin arasına qatılmaları

İsanı güdürdülər və yanına özlərini dürüst insan kimi göstərən bir neçə casus göndərdilər. Onu dediyi söz üstə tutub valinin hökm və səlahiyyətinə təslim etmək məqsədləri var idi. (Luka, 20:20)

## Möminləri saxta dəlillərlə həbsə atdırmaq istəmələri

İsanı güdürdülər və yanına özlərini dürüst insan kimi göstərən bir neçə casus göndərdilər. **Onu dediyi söz üstə tutub valinin hökm və səlahiyyətinə təslim etmək məqsədləri var idi**. (Luka, 20:20)

İsa hələ danışarkən, On ikilərdən biri olan Yəhuda gəldi. Yanında, baş din adamlarıyla xalqın öndərləri tərəfindən göndərilmiş qılınclı, dəyənəkli böyük bir izdiham vardı. **İsaya xəyanət edən Yəhuda, "Kimi öpsəm, İsa odur, onu həbs edin" deyə onlarla sözləşmişdi...** (Matta, 26:47-49; Mark, 14:43-45)

## Möminləri yurdlarından sürgün etmək, öldürmək istəmələri

... Bu sözləri eşidincə əsəbdən qudurdular. Ayağa qalxıb **İsanı şəhərin kənarına qovdular. Onu uçurumdan aşağı atmaq üçün şəhərin qurulduğu təpənin yamacına apardılar.** Amma İsa onların arasından keçərək oradan uzaqlaşdı. (Luka, 4:28-30)

Vay halınıza!... **Onlara peyğəmbərlər və elçilər göndərəcəyəm, bunlardan bəzisini öldürəcək, bəzilərinə zülm edəcəklər.** (Luka, 11:47-49)

[Hz. İsa (ə.s):] İbrahimin soyundan olduğunuzu bilirəm. **Yenə də məni öldürmək istəyirsiniz.** Çünki ürəyinizdə sözümə yer vermirsiniz. (Yəhya, 8:37)

## Möminlərə qarşı əməkdaşlıq etmələri və onlara xəyanət etmələri

[Hz. İsa (ə.s):] **"Mənimlə yemək yeyən biri məni ələ verəcək."...** İsa onlara, "On ikilərdən biridir, çörəyini mənimlə birlikdə eyni qaba batırandır" dedi. (Mark, 14:18-20)

O sırada On ikilərdən biri -adı Yəhuda İskaryot olanı- baş din adamlarına gedərək, "onu [Hz. İsa (ə.s)-ı] ələ versəm mənə nə verərsiniz?" dedi. Otuz gümüş çıxarıb ona verdilər. **Yəhuda o andan etibarən İsanı ələ vermək üçün fürsət gözləməyə başladı.** (Matta, 26:14-16; Mark, 14:10-11)

İsa hələ danışarkən, On ikilərdən biri olan Yəhuda gəldi. Yanında, baş din adamlarıyla xalqın öndərləri tərəfindən göndərilmiş qılınclı, dəyənəkli böyük bir izdiham vardı. **İsaya xəyanət edən Yəhuda, "Kimi öpsəm, İsa odur, onu həbs edin" deyə onlarla sözləşmişdi.** Düz İsaya gedib, "Salam...!" deyərək onu öpdü. (Matta, 26:47-49; Mark, 14:43-45)

Şeytan, On ikilərdən biri olub İskaryot deyə adlandırılan Yəhudanın ürəyinə girdi. Yəhuda getdi... **İsanı necə ələ verə biləcəyini** danışdı. Onlar buna sevindilər və ona pul verməyə razı oldular. **Bunu qəbul edən Yəhuda, izdihamın olmadığı bir zamanda İsanı ələ vermək üçün fürsət gözləməyə başladı.** (Luka, 22:3-6)

İsa onlara bu qarşılığı verdi: **“Siz On ikiləri seçən mən deyiləmmi? Buna qarşı içinizdən biri şeytandır.”** Şimon İskaryotun oğlu Yəhudadan danışırdı. Çünki Yəhuda On ikilərdən biri olduğu halda **İsaya xəyanət edəcəkdi**. (Yəhya, 6:70-71)

## Möminlərə qarşı kin və nifrətlə dolu olmaları

... Bu sözləri eşidincə **əsəbdən qudurdular**. Ayağa qalxıb İsanı şəhərin kənarına qovdular. Onu uçurumdan aşağı atmaq üçün şəhərin qurulduğu təpənin yamacına apardılar. Amma İsa onların arasından keçərək oradan uzaqlaşdı. (Luka, 4:28-30)

İsanı günahlandırmaq üçün fürsət gözləyən din alimləri... onu müşahidə edirdilər. İsa, onların nə düşündüklərini bilirdi.... Onlar isə **hirsdən dəliyə döndülər və aralarında İsaya nə edə biləcəklərini müzakirə etməyə başladılar.** (Luka, 6:7-11)

## Möminləri səhv axtarmaq qəsdiylə müşahidə etmələri və sınamaları

Bunları **İsanı sınamaq məqsədiylə söyləyirdilər; onu günahlandıra bilmək üçün bir səbəb axtarırdılar.** Dayanmadan eyni sualı soruşduqları zaman qalxdı və “İçinizdə kim günahsızdırsa, ilk daşı o atsın!” dedi. (Yəhya, 8:6-7)

**İsa onların pis niyyətlərini bildiyindən, “Ey ikiüzlülər!” dedi. “Məni niyə sınayırsınız?”** (Matta, 22:18)

## Allah yolunda mübarizədən bəhanələr sürərək uzaq dayanmaları

Yolda gedərkən bir adam İsaya, “Hara getsən, sənin ardınca gələcəyəm” dedi. İsa ona, “Tülkülərin, quşların yuvası var, amma İnsanoğlunun [hz. İsa (ə.s)-ın] başını salacaq bir yeri yox” dedi. **Bir başqasına, “Ardımca gəl” dedi. Adam isə, “İcazə ver, əvvəl gedib atamı basdırım” dedi.** İsa ona belə dedi: “Burax ölüləri, öz ölülərini özləri basdırsın. **Sən gedib Allahın Hökmranlığını [axirət həyatını] eşitdir.” Bir başqası... “Sənin ardınca gələcəyəm amma, icazə ver, əvvəl evimdəkilərlə vidalaşım.” İsa ona, “Kotanı tutub da geriyə baxan, Allahın Hökmranlığına [cənnətə] layiq deyil” dedi.** (Luka, 9:57-62; Matta, 8:19-22)

## İnfaq etmək istəməmələri

[Hz. İsa (ə.s):] “Onun [Allahın] buyruqlarını bilirsən: “Zina etməyəcəksən, adam öldürməyəcəksən, oğurlamayacaqsan, yalan yerə şahidlik etməyəcəksən, anana-atana hörmət göstərəcəksən.” “Bunların hamısını gəncliyimdən bəri yerinə yetirirəm” dedi adam. İsa bunu eşidincə ona, **“Hələ bir əksiyin var” dedi. “Nəyin varsa hamısını sat, pulunu yoxsullara payla; beləcə göylərdə xəzinən olar. Sonra gəl, məni izlə.” Adam bu sözləri eşidincə çox kədərləndi. Çünki son dərəcə zəngin idi.** Onun kədərini görən İsa,

"Varlı kəslərin Allahın Hökmranlığına [cənnətə] girməsi nə qədər çətindir!" dedi. "Necə ki, dəvənin iynə dəliyindən keçməsi, zənginin Allah Hökmranlığına [cənnətə] girməsindən daha asandır." (Luka, 18:20-25)

Xananya adında bir adam, arvadı Sapfiranın təsdiqiylə bir mülk satdı, **pulun bir qismini özünə saxlayaraq gerisini gətirib elçilərin buyruğuna verdi.** Arvadının da olanlardan xəbəri vardı. Peter ona, "Xananya, necə oldu da şeytana uydun... **yalan danışıb mülkün pulunun bir qismini özünə saxladın?"** dedi. "Mülk satılmadan əvvəl sənə aid deyildimi? Sən onu satdıqdan sonra da pulu dilədiyin kimi istifadə edə bilməzdinmi? **Niyə ürəyində belə bir hiylə qurdun? Sən insanlara deyil, Allaha yalan danışmış oldun."** (Həvarilərin İşləri, 5:1-4)

Zəngin olmaq istəyənlər təmizlənib tələyə düşərlər, insanı çökməyə və məhvə aparan bir çox axmaq və zərərli arzulara qapılarlar. Çünki hər cür pisliyin bir kökü də pul sevgisidir. **Bəziləri zəngin olma həvəsiylə imandan azdılar, öz-özlərinə çox acı çəkdirdilər.** (1 Timoteyə, 6:9-10)

## Möminlərə mənfəətlərini təmin etmək üçün yanaşmaları

**Aranıza sızan bu kəslər...** Vay onların halına!... **Qazanc üçün özlərini Bilamınkına bənzər bir yanılmaya qapdırdılar... Məhəbbət mərasimlərinizdə sizinlə birlikdə çəkinmədən yeyib-içən bu kəslər quru ləkədir. Tək özlərini bəsləyən çobanlardır...** Bunlar həmişə şikayətlənib deyinirlər, öz ehtiraslarının arxasınca gedirlər. **Ağızlarından nalayiq sözlər çıxar, öz mənfəətləri üçün başqalarına yaltaqlanarlar.** (Yəhuda, 1:8, 11-12, 16)

... **Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar.** Gözləri zinayla doludur, günahdan doymazlar. Qərarsız kəsləri doğru yoldan azdırarlar. **Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır.** (2 Peter, 2:13-14)

## Mənfəət əldə edə bilmədiklərində mömin birliyindən ayrılmaları

... Necə ki, indidən çoxlu sayda Məsih əleyhdarı törəmişdir... **Bunlar aramızdan çıxırlar, amma bizdən deyildilər. Bizdən olsaydılar, bizimlə qalardılar. Ayrılmaları heç birinin bizdən olmadığını ortaya çıxardı.** (1 Yəhya, 2:18-19)

## Ağılsız olmaları

**Aranıza sızan bu kəslər... ağıldan məhrum heyvanlar kimi** instinktləriylə anladıqları nə varsa, onları məhvə aparır. (Yəhuda, 1:8, 10)

... Bu həyasız, dikbaş insanlar uca varlıqları söyməkdən qorxmazlar [Allahı tənzih edirik] ... Amma anlamadıqları mövzularda söyən bu kəslər, **instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğan, ağıldan məhrum heyvanlar kimidir.** Heyvanlar kimi onlar

da məhvə uğrayacaqlar. Etdikləri haqsızlığa qarşılıq zərər görəcəklər. Gündüz zövq aləmlərinə dalmağı əyləncə sayarlar. Bir ləkə və üz qarasıdırlar... (2 Peter, 2:10-13)

## Təkəbbürlü və çirkin cəsarət sahibi olmaları

... **Bu həyasız, dikbaş insanlar uca varlıqları söyməkdən qorxmazlar [Allahı tənzih edirik]** ... Amma anlamadıqları mövzularda söyən bu kəslər, instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğan, ağıldan məhrum heyvanlar kimidir. Heyvanlar kimi onlar da məhvə uğrayacaqlar... (2 Peter, 2:10-12)

**Aranıza sızan bu kəslər də onlar kimi gördükləri xülyalara əsaslanaraq öz bədənlərini kirlədir, Rəbbin səlahiyyətini heçə sayır, uca varlıqları söyürlər...** Bu kəslər anlamadıqları hər şeyi söyürlər... (Yəhuda, 1:8-10)

## Başqalarının imanına mane olmağa çalışmaları

... Ey Qanun mütəxəssisləri [Müqəddəs Kitab alimləri]! Məlumat qapısının açarını götürüb apardınız. **Özünüz bu qapıdan girmədiniz, girmək istəyənlərə də mane oldunuz.** (Luka, 11:52)

Vay halınıza... ikiüzlülər! Allahın Hökmranlığının **[cənnətin] qapısını insanların üzünə bağlayırsız; nə özünüz içəri girir, nə də girmək istəyənləri buraxırsınız!** (Matta, 23:13-14)

## İmanı zəif olanları doğru yoldan azdırmağa çalışmaları

... Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar. Gözləri zinayla doludur, günahdan doymazlar. **Qərarsız kəsləri doğru yoldan azdırarlar.** Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. (2 Peter, 2:13-14)

... [Münafiqlər] səhv yolda gedənlərdən **hələ xilas olanları, boş sözlər söyləyərək cismani təbiətin ehtiraslarıyla, pozğunluqla doğru yoldan azdırarlar.** (2 Peter, 2:18)

Qardaşlar... götürdüyünüz təlimə qarşı gələrək ayrılıqlara və azmalara səbəb olanlara diqqət yetirin, onlardan çəkinin. Belə kəslər Məsihə deyil, öz mədələrinə qulluq edərlər. **Saf adamların ürəklərini, qulağı oxşayan şirin sözlərlə aldadarlar.** (Romalılara, 16:17-18)

Vay halınıza... **ikiüzlülər! Tək bir adamı dininizə çevirmək üçün dənizləri, qitələri gəzərsiniz. Dininizə dönəni də özünüzdən iki qat cəhənnəmlik edərsiniz.** (Matta, 23:15)

Çünki saxta məsihlər, saxta peyğəmbərlər törəyəcək; bunlar böyük işarələr və möcüzələr edəcəklər. Belə ki, **əllərindən gəlsə, seçilmiş olanları belə azdıracaqlar.** Sizə əvvəldən söyləyirəm. (Matta, 24:24-25)

... Gerçək yoldan azdılar. İndi də **bəzilərinin imanını alt-üst edirlər.** Nə var ki, Allahın atdığı möhkəm təməl, "Rəbb Özünə aid olanları bilər" və "Rəbbin adını anan hər kəs pislikdən uzaq dayansın" sözləriylə möhürlənmiş olaraq dayanır. Böyük bir evdə yalnız qızıl və gümüş

qablar deyil, taxta və torpaq qablar da vardır. Bəzisi şərəfli, bəzisi yarasız iş üçün istifadə edir. Əgər bir kimsə bayağı olandan təmizlənsə, şərəfli məqsədlərə uyğun, müqəddəs qılınmış, ağasına faydalı və hər yaxşı işə hazır bir qab olacaq. (2 Timoteyə, 2:18-20)

... Son zamanlarda **bəziləri yalançıların ikiüzlülüyü səbəbiylə hiyləgər ruhlara və cinlərin təlimlərinə qulaq asaraq imandan dönəcək.** (1 Timoteyə, 4:1)

## Fitnə çıxarmaq üçün möminlərin arasına qatılmaları

Mən getdikdən sonra **sürünü əsirgəməyən yırtıcı qurdların aranıza girəcəyini bilirəm. Hətta şagirdləri öz arxalarından aparmaq üçün sizin aranızdan da azğın sözlər söyləyən kəslər çıxacaq.** (Həvarilərin İşləri, 20:29)

Nə var ki, İsa Məsihdə sahib olduğumuz azadlığı əl altından öyrənmək və beləcə, **bizi kölələşdirmək [dünya həyatına çəkmək] üçün gizlicə aramıza sızan saxta qardaşlar vardır.** Müjdə gerçəyi [Allahın vəhyi] daim sizinlə qalsın deyə bir an belə onlara boyun əyib təslim olmadıq. (Qalatiyalılara, 2:4-5)

... Saxta peyğəmbərlər vardı, **eynilə sizin də aranızda yanlış təlim edənlər olacağı kimi. Bunlar... gizlicə aranıza dağıdıcı təlimlər salacaqlar.** Belələri ani bir məhvə uğrayacaqlar. Bir çoxları da onların pozğunluğuna qapılacaq. Onlara görə həqiqət yolu söyüləcək. Acgözlüklərindən ötrü uydurma sözlərlə sizi istismar edəcəklər. Onlar üçün çoxdan verilmiş mühakimə gecikməz. Onları gözləyən məhv də gecikməz. (2 Peter, 2:1-3)

Saxta peyğəmbərlərdən çəkinin! **Quzu dərisinə bürünərək gəlirlər sizə, amma yırtıcı qurdlardır. Onları meyvələrindən tanıyacaqsınız.** Tikanlı bitkilərdən üzüm, dəvətikanlarından əncir toplana bilərmi? Bunun kimi, hər yaxşı ağac yaxşı meyvə verər, pis ağac isə pis meyvə verər. Yaxşı ağac pis meyvə verə bilməz. Pis ağac da yaxşı meyvə verə bilməz. Yaxşı meyvə verməyən hər ağac kəsilib atəşə atılar. Beləcə, saxta peyğəmbərləri meyvələrindən tanıyacaqsınız. (Matta, 7:15-20)

## Cahillik həyatından tam olaraq qopmamaları

Onlara azadlıq vəd edərlər, halbuki **özləri pozğunluğun kölәsidirlər.** Çünki adam nəyə məğlub olsa, onun kölәsi olar... İsa Məsihi tanımaqla **dünyanın çirkinliklərindən xilas olduqdan sonra təkrar eyni işlərə qarışıb məğlub olsalar, son halları ilk hallarından betər olar. Çünki düzgünlük yolunu bilib də özlərinə əmanət edilmiş müqəddəs buyruqdan [Allahın əmrlərindən] geri dönməkdənsə, bu yolu heç bilməmiş olmaq onlar üçün daha yaxşı olardı.** Bu həqiqi aforizm onların vəziyyətini izah edir: ... **"donuz da yuyunduqdan sonra palçıqda eşələnməyə dönər."** (2 Peter 2:19- 22)

**... Qardaş deyə bilinərkən fahişəlik edən, acgöz, bütpərəst, söyən, əyyaş ya da soyğunçu olanla yoldaşlıq etməyin, belə biriylə yemək belə yeməyin.** İnananlar birliyinin xaricindəkiləri mühakimə etməyə mənim nə haqqım var? Sizin də mühakimə etməli olduğunuz kəslər birliyin içindəkilər deyilmi? Birliyin xaricində qalanları Allah mühakimə edər. "Pis adamı aranızdan qovun!" (1 Korinflilərə, 5:11-13)

... Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar. **Gözləri zinayla doludur, günahdan doymazlar.** Qərarsız kəsləri doğru yoldan azdırarlar. Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. (2 Peter, 2:13-14)

## Dünyada və axirətdə məhv olmaq və əzabla qarşılıq görmələri

... Sizinlə yeyib içərkən öz hiylələrindən zövq alarlar... Haqsızlıqla əldə etdiyi qazancı sevən Beor oğlu Bilamın yolunu tutaraq doğru yolu buraxıb azdılar... **Bu kəslər, susuz bulaqlar, qasırğanın dağıtdığı buludlar kimidirlər. Onları zülmət qaranlıq gözləyir.** (2 Peter, 2:13-17)

**Aranıza sızan bu kəslər... Küləyin apardığı yağışsız buludlara, iki dəfə ölmüş, kökündən sökülmüş, payızın meyvəsiz ağaclarına bənzəyərlər.** Köpüyünü sovuran dənizin azğın dalğaları kimi eyiblərini ətrafa sovurarlar. Avara ulduzlar kimidirlər. **Onları sonsuza qədər davam edəcək zülmət qaranlıq gözləyir.** (Yəhuda, 1:8, 12-13)

... Bunlar... gizlicə aranıza dağıdıcı təlimlər salacaqlar. **Belələri ani bir məhvə uğrayacaqlar.** Bir çoxları da onların pozğunluğuna qapılacaq. Onların üzündən həqiqətin yolu söyüləcək. Acgözlüklərindən ötrü uydurma sözlərlə sizi istismar edəcəklər. **Onlar üçün çoxdan verilmiş olan mühakimə gecikməz. Onları gözləyən məhv də gecikməz.** (2 Peter, 2:1-3)

... Bu kəslər, instinktləriylə yaşayan, tutulub boğazlanılmaq üçün doğan, ağıldan məhrum heyvanlar kimidir. **Heyvanlar kimi onlar da məhvə uğrayacaqlar. Etdikləri haqsızlığa qarşılıq zərər görəcəklər.** Gündüz zövq aləmlərinə dalmağı əyləncə sayarlar. Bir ləkə və üz qarasıdırlar... (2 Peter, 2:12-13)

# 19-CU HİSSƏ
# İNCİLDƏ YARADILIŞ İLƏ ƏLAQƏDAR ŞƏRHLƏR

... Sizi bu boş şeylərdən imtina etməyə, **yeri, göyü, dənizi və bunların içindəkilərin hamısını yaradan, diri [Hayy] olan Allaha dönməyə çağırırıq...** [Allah] sizə yaxşılıq [lütfkarlıq] edir. Göydən yağış yağdırır, müxtəlif məhsullarıyla mövsümləri təşkil edir, sizi yeməklə doyurub ürəklərinizi sevinclə doldurur. (Həvarilərin İşləri, 14:15-17)

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah... Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özüdür... Allah, bütün xalqları tək insandan yaratdı və onları yer üzünün hər tərəfinə yerləşdirdi.** (Həvarilərin İşləri, 17:24-25)

**Necə ki, belə yazılmışdır: "İlk insan Adəm yaşayan can oldu."... İlk insan yerdən, yəni torpaqdandır...** (1 Korinflilərə, 15:45-47)

Yenə deyir ki, **"Ya Rəbb, başlanğıcda yerin təməllərini Sən atdın. Göylər də Sənin əllərinin əseridir."** (İbranilərə, 1:10)

**Hər varlığa həyat verən Allahın** hüzurunda sənə buyururam. (1 Timoteyə, 6:13)

Hər evin bir quruluşçusu vardır, halbuki **hər şeyi edən Allahdır**. (İbranilərə, 3:4)

**Hər şeyin qaynağı Odur [Allahdır]; hər şey Onun tərəfindən və Onun üçün var oldu.** Sonsuza qədər Ona ucalıq olsun. Amin. (Romalılara, 11:36)

İman yoluyla, lütflə xilas oldunuz. Bu sizin müvəffəqiyyətiniz deyil, Allahın hədiyyəsidir. Kimsənin öyünməməsi üçün yaxşı işlərin mükafatı deyil. **Çünki biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üzrə... yaradıldıq.** (Efeslilərə, 2:8-10)

**O [Allah]... bizi, Öz istəyinə uyğun olaraq... həyata qovuşdurdu.** (Yaqub, 1:18)

**Nə var ki, göylərin lap əvvəldən Allahın sözüylə yarandığını, yerin sudan və su vasitəsilə yaradıldığını bilə-bilə unudurlar.** (2 Peter, 3:5)

... Çünki **O [Allah], Günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurar; yağışını həm doğruların, həm əyrilərin üzərinə yağdırar.** (Matta, 5:45)

İki sərçə bir qara pula satılmırmı? Onlardan biri belə, **Allahın izni olmadan yerə düşməz.** Sizin başınızdakı saçlar belə, sailıb. (Matta, 10:29-30)

Yoldaşları bunu eşidincə birlikdə Allaha belə səsləndilər: "Ey Ağamız! **Yeri göyü, dənizi və onların içindəkilərin hamısını yaradan Sənsən.**" (Həvarilərin İşləri, 4:24)

Allah, **yaradılışın başlanğıcından "İnsanları kişi və qadın olaraq yaratdı."** (Mark, 10:6)

İsa bu qarşılığı verdi: "Müqəddəs Yazıları [Allahın vəhyini] oxumadınızmı? **Yaradan [Allah] başlanğıcdan "İnsanları kişi və qadın olaraq yaratdı."** (Matta, 19:4)

Bizim üçün tək bir Allah vardır. **O hər şeyin qaynağıdır**, bizlər Onun üçün yaşayırıq. Tək bir Rəbb var... **Hər şey Onun vasitəsilə [Allahın əmriylə] yaradıldı, biz də Onun vasitəsilə yaşayırıq.** (1 Korinflilərə, 8:5-6)

Necə ki, **yerdə və göydə, görünən və görünməyən hər şey... Onun vasitəsilə [Allahın əmriylə] və Onun üçün yaradıldı.** Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam etdirir. (Kolosselilərə, 1:16-17)

**Hər şey Onun [Allah] tərəfindən yaradıldı,** Yaranan bir şey Onsuz olmadı. (Yəhya, 1:3)

**... Yer üzü və içindəki hər şey Rəbbindir.** (1 Korinflilərə, 1:26)

Çünki Allaha bağlı bilinən nə varsa, gözlərinin önündədir; **Allah [varlığının dəlillərinin] hamısını gözlərinin önünə sərmişdir. Allahın görünməyən xüsusiyyətləri -sonsuz gücü və İlahlığı- dünya yaradılandan Onun etdikləriylə aydın olur açıqca görülür.** Bu səbəblə üzrləri yoxdur. Allahı bildikləri halda Onu Allah olaraq ucaltmadılar, Ona şükür etmədilər. Əksinə, düşüncələrində axmaqlığa düşdülər; anlayışsız ürəklərini qaranlıq bürüdü. Ağıllı olduqlarını irəli sürərkən ağılsız olub çıxdılar. Ölümsüz Allahın ucalığı yerinə ölümlü insana, quşlara, dörd ayaqlılara, sürünənlərə bənzəyən bütləri istədilər. (Romalılara, 1:19-26)

Üzərinə tez-tez yağan yağışı udan və kimlər üçün işlənirsə onlara faydalı bitkilər çıxaran **torpağı Allah bərəkətli edər**. (İbranilərə, 6:7)

# 20-Cİ HİSSƏ
# QURAN VƏ İNCİLDƏKİ BƏNZƏR İFADƏLƏRDƏN BİR QİSMİ

## Allah Baqi olandır:

**İNCİL**: Yenə deyir ki, **"Ya Rəbb, başlanğıcda, dünyanın təməllərini sən atdın. Göylər də Sənin əllərinin əsəridir. Onlar yox olacaq, amma Sən qalıcısan.** Hamısı bir geyim kimi köhnələcək. Bir xalat kimi bükəcəksən onları, bir geyim kimi dəyişdiriləcəklər. **Amma Sən həmişə eynisən, illərin tükənməyəcək."** (İbranilərə, 1:10-12)

**QURAN**: **Yer üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir.** (Rəhman surəsi, 26-27)

## Allah hər şeyin Yaradıcısıdır:

**İNCİL**: **Hər şeyin qaynağı Odur; hər şey Onun tərəfindən və Onun üçün yarandı.** Ona sonsuza qədər ucalıq olsun! Amin. (Romalılara, 11:36)

**QURAN**: Budur sizin Rəbbiniz olan Allah. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. **Hər şeyin Yaradıcısı Allahdır**! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır. (Ənam surəsi, 102)

## Allah şəkil və surət verəndir:

**İNCİL**: Gerçək budur ki, **Allah bədənin hər üzvünü dilədiyi şəkildə bədənə yerləşdirmişdir.** (1 Korinflilərə, 12:18)

**QURAN**: Bətnlərdə **sizə istədiyi surəti verən Odur**. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir. (Ali İmran surəsi, 6)

## Allah dua edənin duasına cavab verər:

**İNCİL**: **[Allahdan] diləyin, sizə veriləcək; axtarın, tapacaqsınız;** qapını döyün, sizə açılacaq. **Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar.** (Matta, 7:7)

**İNCİL**: **İmanla dua etsəniz, dilədiyiniz hər şeyi alarsınız.** (Matta, 21:22)

**QURAN**: Rəbbiniz dedi: "**Mənə dua edin, Mən də sizə cavab verim**. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər". (Mömin surəsi, 60)

**QURAN:** Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, **Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm**. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)

## Allahın elçisinə iman və itaət edən Allaha itaət etmiş olar:

**İNCİL:** [Hz. İsa (ə.s):] "... **Məni qəbul edən də məni Göndərəni [Allahı] qəbul etmiş olar.**" (Matta, 10:40; Mark, 9:37)

**İNCİL:** [Hz. İsa (ə.s):] "... **Məni rədd edən də məni Göndərəni [Allahı] rədd etmiş olar.**" (Luka, 10:16)

**QURAN: Sənə beyət edənlər Allaha beyət etmiş olurlar**. Allahın Əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim də Allahla bağladığı əhdinə sadiq qalsa, Allah ona böyük mükafat verər. (Fəth surəsi, 10)

**QURAN: Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar**, kim üz çevirərsə, bil ki, Biz səni onlara gözətçi göndərməmişik. (Nisa surəsi, 80)

## Peyğəmbər özündən danışmaz, Allahın vəhyini çatdırar:

**İNCİL:** İsa onlara, **"Mənim təhsilim mənim deyil, məni Göndərənindir [Allahındır]"** deyə cavab verdi. (Yəhya, 7:16)

**İNCİL:** Bu səbəblə İsa belə dedi: "... mənim o olduğumu, **özlüyümdən heç bir şey etmədiyimi, amma eynilə Allahın mənə öyrətdiyi kimi danışdığımı anlayacaqsınız."** (Yəhya, 8:28)

**QURAN:** O, öz istəyi ilə **danışmır. Bu, ona təlqin edilən bir vəhydir**. (Nəcm surəsi, 3-4)

**QURAN:** Mən **Rəbbimin mənə vəhy etdiklərini sizə təbliğ edir** və sizə öyüd-nəsihət verirəm. **Allahdan nazil olanlar sayəsində sizin bilmədiklərinizi bilirəm. (Əraf surəsi, 62)**

## Allah elçisinə itaət edəni sevər:

**İNCİL:** İsa ona bu qarşılığı verdi: **"Məni sevən sözümə uyar, Allahım da onu sevər...** Məni sevməyən, sözlərimə uymaz. Eşitdiyiniz söz mənim deyil, məni göndərən Allahındır." (Yəhya, 14:23-24)

**İNCİL:** [Hz. İsa (ə.s):] **“Kim buyruqlarımı bilir və yerinə yetirirsə, məni sevən odur. Məni sevəni Allahım da sevəcək.** Mən də onu sevəcəyəm...” (Yəhya, 14:21)

**QURAN:** De: **“Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin** və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”. De: “Allaha və göndərdiyi Elçiyə itaət edin!” Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz. (Ali İmran surəsi, 31-32)

## Möminlərin çətinliklərlə imtahan olmaları:

**İNCİL:** [Hz. İsa (ə.s):] “... [Allah rizası üçün] mənə olan bağlılığınızdan ötrü **insanlar sizi söyüb zülm etdikləri, yalan yerə sizə qarşı hər cür pis sözü söylədikləri zaman nə xoşbəxt sizə!** Sevinin, sevinclə coşun! Çünki **[axirətdəki] mükafatınız böyükdür. Sizdən əvvəl yaşamış peyğəmbərlərə də belə zülm etdilər.”** (Matta, 5:10-12)

**İNCİL: ... “Allahın Hökmranlığına [cənnətə], bir çox çətinlikdən keçərək girməyimiz lazımdır”** deyirdilər. (Həvarilərin İşləri, 14:22)

**QURAN:** Yoxsa **siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız?** Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: “Allahın köməyi nə vaxt gələcək?” – dedilər. Həqiqətən, Allahın köməyi yaxındır. (Bəqərə surəsi, 214)

## Hər kəsin gücünün çatacağı ilə imtahan olması:

**İNCİL:** Hər kəsin qarşılaşdığı sınaqlardan başqa sınaqlarla qarşılaşmadınız. Allah etibarlıdır, **gücünüzü aşan şəkildə sınanmanıza icazə verməz. Dözə bilməniz üçün sınaqla birlikdə çıxış yolunu da təmin edəcək.** (1 Korinflilərə, 10:13)

**QURAN: ... Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik**. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız. (Ənam surəsi, 152)

**QURAN:** ... Aranızdan iki ədalətli şahid çağırın və Allah üçün şahidlik edin. Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur. **Allahdan qorxana, Allah çıxış yolu göstərər.** (Talaq surəsi, 2)

## Allah üçün canını malını satmaq:

**İNCİL:** İzdihamlı xalq birlikləri İsayla birlikdə yol aldı. İsa dönüb onlara belə dedi: **“Biri mənə gəlib də atasını, anasını, arvadını, uşaqlarını, qardaşlarını, hətta öz canını belə gözdən çıxarmazsa,** şagirdim ola bilməz.” (Luka, 14:25-26)

**QURAN:** De: “**Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin.** Allah günahkarları doğru yola yönəltməz” (Tövbə surəsi, 24)

## İmanın möhkəm bir təməl üzərində qurulması:

**İNCİL:** [Hz. İsa (ə.s):] **“Məhz bu sözlərimi eşidib tətbiq edən hər kəs, evini qaya üzərinə quran ağıllı adama bənzəyər.** Yağış yağar, sellər basar, yellər əsər, evə hücum edər; amma ev yıxılmaz. Çünki qaya üzərinə qurulmuşdur. **Bu sözlərimi eşidib də tətbiq etməyən hər kəs, evini qum üzərinə quran axmaq adama bənzəyər.** Yağış yağar, sellər basar, yellər əsər, evi sarsıdar. Ev yıxılar; yıxılışı da qorxunc olar.” (Matta, 7:24-27)

**İNCİL:** [Hz. İsa (ə.s):] **“Mənə gələn və sözlərimi eşidib tətbiq edən adamın kimə bənzədiyini sizə izah edim. Belə bir adam, evini inşa edərkən torpağı qazan, dərinlərə enib təməli qaya üzərinə atan adama bənzəyər.** Sel sularıyla qabaran çay o evə hücum etsə də, onu məhv etməz. Çünki ev möhkəm tikilmişdir. **Amma sözlərimi eşidib də tətbiq etməyən adam, evini təməl qoymadan torpağın üzərinə quran adama bənzəyər.** Qabaran çay daşanda ev dərhal çökər. Evin yıxılışı da qorxunc olar.” (Luka, 6:47-49)

**QURAN: Binasını Allah qorxusu və Onun rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran** və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)

## Allah yolunda hicrət edən insana bərəkət verilməsi:

**İNCİL:** “Sizə doğrusunu söyləyim” dedi İsa, **“[Allah rizası üçün] mənim və Müjdənin [Allahın əmrlərinin] uğruna evini, qardaşlarını, ana ya da atasını, uşaqlarını ya da torpaqlarını buraxıb da indi, bu çağda çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, uşağa, torpağa və gələcək çağda sonsuz həyata qovuşmayacaq heç kim yoxdur.** Nə var ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq.” (Mark, 10:29-31)

**QURAN: Kim Allah üçün hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar.** Kim Allaha və Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir. (Nisa surəsi, 100)

## İnfaq ibadətini nümayiş mövzusu etməmək:

**İNCİL:** Bu səbəblə, **birinə sədəqə verərkən bunu şeypur çaldıraraq elan etməyin. İkiüzlülər, insanların tərifini qazanmaq üçün...** belə edərlər. (Matta, 6:2)

**QURAN:** Ey iman gətirənlər! **Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən,** Allaha və Axirət gününə inanmayan şəxs kimi **minnət qoymaqla və əziyyət verməklə puç etməyin.** Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. (Bəqərə surəsi 264)

## Mal yığıb toplamamaq:

**İNCİL: Yer üzündə özünüzə xəzinələr yığmayın.** Burada güvə və pas onları yeyib bitirər, oğrular da girib oğurlayarlar. **Bunun yerinə özünüzə göydə [axirət üçün] xəzinələr yığın.** Orada nə güvə, nə pas onları yeyib bitirər, nə də oğrular girib oğurlayar. Xəzinəniz haradasa, ürəyiniz də orada olacaq. (Matta, 6:19-21)

**QURAN: O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır.** Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. (Hüməzə surəsi, 2-4)

## Möminlər, özləri ehtiyac içində olsalar da infaq edərlər:

**İNCİL:** İsa başını qaldırdı və hədiyyə toplanan yerdə hədiyyələrini qoyan zənginləri gördü. Yoxsul bir dul qadının oraya iki mis pul atdığını görüncə, "Sizə gerçəyi söyləyim" dedi, "Bu yoxsul dul qadın hər kəsdən daha çox verdi. Çünki bunların hamısı qutuya, zənginliklərindən artıq qalanı atdılar. **Bu qadın isə yoxsulluğuna baxmayaraq, dolanmaq üçün əlində nə varsa hamısını verdi."** (Luka, 21:1-4)

**QURAN:** Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, **onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar.** Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)

## İbadət edərkən göstəriş etməmək:

**İNCİL: "Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Onlar, hər kəs onları görsün deyə... tinlərdə durub dua etməkdən zövq alarlar.** Sizə doğrusunu söyləyim, onlar qarşılıqlarını almışlar. Amma siz dua edəcəyiniz zaman daxili otağınıza çəkilib qapını örtün və gizlidə olan Allaha dua edin. Gizlilik içində edilәni görən Allahınız sizi mükafatlandıracaq. (Matta, 6:5-6)

**QURAN:** Onlar **riyakardırlar və az bir şey verməkdən belə imtina edirlər.** (Maun surəsi, 6-7)

**QURAN:** Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. **Onlar namaza durarkən** könülsüz qalxar, **özlərini camaata göstərər** və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)

## Allaha yaxınlaşdıran qurban əti deyil, təqvadır:

**İNCİL:** ... Hələ bütpərəst vərdişlərinin təsirində qalan bəziləri, **yedikləri ətin bütə təqdim edildiyini düşünürlər.** Vicdanları zəif olduğu üçün ləkələnir. **Yemək bizi Allaha yaxınlaşdırmaz...** (1 Korinflilərə, 8:7-8)

**QURAN: Onların nə əti, nə də qanı, Allaha çatmaz.** Ona yalnız sizin təqvanız çatar. Sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız deyə, bu heyvanları sizə beləcə ram etdi. Sən isə yaxşılıq edənləri müjdələ! (Həcc surəsi, 37)

## Başqalarını xəbərdar edərkən insanın özünü unutmaması:

**İNCİL: Sən niyə qardaşının gözündəki çöpü görürsən, amma öz gözündəki tiri fərq etmirsən? Öz gözündə tir varkən qardaşına necə, "İcazə ver, gözündəki çöpü çıxarım" deyərsən?** Ay ikiüzlü! Əvvəl öz gözündəki tiri çıxar, o zaman qardaşının gözündəki çöpü çıxarmaq üçün daha yaxşı görərsən. (Matta, 7:3-5; Luka, 6:37-42)

**İNCİL:** Bundan sonra İsa xalqa və şagirdlərinə belə səsləndi: "...Sizə söylədiklərinin hamısını edin və yerinə yetirin, amma onların etdiklərini etməyin. Çünki **söylədikləri şeyləri özləri etməzlər.**" (Matta, 23:1-3)

**QURAN: Siz Kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüzü unudursunuz?** Məgər anlamırsınız? (Bəqərə surəsi, 44)

## İnkar edənlərin gözlərinin və qulaqlarının korlaşması:

**İNCİL:** Onlara bənzətmələrlə danışmağımın səbəbi budur. **Çünki, "Gördükləri halda görməzlər, eşitdikləri halda duymazlar və anlamazlar."** "Beləcə, Yeşayanın peyğəmbərlik sözü onlar üçün reallaşmış oldu: "Eşidəcək, amma heç anlamayacaqsınız, baxacaq baxacaq, amma heç görməyəcəksiniz! Çünki bu xalqın ürəyi duyğusuzlaşdı, qulaqları ağırlaşdı. Gözlərini bağladılar. Belə ki, gözləri görməsin, qulaqları eşitməsin, ürəkləri anlamasın və Mənə dönməsinlər. Dönsəydilər, onları yaxşılaşdırardım." (Matta, 13:13-15)

**İNCİL: Gözlərin olduğu halda görmürsünüzmü? Qulaqlarınız olduğu halda eşitmirsinizmi?** (Mark, 8:18-19)

**QURAN:** Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. **Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər.**

Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)

**QURAN:** Allah onların **qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir.** Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 7)

## Pisliyə yaxşılıqla cavab vermək:

**İNCİL:** [Hz. İsa (ə.s):] "Amma məni dinləyən sizlərə bunu söyləyirəm: **Düşmənlərinizi sevin, sizdən nifrət edənlərə yaxşılıq edin, sizə lənət edənlər üçün yaxşılıq diləyin,** sizi təhqir edənlər üçün dua edin." (Luka, 6:27-28)

**İNCİL: Pisliyə pisliklə cavab verməyin.** Hər kəsin gözündə yaxşı olanı etməyə diqqət yetirin. Hər kəslə sülh içində yaşamaq üçün əlinizdən gələni edin. Mümkünsə, əlinizdən gəldiyincə hər kəslə sülh içində yaşayın. Sevimli qardaşlar, kimsədən qisas almayın; bunu Allahın qəzəbinə buraxın. Çünki belə yazılmışdır: "Rəbb deyir ki, "Qisas mənimdir, mən cavab verəcəyəm."" Amma, "Düşmənin acmışsa doyur, susamışsa su ver. Bunu etməklə onu utanca boğarsan." Pisliyə məğlub olma, pisliyi yaxşılıqla məğlub et. (Romalılara, 12:17-21)

**QURAN:** Yaxşılıqla pislik eyni ola bilməz. **Sən pisliyi yaxşılıqla dəf et!** O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)

**QURAN:** Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. **Onlar pisliyi yaxşılıqla dəf edir** və özlərinə verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər. (Qəsas surəsi, 54)

## Evlərə girildiyində salam vermək:

**İNCİL: Hansı evə girsəniz, əvvəl, "Bu evə əmin-amanlıq olsun!" deyin.** Orada əmin-amanlıq sevən biri varsa, dilədiyiniz əmin-amanlıq onun üzərində qalacaq; yoxsa, sizə dönəcək. (Luka, 10:5-6)

**QURAN:** Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə **salam vermədən girməyin**. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız. (Nur surəsi, 27)

## Allah dilərsə (inşaAllah) demək:

**İNCİL:** Dinləyin indi, "Bu gün ya da sabah filan şəhərə gedəcəyik, orada bir il qalıb ticarət edəcəyik və pul qazanacağıq" deyən sizlər, sabah nə olacağını bilmirsiniz. Həyatınız nədir ki? Qısa bir müddət görünən və sonra itən bir tüstü kimisiniz. **Bunun yerinə, "Rəbb dilərsə yaşayacağıq, onu, bunu edəcəyik" deməlisiniz.** (Yaqub, 4-cü hissə, 13:15)

**QURAN:** Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "**Əgər Allah istəsə!**" ("inşaAllah" – de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" – de. (Kəhf surəsi, 23-24)

## Verilən əhdə bağlı qalmaq:

**İNCİL:** Yenə atalarımıza, **"Yalan yerə and içməyəcəksən, amma Rəbbin hüzurunda içdiyin andları yerinə yetirəcəksən"** deyildiyini eşitdiniz. (Matta, 5:33)

**QURAN: Allahla bağladığınız əhdə sadiq olun; möhkəm and içdikdən sonra andlarınızı pozmayın**. Çünki siz Allahı özünüzə zamin etmisiniz. Şübhəsiz ki, Allah sizin nələr etdiyinizi bilir. (Nəhl surəsi, 91)

## İman edənlərin çəkişib ayrılığa düşməmələri:

**İNCİL: Qardaşlar... hamınız həmfikir olun, aranızda bölünmələr olmadan eyni düşüncə və fikirdə birləşin...** (1 Korinflilərə, 1:10-11)

**QURAN:** Allaha və Onun Elçisinə itaət edin, **bir-birinizlə mübahisə etməyin**, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)

## Dində asanlıq vardır:

**İNCİL:** [Hz. İsa (ə.s):] "Ey bütün yorğunlar və yükü ağır olanlar! **Mənə gəlin, mən sizə rahatlıq verərəm.** [Allah rizası üçün] yükünüzü yükləyin, məndən öyrənin. Çünki mən mülayim, təvazökaram. **Beləcə, canlarınız rahatlığa qovuşar. Yükü daşımaq asan, öhdəçilik yüngüldür." (**Matta, 11:28-30)

**QURAN:** İman gətirib yaxşı iş görən kimsəyə isə ən gözəl mükafat veriləcəkdir. **Biz ona əmrimizdən asan olanı buyuracağıq**". (Kəhf surəsi, 88)

**QURAN:** Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi **və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı...** (Həcc surəsi, 78)

## Dünya həyatının keçiciliyi:

**İNCİL: Dünyanı və dünyaya aid şeyləri sevməyin.** Dünyanı sevənin Allaha sevgisi yoxdur. Çünki dünyaya aid olan hər şey, cismani təbiətin ehtirasları, gözün ehtirasları və maddi həyatın verdiyi qürur Allahdan deyil, dünyadandır. **Dünya və dünyəvi ehtiraslar keçər, amma Allahın istəyini yerinə yetirən sonsuza qədər yaşayar.** (1 Yəhya, 2:15-17)

**İNCİL: ... Qürbəti xatırladan bu dünyadakı zamanınızı** Allah qorxusuyla keçirin. Bilirsiniz ki, atalarınızdan qalma boş yaşayışınızdan **qızıl ya da gümüş kimi keçici şeylərlə** [xilas ola bilməzsiniz]... (1 Peter, 1:17-18)

**QURAN:** Allah istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Onlar **dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.** (Rad surəsi, 26)

**QURAN: Onlar bir müddət dünyada faydalanar; sonra onların dönüşü Bizə olar.** Sonra da küfr etdiklərinə görə onlara şiddətli əzab daddırarıq. (Yunis surəsi, 70)

## Axirətdə görmənin itiləşməsi:

**İNCİL**: İndi **biz güzgüdəki kimi tutqun görürük, o zaman isə üzbəüz görəcəyik**. İndi biliyim məhduddur, o zaman isə haqqımda hər şey bilindiyi kimi mən də hər şeyi biləcəyəm... (1 Korinflilərə, 13:12-13)

**QURAN:** Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. **Sən bu gün çox yaxşı görürsən**!" (Qaf surəsi, 22)

## Cəhənnəm əhlinin möminlərdən su tələb etmələri:

**İNCİL: Ölülər diyarında [cəhənnəmdə] iztirab çəkən zəngin adam** başını qaldırıb uzaqda [cənnətdə] İbrahimi və onun yanında Lazarı gördü. "Ey atamız İbrahim, acı mənə!" deyə səsləndi. "Lazarı göndər barmağının ucunu suya batırıb dilimi sərinlətsin. Bu alovların içində əzab çəkirəm." (Luka, 16:23-24)

**QURAN: Od sakinləri Cənnət əhlini səsləyib deyəcəklər: "Bizim üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün"**. Onlar isə deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir". (Əraf surəsi, 50)

## İnkarçıların ölülər danışsa belə iman etməmələri:

**İNCİL**: İbrahim ona, "Əgər Musa ilə peyğəmbərləri dinləməzlərsə, **ölülər arasından biri dirilsə belə razı salınmazlar**" dedi. (Luka, 16:31)

**QURAN**: Əgər Biz onlara mələkləri göndərsəydik, **ölülər də onlarla danışsaydı** və hər şeyi onların qarşısına toplasaydıq, **Allah istəməyincə, onlar iman gətirməzdilər**. Lakin onların çoxu bunu bilmir. (Ənam surəsi, 111)

## İlk insandan yaradılış:

**İNCİL: ... Allah, bütün xalqları tək insandan törətdi və onları yer üzünün hər tərəfinə yerləşdirdi.** (Həvarilərin İşləri, 17:24-28)

**QURAN**: Ey insanlar! **Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən** qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir. (Nisa surəsi, 1)

## İbrət götürülməsi üçün keçmiş qövmlərdən nümunələr verilməsi:

**İNCİL:** Bu hadisələr başqalarına dərs olsun deyə onların başına gəldi; **çağların sonuna çatan bizləri xəbərdar etmək üçün yazıya alındı.** (1 Korinflilərə, 10:11)

**QURAN: Beləcə, olub-keçmiş əhvalatlardan sənə danışırıq.** Artıq sənə Öz tərəfimizdən Zikr vermişik. (Taha surəsi, 99)

## Allah Qatında bir günün, bir il olması:

**İNCİL:** Sevimli qardaşlarım, bunu unutmayın ki, **Rəbbin nəzərində bir gün min il, min il bir gün kimidir.** (2 Peter, 3:8)

**QURAN:** Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz. **Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir!** (Həcc surəsi, 47)

## Üstünlüyün soya görə olmaması, soya əhəmiyyət verməmək:

**İNCİL:** Makedoniyaya gedərkən sənə xahiş etdiyim kimi, Efesdə qal və bəzi kəslərin fərqli təlimlər yaymamasını, nağıllarla və **sonu gəlməyən şəcərələriylə məşğul olmamasını nəsihət et.** Bu şeylər, **imana əsaslanan İlahi nizama xidmət etməkdən çox, mübahisələrə gətirib çıxarar.** (1 Timoteyə, 1:3-4)

**QURAN:** Kafirlər öz qəlbində təkəbbürlüyə – **cahillik lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə mənəvi rahatlıq nazil etdi** və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)

## Münafiqlərin xarici görünüşlərinin aldadıcı olması:

**İNCİL:** "Vay halınıza ey din alimləri və Fariseylər, ikiüzlülər! **Siz xaricdən gözəl görünən, amma içi ölü sümükləri və hər cür pisliklə dolu ağ məzarlara bənzərsiniz.** Xaricdən insanlara doğru görünərsiniz, amma daxildə ikiüzlülük və pisliklə dolusunuz. (Matta, 23:27-28)

**QURAN:** Sən onlara baxdıqda **bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər.** Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar. Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də haqdan döndərilirlər! (Münafiqun surəsi, 4)

## Münafiqlərin Allah yolunda mübarizədən qaçmaq üçün ailələrini bəhanə etmələri:

**İNCİL**: Bir başqası... "**Sənin ardınca gələcəyəm, amma icazə ver, əvvəl evimdəkilərlə vidalaşım.**" İsa ona, "Kotanı tutub da geriyə baxan, Allahın Hökmranlığına [cənnətinə] layiq deyil" dedi. (Luka, 9:61-62)

**İNCİL**: **Başqa bir şagirdi İsaya, "Ya Rəbb, icazə ver, əvvəl gedib atamı basdırım" dedi.** İsa ona, "Ardımca gəl" dedi. "Burax ölüləri, öz ölülərini özləri basdırsın." (Matta, 8:21-22)

**QURAN**: Onlardan bir dəstə demişdi: "Ey Yəsrib əhli! Siz müqavimət göstərə bilməyəcəksiniz. Geri qayıdın!" **İçərilərindən bir qismi isə: "Evlərimiz nəzarətsiz qalıb" – deyərək Peyğəmbərdən izin istəyirdi. Halbuki evləri nəzarətsiz deyildi. Onlar sadəcə olaraq qaçmaq istəyirdilər**. (Əhzab surəsi, 13)

## Münafiqlərin ürəklərində olmayanı söyləmələri:

**İNCİL**: Ey ikiüzlülər! Yeşayanın sizinlə əlaqədar bu peyğəmbərlik sözü nə qədər yerindədir: "**Bu xalq dodaqlarıyla Məni sayar, amma ürəkləri Məndən uzaqdır**. Mənə boşuna ibadət edərlər. Çünki öyrətdikləri, sadəcə insan buyruqlarıdır.'" (Matta, 15:7-9; Mark, 7: 6-7)

**QURAN**: Və münafiqləri bəlli etsin. Onlara: "Gəlin, Allah yolunda döyüşün, yaxud heç olmasa müdafiədə durun!" – deyildi. Onlar: "Döyüş olacağını bilsəydik sizin ardınızca gedərdik" – dedilər. **Onlar o gün imandan çox küfrə yaxın idilər. Onlar qəlblərində olmayanı ağızları ilə deyirlər. Halbuki Allah onların nəyi gizlətdiklərini çox yaxşı bilir**. (Ali İmran surəsi, 167)

**QURAN**: Ey Elçi! **Qəlbləri iman gətirmədiyi halda ağızları ilə: "İman gətirdik!"** – deyən kimsələrdən küfrə can atanlar qoy səni kədərləndirməsin. Həm yəhudilərdən yalana həvəslə qulaq asanlar, həm də sənin yanına gəlməyən başqa bir camaata həvəslə qulaq asanlar vardır... (Maidə surəsi, 41)

## Allahın əmrlərinə qarşılıq atalarının dinini müdafiə edənlər:

**İNCİL**: ... İsadan soruşdular: "**Şagirdlərin niyə ataların adətinə zidd davranır?...**" **İsa onları belə cavabladı: "... Siz Allahın əmrini buraxıb insanların adətini tutursunuz.**" İsa onlara ayrıca bunu söylədi: "**İnsanların adətinə uymaq üçün Allahın əmrini rədd edirsiniz.**" (Mark, 7:5-9)

**İNCİL**: Bunun üzərinə... İsaya gəlib, "**Şagirdlərin niyə ataların adətini tapdalayır?" dedilər... İsa onlara bu qarşılığı verdi: "Ya siz, niyə adətiniz uğruna Allahın buyruğunu tapdalayırsınız?**" (Matta, 15:1-3)

**QURAN**: Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: **"Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?** (Bəqərə surəsi, 170)

**QURAN**: Onlar yaramaz əməl etdikləri zaman: **"Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir" – deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?"** (Əraf surəsi, 28)

## İman edənlər bir-birlərinin ailəsidir:

**İNCİL**: Biri İsaya, "Bax, ananla qardaşların çöldə dayanır, səninlə görüşmək istəyirlər" dedi. İsa, onunla danışana, "Kimdir anam, kimdir qardaşlarım?" cavabını verdi. Əliylə şagirdlərini göstərərək, "Budur anam, budur qardaşlarım!" dedi. **"Allahın istəyini kim yerinə yetirsə, qardaşım, bacım və anam odur."** (Matta, 12:47-50)

**QURAN**: Nuh Rəbbini çağırıb dedi: "Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən hikmətlisisən!" O dedi: "Ey Nuh! **O, sənin ailəndən deyildir. Doğrusu, bu, pis bir işdir.** Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm". (Hud surəsi, 45-46)

## İman edənlər və yaxşı torpağa əkilən toxum bənzətməsi:

**İNCİL**: **"İndi əkinçiylə əlaqədar bənzətməni siz dinləyin.** Kim Allahın Hökmranlığı ilə [cənnətlə] əlaqədar sözü eşidər və anlamazsa, pis olan gələr, onun ürəyinə əkiləni sökər aparar. Yol kənarına əkilən toxum məhz budur. Qayalıq yerlərə əkilən isə eşitdiyi sözü dərhal sevinclə qəbul edən, amma kök sala bilmədiyi üçün ancaq bir müddət dayanan adamdır. Belə biri Allahın sözündən ötrü çətinlik ya da zülmə uğrayınca dərhal səndələyib düşər. Tikanlar arasında əkilən də budur: Sözü eşidər, amma dünyəvi qayğılar və zənginliyin hiyləgərliyi sözü boğar və məhsul verməsinə mane olar. **Yaxşı torpağa əkilən toxum isə, sözü eşidib anlayan birinə bənzəyər. Beləsi, əlbəttə məhsul verər, bəzisi yüz, bəzisi altmış, bəzisi də otuz qat."** (Matta, 13:18-23)

**İNCİL**: **İsa sonra onlara, "Siz bu bənzətməni anlamırsınızmı?" dedi. "Elə isə bütün bənzətmələri necə anlayacaqsınız? Əkinçinin əkdiyi, Allahın sözüdür.** Bəzi insanlar sözün əkildiyi yerdə yol kənarına düşən toxumlara bənzəyər. Bunlar sözü eşidər eşitməz, şeytan gəliə, ürəklərinə əkilən sözü götürər aparar. Qayalıq yerlərə əkilən isə, eşitdikləri sözü dərhal sevinclə qəbul edən, amma kök sala bilmədikləri üçün ancaq bir müddət dayanan kəslərdir. Beləleri Allahın sözündən ötrü çətinlik ya da zülmə uğrayınca dərhal səndələyib düşərlər. Yenə bəziləri tikanlar arasında əkilən toxumlara bənzəyərlər. Bunlar sözü eşidərlər, amma dünyəvi qayğılar, zənginliyin hiyləgərliyi və daha başqa həvəslər araya girib sözü boğar və məhsul verməsinə mane olar. **Yaxşı torpağa əkilənlər isə, sözü eşidən, onu mənimsəyən, bəzisi otuz, bəzisi altmış, bəzisi də yüz qat məhsul verən kəslərdir."** (Mark, 4:13-20)

**QURAN:** Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. **İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir.** Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir. (Fəth surəsi, 29)

# ƏLAVƏ HİSSƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yailmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl

laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ailaların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yailmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə

yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

# İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə

müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi

mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid

edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər

çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

# Mənbələr


1. Sidney Fox, Klaus Dose, *Molecular Evolution and The Origin of Life*, New York: Marcel Dekker, 1977, səh. 2.

2. Alexander I. Oparin, *Origin of Life*, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196.

3. "New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society*, c. 63, Noyabr 1982, səh. 1328-1330.

4. Stanley Miller, *Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules*, 1986, səh. 7.

5. Jeffrey Bada, *Earth,* Fevral 1998, səh. 40.

6. Leslie E. Orgel, *The Origin of Life on Earth*, Scientific American, c. 271, Oktyabr 1994, səh. 78.

7. Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, səh. 189.

8. Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, səh. 184.

9. B. G. Ranganathan, *Origins?*, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

10. Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, səh. 179.

11. Charles Darwin, *The Origin of Species*, səh. 172, 280.

12. Derek A. Ager, *"The Nature of the Fossil Record"*, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133.

13. Douglas J. Futuyma, *Science on Trial*, New York: Pantheon Books, 1983. Səh. 197.

14. Solly Zuckerman, *Beyond The Ivory Tower,* New York: Toplinger Publications, 1970, ss. 75-94; Charles E. Oxnard, *"The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt"*, Nature, c. 258, səh. 389.

15. J. Rennie, *"Darwin's Current Bulldog: Ernst Mayr"*, Scientific American, Dekabr 1992

16. Alan Walker, *Science*, c. 207, 1980, s. 1103; A. J. Kelso, *Physical Antropology,* 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272.

17. *Time*, Noyabr 1996.

18. S. J. Gould, *Natural History*, c. 85, 1976, səh. 30.

19. Solly Zuckerman, *Beyond The Ivory Tower*, New York: Toplinger Publications, 1970, səh. 19.

20. Richard Lewontin, *"The Demon-Haunted World"*, The New York Review of Books, 9 Yanvar, 1997, səh. 28.

21. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43.

# Şəkil altındakı yazılar

**438**

**Kembri qayalıqlarında olan qalıqlar, ilbizlər, trilobitlər, süngərlər, soxulcanlar, meduzalar, dəniz ulduzları, dəniz zanbaqları kimi kompleks onurğasız növlərinə aiddir. Maraqlı olan, bir-birindən çox fərqli olan bu növlərin hamısının bir anda ortaya çıxmalarıdır. Buna görə geoloji ədəbiyyatda bu möcüzəvi hadisə, "Kembri Patlaması" olaraq anılır.**

**438**

**Luis Paster**

**442**

**Təkamül nəzəriyyəsini əsassız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, bunun bir nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülüşündən ibarət bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılanda, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanır. Əlbəttə belə fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə əsassız edir.**

**444**

**Təbii seçməyə görə, güclü olan və yaşadığı ətraf mühitə uyğunlaşma təmin edə bilən canlılar həyatda qalarlar, digərləri isə yox olurlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyinə, yeni növlər meydana gətirdiyini iddia edirlər. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir dəlil də yoxdur.**

**446**

**Təsadüfi mutasiyalar insanlara və digər bütün canlılara hər zaman üçün zərər verirlər. Aşağıda soldakı quzu və sağdakı şəkildə görülən uşaq Çernobıl qəzasının nəticəsində şikəst qalmışdır.**

**448**

**Bitkilərin təkamülü iddiasını təsdiqləyən tək fosil nümunəsi belə yox ikən, təkamül keçirmədiklərini isbat edən yüz minlərlə qalıq vardır. Bu fosillərdən biri də şəkildə görülən 54-37 milyon illik qinkqo yarpağı qalığıdır. Milyonlarla ildir dəyişməyən qinkqolar, təkamülün böyük yalan olduğunu göstərməkdədir.**

**450-451**

**YAŞAYAN FOSİLLƏR TƏKAMÜLÜ YALANLAYIR**

**Fosillər, təkamülün heç bir zaman yaşanmadığının isbatıdır. Fosil qeydlərinin ortaya qoyduğu kimi, canlılar sahib olduqları bütün xüsusiyyətlərlə bir anda var olmuşlar və soyları davam etdiyi müddətcə ən kiçik dəyişiklik keçirməmişlərdir. Balıqlar həmişə balıq, böcəklər həmişə böcək, sürünənlər həmişə sürünən olaraq var olmuşdur. Növlərin mərhələ-mərhələ əmələ gəldiyi iddiasının elmi heç bir etibarlılığı yoxdur. Bütün canlıları yaradan Allahdır.**

**Günəş balığı**

**Dövr: Senozoik zamanı, Eosen dövrü**

**Yaş: 54 – 37 milyon il**

**Çayır ağcaqanadı**

**Dövr: Senozoik zamanı, Eosen dövrü**

**Yaş: 48-37 milyon il**

**Dəniz şabalıdı**

**Dövr: Paleozoik zamanı, Karbonifer dövrü**

**Yaş: 295 milyon il**

**Dəniz ulduzu**

**Dövr: Paleozoik zamanı, Ordovisyen dövrü**

**Yaş: 490 – 443 milyon il**

**Huş ağacı Yarpağı**

**Dövr: Senozoik zamanı, Eosen dövrü**

**Yaş: 50 milyon il**

**Köpüklü cırcırama**

**Dövr: Mezozoik zamanı, Kretase dövrü**

**Yaş: 125 milyon il**

**Sekvoyya yarpağı**

**Dövr: Senozoik zamanı, Eosen dövrü**

**Yaş: 50 milyon il**

**453**

**XƏYALİ**

**Təkamül tərəfdarı qəzet və jurnallarda çıxan xəbərlərdə yuxarıdakına bənzər xəyali "primitiv" insanların şəkilləri tez-tez istifadə edilir. Bu xəyali şəkillərə əsaslanaraq yaradılan xəbərlərdəki tək qaynaq, yazan şəxslərin xəyal gücüdür. Ancaq təkamül elm qarşısında o qədər çox məğlubiyyət almışdır ki, artıq elmi jurnallarda təkamüllə əlaqədar xəbərlərə daha az rast gəlmək mümkündür.**

**458**

**Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilər mi? Əlbəttə ki, yox. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Üstdəkinə bənzər vedrəyə canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki metoddan istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilsə edilsin, nə qədər gözləsək də bu vedrədən canlı tək bir varlıq belə çıxaramayacaqlar.**

**460**

**Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik.**

**464**

**Gözü və qulağı, kamera və səs qeyd edən cihazları ilə müqayisə edəndə bu orqanlarımızın bu texnologiya məhsullarından daha çox kompleks, müvəffəqiyyətli, qüsursuz strukturlara sahib olduqlarını görərik.**

**467**

**Keçmiş zamanlarda timsaha ibadət edən insanların inancları nə dərəcə qəribə və məntiqsizdirsə, indiki vaxtda darvinistlərin inancları da eyni dərəcədə məntiqsizdir. Darvinistlər təsadüfləri və cansız, şüursuz atomları cahilcə sanki yaradıcı güc olaraq qəbul edərlər, hətta bu batil inanca bir dinə bağlanar kimi bağlanarlar.**

**471**

**Onlar dedilər: “Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!” (Bəqərə surəsi, 32)**

Allah Quranda müsəlmanların Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə və ondan əvvəl göndərilmiş bütün peyğəmbərlərə və bu peyğəmbərlərə endirilənlərə iman etdiklərini bildirir. Bəqərə surəsinin 4-cü ayəsində Rəbbimiz müsəlmanlar üçün; "**və onlar, sənə endirilənə, səndən əvvəl endirilənlərə iman edərlər**..." buyurur.

Quranda bildirildiyi kimi İncil, Tövrat, Zəbur və hz. İbrahim (ə.s)-ın səhifələri keçmişdə yaşamış peyğəmbərlərə endirilmiş olan kitablardır. Bu kitabların bir qismi yox olmuş, bir qismi də təhrif olmuş və ya dəyişdirilmişdir. Lakin buna baxmayaraq içlərində, haqq dinə aid bir çox doğru izah da yer alır. Müsəlmanlar, bu kitabları Qurana və sünnəyə görə qiymətləndirib, ayələrə və hədislərə uyğun izahların doğru olduğuna hüsnü zənn edərlər. Bu səbəbdən, Qurana uyğun, sünnəyə uyğun Tövrat və İncil şərhləri müsəlmanların istifadə edə biləcəkləri izahlardır. Ancaq təməl şərt, bu izahların Quran ayələrinə və hədislərə uyğun olmalarıdır. Oxuduğunuz bu kitabda da, İncildən yalnız Qurana və Peyğəmbərimiz (s.ə.v)-in hədislərinə uyğun izahlar yer alır.